AMEA NAXÇIVAN BÖLMƏSİ

HACI QADİR QƏDİRZADƏ

# NUH PEYĞƏMBƏR, DÜNYA TUFANI VƏ NAXÇIVAN

NAXÇIVAN-2008

Elmi redaktor: Akademik İsa HƏBİBBƏYLİ

Rəyçi: Akademik İsmayıl HACIYEV

H.Q.QƏDİRZADƏ. NUH PEYĞƏMBƏR, DÜNYA TUFANI VƏ NAXÇIVAN. "Qızıl Dağ" MMC-nin mətbəəsi 2008, 192 səhifə

Kitabda Nuh peyğəmbər və Dünya Tufanı ilə bağlı araşdırmalara münasibət bildirilməklə Tufanın dünyəviliyi, gəminin düzəldilməsi, gəmidə xilas olanlarla əlaqəli məsələlər, gəminin Naxçıvanda dayanması, Nuhdan sonrakı varislik məsələləri, Tufan və Gəmiqaya ilə bağlı bir sıra inamların xarakterik xüsusiyyətləri araşdırılmışdır. Kitab geniş oxucu kütləsi, bu sahə ilə məşğul olan araşdırıcılar üçün faydalı ola bilər.

© "Qızıl Dağ" 2008

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# S Ə R Ə N C A M I

## Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında

Möhtərəm Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın tarixinin və soykökünün öyrənilməsi sahəsində 70-ci illərdən aparılan elmi araşdırma və tədqiqat işləri yenidən davam etdirilir. Hazırda qədim mədəniyyətimizin və tariximizin bir çox sahələri ölkəmiz müstəqillik qazanandan sonra yaranmış reallıqlar baxımından araşdırılır və tədqiq edilir. Bu baxımdan ciddi elmi tədqiqat işlərinin aparılmasını zəruri edən sahələrdən biri də qayaüstü rəsmlərin, qədim yazı təsvirlərinin öyrənilməsidir.

Azərbaycan və onunla bağlı olan Naxçıvan Muxtar Respublikası ən qədim mədəniyyətin daşıyıcıları olan tarixi abidələri ilə məhşurdur. Belə abidələrdən biri də xalqımızın tarixən bu torpağa məxsusluğunun daş posportu olan Gəmiqaya tarixi- etnoqrafik abidələri kompleksidir.

Xalqımızın tarixi, etnoqrafiyası və arxeologiyası üçün çox ciddi əhəmiyyətə malik olan Gəmiqaya qayaüstü təsvirləri Kiçik Qafqaz dağlarının dəniz səviyyəsindən 3000-3500 metr yüksəkliyində yerləşən Qaranquş, Camışölən və Nəbiyurdu yaylaqlarında qeydə alınmışdır.

Süjet, kompozisya mürəkkəbliyi ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə, ovçu, maldar və əkinçi tayfaların təsərrüfat həyatına həsr olunmuşdur. Gəmiqaya qayaüstü təsvirləri içərisində bayram mərasimlərini əks etdirən rəsmlərlə yanaşı müxtəlif astronomik, coğrafi təsvirli rəsmlər də vardır.

Xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarixi və təsviri

sənət nümunələri kimi tariximizin və mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıcılıqla izləməyə imkan verir. Gəmiqaya abidələrinin tədqiqinə 1970-ci illərdə- möhtərəm Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyinin birinci dövründə başlanmışdır. 1971-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparlmasını, elmi albomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almış, bir sıra materiallar çap olunmuşdur.

Təssüflə qeyd olunmalıdır ki, 70-ci illərdən xalqımızın milli özünüdərki, tariximizin və mədəniyyətimizin araşdırılması sahəsində həyata keçirilən bir çox taleyüklü tədbirlər kimi, Gəmiqaya abidələrinin tədqiqi sahəsində aparılan işlər də 1980-ci illərin axırlarından unudulmağa başlanmış, tədqiqat işlərinə ara verilmişdir. Yaranmış boşluqdan istifadə edən millətçi erməni "tədqiqatçıları" gizli şəkildə Gəmiqayada tədqiqat aparmışlar. Aparılan işlərin nəticəsi olaraq nəşr edilən "Navasarın qaya təsvirləri" və "Naxçıvanın memorial abidələri və relyefləri" adlı materiallarda erməni alimləri tarixi saxtalaşdırmaq sahəsində öz ənənələrinə sadiq qalaraq xalqımızın ən qədim yadigarı olan Gəmiqaya abidələrini heç bir elmi əsası olmadan erməni abidəsi kimi qələmə verməyə çalışmış, Gəmiqayanın adını "Navasar", "Tapanasar" kimi uydurma adlarla əvəz etmişlər. Qədim türk dünyası mədəniyyəti üçün səciyyəvi olan qayaüstü rəsmləri özündə əks etdirən Gəmiqaya abidələri Azərbaycan xalqının ən qədim tarixinin və mənəvi mədəniyyətinin öyrənilməsi üçün xəzinədir. Bu abidənin qorunub-saxlanaraq gələcək nəsillərə çatdırılması, ardıcıl və sistemli şəkildə tədqiq edilməsi üçün **qərara alıram:**

1.Azərbaycan Respublikası Elmələr Akademiyası Naxçıvan Regional Elm Mərkəzi və Naxçıvan Dövlət Universiteti Azərbaycan Elmlər Akademiyasının mütəxəssilərini dəvət edib, onlarla birlikdə Gəmiqaya

abidələrində elmi tədqiqat işlərinin aparlıması üçün "Gəmiqaya" ekspedisiyasını təşkil etsinlər.

2.Ekspedisiyaya tapşırılsın ki, Gəmiqaya abidələrinin qounub saxlanması, ardıcıl və sistemli şəkildə öyrənilməsi üçün aparılan tədqiqat işlərinin nəticəsi barədə rəy hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin.

3.Sərancamın icrasına nəzarət Naxçıvan Respublikası Ali Məclisinin Aparatına tapşırılsın.

**Vasif TALIBOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

Naxçıvan şəhəri, 26 aprel 2001-ci il

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# SƏRƏNCAMI

## Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında

Qədim, antik və orta əsr şəhər yerləri üzərində yerləşən Naxçıvan Azərbaycanın və dünyanın ən qədim şəhərlərindən biridir. Daş dövründən bu ərazidə ibtidai insanlar yaşamışlar. Naxçıvanda daş dövrü mədəniyyətinin izləri Qazma, Kilid, Daşqala mağaralarında, Batabat yaylağında və Kültəpədə qalmaqdadır. Azərbaycanda eneolit (eradan əvvəl V minillik), Kür-Araz (eradan əvvəl IV-III minilliklər) və boyalı qablar (eradan əvvəl XIII-VII əsrlər) mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu, bir daha sübut edir ki, Naxçıvan ərazisində minilliklər boyu insanlar ardıcıl və intensiv həyat sürmüşlər. Eradan əvvəl V-II minilliklərdə Naxçıvan ərazisindəki tayfaların iqtisadi, ictimai və mədəni həyatında böyük təkamül baş vermiş, iri tayfa ittifaqları meydana çıxmış və ilkin şəhərlər yaranmışdır. Belə şəhərlərdən biri də Naxçıvandır. Naxçıvanın meydana gəlməsi haqqında bir sıra yazılı mənbələr mövcuddur. Qədim yunan, latın, ərəb, İran tarixçilərinin, coğrafiyaşünas və səyyahların verdikləri məlumata görə, Naxçıvan eradan əvvəl II minilliyin birinci yarısında meydana gəlmişdir. Naxçıvan haqqında ilkin məlumat tarixçi İosif Flaviyə (eradan əvvəl I əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. Ptolemey Naxçıvan şəhərinin adını dünyanın 7 böyük şəhəri ilə bir sırada çəkmişdir. İlk orta əsr alban tarixçisi Moisey Xorenski (V əsr) Naxçıvan şəhərinin eradan əvvəl VI əsrdə mövcud olduğunu göstərmişdir. Bəzi qaynaqlarda isə Naxçıvan şəhərinin eradan əvvəl XV əsrdə yaranması fikri söylənmişdir. Orta əsr tarixçisi Stefan Orbelyani Naxçıvan

şəhərinin əsasının eradan əvvəl 1539-cu ildə qoyulduğu haqda məlumat vermişdir. Həmin məlumat "Qafqaz" qəzetinin Naxçıvana həsr olunmuş 1882-ci il nömrəsində də öz təsdiqini tapmışdır. Yazılı mənbələri sistemləşdirərək və Naxçıvan ərazisindən əldə olunan arxeoloji materiallara, məşhur Gəmiqaya qayaüstü yazılarına, buradakı digər abidələrə istinad edərək bu fikrə gəlmək mümkündür ki, Naxçıvan şəhərinin 3500-4000 ildən artıq yaşı vardır. Şəhər adı kimi "Naxçıvan" ən qədim dövrlərdən mövcuddur. Qədim Yunan mənbələrində "Naksuana", ərəb-fars mənbələrində "Nəxçuvan", "Nəxçəvan", "Nəqşi-cahan" kimi göstərilən bu adın müxtəlif dövrlərdə müxtəlif yozumu olmuş, toponimin yaranmasının əsası kimi "Naxç" türk tayfa, elamların "Nahhunte" Allah adlarına istinad olunmuş, bir sıra tədqiqatçılar isə Naxçıvan toponimini Nuh peyğəmbərin adı ilə bağlamışlar. Tarixdə "ümumdünya tufanı" barədə rəvayətin ilk yazılı variantı eramızdan əvvəl II minilliyin ortalarına aid edilən şumer əfsanəsidir. Həmin əfsanədə deyilir ki, ümumdünya daşqınından böyük bir gəmidə yalnız bir qrup insan xilas ola bilmişdir. Bu əfsanəyə görə Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzi olmuşdur. Şumer rəvayətinin Naxçıvan şəhəri ilə bağlılığının tarixi əsası vardır. Belə ki, Naxçıvan Mesopotamiya, Babil, Xett və digər bu kimi qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqələr şəraitində inkişaf etmişdir. Eramızdan əvvəl ikinci minilliyin ortalarına aid Bilqamıs haqqında akkad eposunda da "bütün canlıların toxumunun götürülüb" Allahın məsləhəti ilə düzəldilən gəmidə xilas olunduğundan danışılır. İstər şumer, istərsə də Bilqamıs haqqında akkad rəvayətlərinin yarandığı və yazıya alındığı dövrlə Naxçıvanın yarandığı dövr arasında tarixi yaxınlıq olduğunu əsas götürüb, ümumdünya daşqınının Naxçıvan ərazisini də əhatə etdiyini və Nuh peyğəmbərin məhz bu ərazidə quruya salamat çıxdığını güman etmək mümkündür.

Qədim dövrlərdən Naxçıvan əhalisi arasında yayılan rəvayətə görə təxminən 7500 il bundan əvvəl baş vermiş

ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin mindiyi gəmi ilk dəfə Naxçıvanda quruya çıxmış və insanlar burada məskən salmışlar. Beləliklə, yeni nəsil buradan törəyərək artmış, təşəkkül tapmışdır. Bir çox əfsanə və rəvayətlərin yaranmasının elmi əsası olduğu artıq təsdiq edilmişdir. Bunu Naxçıvan ərazisində ümumdünya daşqını barədə rəvayətlərin yayılması və Nuhla bağlı yer adlarının çoxluq təşkil etməsi bir daha sübut edir. Yer üzündə elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuhla bağlı toponimik vahid (Nuhdaban, Naxçıvan, Nəhəcir, Nehrəm və sair) olsun. Xalq arasında yayılmış və bu gün də mövcud olan inama görə Naxçıvan şəhərinin cənubunda Nuhun, şimal-qərbində isə bacısının qəbri vardır. XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş maarifçi K.A.Nikitin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı əsərində Nuh tufanının Naxçıvanla əlaqədar olması barədə geniş məlumat verərək yazmışdır: "Rəvayətə görə, əfsanəvi tufandan sonra Ağrı dağı Nuh peyğəmbəri gəmisi ilə birlikdə qəbul etmişdir... Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarının və türbəsinin yerini göstərirlər... Hətta Nuh peyğəmbərin Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. O, burada ilk çalışanlardan biri olmuşdur. Rəvayətə ·görə, Kəmki əfsanəvi gəminin dayandığı birinci dağdır. Nuh buradan Ağrı dağına yola düşmüşdür. Yolda gəmi İlanlı dağına toxunmuş və dağın zirvəsinə elə zərbə endirmişdir ki, dağ haçalanmışdır.

Bundan sonra Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir. Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışdır. Rəvayətə görə, insan nəsli buradan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və burada dəfn olunmuşlar". K.A.Nikitin Nuhun

Naxçıvandakı qəbrini də görmüş və onu belə təsvir etmişdir: "Nuhun qəbri şəhərin cənub tərəfindən qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi səkkizinci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o, yerdən qalxan çox da böyük olmayan türbəni xatırladır... Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş dirəklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir. Həmin dirəyin altında Nuh peyğəmbərin cənazəsi yerləşir". Rus tədqiqatçısı V.M.Sısoyev Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri 2 metrə çatan səkkizguşəli sütun olduğunu göstərmişdir. Təsvir edilən bu əlamətlər yeraltı və yerüstü hissədən ibarət olan türk türbələri üçün xarakterikdir. Nuhun qəbri olan yerdə aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqları burada Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edir.

Araşdırmalar göstərir ki, "ümumdünya tufanı" və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolemey ilk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XVI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin qalıqlarının da Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. İ.M.Dyakonov Gəmiqaya qayaüstü təsvirlərini və Naxçıvanın Nuhla bağlılığı məsələsini şumerlərdən gələn əfsanə ilə əlaqələndirmişdir. Yəhudi alimi İosif Flavi isə Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı K.N.Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş və onun yerini də göstərmişdir. Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində və Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix Muzeyində mühafizə olunaraq nümayiş etdirilir. Göründüyü kimi, Nuh peyğəmbər

Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun qəbri və qəbirüstü türbəsi Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir. Sovet hakimiyyəti illərində Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə tarixi abidə kimi Nuh peyğəmbərin qəbri üzərindəki türbənin qalıqları da dağıdılmışdır. Yuxarıda qeyd olunanları əsas götürərək **qərara alıram:**

**1.** Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi bərpa olunsun.

**2.** Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdarəsi Nuh peyğəmbərin türbəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsinlər.

**3.** Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4.** Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Vasif TALIBOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

Naxçıvan şəhəri, 28 iyun 2006-cı il

# ÖN SÖZ ƏVƏZİ VƏ YA İKİ SƏRƏNCAMDAN DOĞAN KİTAB

Nədənsə Gəmiqaya deyəndə gözlərimin önündə tanınmış alim, rəhmətlik Əbülfəz Hüseyninin əzəmətli, dağ vüqarlı siması dayanır. O sevdirdi bizlərə bu yerləri. İlk dəfə onunla birlikdə 1979-cu ildə burada olarkən rəvayətlərin həqiqətə çevrildiyini gördüm. Düşdüyümüz soyuq, boran və çətinliklərə bir yüngüllük, xəfiflik gətirirdi Əbülfəz Hüseyninin Təbriz ləhcəsi ilə, sevgi dolu: "Haydı! Möhkəm olun, tarix, türkün tarixi buradan başlanır" ifadələri. Beləcə davam edirdi rəhmətliklər İsrafil Bağırovun, Tağı Qasımovun, Gülağa Mirzəyevin (Allah dördünə də rəhmət etsin), Seyfəlı Qəhrəmanovun, Qadir Əliyevin, Məhəmmədhəsən Əliyevin, böyük həvəslə bu əraziləri lentə köçürən Arif Qədimovun və mənim təsvirləri axtarmaq üçün bütün Qaranquş yaylağını dolaşmağımız. Təbii ki, o vaxtlar bizlər daha çox həvəskar, bəlkə də, köməkçi idik. Daha dəqiqi köməkçi, Əbülfəz Hüseyninin köməkçiləri. Axtarışlar zamanı Seyfəlı Qəhrəmanov bildirdi ki, buradakı zirvələrin birində üzərində erməni və rus dillərində Ermənistan Respublikasının 40 illiyi yazılmış, qartal formalı dəmir lövhə var. Bəli, xəyanətkarlar, saxta tarix düzəldənlər buraya da iz qoymuşdular. Təbii ki, biz də öz üsulumuzca hərəkət etdik. Yazdıqca çözələnir xatirələr, düşüncələr, nəhayət, sıxışdırmalar. Sonralar elmi ictimaiyyətə bəlli olan hadisələr baş verdi. Əbülfəz Hüseyni böyük sıxıntılara məruz qaldı. İş o yerə çatdı ki, məsələsi çox yüksək səviyyələrdə müzakirə edildi. Vətən özünün bir qiymətli övladını da erməni əli ilə itirdi. Allah bir daha rəhmət etsin! Bizlər də nəsibimizi aldıq.

Bir neçə il getmədik bu yerlərə. Nəhayət, 1988-ci ildə yenidən bu istiqamətə yollandıq. Yolda yağışa düşdüm. Avqustun 3-də ağır burunqanaxması ilə xəstəxanaya qaldırıldım. Ölüm və mən üz-üzə dayandıq, Allahım məni qalib qıldı. 1989-cu ildə Kərkiyə yardım aparan vertolyotla

Qəzənfər Qədimov, Vahid Quliyev, Nazim Bababəyli və mən aparılanları verdikdən sonra geri qayıdarkən Naxçıvanın əzəli, tarixi torpaqları, sovet hakimiyyəti illərindəki bağışlamalar nəticəsində Ermənistanla sərhəddə çevrilmiş ərazilərimizin, dağlarımızın güneyi ilə Gəmiqayaya doğru uçduq. Əvvəlcə Əlincə qalasına, sonra isə Qaranquş yaylağına endik. Belə fikir yayılmışdı ki, ermənilər təsvirlər olan qayalar üzərində nə isə etmişlər. Lakin hər şey qaydasında idi. Bir il sonra həmin vertolyotla Azərbaycan televiziyasının çəkiliş qrupu ilə yenidən Gəmiqayaya endik. Müəyyən çəkilişlər aparılsa da, geniş işlər görə bilmədik. Çünki bərk küləklə bərabər vəziyyət də qorxulu idi. Daxili İşlər Nazirliyinin xüsusi mühafizə dəstəsi olsa da bizə işləri tez bitirməyi məsləhət bildilər. Düzünü deyim ki, həmin çəkilişin nəticələrindən xəbərim olmadı. Amma deyirdilər ki, kiçik bir televiziya filmi çəkiblər. Bu minvalla on il müddətində Gəmiqaya ilə əlaqə kəsildi. Hərdən düşünürdüm ki, Gəmiqaya ilə bağlı nə isə yazmaq gərəkdir. Lakin həmişə material çatışmazlığı hiss edirdim. Bir düşüncəm də mövcud idi. Gəmiqayanı Nuh peyğəmbər və Dünya Tufanı ilə vəhdətdə araşdırmaq. Bəlkə də, bunun təsiridir ki, 1998-ci ildə Türkiyədə dərc olunmuş geniş həcmli məqalədə məsələyə bu yöndən yanaşmışıq. Bəli, böyük məsuliyyət tələb edir Gəmiqayadan, Nuh peyğəmbərdən və Dünya Tufanından yazmaq. Gərək bu məsuliyyəti illərlə orada tədqiqat aparan da, gedib oraya 1-2 saat baxan da, hətta abidəni görməyib ondan məqalə yazan da hiss etsin.

Təbii ki, Gəmiqayanın arxeoloqlar tərəfindən araşdırılması da diqqəti cəlb edirdi. Hələ 1968-ci ildən tanınmış arxeoloq Vəli Əliyev burada dəyərli araşdırmalar aparmışdır. Sonrakı illərdə də o, bu ərazidə bir neçə dəfə olmuş və tədqiqatı davam etdirmişdir. Gəmiqaya ilə əlaqəli 1990-cı illərdə Nəcəf Müseyiblinin, sonrakı illərdə Vəli Baxşəliyev və başqalarının tədqiqatları mövcuddur. Lakin necə olursa olsun XX yüzilliyin 80-ci illərinin ikinci yarısından

Gəmiqayada ciddi tədqiqatlar demək olar ki, dayanmışdır. Bəlkə də, bu problem yaddaşlardan silinmişdi. **Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin: "Gəmiqaya, bildiyimiz kimi həm təbiətin böyük bir abidəsidir, eyni zamanda, insan yaradıcılığının abidəsidir. Bu abidə Azərbaycanındır. Azərbaycanın tarixini əks etdirən abidədir.**

**Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, gözəl bir diyarıdır və Azərbaycan ərazisində ən qədim insan məskənlərindən biridir... Naxçıvanın gözəl təbii abidələri var. Gəmiqaya dünyada məşhur bir yerdir... O, bizim böyük sərvətimizdir. Gəmiqaya daşlarında Qobustan qayalarındakı kimi rəmzlər var. Orada insanın qoyduğu izlər var. Bu, bizim, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır" tövsiyəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 26 aprel 2001-ci il, "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" və 28 iyun 2006-cı il "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" sərəncamları Gəmiqaya abidəsinə, Nuh peyğəmbər və Dünya Tufanı məsələlərinə yeni nəfəs verdi. Bu sahədə araşdırmaları sözün həqiqi mənasında yeni, dinamik inkişaf yoluna yönəltdi.** Məhz bu sərəncamlara uyğun olaraq 2001-2003-cü, 2005-ci illərdə Gəmiqayaya geniş tərkibli, beynəlxalq səviyyəli ekspedisiyalar təşkil edildi. Bu möhtəşəm abidə özünün əsl tədqiqini tapdı. Çox sayda kitablar, məqalələr nəşr edildi. Məsələ bununla bitmədi. Tarixdə və yaddaşlarda qorunub saxlanan, Naxçıvanı bəşəriyyətin ikinci beşiyi səviyyəsinə qaldıran Nuh (ə.s.)ın məzarının bərpası dünyaya yeni bir mesaj göndərdi: - Bəşərin ikinci atası tarixən burada olub, bu gün də buradadır!

Məhz belə uzun sürən tarixi proseslərdən sonra bir çox tədqiqatçılardan fərqli yanaşma metodu nəticəsində bu

kitab ərsəyə gəldi. Çoxları hələ də Nuh peyğəmbərə, Dünya Tufanı məsələsinə əfsanə kimi yanaşırlar. Unutmayaq ki, Qurani-Kərimə əfsanələr daxil deyil. Bu bir tarixi həqiqətdir. Yaşı tarixə tam bəlli olmayan, bir neçə min illərlə ölçülən, tarixi həqiqət. Bu həqiqət son illərdə Naxçıvanda elm, təhsil və mədəniyyətə göstərilən hərtərəfli qayğı nəticəsində ortaya çıxdı.

Belə düşünürük ki, kitab Gəmiqaya, Naxçıvan, Nuh peyğəmbər və Dünya Tufanı ilə bağlı məsələlərə müəyyən açıqlama gətirə bilər. Bizcə, bu son deyil, bəlkə də, başlanğıcdır.

# GİRİŞ

Tarixdə elə hadisələr vardır ki, onlar min illər boyu insanların, xüsusən araşdırıcıların diqqət mərkəzində olmuşdur. Bunlar içərisində Nuh Peyğəmbər və Dünya Tufanı məsələsi ayrıca yer tutur. Bizcə, dünyada bu dərəcədə ümumbəşəri hesab edilən elə bir hadisə mövcud deyil. Ona görə də həmin problemdən uzun illər bəhs edilmiş, sayı milyonlarla hesablana biləcək əsər və məqalələr yazılmış, foto albomlar hazırlanmış, açıqlamalar buraxılmış, kinofilmlər çəkilmiş, müxtəlif yönlü məlumatlar dərc edilmiş, son illərdə isə saysız-hesabsız internet saytları hazırlanmışdır. Biz belə düşünürük ki, ümumiyyətlə, bu tip yazı və məlumatları bir yerə yığmaq mümkün deyil. Hətta dünyanın ayrı-ayrı xalqları arasındakı rəvayətləri toplayıb nəşr etdirmək çox müşkül məsələdir. Digər böyük çətinlik hadisənin müxtəlif istiqamətlərə: xalqların lokallaşdırılması, ilk sivilizasiya, mədəni varislik, bəşəriyyətin ikinci həyatı və s. yönəldilməsidir. Bu problemlərə milli, siyasi, bir çox halda dini mənafeləri də qatdıqda məsələ daha da çətinləşir. Bir çox halda həqiqət arxa plana keçirilir. Xüsusən, xristian dünyasında bundan dini mənafeylə bərabər siyasi, ərazi-inzibati bölgələri saxtalaşdırmaq məqsədi ilə də istifadə edilir. Başlıca olaraq Bibliyadan qaynaqlanan müəlliflər Ağrıdağ (Bibliyada Ararat) nəzəriyyəsinin üstündə israrla dayanaraq uzun illər gəminin qalıqlarını orada axtarsalar da, sonda heç nə əldə edə bilmədilər. Lakin özlərinin erməni-xristian nəzəriyyəsini elm aləminə daxil edə bildilər. Əlləri Ağrıdağından üzülən Devid Rol və digər müəlliflər Urmiya gölü hövzəsini önə çəkməyə və buranı da "Ermənistan" adlı məmləkətlə əlaqələndirməyə başladılar. Hətta iş o yerə çatıb ki, Adəm peyğəmbəri də bu bölgə ilə, onların dili ilə desək, "Böyük Ermənistan"la əlaqələndirirlər. Bir qrup tədqiqatçılar isə Qurani-Kərimin Hud surəsinin 44-cü ayəsində gəminin Cudi üzərində dayanması ifadəsinə söykənərək Cudi dağını

əsas götürürdülər. Gələcək bölmələrdə izah edəcəyimiz kimi, Qurani-Kərimdə Cudi dağı ifadəsi yoxdur. Cudi sözünə gəlincə bu ərəb dilində yüksəklik mənasında işlənmişdir. Bütün bu ziddiyyətlər, müxtəlif yozumlar içərisində XIX əsrdə Mesopotamiyada Daşqınla bağlı gil lövhələrin aşkar edilməsi hadisənin daha qədimdə baş verdiyini, Bibliya və ondan qaynaqlanan mənbələrə məhz İkiçayarasından keçdiyini ortaya qoydu.

Təbii ki, bu nəzəriyyələr içərisində Hindistan-Dravid nəzəriyyəsi, Manuçilik də var idi.

Bəli, hər şey vardı, lakin bütün mübahisələrdən min illər əvvəl yaranmış çoxlu rəvayətlərdə, yer adlarında yaşadılan Naxçıvan variantı beynəlxalq səviyyədə yox idi. Ta qədim dövrdən, xüsusən XVIII-XIX əsrlərdə burada olmuş bir sıra müəlliflərin kiçik həcmli məlumatlarında və xalqın qan yaddaşında qorunurdu bu rəvayətlər, tarixi həqiqətlər, Nuh Peyğəmbər, Dünya Tufanı və Naxçıvanın əlaqələri. Xalq deyirdi ki, gəmi indiki Gəmiqayada dayanıb. Amma 1968-ci ilə qədər nə xalqa, nə də elmə bəlli deyildi ki, hadisə təkcə rəvayətlərdə, müxtəlif formada yozulan yer adlarında qorunmayıb. Tufan məsələsi, bunun ən böyük maddi sübutu Gəmiqayadakı qayaüstü təsvirlərdir. Bu, danılması, harasa ayrı yerə yozulması mümkün olmayan əşyayi-dəlildir. Onlar ortaya çıxan kimi yad ünsürlər, ərazi və mədəniyyət oğrusu olan bədnam qonşular özlərinin xristian, daha çox Rusiyadan olan havadarlarının köməkliyi ilə işə girişməyə başladılar, gizli səfərlər təşkil edildi. Məhz belə bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elmi faktlara əsaslanan kəskin mövqeyi, elmi ictimaiyyətin hərtərəfli dəstəyi tarixi həqiqətlərin ortaya çıxmasına, Nuh peyğəmbər və Dünya Tufanının Naxçıvanla bağlılığının sübut edilməsinə səbəb oldu. Araşdırmalar dərinləşdirildikcə digər nəzəriyyələrin ya sırf təbliğat xarakteri daşıdığı və ya elmi əsaslara söykənmədiyi ortaya çıxdı. O da aşkar edildi ki, Naxçıvanda min illər boyu yayılan və yaşayan rəvayətlər, yer

adları, kimlərinsə düşündüyü kimi əfsanə deyil. Bu, hələ çox yönləri açılmamış tarixi həqiqətdir. Buradan başlanıb İkinci sivilizasiya, buradan başlanıb Nuh (ə.s.)ın sərbəst peyğəmbərlik fəaliyyəti və insanlığa aid bir çox cəhətlər.

Qeyd edək ki, əvvəlki illərdə Naxçıvanda aparılan araşdırmalar daha çox təsvirlərin öyrənilməsi, rəvayətlərin folklor baxımından tədqiqinə həsr edilmişdir. Yazılarda Nuh peyğəmbər və Dünya Tufanı məsələsindən ya epizodik bəhs edilir və ya onu əfsanə saymaqla heç toxunulmurdu. Bir şeyi unutmaq olmaz ki, dünyanın bir sıra ölkələrində uydurma toponimlərdən, mənbəyi məlum olmayan rəvayətlərdən istifadə edərək Nuh peyğəmbəri və övladlarını özləri, mənsub olduqları dil ailələri ilə əlaqələndirməyə çalışırlar. Bizdə isə bunu arxa plana keçirənlər, hətta Nuh Peyğəmbərin məzarının Naxçıvanda olmasına da şübhə ilə yanaşanlar var. Onlardan bir neçəsi ilə söhbət zamanı soruşdum ki, sizcə, belə bir maddi sübut qonşularınızın əlində olsa idi, onlar nə edərdilər? İkincisi, XVIII-XIX əsrə aid mənbələrdə Nuh (ə.s.)ın qəbrinin burada olması məsələsini, hətta onun quruluşu ilə bağlı məlumatları, daha dəqiq desək tarixi faktları, məzarın yazılan və deyilənlərə uyğun olaraq arxeoloji qazıntılar nəticəsində aşkar edilməsini necə danmağa çalışırsınız? Bəli, Naxçıvanda Nuh peyğəmbərin məzarı və məzarüstü abidəsi çox qədim zamanlardan olmuşdur.

Bəzi müəlliflər isə Tufanı qəbul etməməkdə başlıca səbəb Tufanaqədərki mədəniyyət məsələsini göstərirlər. Bu elmdə birmənalı şəkildə qəbul olunub. Tufandan əvvəl inkişaf etmiş mədəniyyət mövcud olmuşdur. Tufan geniş coğrafi məkanda insanları məhv etdi, onlarln yaratdıqları isə bu və ya digər şəkildə suların altında qaldı. Zaman-zaman həmin mədəniyyətin ortaya çıxması da normal haldır. Elmdə olduğu kimi, dində də Adəm peyğəmbərdən Nuh Peyğəmbərə qədər yaşayış yayılma, və insan oğlunun yaratdıqları qəbul edilir

Bu sahədə saysız-hesabsız mənbələrin mövcudluğunu nəzərə alaraq biz kitabı hazırlayarkən özək mənbə olaraq Qurani-Kərim, müxtəlif elmi nəzəriyyələr, müqayisə üçün Bibliya, "Bilqamıs" dastanı, başlıca olaraq Gəmiqaya və Naxçıvanla bağlı araşdırmaları əsas götürmüşük.

Müqayisələrdə Qurani-Kərim, Bibliya, "Bilqamıs" dastanı və Naxçıvan materialları üstünlük təşkil edir.

Təbii ki, araşdırma zamanı Bibliyadakı məlumatların orijinalı əhatə etmədiyini, bir sıra hadisələrin tarixi həqiqətə uyğun gəlmədiyini faktlar əsasında sübut etməyə çalışmışıq. İstifadə olunmuş digər ədəbiyyatlardakı məlumatlara da öz münasibətimizi bildirmişik.

Kitabda problemə baxışla əlaqəli ayrı-ayrı müəlliflərin fikirləri yığcam halda verilməklə məsələ şərti olaraq Tufanaqədərki dövr, Tufanın baş verməsi, Tufandan sonrakı həyat, yaşam kimi bölgü əsasında işlənmişdir. Kitabın başlıqları nisbətən sərbəst məsələlərə həsr edildiyindən Qurani-Kərimin ayrı-ayrı ayələrindən, həmçinin eyni ayələrindən müxtəlif məsələləri izah edərkən istifadə olunmuşdur ki, bunlar təkrarçılıq kimi deyil, araşdırılan məsələnin izahında şərt kimi qəbul edilməlidir. Belə hallar Devid Rolun fikirləri ilə də bağlı mövcuddur.

Oxunaqlı olsun deyə kitabı fəsillərə deyil, ardıcıllığı saxlamaqla müəyyən sərbəst məsələləri əhatə edən başlıqlara böldük.

Biz bu sahədə olan müəyyən boşluğu doldurmağa çalışmışıq. Buna nə dərəcədə nail olmuşuq, onu oxucular deyə bilərlər.

# TUFAN MƏSƏLƏSİNƏ BİR BAXIŞ

Dünya Tufanının baş verməsi, onun harada olması, Nuh peyğəmbərlə bağlılığına aid müxtəlif fikirlər mövcuddur. Bunların içərisində Tufanın dünyəvi və ya məhəlli xarakterli olması fikirləri daha ziddiyyətlidir. Bu cəhətdən də iki istiqamət mövcuddur: elmi və dini baxışlar. Ümumiyyətlə, müəllif olaraq mən elmi və dini ifadənin əleyhinəyəm. Allahın hökmünü tam əhatə edən, xurafata söykənməyən din elmdir. Yəni onun elmi cəhətdən açılması, izahı gərəkdir. Təbii ki, keçmişdə bu kimi nəzəriyyələr olmuşdur. Lakin aparılmış araşdırmalar, yeni kəşflər dində, xüsusən Qurani-Kərimdə bəhs edilən bir çox hadisələrin, xəbərlərin elmi cəhətdən əsaslandırılmasına imkan verir. Özgə sözlə desək, elm inkişaf etdikcə onun Allahın hökmlərinə əsaslandığı ortaya çıxır. Təbii ki, bunu daha çox Qurani-Kərimə aid etmək gərəkdir. Çünki özlərinin də etiraf etdiyi kimi digər səmavi kitablar zaman-zaman təhriflərə uğramış, onlara müxtəlif əlavələr edilməklə müəyyən cəhətdən Allah kəlamından çox ayrı-ayrı fərdlərin fikirlərinə çevrilmiş, beləliklə, əslindən uzaqlaşmışdır. Ümumiyyətlə, uzun illər Sovet ideologiyasına uyğun olaraq tarixi keçmişlə, dini təsəvvürlərlə səsləşən bir sıra hadisələr mif, əfsanə adı ilə tarixi həqiqətdən uzaqlaşdırılmışdır. Lakin elmin qəbul etdiyi bir tarixi həqiqət də mövcud idi ki, mif müəyyən reallığı mövcud düşüncə tərzinə, xalqın mifoloji baxışlarına uyğunlaşdıraraq yaşatma formasıdır (104,s. 23).

E.M.Meletinskinin bu fikirləri Levi-Strosda da mövcuddur. O yazır ki, hər xalqın özünəməxsus düşüncə tərzi vardır ki, onlar mifoloji baxışlarını bu yolla qoruyub saxlayırlar (103).

İ.M.Dyakonov isə miflərin həqiqətləri əks etdirməklə müxtəlif formada:- nağıl, mahnı, hərəkət və s. qorunub saxlandığını qeyd edir ( 97, s. 17).

Əldə olan bir sıra elmi müddəaları Qurani-Kərimin

hökmləri ilə tutuşdurduqda əsl həqiqət ortaya çıxır. Biz bu məsələni də araşdırarkən elmi mövqedən çıxış etməyə çalışmışıq. Beləliklə, elmi və dini deyərkən şərti bölgü nəzərdə tutulmalıdır.

Tədqiqatımızın ənənəsinə uyğun olaraq Tufanın baş verməsini, onun dünyəvi, bölgə və ya məhəlli xüsusiyyətli olduğunu öyrənərkən qədim ədəbiyyat nümunələrinə, Bibliyaya, Qurani-Kərimə və müasir elmi baxışlara müraciət edəcəyik.

Bütün araşdırıcılar Tufanla bağlı ilkin mənbəni İkiçayarasından götürürlər. Lakin bundan kənarda, daha dəqiq desək, Hindistan ərazisində baş verdiyi, dravidlərdən qərb istiqamətinə yayıldığı, yəni Manu nəzəriyyəsi, paralel olaraq Murad Acının da müdafiə etdiyi, Altayda formalaşaraq ətrafa, oradan da qərb istiqamətinə, hətta Qafqaz-Anadolu-Mesopotamiyaya yayıldığı da söylənməkdədir. Təbii ki, bunlar daha çox dastan və rəvayətlərdən qaynaqlanan məlumatlardır. Burada bir məsələ dayanır-hansı istiqamətdən, haradan yayılma. Səmavi kitablarda Tufan haqqında olan məlumatların qarşılıqlı tutuşdurması, XIX yüzilliyin ortalarında əldə edilmiş arxeoloji materiallar, qədim yazılı məlumatlar Tufanın Mesopotamiya ərazisində baş verdiyini sübut edir.

Tarixi mənbələrə, elmi ədəbiyyata söykənərək, subasma- Dünya Tufanı ilə bağlı müxtəlif fikirlərin olduğunu nəzərə alaraq onların bəzilərinə münasibət bildirməyi məqsədəuyğun hesab edirik.

Həmin əsərlər içərisində ingilis etnoqrafı və din tarixçisi Corc Frezerin 1923-cü ildə Londonda nəşr olunmuş, 1931-ci və 1985-ci illərdə rus dilinə tərcümə edilmiş "Folğklor v Vetxom Zavete" əsəri diqqəti cəlb edir. Hər şeydən öncə əsərdə dünyanın yaranmasından başlayaraq bir sıra məsələlərə açıqlama gətirilmişdir. Onun IV başlığı "Böyük Tufan" (111, s. 63-159) adlanmaqla Dünya Tufanı ilə bağlı məsələlərin qarşılıqlı müqayisə şəklində

araşdırılmasına həsr edilmişdir. Təbii ki, müəllif bütün müqayisələri Bibliya, tarixi mənbə kimi Bilqamıs dastanına söykənərək aparmışdı. Corc Frezerin araşdırmasının üstün cəhəti ondan ibarətdir ki, o, Tufanla bağlı dünyanın müxtəlif xalqları, hətta kiçik etnik qrupları arasından ayrı-ayrı müəlliflər tərəfindən toplanmış rəvayətləri sistemləşdirmiş, bir sıra ümumiləşmələr aparmışdır. Corc Frezeri təəccübləndirən rəvayətin dünyanın ayrı-ayrı coğrafiyasında yaşayan xalqları arasında müəyyən fərqlərlə yayılmasıdır. Müəllif bunu bir neçə cəhətdən izah etməyə çalışsa da son fikrə gələ bilmir. Özü də iki sual qarşısında qalır: 1. Necə olmuşdur ki, süjet dünyəviləşmiş, keçmişdə ayrı-ayrı coğrafiyalarda yaşayan, bir-birləri arasında heç bir təması olmayan xalqların hansı qarşılıqlı əlaqələri var imiş? 2. Bu rəvayətlər hansısa genetik əlaqələrə malikdir və ya sərbəst olaraq yer kürəsinin müxtəlif ərazilərində yaranmışdır? Təbii ki, İkiçayarası, Hindistan, ümumiyyətlə, köhnə dünya ölkələri və xalqları arasındakı qarşılıqlı təsiri qəbul etmək mümkündür. Müəllif keçmişdə bu və ya digər dərəcədə transformasiya olunsa da rəvayətin bütün ölkələrə Bibliyadan yayılması nəzəriyyəsinin yanlış olduğunu göstərir və çox önəmli bir cəhəti qeyd edir ki, bu, bizlər üçün də faydalıdır: "В особенности это является невозможным в настоящее время, когда новейшими исследованиями доказано, что библейский, так называемый божественный оригинал на самом деле вовсе не оригинал" (111, s. 148). Sonra müəllif fikirlərini yekunlaşdıraraq bu qərara gəlir: "... мы должны рассмотреть, не является ли вавилонская (или шумерская) легенда, несомненно самая древняя из легенд о потопе, единственной, от который произошли все остальные". (111, s. 149)

Burada bizim üçün önəmli olan iki cəhət var: birincisi və əsası Bibliyaya əsaslanmağın yanlışlığı. Çünki Ermənistan, Ararat xəttini müdafiə edənlər bunu örnək

götürürdülər. Qeyd edək ki, Andrey Polyakov da problemə bu yöndən yanaşırdı.

Bu məsələdə Corc Frezerin haqlı olduğunu Ağrıdağla bağlı 300 ildən artıq, xüsusən XIX əsrin əvvəllərində XXI əsrə qədər mütəmadi olaraq davam etdirilən axtarışların nəticəsizliyi də sübut edir. Deməli, Bibliya variantı, orada olan məsələlər daha çox missionerlik xarakteri daşıyır.

Digər önəmli cəhət isə ilkin mənbə, kök olaraq şumer variantının rəsmən qəbul edilməsidir. Çünki hazırda tutarlı elmi dəlillər əsasında qədim şumer-türk əlaqələrinin mövcudluğu, mədəniyyət münasibətlərinin genetik bağlılığı sübut edilməkdədir. Xüsusən Naxçıvan ərazisində qədim dövrdən mövcud olan mədəniyyətin İkiçayarası ilə qarşılıqlı əlaqəsi maddi sübutlar, arxeoloji qazıntılar nəticəsində də təsdiq edilməkdədir. Belə oxşarlıq, bir çox halda eynilik özünü Nuh peyğəmbər və Dünya Tufanı ilə bağlı olan, ən azından xalqın düşüncə tərzində xüsusi yer tutan rəvayətlər, inam yerləri və toponimikada göstərməkdədir.

Təbii ki, Corc Frezerin topladığı materiallar, istinad etdiyi mənbələr XX yüzilliyin əvvəllərinəqədərki məlumatlara əsaslanır. Sonrakı dövrlərdə İkiçayarasında aparılmış arxeoloji qazıntılar, əldə edilmiş maddi-mədəniyyət nümunələri və digər araşdırmalarda Dünya Tufanı ilə bağlı məlumatın məhz İkiçayarasından yayıldığını, hadisənin orada baş verdiyini sübut edir.

Corc Frezerin araşdırmaları ilə bağlı bir məsələni də qeyd etməkdə fayda vardır. Nədənsə dünyanın ən kiçik xalqlarında Tufanla bağlı məlumatları toplayıb sistemləşdirən müəllif türk xalqlarından bəhs etmir.

Corc Frezer rəvayətin nəsillərdən-nəsillərə ötürülərək yaşanmasında İkiçayarasında belə hadisələrin, yəni subasmaların tez-tez baş verməsinin də rol oynadığını göstərir. Yəni hər dəfə Fərat və Dəclə çayları daşıb ətrafı basdıqca, böyük dağıntıya, insan tələfatına səbəb olduqca yaddaşlar təzələnir, rəvayət yenilənərək gələcək nəsillərə

ötürülür.

Nə dərəcədə geniş bəhs etsə də Corc Frezer Tufanla bağlı məlumatın dünyanın ayrı-ayrı ölkələrində yayılmasının, həmçinin oxşarlığının səbəblərini açıqlaya bilmir. Bizcə, bu sualın məntiqi cavabı Qurani-Kərimdə verilmişdir.

"Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin!- deyə peyğəmbər göndərmişik. Onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə (Allahın əzəli elmi ilə) haqq yoldan azmalı olmuşdur. (Ey müşriklər!) Yer üzündə dolaşıb görün ki, (peyğəmbərləri) yalançı hesab edənlərin axırı necə oldu!" (Nəhl surəsi, ayə 36).

"(Ya Rəsulum!) Sənin Rəbbin mərkəzlərinə (ən böyük şəhərlərinə) ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!" (Qəsəs surəsi, ayə 59).

Qurani-Kərimin hər iki ayəsindən bütün ərazilərə, ayrı-ayrı ümmətlərə peyğəmbər göndərildiyi bəlli olur. Həmin peyğəmbərlər isə özlərindən əvvəlki peyğəmbərlərin bilgilərinə, onların dövründə baş vermiş hadisələr haqqında məlumata malik olmuşlar. Peyğəmbər göndərməkdə başlıca məqsəd insanları düz yola çağırmaqdan ibarət olmuşdur. Bu işdə özlərindən əvvəlki insanların başına gələnlərin ibrət olsun deyə onlara bildirilməsinin böyük faydası vardır. Yəni insanlar yolunu azanların hansı bəlaya düçar olduqlarını bilməklə pisliyi tərk edə bilərdilər. İkinci ayədəki peyğəmbər göndərilməmiş məmləkətlərin məhv edilmədiyi də buna sübutdur. Beləliklə, dünyanın ayrı-ayrı bölgələrində yaşayan hər millətə və məmləkətə bir uyarıcı, peyğəmbər göndərildiyi bəlli olur. Bunu Hz.Peyğəmbərimiz "Mən Allahın yer üzünə göndərdiyi 124 min peyğəmbərin axırıncısıyam" Hədisi Şərifi də təsdiq edir. Buradan belə bir nəticə çıxır ki, hər peyğəmbər öz tayfasına, məmləkətinə özünəqədərki hadisələri anlatmışdır. O cümlədən Nuh Tufanı ilə bağlı xəbər vermişdir. Zaman keçdikcə onlar eyni mənbədən qaynaqlanan müxtəlif rəvayətlərə çevrilmişdir. Ən qədim

mənbələrdən hesab olunan "Bilqamıs" dastanında da vəziyyət belədir.

*O, hər sirri bilərdi, o, hər şeyi görərdi,*
*Yeri su basmasından, bizə xəbər verərdi.*
*Uzun yollar dolaşıb, yorulub əldən düşdü,*
*Başına gələnləri sal bir qayaya döydü,*
*Sonra hasara alıb, adını Uruk qoydu* (21, s. 8).

Bilqamıs elə belə insan deyil, onun yarıdan çoxu tanrıdır. Əgər o, hər sirri bilirsə, hər şeyi görürsə, deməli, seçkinlərdəndir. Məhz seçkin olduğu üçün Utnapiştinin yanına gəlir. Dastandan aydın olur ki, o, ora gəlməsə idi, insanların Tufan haqqında məlumatı olmayacaqdı. Çünki Utnapişti Tufan haqqında məlumatı ona danışarkən deyir:

*Bilqamıs eşit, sənə sehirli söz deyəcəm,*
*Tanrıların sirrini sənə agah edəcəm* (21, s. 86).

Dastandan aydın olur ki, Bilqamıs ilk olaraq ona bildirilənləri qayaya həkk etmişdir. Beləliklə, dastanla bağlı ilkin məlumatlar gil lövhələrə qayadakı yazılardan üzköçürmədir. Qayanın və ya qayaların harada olması isə bəlli deyil.

Yuxarıdakı nümunələri verməkdə başlıca məqsədimiz hadisənin seçkinlərə bildirilməsi, onun bu yolla dünyəvi süjetə çevrilməsini göstərməkdir. Yəni süjetin dünyəviliyinə şübhə ilə yanaşanlar bu cəhətləri də nəzərə almalıdırlar. Buradaca bir fikri də verməkdə fayda vardır. Dünyanın yaxın bölgələrində, xüsusən qədim şərqdə süjetin eyniliyində mədəni-iqtisadi əlaqələrin, yerdəyişmələrin böyük rolu olmuşdur. Lakin fərqli coğrafiyalarda ayrı-ayrı etnoslar öz Nuhlarını yaratmışlar. Naxçıvandakı Nuh isə ana xətt olmaqla özünün orijinallığını daha çox qoruyub saxlamışdır.

Corc Frezer süjeti dünyəvi hesab etsə də, Tufanın regional xarakter daşıdığını yazır. Dünya daşqını ilə bağlı XX əsrin sonlarına qədər Corc Frezerin fikirləri ilə səsləşən, bu və ya digər cəhətdən ondan fərqlənən minlərlə əsər və məqalələr yazılmış, filmlər çəkilmişdir. Lakin Bibliyadakı

Ağrıdağ variantı iflasa uğradıqca yeni versiyalara əl atılmışdır. Təbii ki, Tufanın baş verməsi İkiçayarasında lokallaşdırılır. Lakin gəminin hərəkət yolu, dayandığı yer Ağrıdağdan kənarda Urmiya gölü və Naxçıvan, daha dəqiq desək Zaqros dağları- Qapıcıq (Gəmiqaya) hövzəsində, az bir qismi isə cənubi-şərqi Anadoluda axtarılır.

Bu ideyanın tərəfdarlarından biri yenə də ingilis alimi Devid Rolun fikirləri üzərində dayanmaq istərdik. Müəllifin 2002-ci ildə rus dilinə tərcümə edilmiş "Генезис цивилизаций. Откуда мы произошли" kitabında bir sıra məsələlərdən, o cümlədən daşqınaqədərki hadisələrdən, mədəniyyətlər və onların yayılma arealından söhbət açılır. Özündən əvvəlki araşdırıcılara, arxeoloji qazıntılara, başlıca mənbə olaraq Bibliyaya əsaslanan müəllif istər tufanaqədərki, istərsə də tufandan sonrakı məsələləri araşdırarkən Bibliyanın, eyni zamanda bu istiqamətdə olan digər ədəbiyyatların təsirindən çıxa bilmir. Zəngin tarixi məlumatlara söykənən müəllif faktları xristian dünyasında və yəhudiçilikdə olan birtərəfli nəzəriyyələrin təsiri altına salır. Açıq-aşkar bütün hadisələrdə Bibliyanın göstərişlərini, yəhudi-xristian baxışlarını əsas götürür. Ümumiyyətlə, Tufanla bağlı məsələlərini şərh etməmişdən öncə kitabın ana xətti ilə bağlı bəzi məqamlara toxunmağı məqsədəuyğun hesab edirik.

Əvvəlcədən deyildiyi kimi, əsər bütövlükdə Bibliyanın təsiri altında yazılmışdır. Bir sıra nəzəriyyələrdən fərqli olaraq Devid Rol yəhudi-erməni nəzəriyyəsini önə çıxarmaqla Adəm peyğəmbərin yer üzərində yerləşməsi, ilkin insanın yayılması problemlərini Bibliyanın göstərişlərinə görə təhlil etməyə çalışmaqla Ədn bağlarını (cənnətini) tarixi Azərbaycan ərazisində, Urmiya gölü hövzəsində, Zaqros dağları hüdudlarında lokallaşdırır.

Kitabın "Bolluq torpağı" yarımbaşlığında Bibliyada bəhs edilən Edim bağlarının, Cənnətlərinin yerini təyin etdiyini yazan müəllif-buraları "şərti olaraq Ermənistan"

adlandırır. Bu şərtinin arxasında nələr dayanır? Özü kimi müəlliflərə müraciət edən, bəzən onların fikirlərini təhrif edən Devid Rol yazır ki, Ermənistan zəngin təbiətə, yeraltı sərvətlərə malikdir. Burada müxtəlif minerallar mövcuddur ki, bu da metalın inkişafında əsas rol oynamışdır. Guya bu ərazilərdə məskunlaşma ən azı on min il əvvəl baş vermiş, buğdanın ilkin vətənidir, Kür-Araz mədəniyyəti də Ermənistana aiddir (96, s. 81-82). Beləliklə, Nuhaqədərki mədəniyyətləri Ermənistanla bağlayan müəllif bölümün sonunda yazır: "Да и история самого Ноя и его потомков, разумеется (yaxşı ki, mülahizіə formasında- H.Q.Q.) тесно связано с Эдемом и Араратом. Как мы знаем, племя Тувалкаина происходили из северных горных районов вокруг озера Урмия- то есть самого сердца Армении" (96, s. 84). Müəllif sonuncu ifadəni əsərin bir neçə yerində vurğulayır. Devid Rolun Sevan adlandırdığı gölün Van gölü olması, çayları lokallaşdırarkən Arazın yerini düzgün təyin etməməsi, hətta s. 72-dəki xəritədə 2 Araz göstərməsi, bütün dünyada qəbul edilən türk-monqol soyları ilə bağlanan Pazırık mədəniyyətini, Naxçıvanla sıx bağlı olan Kür-Araz mədəniyyətini Ermənistanla, dərinə getdikcə yəhudilərlə əlaqələndirməsi elmi cəhətdən əsassız olmaqla müəllifin məqsədli xidmətini ortaya qoyur.

Hər şeydə yəhudiçilik və erməniçilik axtaran müəllif Tufanın baş verdiyi Mesopotamiya, Şumerlə bağlı fikirlərini şərh edərkən yazır: "Таким образом, получается, что большая часть населения Шумерии пришли из горного массива Загрос, то есть того географического региона, который мы называем великой Арменией,- того самого, где находились и царство Арамма и библейская земля Эдем. Это вполне совпадает со свидетельствами книги бытия, котороя утверждает, что путь предков еврейских патриархов, покунувших Эдем, закончился в земле Шунар- то есть в Древнем Шумере" (96, s. 145). Şumer mədəniyyəti, onun qədim türklərlə bağlılığına aid kiçik

dəyərləndirmə ilə müəllifin nə dərəcədə yanlışlığa yol verdiyini bildirməklə kifayətlənmək istəyirik. Bir sıra araşdırıcılar şumer mədəniyyətinin gəlmə olduğunu yazmaqdadırlar. Devid Rol da bu fikri irəli sürür və həmin mədəniyyəti Urmiya gölü ərazisinə bağlayır. Belə əlaqələndirmə ilə o, erməniliyi, erməniçiliyi, yəhudiçiliyi müdafiə edir. Yaxşı olardı ki, müəllif özünün də epizodik halda, xeyirlərinə gələn şəkildə istifadə etdiyi R.A.Uolker, Q.Qrotefend, C.Smit, S.N.Kramer, Q.Çayld, Q.Vinkler və onlarla digər müəlliflərin əsərlərinə ciddi şəkildə baxsın, şumer-türk əlaqələrinə bir də nəzər yetirsin. Arattanı Ermənistana aid etdiyi əsərini təəssübkeşlikdən, erməniçilikdən çıxaraq oxusun. Buradakı türk toponimlərini, etnik birlikləri olduğu kimi görsün. Bizcə, bu bölüm üçün bu qədər yetər.

Yuxarıdakı məlumatı olduğu kimi verməkdə başlıca məqsədimiz ondan ibarətdir ki, son dövrdə baş verən hərbi-siyasi hadisələr ilkin sivilizasiyalarla bağlı məsələlərə də təsir etməyə başlamaqla ta qədimdən Urmiya gölü hövzəsinin, Zaqros dağları ətrafının ilkin insan məskənləri olduğunu, buradan yayılanların indiki yəhudi və ermənilərlə bağlılığı ilə əlaqəli uydurmaları ortaya qoymaqdır. Mətndən də göründüyü kimi qədim Azərbaycan dövləti olan Aratta müəllifin "Böyük Ermənistan" adlandırdığı yerə daxil edilir. Maraqlıdır ki, Devid Rol açıq şəkildə yazır ki, "bizim adlandırdığımız". Görəsən, o, "bizim" ifadəsində nə nəzərdə tutur? Bu artıq XX əsrin II yarısından başlayan Devid Rolların və digər erməni havadarlarının uydurma mədəniyyətlər "nəzəriyyəsi"dir.

Devid Rol mədəniyyətin Sevan, Van, Urmiya hövzəsində yarandığını və buradan dünyaya yayıldığını dönə-dönə təkrar edir. Əsərdə göllər nəzəriyyəsinə Bibliyadakı 4 çayın axdığı hövzəni də əlavə etməklə böyük bir coğrafi bölgəni mədəniyyətin, xüsusən erməni-yəhudi mədəniyyətinin başlanğıcı sayır. Maraqlıdır ki, Herodot da

daxil olmaqla bir sıra müəlliflərin Qalis (indiki Qızıl İrmak) adlandırdıqları çayı Devid Rol Araz hesab edir (96, s.72).

Bölgədəki qədim yaşayış məskənləri də bu qaydada şərh edilir. Güney Azərbaycandakı Yanıq Təpə, Həsənli, Hacı Firuz Təpə, Təpə Sarab, Təpə Quran və s. qədim yaşayış məskənləri ermənilərlə əlaqələndirilir. Demək olar ki, bütün adlar təhrif olunur. Müəllif lazım olanda istədiyi ərazini, gölü və s. istədiyi yerdə lokallaşdırır. Bunun üçün 168-ci səhifədəki xəritəyə baxmaq yetər. Burada Van gölü Sevan adı ilə təqdim olunur. Yazılır ki, "гора Джуди неподалеку от озера Севан". Əcəb məntiqdir. Bu sətirlər yazılarkən unudulub ki, Qurani-Kərimdə gəminin dayandığı yer Cudi yazılıb orada dağ ifadəsi yoxdur. Cudi isə yüksəklik mənasında işlənmişdir. Bu məsələdən gəminin harada dayanması ilə bağlı geniş bəhs edəcəyik.

Əsərdə şumerləri "suma" ifadəsi, onu isə yəhudilərə bağlamaq, şumer dilinin qəti olaraq semit dillərinə aid olduğunu sübut etmək üçün hər vasitəyə əl atıldığı aydın gürünür. Nədənsə müəllif şumer-türk əlaqələrindən, onların dil yaxınlığından qəti şəkildə söz açmır. Hər kəsin mübahisəsiz olaraq qəbul etdiyi çox sayda sözün, o cümlədən tinqır-tenqır-Tanrı sözünü də əyərək yəhudiləşdirir (96, s. 149).

Əsər boyu belə hallara tez-tez rast gəlinir. Kitabda keramika ilə bağlı mədəniyyətdən bəhs edən müəllif yazır: "Arxeoloji materiallar sübut edir ki, keramika ilk dəfə b.e.ə. VII minillikdə İranın qərbindəki dağlıq ərazidə (yəni Güney Azərbaycanda-H.Q.Q.) meydana gəlmişdir" (96, s. 151). Onun mərkəzlərindən biri Yanıq Təpə hesab edilir. Müəllifin keramika, onun texnologiyası ilə bağlı fikirləri nə dərəcədə maraqlı olsa da, bir o qədər də mübahisəlidir. Yəni keramika ilə əlaqəli mədəniyyətin, daha dəqiq desək, mədəniyyətlərin mərkəzi məsələsi elmdə bir mənalı şəkildə qəbul edilmir.

Bir neçə kəlmə ilə kitabın tufanaqədərki bölümündəki məsələlərdən bəhs etməklə ümumiləşmə aparmaq və Tufan

problemina keçmak istardik. Bu bölümda da Bibliya ana xatt kimi götürülüb. Müallif Adam Peyğambarin adını izah edarkan yena yahudiliya yer vermaya çalışır va adın qadim yahudi dilinda insan manasında olduğunu yazır. Görasan, müallif bilirmi ki, yahudi dilinda na mana verirsa versin ta qadimdan günümüza qadar dünyanın Azarbaycan adlanan mamlakatinda, oradakı yerli ahalinin- türklarin dilinda adam sözü insan manasında işlanmişdir. Belalikla, bu xalq özünü, ulu babasından yaranan insanları onun adı ila Adam-adam deya çağırmışdır. Naxçıvanda bir gözal ifada da vardır özünü nalayiq aparana deyirlar: "Adam ol". Na gözal, yani babandan, Hz. Adamdan qalma arkanlara amal et. Galacak bölümlarda Hz.Adam (a.s.) va Naxçıvan masalasina yenidan qayıdacağıq.

Belalikla, müallifin yazdığı kimi Adam peyğambar yer üzüna, Urmiya gölü atrafındakı araziya yenibsa, Nuh (a.s.) bura ila bağlıdırsa, Adam- adam manasında mahz bizlarda qalıbsa, sözü ayarak qadim yahudilarla bağlamağa heç bir asas yoxdur. Bizlar, mahz Azarbaycan türklari ulu babalarının adını insan manasında indi da qoruyur. Eyni zamanda onun adını yarandıqları gündan övladlarına vera-vera yaşadırlar. Bizlarda Adam da var, Nuh da, Yafas da. Sam, Xam adları yoxdur.

Kitabda bela maqamlar olduqca çoxdur. Bizim başlıca maqsadimiz Tufanla bağlı olduğundan ondan geniş bahs etmayacayik. Bu satirlari vermakda maqsadimiz kitabın ümumi xattini, ideyasını bildirmak idi. Manca, galacakda bu kitabdan ayrıca yazı hazırlanmalı, yanlışlıqlar elmi şakilda tahlil edilmalidir. Yaqin ki, biz Nuh peyğambar va Daşqın masalasini izah etdikca onlara da toxunacağıq.

Yuxarıda deyildiyi kimi, asarin böyük bir bölümü Dünya Tufanına, daşqına hasr edilib. Kitabda "Daşqın" adlanan dördüncü (96, s. 159-175), "Tufan na vaxt baş verib?" adlanan beşinci (96, s. 177-202) va "Daşqına qadar yaşayanlar" adlanan altıncı başlıqlar (96, s.203-225) bu

məsələyə həsr edilmişdir. Təbii ki, bu bölgüdə də Bibliyanın hökmləri əsas götürülmüşdür. Bir məsələni qeyd etməkdə fayda görürük. Tufanla, ümumiyyətlə, bu bölgə ilə bağlı materiallar əsasən Avropa və Amerika alimləri tərəfindən toplanmış, arxeoloji qazıntıları da bir qayda olaraq onlar aparmışlar. Beləliklə, Avropa muzeylərinə toplanan maddi-mədəniyyət nümunələrinə istədikləri kimi yanaşmışlar. Apardıqları araşdırmalarda hind-avropaçılıq, xristiançılıq açıq-aşkar görünür.

Müəllif "Daşqın" bölməsində tufanın fiziki parametrlərini təyin etməyə, onun hər hansı bir təbiət hadisəsi ilə əlaqəli olduğuna (böyük vulkan püskürməsi, meteor düşməsi, yer kürəsinin kometlə toqquşması və s.) beləliklə, böyük iqlim dəyişikliyinin baş verdiyinə diqqət çəkir. Bunlarla yanaşı əsas diqqəti İkiçayarasına yönəldərək qədim mənbələrlə Bibliya arasında müqayisələr aparır. Sonrakı bölümlərdən bu qərara gəlir ki, gəminin Araratda dayanması ilə bağlı fikirlər yanlışdır. Buradaca Qurani-Kərimdəki Cudi variantını ortaya atır. Bəllidir ki, əlləri Ağrıdağdan üzülənlər yeni versiyalar axtarırlar. Devid Rol Cudi dediyi ərazini Kürdistanla əlaqələndirir. Hətta tərtib etdiyi xəritədə böyük bir ərazini belə adlandırır.

Beləliklə, ziddiyyətli olsa da əsərdə tufanın baş verdiyi bölgə, gəminin dayanması, tufandan sonrakı məsələlərlə bağlı məlumatlar vardır.

Tufanla bağlı məlumatlar bir sıra elmi ədəbiyyatlarda, xüsusən geologiya, coğrafiya və s. ilə bağlı mənbələrdə də geniş yer tutmaqdadır. Həmin ədəbiyyatlarda Daşqının baş verməsi səbəbləri, onun regional xarakter daşıması şərh edilir. Təbii ki, bizim onların adını sadalamağa belə imkanımız yoxdur. Lakin ümumi xarakter daşıyan bir neçə nəzəriyyədən bəhs etmək istərdik. Bunlar içərisində Amerikanın tanınmış yerşünasları Valter Pitman və Vilyam Ryanın geoloji materiallar əsasında 1998-ci ildə nəşr etdirdikləri "Nofhs Flood"- Nuh Tufanı əsəri diqqəti cəlb edir (114).

Əsərin böyuk elmi əhəmiyyətini nəzərə alaraq türk araşdırıcısı Turqut Gürər onun türkcə özətini hazırlamışdır. "Nuh Tufanı" ilə Karadenizin öyküsü- 2" adlanan həmin özətdə Tufanla bağlı fikirlər şərh edilmişdir. Amerikalı alimlər geoloji dəlilləri araşdıraraq bu qənaətə gəlmişlər ki, təbiətdə ciddi dəyişikliklər çox qədimlərdən baş vermişdir. Belə dəyişikliyə məruz qalan ərazilərdən biri də Qara dəniz və onun hövzəsi olmuşdur.

Baş verən təbiət hadisələri, təqribən 100 min il öncəki buzlaşma, Homo Sapiensin (ağıllı, modern insanın) yayılması, nəhayət, 20 000 il öncə buzların əriməsi, beləliklə, təbiətdəki dəyişikliklərin insan həyatına təsiri məsələləri araşdırılmışdır. Yerşünaslar yazırlar ki, 20 min il öncə buzlar əriyib şimala çəkildikcə insanlar və heyvanlar da onlarla birlikdə şimala doğru hərəkət etdilər. Hər şey bu dövrdən başladı. Tədricən əriməsi güclənən buzlar Rusiyanın şimalından, həmçinin Avropanın mərkəzindəki dağlıq zonadan bir sıra çayların qədim insanların ətrafında məskunlaşdığı, gözəl təbiətə, əlverişli şəraitə malik olan indiki Qara dənizin yerindəki gölə bol sular gətirməsinə, nəticədə Qara dəniz gölünün daşaraq Sakarya boğazı vasitəsi ilə Mərmərə, oradan Egey dənizinə axmasına səbəb oldu. Beləliklə, şirin suların töküldüyü dənizin hövzəsi sıx surətdə məskunlaşdı. Burada insanların əsas məşğuliyyətləri ovçuluq idi. Müəlliflər bu vəziyyətin, yəni buzların əriyib şimala çəkilmə prosesinin təqribən 7 min il davam etdiyini, şimal istiqamətindəki böyük çökmələr, buz sürüşmələri ilə çayların şimal istiqamətinə axınının artdığını, eyni zamanda okean sularının səviyyəsinin yüksəldiyini göstərirlər.

Özətdə yazılır ki, artıq Qara dəniz istiqamətinə axan çaylar tam azalır, nəticədə gölün səviyyəsi enir, Mərmərə və Egey dənizi ilə əlaqələr tam kəsilir, su boğazdan aşağı düşür. Beləliklə, buzlaşmadan aralı yerləşən Qara dənizin su çəkilən ərazilərində, çay deltalarında daha çox oturaq

həyata keçilməyə başlanır. Bu elə bir dövr idi ki, cənub bölgələri quraqlığın, şimal isə buzların pəncəsində idi. Qara dəniz hövzəsi isə tam əlverişliydi. Mənbədə göstərilir ki, min il sonra buz çağı başa çatır, yenidən rütubət artır. İnsanlar bu vahələrdən digər yerlərə köç edirlər. Onlar daha çox Anadolu, Qafqaz, Mesopotamiya istiqamətinə yayılırlar. Min illər boyu beləcə yaşayırlar, lakin m.ö. 6200-cü ildə Avropada hökm sürən kiçik buzlaşma dövrü, cənubdakı quraqlıqlar hər şeyi yenidən dəyişdi. Anadolu, Mesopotamiya və digər bölgələr quraqlığın pəncəsinə keçdi. Bir zamanlar Qara dəniz hövzəsini tərk edib getmiş insanlar əcdadlarının bölgələrinə qayıtdılar. 400 il həyat belə davam etdi, nəhayət, havalar yenidən dəyişdi, m.ö.5600-cü ildə okean səviyyəsi yüksəldi, qurumalar nəticəsində İstanbul boğazının səviyyəsindən 150 m aşağıda olan Qara dənizə doğru sular axmağa başladı. Beləliklə, bir zamanlar Qara dəniz gölü dolub okeana doğru axdığı halda indi isə okean suları gölə doğru axıb onu doldurmağa başladı. Mənbədə göstərilir ki, bunun nəticəsində təbii sədd dağıldı, Aralıq dənizindən axan sular 200 Niaqara şəlaləsinin axıda biləcəyi suyu Qara dənizə gətirdi. Gölün səviyyəsi hər gün 15 sm yüksəlirdi. Artıq çay deltaları da duzlu dəniz sularının altında qalırdı. Beləliklə, bəla baş verdi, insanların böyük köçü başlandı. Yazılardan bəlli olur ki, bu vəziyyətdən sonra insanlar dörd ətrafa yayılmışlar. Buradan bir qol Qafqaz xətti ilə Zaqros dağlarına, oradan isə Mesopotomiyaya getmişlər. Sonrakı dövrlərdə də okean sularının Qara dənizə axması davam etmiş, nəhayət 2 il müddətində Qara dəniz okean səviyyəsinə çatmışdır. Amerikan alimləri məhz bu hadisəni Tufan adlandırırlar. Onların fikrincə dörd ətrafa yayılan insanlar gördükləri dəhşətli sudaşmanı sonrakı nəsillərə danışaraq yaşatmışlar. Tufanın Mesopotamiyada yazılı ədəbiyyata keçməsini isə Fərat və Dəclənin tez-tez daşması, yaddaşlarda olan hadisənin təzələnməsi, yerli şəraitə uyğunlaşdırılması ilə əlaqələndirirlər.

Təbii ki, bu əsər yerşünaslıq, geoloji baxımdan çox əhəmiyyətli olmaqla bir sıra problemlərin, xüsusən məskunlaşmanın yenidən işlənməsində dəyərli mənbə ola bilər. Hər şeydən öncə elmdə mövcud olan "sürüşkən mədəniyyət", Mesopotamiya mədəniyyəti ilə Maykop mədəniyyəti, eyni zamanda Qara dəniz sahillərindən yayılma məsələlərin, Anadolu, Mesopotamiya, Azərbaycan, bütövlükdə Qafqaz mədəniyyətinin mənşəyini, qarşılıqlı əlaqələrini öyrənməyə imkan verir. Lakin burada bir məsələ düşündürücüdür. Qara dənizin dibində qaldığı irəli sürülən mədəniyyət həqiqətən mövcuddurmu?! Bu dövrdəki köçlər ancaq adı çəkilən istiqamətlər olmuşsa və ilkin sivilizasiyalar buradan başlanmışsa, bəs onda Orta Asiyada, Sibir və Altayda müəyyən edilmiş qədim mədəniyyətlər necə yaranmışdır?! Bura Amerika qitəsindəki yerli mədəniyyətləri də aid etmək olar.

Bir tərəfdən də düşünürük ki, bütün dünyada yayılan subasma, sel, tufan adı ilə tanınan hər hadisə Nuh Tufanı adlanmır. Bizcə, Qara dəniz variantı Nuh Tufanının əsası ola bilməz. Çünki burada süjet də yoxdur. Sadəcə geoloji cəhətdən Nuh Tufanı ilə bağlı hipoteza, daha dəqiq desək, yozum mövcuddur.

Cüzi fərqlərlə oxşar nəzəriyyə Aral-Xəzər nəzəriyyəsidir. Həmin nəzəriyyə ilə bağlı A.Konsilinin "Turan: Nuhdan bizge dkın" kitabında (51), həmçinin Tahsin Parlakın "Turan yolunda Aralın sırları" Ankara, 2007-ci il kitabında hərtərəfli məlumat vardır. Bu məsələ ilə nisbətən genişliyi ilə tanış olduqda onun "Qara dəniz nəzəriyyəsi"ndən faydalanmaqla baş verən təbiət hadisələrinə Aral və Xəzərin də daxil edildiyini görürük. Tahsin Parlak bir sıra mənbələrə əsaslanaraq yazır ki, m. ö. 12500 ilinə qədər buzların əriməsi nəticəsində Xəzər, Aral və Qara dəniz sularla dolmuş, vəziyyət o yerə çatmışdır ki, bu üç dənizin arasını su basmışdır (84, s. 49).

Xəzərin sularının yüksəlməsi nəticəsində Araz və Kür

vadilərini su örtmüş, Ərzuruma qədər hər yer su altında qalmışdır. Digər tərəfdən Qara dənizin suları indiki Artvin, Oltu Narman hüdudlarını dolduraraq Arazla birləşmişdir. Yazılanlardan belə aydın olur ki, müəyyən dağlar və yüksəkliklər istisna olmaqla, Aral, Xəzər, Qara dəniz hövzələri suyun altında qalmışdır. Müəllif yazır ki, Tufanın izlənə biləcək yerlərindən biri də sular altında qalmış Araz vadisi və Naxçıvandan Ərzuruma qədərki ərazilərdir (84, s. 49). Təbii ki, daha çox geoloji materiallara əsaslanan müəllif Nuhla bağlı geniş məlumat vermir. Səh. 97-də Naxçıvanla bağlı rəvayətdə yanlışlığa yol verilmişdir. Rəvayət tam əhatə olunmamışdır. Bütün bunlarla bərabər Gəmiqaya, Nuhun məzarı ilə bağlı məlumatlar və digər məsələlər də kitabda öz əksini tapmışdır.

Geoloji baxımdan subasma ilə bağlı dəyərli elmi fikirlər Mümin Köksoyun 2003-cü ildə Ankarada nəşr edilmiş kitabında da mövcuddur (52). Müəllif özündən əvvəlki geoloji araşdırmalar əsasında ümumiləşmələr aparmışdır. Bu tip araşdırmaların əksəriyyətində subasma-daşqından onun əhatə dairəsindən bəhs edilir. Tufandan xilas olmaq, Nuhun gəmisi arxa plana keçir.

Tufanla bağlı ümumiləşdirilmiş baxışlara Ahmet Erozun 1990-cı ildə Türkiyə Öyretmenler Vakfı yayınları tərəfindən nəşr edilmiş "Nuh (ə.s.) Tufanı" kitabında rast gəlinir. Təbii ki, kitab hələ Ağrı dağa marağın güclü olduğu, lakin buradan ümidlərin tədricən kəsildiyi bir dövrdə hazırlandığından istiqamət Cudiyə doğru yönəlmişdir. Maraqlıdır ki, kitabda Ağrı dağı da Cudi silsiləsinə daxil edilir. Araşdırmalarda dini, tarixi mənbələrlə yanaşı geoloji tədqiqatlar da önə çəkilir. Lakin hər dəfə mülahizələrə üstünlük verilir.

İshak Üçlerin burada nəşr edilmiş kiçik həcmli "Hz.Nuh (ə.s.)" adlı məqaləsində kəsinliklə gəminin "Cudi" də dayandığı qeyd edilir. Məhz Cudidə, Cudi dağında deyil. Biz dönə-dönə Cudi sözünü vurğulamaqda məqsədimiz

ondan ibarətdir ki, Qurani-Kərimdə Cudi dağı yazılmayıb. Buna görə də Cudi yüksəklik mənasında hər zirvəyə deyilə bilərdi. Müəllif bu məsələnin daha dəqiq araşdırılmasına ehtiyac olduğunu yazır (7, s. 10-11).

Kitabda "Kuranda Nuhun gemisi" yazısında ayrı-ayrı qəzet və dərgilərdə gəmi ilə bağlı baxışlar ümumiləşdirilmişdir.

Məqalələr arasında bizim də yaxından tanıdığımız görkəmli araşdırıcı Salih Bayraktutanın Tufanla bağlı geoloji tədqiqatlarına yer verilmişdir. Onun "Bütün dünya bu neticeyi bekliyordu" yazısında Tufanın dini-elmi cəhətləri ilə yanaşı, ondan siyasi məqsədlərlə də istifadə edildiyini göstərir. Müəllif yazır ki, bir sıra ölkələrdə, o cümlədən Amerikada məsələdən sui-istifadə edərək öz mənafelərini güdmüşlər. Yazıdan bəlli olur ki, ayrıca olaraq hadisəni Ağrı dağı ilə əlaqələndirmədə buranın keçmiş erməni ərazisi olduğunu iddia etmək dayanır (7, s. 28-29). Bu fikir onun "Gemi mucize olarak kaldı" (7, s. 31-35) adlı məqaləsində daha da dərinləşdirilmişdir: "Nuhun gəmisinin Ağrı dağında olduğuna dair heç bir işarətə rastlanmadı. Bir əsrdir çalışırlar. Burada məqsədləri İncili doğrulamaq, bir də bura gələnlərin yüzdə yetmişi ermənidir. Bunların məqsədləri özlərini Nuha bağlamaq və buraların erməni torpağı olduğunu isbat etməkdir (7, s. 34).

Kitabda toplanmış məqalələr içərisində prof.dr. Muvattak Ayvaz və Sarvet Senihin "Destanlarla ilmi araştırmalar iç-içe" yazıları maraq doğurur. Burada bütövlükdə dünyanın ayrı-ayrı bölgələrində Tufandan bəhs edən dastanların olduğu xəbər verilir. Asiyada 13, Avropada 4, Afrikada 5, Avstraliya və Okeaniyada 9, bütövlükdə Amerika qitəsində 37. Beləliklə, Tufan haqqında dünyanın bütün xalqlarında məlumat olduğu bildirilir. Yazılır ki, aparılmış tarixi, arxeoloji, geoloji və digər elmi araşdırmalar, sübut edir ki, dünyada 12-16 min il öncə ciddi su basma olmuşdur (7, s. 48). Bu fikir Dünya Tufanı ilə bağlı Qara

dəniz, Aral gölü, buzların əriməsi nəzəriyyələri ilə üst-üstə düşür. Bu yazıdan və əldə olan digər mənbələrdən bəlli olur ki, iqlim dəyişikliyi bütövlükdə dünyanı əhatə etməklə daha çox adı çəkilən dövrdə baş vermişdir.

Nuh peyğəmbər və Tufanla bağlı məlumata Murad Acının 2006-cı ildə Moskvada "Хранител" nəşriyyatında buraxılmış "Дыхание Армагеддона" kitabında da rast gəlirik. Müəllifin kitabında ayrıca olaraq bu məsələ ilə bağlı "Куда приплыл ковчек Ноя?" başlığı ilə yazı verilmişdir. Bir məsələni qeyd etmək yerinə düşərdi ki, həmin məqalə müəyyən ixtisarla "Şərq qapısı" qəzetində, "Литературная Россия" (16 sentyabr) və "Эхо" qəzetlərində, həmçinin 2005-ci ildə AMEA Naxçıvan Bölməsi "Xəbərlər"in 1№ -də nəşr edilmişdir (64, s. 13-24). Cüzi fərqlərinə baxmayaraq, məqalədə Nuh tufanı ilə bağlı maraqlı məqamlar mövcuddur. Hər şeydən öncə müəllif Naxçıvanla əlaqəli bir sıra məsələləri gündəmə gətirir. Məqalədə Nuh peyğəmbər, onun gəmisi barəsində erməni kilsəsinin tutduğu qeyri-elmi fikirlər təkzib edilmişdir. Belə haqlı tənqidlər müəllifin digər əsərlərində də geniş yer tutur. Murad Acının xristianlıq, xüsusən qriqoryanlıqla bağlı fikirləri, xristian-qriqoryan qıpçaqlar, onların Qafqazda yayılması, ümumiyyətlə, dünya və türk mədəniyyəti, həmin mədəniyyətin digərləri tərəfindən mənimsənilməsi problemləri elm adamlarının ciddi marağına səbəb olmuş və mühüm elmi əhəmiyyətə malikdir. Təbii ki, digər müəlliflər kimi Murad Acının da baxışlarında fərdiçilik, mülahizə tipli cəhətlər vardır ki, onlar elmi mübahisə obyekti ola bilər.

"Gəmiqaya 2005" beynəlxalq ekspedisiyasının tərkibində iştirak edən müəllif məqalənin bir yerində yazır ki, ekspedisiyadakılardan kimlərsə erməni arxeoloqları kimi olmayan şeyləri, maddi nümunələri axtarmağı hədəfə almışlar. Yəni gəminin qalıqlarını tapmaq iddiasında idilər. Hər şeydən öncə həmin ekspedisiyanın üzvlərindən biri kimi onu deməliyəm ki, bizim ekspedisiyada olanlardan heç biri

erməni araşdırıcalarının yolu ilə getmək arzusunda olmayıb. Bu, uğursuz müqayisədir. İkincisi və əsası bizim maddi dəlillər axtarmağa tam haqqımız var. Belə dəlillər təkcə gəminin qalıqları deyil. Gəmi ilə əlaqəli qayaüstü təsvirlər, buradakı qədim inam yerləri maddi dəlillər deyilmi? Bəli, ekspedisiyada belə bir vəzifə də var idi- xalq arasında gəminin dayandığı söylənən yerlər, guya onun əbədi buzlaq hissədə olması, hətta daşlaşması fikirlərini yerində araşdırmaq. Maddi dəlillər deyəndə bunlar nəzərdə tutulmuşdu. Yəni bizlər xalq arasında deyilənləri dəqiqləşdirmək istəyirik. Bu isə erməni araşdırıcılarının yolu deyil. Onlar olmayanları quraşdırıb xalq arasında yayırlar. Onu da deyim ki, maddi axtarışlar nəticəsini verdi. Çox sayda yeni, hətta gəmi olduğu düşünülən təsvirlər, gəmidəki heyvanların bəziləri ilə əlaqəli rəsmlər, ziyarətgahlar aşkar etdik. Bura Murad Acının özünün də yazdığı tanrıçılıqla bağlı məsələləri, arxeoloji tapıntıları, aşkar edilmiş yer adlarını, digər materialları da əlavə etsək, onda maddi sübutlar danılmazdır. Təbii ki, heç bir ağlı başında olan insan düşünmür ki, biz möcüzə görəcəyik, min illər boyu dəyib toxunulmamış bir gəmiyə rast gələcəyik. Amma "Göy-göl"lə bağlı rəvayətdəki gəminin bir qırığının, daha dəqiq desək taxta parçasının ora düşməsi məsələsini və ya xalq arasında kimlərinsə onları gördüyü ilə bağlı söylənənləri də nəzərdən qaçırmaq olmaz. Demək olmaz ki, bunlar mütləq gerçəkdir, amma hər deyilən rəvayət, toponim bir ip ucu ola bilər. Bəli, maddi məsələ belə idi.

Əsərdə Naxçıvanın qədim tarixindən, buradakı bir sıra yer adlarının, o cümlədən Naxçıvan şəhərinin adının Nuh peyğəmbərlə bağlılığından məlumat verilmişdir. Murad Acı yazır ki, bizə maraqlı olan ondan ibarətdir ki, Nuh məsələsi Türk tarixinin səhifələrindəndir. Müəllif Tufanla bağlı rəvayətləri Altay kökənli sayır ki, bu da bir sıra nəzəriyyələrlə tərs düşür. Burada iki məsələyə xüsusi diqqət verilməlidir: Tufan və rəvayətlər. Tufanın harada baş verməsindən daha

çox bizlər üçün maraqlı olan rəvayətlər və yer adlarıdır. Digər yerlərlə bərabər Altayı da Tufanın mərkəzlərindən saymaq olar. Ən azından Murad Acı topladığı materiallara əsasən bu fikrə gəlir. Digər tərəfdən, əvvəlki nəzəriyyələr-Qara dəniz, Aral, Mesopotamiya, Hindistan və s. ilə yanaşı Altay da özünə yer tutur. Lakin gəminin dayanması, Nuh peyğəmbərlə bağlı rəvayət və toponimlər Naxçıvana heç yerdən gəlməyib. Çünki bizlər buranın ilkin sakinləri, rəvayətlərin yaradıcıları olmaqla buradan yayılan məlumatlar sonrakı qayıdışlar, axınlar dövründə müəyyən dəyişikliklərə uğramaqla qıpçaq, hun, daha.qədimdə skif-sak və digər türk soyları ilə yenidən bura gələ bilər. Lakin necə gəlsələr də qədimdən olan variantı dəyişdirə bilməyiblər.

Buradaca bir məsələni qeyd etmək yerinə düşər ki, tufanın harada baş verməsi ilə bağlı Naxçıvanda dəqiq yer göstərilmir. Biz bu məsələdən ayrıca bəhs edəcəyik. Bizlər üçün Tufan başlanandan və başa çatandan sonrakı hadisələr daha maraqlıdır. Yəni yenidən varolma, yeni başlanğıc. Bunları bizə soy bağlılığımız olsa belə kimsə kənardan gətirməyib, İkinci Atanın ilk dayanacağı kimi buradan yayılıb.

Məqalədə yazılır ki, Naxçıvan şəhərinin türk dilində adı "Nuhun dayanacağı", "Nuh çıxan" mənalarını verir və bu toponimin ən azı 2500 il yaşı var. Şəhərdə məskunlaşma isə 3500 il əvvələ aiddir. Əvvəla, qeyd edək ki, toponimin yaşı 2500 ildən qədimdir. Çünki əgər o, Nuh peyğəmbərlə bağlıdırsa, onda söhbət Tufandan sonrakı ilk məskunlaşmadan getməlidir. Bu isə geoloji araşdırmalara görə ən azı e.ə. VI minillikdə baş verib. Yox əgər Ptolomeyin Naksuanası götürülürsə, bu, yazıya daxil olan faktdır. Təbii ki, Naxçıvan toponimi Ptolomeyin yazısından çox əvvəl mövcud idi.

Məskunlaşmaya gəlincə, Naxçıvanda şəhər mədəniyyətinin 5000 ildən artıq tarixə malik olduğu faktdır (bu məsələ ilə bağlı digər müəlliflərlə yanaşı İsa

Həbibbəylinin də maraqlı fikirləri vardır. Həbibbəyli İsa. Naxçıvan şəhərinin yaşı- beş min il. Naxçıvan Muxtar Respublikasının yaranması: Tarix və müasirlik. Bakı: 2007 toplusunda s. 20-27). Ən azından bəzi mənbələrdə Naxçıvan şəhərinin əsasının e.ə. II minilliyin ortasında qoyulması ilə bağlı məlumatlar var. Lakin II Kültəpədə və digər ərazilərdəki arxeoloji qazıntılar daha qədimdən xəbər verir. Buna görə də Naxçıvan ərazisində məskunlaşma, şəhər mədəniyyəti daha qədimdir. Buradaca bir fakta da diqqət yetirməkdə fayda var- Naxçıvan yaşayış yeri və bölgə mənasında. Təbii ki, bölgə anlamında Naxçıvanda məskunlaşma daha qədim dövrlərə aiddir. Unutmayaq ki, burada daş dövrünə aid yaşayış məskənləri mövcuddur.

Murad Acı gəmiyə götürülənlər, oradakı heyvanların totem olması və s. ilə bağlı maraqlı fikirlər söyləyir. Onun Gəmiqaya rəsmləri ilə Altay, Xakasiya, Yakutiya, Qazaxıstan qaya təsvirləri arasındakı müqayisələri vahid mədəniyyətdən xəbər verir. Məqalədə insanların yeddi ildən bir buraya toplanıb Sabantuy keçirməsi ideyası yanlış olmaqla Altaydan bura süni surətdə gətirmədir. Yəni bu Murad Acının təxəyyülüdür. Gəmiqayada hər il gəminin sudan xilas olduğu söylənilən gün, yazın son, yayın birinci günü "Su səpən" adlı mərasim keçirilmişdir. Həmin gün bir sıra adət və inamlara əməl etməklə bərabər müqəddəs hesab edilən, tarixi kimsəyə bəlli olmayan məqamlar ziyarət edilir (55, s. 25-30). Təbii ki, dünya türklərində dağ kultu, tanrıçılıq inamı, yiyələr məsələsi eyni kökə dayandığından onların müxtəlif coğrafi bölgələrdə oxşar, bəzən eyni olması təbiidir. Yəni bu, Altaydan gəlmə deyil. Ümumiyyətlə, tarixdə köhnəlmiş, özünü doğrultmayan bu nəzəriyyə haqqında bir neçə söz deməyi məqsədəuyğun sayırıq. İlk növbədə qeyd edim ki, türkün Altaydan, Orta Asiyadan gəlməsi nəzəriyyəsi Hind-Avropaçılığın, İran-Farsçılığın ortaya atdığı yanlış fikirdir ki, bunları türk toplumlarının qərb istiqamətindəki axınları ilə bağlayırlar. Əsl həqiqətdə Türk burada idi. Gələn axınçılar da

türk idilər. Bir zamanlar şərqə getmiş, Ulu Türkün nəvələri türklər. Onlar qayıtdıqları yerlərdə öz türklərini görürdülər. Ona görə böyük müvəffəqiyyət qazanırdılar. Təbii ki, bəzi bölgələrdə azlıqda ola bilərdilər. Hakimiyyətlərini itirsələr də onlar orada idilər. Bunun ən parlaq misalı 1071-ci ildəki Malazgird döyüşü, oradakı peçeneqlər, qıpçaqlar və digər türklərdir. Bu, bir tarixdir. Danılmaz tarix. Kim nə deyir desin biz Nuh Nəbidən buradayıq. Tufanaqədərki mədəniyyətimizdə mövcuddur.

Müəllifin təsvirlərin çəkilməsi tarixi ilə bağlı fikirləri bizim üçün qəbul edilməzdir: "Художники, которые поднялись на Гямигая на две с половиной тысячи лет раньше нас, изобразили оленей, горных козлов, змей, сцены охоты, сцены быта, оставили пока не вполне понятные ритуальные символы" (87, s. 42). Göründüyü kimi, təsvirlər Dəmir dövrünün ortalarına, bizim e.ə. V əsrə aid edilir. Əldə olan tarixi dəlillər buradakı təsvirləri tarixilik baxımından bir neçə yerə ayırmağa imkan verir. E.ə. IV minillikdən başlayaraq burada təsvirlər çəkilmişdir. Araşdırıcılar arasında bunun daha qədim dövrə aid olduğunu söyləyənlər mövcuddur. Fikirlər nə dərəcədə mübahisəli olsa da IV-III minilliklər qəbul edilir. Təbii ki, sonrakı inkişaf dövründə də təsvir çəkilmişdir. Hətta son dövrün "rəssamları" da cızmaqara etmişlər. Yəni bir ovçu, çoban və s. buradakı hansısa qayaya kobud şəkil çəkib. Lakin tarix tarixiliyində qalır. Gəmiqayadakı qədim təsvirlərin ən azı 5-6 min il yaşı var.

Murad Acının digər bir maraqlı fikri Nuhun dəmirçi kökənli olmasıdır. Müəllif yazır ki, ilk dəmir alətlər, kotan, oraq düzəltmişdir. Digər ədəbiyyatlarda Nuh daha çox dülgər kimi təqdim olunur, hətta dülgərliyin atası sayılır. Məqalənin Azərbaycan dilindəki variantında bu məsələ dolaşıq salınıb. Orada yazılıb ki, qədim türklərin əmək alətləri metaldan olduğu vaxtlarda dünyanın qalan hissəsi mis və bürünc (yəqin ki, tunc-H.Q.Q.) alətlərlə kifayətlənməli

olmuşdur. Yazının orijinalında söhbət ümumi metaldan deyil dəmirdən, daha dəqiq desək rus dilinə "булат"-polad (сталь) adı ilə keçən dəmirdən gedir ki, Murad Acı onu Nuhdan gəlmə sayır. Bir məsələyə də diqqət verilməlidir. Metal ümumi ifadədir. Mis, onun digər metallarla qarışığı olan tunc da metaldır. Yəni Murad Acı adi metaldan bəhs etmir. Elmi ədəbiyyatda Ural- Altay hövzəsində döymə üsulla hələ çox qədimdən polad alındığı bəllidir. Türklərdə bərklik, əyilməzlik rəmzi hesab edilən polad adı da belə meydana gəlmişdir.

Azərbaycan şifahi xalq ədəbiyyatında da göydən düşmə daşdan, meteoritdən, ildırım parçasından döymə üsulu ilə qılınc qayrılması faktları vardır. Nümunə olaraq Koroğlunun Misri qılıncını göstərmək olar.

Buradaca bir məsələyə də öz münasibətimizi bildirməyi vacib sayırıq. Ola bilər ki, metalişləmə sənətində, onun tarixiliyində Qafqaz, daha dəqiq desək, Azərbaycan, Naxçıvan, Sibir, Altay paralelləri olsun. Bu, təbiidir. Bir-biriləri ilə müəyyən genetik bağlara və çox qədimdən tarixi-mədəni, iqtisadi əlaqələrə, oxşar dünya baxışına malik türk soylarında digər sahələrdə olduğu kimi, sənətkarlıqda da uyğun gəlmələr ola bilər. Bu, o demək deyil ki, həmin mədəniyyət bizə gəlmədir. Məncə, hər şeydə Altayçılıq axtarmaq, yerli etnosu və onun mədəniyyətini gəlmə hesab etmək nə elmi, nə də məntiqi baxımdan həqiqətə uyğun deyil. Unutmaq olmaz ki, tarixdə hadisələrin mərkəzində dayanmış, aktiv həyat tərzi keçirən, güclü mədəni-iqtisadi əlaqələrə malik olan elə bir xalq tapılmaz ki, o, təmasda olduğu digər xalqlara nə isə verib, qarşılığında onlardan nəyi isə əxz etməmiş olsun. Bu, tarix elminin, mədəniyyətşünaslığın, sivilliyin qanunudur. Bəzən bu qanunlar nəinsə xatirinə pozulur, kiçik etnoslar aparıcı, hökmedici, yayıcı, tənzimləyici etnosa məxsus cəhətləri, hətta ona məxsus ailə-məişət tərzini, inanclar sistemini özününküləşdirməyə çalışır. Çünki nəhəng millətin içindəki

kiçik, cırtdan etnos zaman-zaman onun parçasına çevirilir, idarəsi altında olmaqla təyinedici amilləri mənimsəyib özününkü sayır. Nəticədə ona iddia etməyə başlayır. Misalı Qafqazda, bütövlükdə 40-cı paraleldə yerləşən əksəriyyət bölgələrdə aparıcı türk etnosuna aid maddi və mənəvi dəyərlərə sahib çıxmağa səy göstərən kiçik etnoslar, daha dəqiq desək, onlardan biri, Murad Acı və çox sayda müəlliflərin də yazdığı kimi əsası türk etnik biliklərdən, xristianlaşmış türklərdən ibarət olan ermənilər. Bəli, bu bir həqiqətdir. Murad Acı da həqiqətə tarixin pəncərəsindən baxır. Məqaləsində hazırkı dövrdə ermənilərin Nuh peyğəmbərə, türklərlə bağlı bir çox maddi və mənəvi dəyərlərə sahib çıxmaq cəhətlərini onların soyca türklərə bağlılığı, zaman keçdikcə türklüklərini itirmələri ilə əlaqələndirir. "...Почему на Ноев ковчек настойчиво претендует Армения? Без ответа на этот вопрос очерк явно будет неполным, к такому выводу пришел я уже в Москве.

Хочет кто-то или нет, но армяне на историю имеют те же права, что тюрки. А вот виноваты ли они в своих дерзких претензиях на нашу историю? Нет. В части армян (в немалой части) дремлет та же генетическая память, та же кровь что в нас" (87, s. 49-50).

Bəli, bu, bizim də ayrı-ayrı yazılarımızda bəhs etdiyimiz tarixi həqiqətdir. Lakin keçmiş tarixi həqiqət. İndi ermənilər bunu qəbul etməməklə türksüz Ermənistan, "Böyük Ermənistan" uğrunda mübarizə aparırlar. Türkün düşməninə çevrilmiş kim olur-olsun, onun türklə bağlı heç nəyə iddia etməyə haqqı yoxdur. Bu haqqı onlara tanımaq məncə, haqsızlıqdır.

O, tarixi faktlara söykənərək ermənilərin böyük əksəriyyətinin əski türklər, hökmdarlarının Ərsaq türk soylu olduğunu yazır. Onların Nuh peyğəmbərə, gəmiyə, dolayısı ilə bəzi məsələlərə iddialarını erməniləşmiş, siyasiləşmiş

türk yaddaşları, keçmiş türklükləri ilə əlaqələndirir. Tarixilik baxımından ideya düzdür. Bu, təkcə onun deyil, çox sayda araşdırıcının, o cümlədən görkəmli türk tarixçiləri F.Kırzıoğlunun, A.Küçuyün, E. Urazın, Y.Kalafatın, sayı siyahıya sığmayacaq alimlərin, hələ 1982-ci ildən başlayaraq bir neçə məqalə və kitablarında bəhs etmiş bizlərin də fikridir. Bütün bunlar tarixdir, xristian-qriqoryan türkün assimiliyasiya edilib "Böyük Ermənistan" ideologiyasına, qonşu dövlətlərin ərazisinə və mədəniyyətinə iddia edən hərbi-siyasi erməniçiliyin mövcud olmadığı, daha dəqiq desək, XIX əsrin əvvəllərinə, bundan sonrakı böyük erməni köçürməçiliyinə, Azərbaycan ərazisini, Doğu Anadolunu Rusiyanın və digər xristian dövlətlərinin erməniləşdirmək siyasətinəqədərki tarix. Onda onların incilləri də, duaları da türk dilində idi, özləri də türkdilli idilər. Zaman keçdikcə köçürülə-köçürülə Kiçik Asiyaya, oradan Güney Qafqaza gətirilən, nəhayət, 1828-ci ildən başlayaraq Azərbaycanın qərb bölgələrinə yerləşdirilib hakim səviyyəsinə qaldırılan, özlərini gah Samın, gah Yafəsin, bəziləri Xamın nəvələri hesab edən qrupun dili aparıcı olmağa başladı. Beləliklə, etnosun arasında xristianlıqdan gələn vahid erməni düşüncəsi formalaşdırıldı, türkçülük əridilib itirildi.

Nuhdan törəmə məsələsinə gəlincə bir məqaləmizdə verdiyimiz kimi, bunlar Nuh övladlarından deyildilər (56). Gəmidə Nuhun ailəsi ilə birlikdə qurtaran bir qrup insanlardan törəyənlərdəndirlər ki, Qurani-Kərimin Hud surəsi, ayə 48-də bu aydın şəkildə göstərilir: "Deyildi ki, Ey Nuh! Sənə və səninlə bərabər olan ümmətlərə bizdən salam və bərəkətlə (gəmidən) en. Onları (dünyada) faydalandıracağımız, sonradan da bizdən onlara ağır əzab gələcək ümmətlərdə olacaqdır". Təbii ki, peyğəmbər övladlarından belə naqislər törəməzdilər. Biz belə düşünürük ki, özlərini əzabkeş adlandıran ermənilər Nuhla bərabər gəmidə olub əzabla müjdələnmişlərdən törəyənlərdir ki, indi

də soylarına uyğun olaraq gəmidə oturub gəmiçi ilə dava edirlər. Nədənsə erməni və türkçülük məsələsində "Kitabi-Dədə Qorqud"da Təpəgöz yadıma düşür. Bir çobanın yasaqları pozaraq pəri qızdan doğulan, Oğuzun başına bəla olan, nəhayət, başı öz qılıncı, hiyləsi ilə kəsilən qanunsuz, zina Təpəgöz.

Bütün mənasında türkə düşmən kəsilmiş, tarixi keçmişindən qopub türk düşüncə tərzini itirmiş, təpədən-dırnağa işğalçılığa, hiyləyə uymuş erməni adlı yığının heç nəyə iddia etməyə haqqı yoxdur. Artıq Murad Acının tərif etdiyi tarixi türk- erməni yoxdur. Beləliklə, onun türkə bağlı, heç nəyə iddiası da ola bilməz.

Ümumiyyətlə, məqalənin adı "Nuhun gəmisi harada üzüb" olsa da Tufanın baş verməsi, gəminin hərəkət yollarından o dərəcədə də geniş bəhs olunmur. Lakin ziddiyyətli olsa da məqalədə Naxçıvan tarixinin və mədəniyyətinin qədim dövrü ilə bağlı maraqlı fikirlər vardır. Mübahisəli cəhətlərinə baxmayaraq Murad Acının Dünya Tufanı və Nuhun gəmisi ilə bağlı fikirləri Nuhşünaslığa fərqli yanaşmaqla onun zənginləşməsinə xidmət edir. Geniş miqyasda məsələnin Naxçıvana, Gəmiqayaya yönəldilməsində də Murad Acının xidmətləri ayrıca qeyd olunmağa layiqdir.

Dünya Tufanı ilə bağlı çoxsaylı əsərlər içərisində rus alimi A.Kondratovun 1982-ci ildə Leninqradda nəşr edilmiş "Великий потоп: мифы и реальность" kitabı (102) diqqəti cəlb edir. Kitabın əvvəlində yazılır ki, Dünya Tufanının xalq arasında uzun müddət yaşamasının başlıca səbəblərindən biri tarixin ayrı-ayrı mərhələlərində müxtəlif coğrafiyalarda baş verən sunamilər, qasırğalar, zəlzələlər və s. təbiət hadisələridir. Çünki belə hallar keçmişi daha çox yad etməyə imkan verir.

Məsələyə başlıca olaraq real hadisələr yönündən baxılan birinci başlıqda XX yüzillikdə dünyanın ayrı-ayrı bölgələrində baş verən subasmalar, sunamilər, daşqınlarla

bağlı müfəssəl məlumat verilir, bu hallara təsir göstərən zəlzələlər, vulkanlar şərh edilir. Başqa sözlə desək, hadisəni görən insanların nəzərində Dünya Tufanının yenidən canlandığı yazılır. Həmin rəqəmlərdən bəzilərini verməklə hansı böyük fəlakətin yaşandığını göstərmək istərdik. 27 aprel 1937-ci ildə Missisipi çayının daşması nəticəsində 72 min km2 sahə sular altında qalmış, 100 milyard kub su toplanmışdır.

22 iyul 1951-ci ildə Missisipi və Missuri çaylarının daşması, ətrafdakı yanacaq çənlərinin Kanzas-Siti şəhərindəki yüksək gərginlikli elektirik xəttinin altına sıxışdırması nəticəsində böyük dəhşət baş vermişdir. Hər tərəfdə güclü partlayışlar, amansız yanğın və dağ boyda dalğalar. Fəlakət əsl Dünya tufanını xatırladır. Nəticədə 600 min insan tamamilə məhv oldu, sularda boğuldu. Dəyən ziyanın ümumi miqdarı 3750 milyard dollar olmuşdur (102, s. 9).

Belə hadisələrin birini də verməklə kifayətlənmək istərdik. Bu dəhşətli təbiət hadisəsi 1958-ci ildə iyulun 9-da Alyaskada, Lutuyya körfəzində baş vermişdir. Müəllif yazır ki, mütəxəssislərin rəyinə görə burada dalğaların hündürlüyü çox yüksək olmuşdur. Bu haqda 1966-cı ildə Moskvada seysmoloq E.Robertsin "Когда сотрясается земля", F.Şepardin "Земля под морем" və İ.A.Rezanovun "Великие катастрофы в истории земли" elmi-kütləvi əsərləri nəşr edilmişdir. Göründüyü kimi, hadisə Dünya Tufanı səviyyəsində təqdim edilməklə yüksək dalğanın yaşayış məntəqəsinə daxil olmasının hansı ağır nəticələr verə biləcəyini təsəvvür etmək mümkün deyil. Bəli, bu dəhşət insan yaşamayan bölgədə, dənizdə olmuşdur.

Bizə elə gəlir ki, belə bir təbiət hadisəsi böyük çayların dənizlərə töküldüyü yerdə, xüsusən 3 tərəfdən quru ilə əhatə olunmuş körfəzlərdə baş versə və həmin çaylar yüksək dalğaların təsirindən geri qayıtsa 100 km-lərlə ərazi yerlə yeksan olar. Bütün bunlar ağılasığmaz tufanın

əlamətidi. Deməli, son 100 ildə dünyanın ayrı-ayrı bölgələrində belə hadisələr baş vemişsə bu qədim dövrdə, bir neçə təbiət hadisəsinin eyni zamanda olması ilə daha böyük coğrafi bölgədə subasma yarada bilər.

Kitabın "Потоп по Библии" bölümündə Bibliyaya əsasən tufanla bağlı 8 əsas şərt göstərilib: 1. Tufanın səbəbi; 2. Onun mexanizmi, yəni belə bir hadisənin necə baş verə bilməsi; 3. Tufanın tempi; 4. Tufanın dayanması; 5. Suyun yüksəlməsi, yəni səviyyəsi; 6. Tufanın əhatə dairəsi. Bu hissədə bir şeyə münasibət bildirməyi vacib sayırıq. Müəllif yazır ki, guya Ağrıdağ (Ararat) quru imiş, yəni onu su basmayıb. Lakin Bibliyada yazılır ki, su bütün dağların zirvəsini örtdü. Onlardan 15 dirsək (təqribən 7 m- H.Q.Q.) yuxarı qalxmışdır. Belə olan halda Araratın (Ağrının) sudan yuxarıda qalması mümkün deyil. Təbii ki, biz bu fikirləri Bibliyaya əsaslanaraq deyirik. 7. Dəyən zərər məsələsi: Nuh və gəmidə olanlardan başqa hər şey məhv olmuşdu; 8. Tufanın tarixi (102, s. 20- 21). Burada müəllifin verdiyi e.ə. 2349 və ya 3553 illəri dəqiq faktlara söykənmir.

Kitabın "Tənqid" adlanan hissəsində Bibliyadakı uyğunsuzluqlar, buradakı hadisələrin qeyri-reallığı onun orijinal olmaması ilə əlaqələndirilir. O, özündən əvvəlki müəlliflərə söykənərək yazır ki, həqiqətən düzgündür ki, müqəddəs kitab iki müxtəlif qoldan, bir-birinə zidd variantdan ibarətdir. Çoxları kimi ona da dünyanın bütün xalqlarının Nuh nəslindən olması inandırıcı görünmür.

Digər tənqid obyekti gəmi ilə bağlıdır. A.Kondratov ölçüləri bəlli olan gəmiyə Nuhun ailəsinin və hər canlıdan deyilən miqdar yığılmasını mümkünsüz sayır. Buna ərzaq məsələsini də əlavə etsək reallığın olmadığı görünür. Bütün sadalanan uyğunsuzluqlar bu sahə ilə məşğul olan araşdırıcıların çoxunu maraqlandırır.

Müəllif Tufanla bağlı demək olar ki, bütün variantlara diqqət yetirir. Bilqamıs dastanı ilə müqayisədə onun Bibliyaya açıq təsirini qeyd edir. Tufanın mexanizmindən

danışarkən ayrı-ayrı təsiredici amilləri göstərir: Zəlzələ, vulkan püskürməsi, sunami, qasırğa və digər təbiət hadisələri. Əgər bunlardan bir neçəsi eyni zamanda baş versə, daha dəhşətli mənzərə yaranar. Gətirilən nümunələrdən aydın olur ki, dünyanın ayrı-ayrı bölgələrində belə hadisələr olubdur.

Əldə olan elmi dəlillərə söykənərək A.Kondratov yazır ki, 20-17 min il bundan əvvəl buzların əriməsi başlamış, nəticədə Dünya Okeanının səviyyəsi ildə 1 sm qalxmışdır. 15000 il bundan əvvəl okean səviyyəsi indikindən təqribən 80 m, 10000 min il əvvəl 20-30 m aşağı olmuşdur. 6000 il əvvəl buzların əriməsi sürətlənmiş, böyük subasma əmələ gəlmişdir. Qara dəniz nəzəriyyəsində göstərdiyimiz kimi hövzələrin dəniz səviyyəsindən aşağıda olan bölgələri su altında qalmışdır. Bu daha çox regional xüsusiyyətli olsa da dünyadan əli üzülmüş, hər yerdən əlaqəsi kəsilmiş insanlar üçün həyatın sonudur.

A.Kondratov arxeoloji və geoloji materialların tutuşdurulması nəticəsində o dövrdə İran körfəzinin indikindən təqribən 200 km qədər şimalda olmasını (bu fikir bir çox müəlliflərdə, o cümlədən ayrıca olaraq bəhs edəcəyimiz R.H.Sultanovda da vardır.), beləliklə, bölgənin daha geniş hissəsini su basdığını göstərir. O rus alimi İ.V.Muşketova əsaslanaraq yazır: "Всемирный потоп-это не местная, а великая, возможно, даже всемирная катастрофа" (102, s. 100-101). Deməli, o Tufanın böyük coğrafi bölgədə yayılmaqla, geniş əhatəli olduğunu yazır.

Belə ümumiləşmələr aparan müəllif Tufanın baş verdiyini, lakin onun dünyəvi deyil, böyük bir coğrafi bölgəni əhatə etdiyini göstərir.

Biz belə hesab edirik ki, Tufanın baş verməsi ilə bağlı müxtəlif xarici ölkə alimlərinin elmi, elmi-publisistik fikirlərini lazımınca təhlil etdik. Əlimizdə olan ədəbiyyat materialları göstərir ki, ümumi ortaq cəhət belədir.

Elə düşünmək olmaz ki, Dünya Tufanı ilə bağlı

Azərbaycan alimlərinin elmi fikirləri yoxdur. Əksinə, Azərbaycanda elmin müxtəlif sahələrində bununla bağlı araşdırmalar aparılmışdır. Həmin araşdırmaları 2 yerə ayırmaq olar. 1. Nuh peyğəmbər və Dünya Tufanı ilə bağlı folklor materiallarının, inamların, dini ədəbiyyatlarda, tarixi mənbələrdə mövcud olan məlumatların araşdırılması. Bununla çox qədim zamanlardan məşğul olmuşlar. 2. Təbiətşünaslıq, geoloji-coğrafi baxımdan araşdırmalar.

1-ci məsələdən ayrıca olaraq bəhs edəcəyik. İndi isə Rəsul Sultanovun 1971-ci ildə, Bakıda nəşr edilmiş "Nuhun Tufanı haqqında həqiqət" kitabının (74) üzərində dayanmaq istərdik. Kitabça 42 səhifədən, giriş və 3 başlıqdan ibarətdir. Əsərin birinci başlığında dəniz dalğalarının əmələ gəlməsi, onun dağıdıcı xüsusiyyətləri elmi şəkildə təhlil edilmişdir. Müəllif özündən əvvəlki tədqiqatçıların fikirlərinə, baş vermiş hadisələr haqqındakı məlumatlara əsaslanaraq güclü təbiət hadisələri nəticəsində böyük subasmaların mümkünlüyünü elmi şəkildə əsaslandırır.

"Nuhun Tufanı haqqında əfsanə, hekayət və bəzi məlumatlar" adlanan ikinci başlıqda Tufanla bağlı rəvayətlərin yayılma arealı, Tövrata və Manu qanunlarına görə daşqının baş vermə səbəbləri, arxeoloji materiallarla hadisənin əlaqəsi, Bilqamıs dastanında subasma ilə əlaqəli süjetlər müqayisəli şəkildə ümumiləşdirilərək təhlil edilir. R.Sultanov 5-6 min il bundan əvvəlki coğrafi şərtləri nəzərə alaraq müxtəlif təbiət hadisələrinin birləşməsi ilə suyun böyük bir ərazini basa bilməsini qanunauyğun sayır.

"Tufanın elmi izahı" adlanan üçüncü başlıqda elmi dəlillərə əsaslanaraq keçmişdə İran körfəzinin indiki sərhəddindən 200-250 km şimalda yerləşdiyi göstərilir. Müəllifin Tufanın Türkmənistanla əlaqəsi fikri diqqəti cəlb edir: "Nuhun Tufanının əmələgəlməsi müddətinin Cənubi Türkmənistanda baş verən hadisələrlə müəyyən dərəcədə əlaqədar olması xüsusi maraq doğurur" (74, s. 35-36). Müəllif qədimdə tayfaların Yaxın Şərqdən yayılmasında,

köçündə bir sıra amillərlə bərabər Nuh Tufanının da rol oynadığını yazır (74, s. 36).

R.Sultanov məsələni ümumiləşdirərək bu fikrə gəlir: "Nəticədə qeyd etmək lazımdır ki, Nuhun Tufanı əslində yerli hadisə olub, böyük tələfat vermiş və onun əsas səbəbi "Sunami" tipli dalğaların qurunu basmasıdır" (74, s. 41).

Ümumiyyətlə, Azərbaycanda Nuh peyğəmbər və Dünya Tufanı ilə bağlı məsələlər XIX əsrdən öyrənilməyə başlanmışdır. İlkin araşdırmalar daha çox xalq arasında və bəzi mənbələrdə mövcud olan rəvayətlərin, müəyyən tarixi məlumatların toplanması olmuşdur.

Naxçıvanda Nuh peyğəmbər və Dünya Tufanı ilə bağlı məlumatlara Orta əsr mənbələrində rast gəlinir. Lakin XIX əsrin əvvələrindən başlayaraq bir sıra yazılarda Naxçıvanın Nuh peyğəmbərlə bağlılığı, peyğəmbərin məzarının bu şəhərdə olması xəbər verilir. Verilən məlumatların bir qismi ziddiyyətli olmaqla birtərəfli mövqedən yazılmışdır. Lakin nə dərəcədə qərəzli olsa da onlar mənbəşünaslıq baxımdan qiymətlidirlər. Təbii ki, belə yazılara tənqidi yanaşılmalıdar. Bu cəhətdən V. Qriqoryevin 1833-cü ildə nəşr edilmiş "Статистические Описание Нахычеванской провинции" kitabındakı məlumat diqqəti cəlb edir. Müəllif Nuhun qəbrinin Naxçıvan şəhərinin cənubunda, Köhnə Qalanın yaxınlığında yerləşdiyini yazmaqla, onun o dövrkü vəziyyəti haqqında məlumat verir (93, s. 67-68). Bundan sonra məzarla bağlı məlumatlara İ.Şopenin əsərində (113, s. 30) rast gəlirik.

Özündən əvvəlki müəlliflərə, xalq arasında mövcud olan rəvayətə Nuh peyğəmbər, Dünya Tufanı, Nuhun və bacısının məzarlarının Naxçıvanda olması ilə bağlı geniş məlumata K.A.Nikitinin 1882-ci ildə СМОМПК adlanan topluda nəşr etdirdiyi "гор. Нахичевань и Нахичеванский уезд" məqaləsində rast gəlirik. Müəllif xalq arasında olan rəvayəti müəyyən dəyişikliklərlə toplamışdır. O da digərləri kimi Bibliyaya əsaslanaraq gəminin Ağrı dağda (Araratda)

dayandığını, sonra Nuh peyğəmbər və ətrafındakıların Naxçıvan şəhərində yerləşdiklərini yazır. Bir sıra orta əsr müəlliflərinə əsaslanan K.A.Nikitin Nuhun və bacısının Naxçıvanda dəfn olunduqlarını qeyd edir (105, s. 110-111). Nuhun arvadının, Nuhqarın (Noemqarı) məzarının Mərənd şəhərində olduğunu bildirir. Müəllif yazır ki, Nuhun məzarı şəhərin cənubunda, köhnə qalanın yaxınlığındadır. K.A.Nikitinin təsvirindən aydın olur ki, türbənin quruluşu Atabəy məqbərəsinə oxşamaqla iki hissədən-Sərdabə və Türbədən ibarət olmuşdur. Aşağıya pilləkənlərlə yenildiyini, həmin hissənin tavanının, bir sütun üzərində dayandığını nəzərə alaraq Naxçıvan memarlıq məktəbinin daha qədim tarixə malik olduğunu söyləməyə imkan verir. Məzarın məhz həmin sütunun altında olduğu göstərilir. Burada bir məsələni qeyd etməkdə fayda vardır ki, son dövrdə Nuhun məzarının olduğu hesab edilən ərazidə aparılan arxeoloji axtarışlar nəticəsində onun mənbələrdə göstərildiyi kimi olduğu aşkar edildi. Yəni tarixi məlumatlar, rəvayətlər, Bəhruz Kəngərlinin tablolarındakı həqiqətlər ortaya çıxarıldı.

Nuh (ə.s.)ın məzarı ilə bağlı V.M.Sısoyevin məlumatları diqqəti daha çox cəlb edir. Müəllif məzarüstü abidənin quruluşu və ölçüləri ilə bağlı yığcam məlumat verir (103, s. 104-106).

Beləliklə, XIX əsrdə və XX əsrin əvvəllərində Nuh peyğəmbər və Naxçıvan məsələsindən geniş olmasa da bəhs edilmişdir. Belə araşdırmalar Sovet hakimiyyəti illərində də davam etdirilmiş, lakin başlıca diqqət təsviri xarakterli məlumatlara verilmişdir. Nuh peyğəmbər və Dünya Tufanı məsələsinə sadəcə əfsanə kimi baxılmışdır. Bunun təsiridir ki, Naxçıvan şəhərinin Orta əsrlər dövrünün tananmış araşdırıcısı mərhum Rauf Məmmədov "Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında" məqaləsində (61,s.11-12) Naxçıvan şəhərinin adının Nuhla əlaqələndirilməsi, onun ilkin yaşayış yeri olması fikirlərini təkzib edir və yazır ki, Nuhun

mövcudluğu qeyri-real olduğundan onun adı ilə bağlanan hər hansı bir fikir də mifdən və əfsanədən başqa bir şey deyildir (s. 14). Bu, o dövrdə Gəmiqaya təsvirlərinin, bir sıra rəvayətlərin, tarixi məlumatların elmə bəlli olmamasından irəli gələn fikirdir. Bizcə, indiki şəraitdə Rauf Məmmədov belə bir ifadəni işlətməzdi.

Sonrakı dövrdə məsələ daha çox folklorşünaslığın, mifologiyanın problemi hesab edilməklə, öz əksini ayrı-ayrı toplularda tapmışdır.

XX əsrin 60-cı illərinin axırlarından adı Nuh peyğəmbər və Dünya Tufanı ilə sıx bağlı olan Gəmiqaya ərazisindən qayaüstü təsvirlərin aşkar edilməsi tədqiqatların yönünü bir qədər dəyişdi. Burada daha çox təsvirlərin öyrənilməsinə diqqət verildi. Elmə əvvəlcədən bəlli olan Qobustan və digər bölgələrdəki təsvirlərlə müəyyən qarşılaşdırmalar aparılsa da, Nuh peyğəmbər və Tufan məsələsi yenə də arxa plana keçirildi.

Ön sözdə deyildiyi kimi, Gəmiqayada Nuh peyğəmbər və Dünya Tufanı fikirləri ilk dəfə mərhum Əbülfəz Hüseyni tərəfindən ortaya qoyuldu. Paralel olaraq Vəli Əliyev öz təşəbbüsü, fədakarlığı ilə burada araşdırmalar aparırdı.

Tədqiqatlar daha çox 2 istiqamətli olduğundan V.Əliyev arxeoloji yönə ağırlıq verməklə təsvirlərin yayılma arealını, onların maddi-mədəniyyət nümunələri üzərindəki rəsmlərlə qarşılıqlı müqayisələrini, buradakı müvəqqəti yaşayış məskənlərinin xarakterik xüsusiyyətlərini araşdırırdı.

Əbülfəz Hüseyni isə təsvirlərin mifoloji tutumuna, onların yazı ilə əlaqələrini öyrənilməsinə böyük üstünlük verirdi. Əbülfəz Hüseyninin bu yöndəki tədqiqatları hələ o vaxtlar erməniləri narahat etməyə başlamışdır. Yaxşı xatırlayıram həmin dövrdə hansısa erməni müəllifi "Армянский вестник" jurnalında, erməni dilində Gəmiqaya ilə bağlı yazı nəşr etdirmişdi. Həmin yazının rus dilində verilmiş xülasəsində Əbülfəz Hüseyninin Gəmiqayada

tədqiqat aparması, onun orada türk yazıları axtarması böyük narazılıqla qarşılanırdı. Çünki onlar Gəmiqayanı erməni abidəsi hesab edirdilər.

Tarixilik baxımından Gəmiqayanı ikinci başlanğıca bağlayan Əbülfəz Hüseyni onu daş dövrü ilə əlaqələndirirdi. Lakin bu daş bizim bildiyimiz tarixin daş dövrü deyil. Tufan hər şeyi məhv etmişdi, müxtəlif əmək vərdişlərinə bələd olan Nuh və ətrafındakılar lazım olan alətlərə malik deyildilər. Belə bir vəziyyətdə Gəmiqayanın vulkanik daşları ən gözəl alətlər idi. Müəllif 1972-ci ildə "Техника и Молодеж" jurnalında bu məsələyə həsr edilmiş "Ермитаж каменного века" (94) adlı yazı nəşr etdirmişdir. Bütün yazılarında Gəmiqayanı gəminin burada dayanması, qayaüstü təsvirlərdə gəmi rəsmlərinin olması ilə əlaqələndirən müəllif abidəni Nuh peyğəmbərlə birgə təqdim edirdi. Xüsusən "Sovet Naxçıvanı" qəzetinin 30 yanvar 1986-cı il № 25 (14-366) sayındakı "Xalqımızın mənlik heykəli" (38) yazısında Tufanın baş verməsi məsələsini önə çəkən Əbülfəz Hüseyni yazırdı ki, müasir elmin sübutuna görə, əfsanəyə çevrilmiş Nuh Tufanı artıq bir həqiqətdir. O, 7500 il əvvəl, başqa cür desək, miladdan əvvəl VI minillikdə məhz bu ərazidə baş vermişdir. Həmin tarixdə Alqaraqda və Ağrıdağda güclü vulkan püskürməsi olmuş, bu bölgədən cənub istiqamətində axan Fərat və Dəclə çayları, eyni zamanda şimal və şərq istiqamətində axan Kür və Araz çayları daşmış, həmçinin güclü yağışlar yağmışdır. Nəticədə planetin bu sahəsində böyük subasma hadisəsi baş vermişdir. Diqqət versək, müəllif tufanı regional hesab etməklə müəyyən bir coğrafi bölgə ilə əlaqələndirir ki, bu da həqiqətə uyğundur.

Təbii ki, Əbülfəz Hüseyni özünəqədərki mənbələrə əsaslanmışdır. Sonrakı dövrlərdə aparılan araşdırmalar e.ə. təqribən VII minillikdə adı keçən bölgədə, xüsusən Qara dəniz, Xəzər-Aral hövzəsində böyük subasmaların olduğu, hətta Ərzuruma qədər bütün regionun su altında qaldığını söyləməyə imkan verir. Deməli, rəhmətlik Əbülfəz

Hüseyninin fikirləri sonrakı tədqiqatlar nəticəsində də təsdiq olunmuşdur.

Əbülfəz Hüseyniyə görə, Nuh astronom olduğundan bu hadisəni əvvəlcədən bilib və gəmi düzəldib. Tufan zamanı gəmi Alqaraqın zirvəsində ilişib qalmış, su çəkildikdən sonra Qaranquş yaylağına enmişlər. Bunun maddi sübutu kimi "Qaranquş" yaylağında çoxlu vulkanik mənşəli daşların, qayaların olduğu göstərilir. "Gəmiqaya" ifadəsini isə qayalardakı gəmi təsvirləri və gəminin qalıqlarının burada olması ilə əlaqələndirilir.

Hər şeydən öncə o dövr üçün Nuh peyğəmbər və Dünya Tufanını gündəmə gətirmək, onu Naxçıvanla bağlamaq həqiqətə gedən yolda ilk addımlardan idi. Olduqca cəsarətli və milli addım.

Müəllif heç bir tərəddüd etmədən Nuh peyğəmbəri Naxçıvanla əlaqələndirir və yazır ki, diqqət etsək, dünya xəritələrinin heç bir yerində Azərbaycan, xüsusilə Naxçıvanda olduğu qədər Nuh adına təsadüf olunmur (38).

Müəllif hələ o dövrdə bu problemin erməniləşdirilməsi məsələsini ön plana çəkirdi. Ona hər tərəfdən hücumlar başlamışdı. Bütün bu hücumlara tab gətirmədi o dağ vüqarlı, başdan ayağa türkçülük ideyası ilə yoğrulmuş, cənub həsrətli insan. Allah rəhmət etsin!

Beləcə, bir ara Əbülfəz Hüseyni yalnız yaddaşlarda qaldı. 30.11. 1990-cı ildə akademik İsa Həbibbəyli onun əziz xatirəsinə həsr etdiyi "Nuhun qəbri haradadır" (34), 06 fevral 1991-ci ildə "Vətən səsi" qəzetində nəşr etdirdiyi eyni adlı məqaləsində, həmçinin "Cəlil Məmmədquluzadənin tərcümeyi-halı" memuarında bu məsələyə dönə-dönə qayıtmış, mən deyərdim ki, 1986-cı ildən sonra bir daha diqqəti Əbülfəz Hüseyniyə və Nuh peyğəmbərə yönəltmişdir. Müəllif Nuh peyğəmbər və Dünya Tufanı ilə bağlı A.Nikitinin verdiyi məlumatı tərcümə və şərh etmişdir. Bu, bir növ Nuh məsələsi ilə bağlı milli dönüş, daha dəqiq desək, Nuh peyğəmbər və Tufan məsələsinə yenidən

qayıdış idi. Sonrakı dövrlərdə bir sıra araşdırıcılardan fərqi olaraq İsa Həbibbəyli problemə 3 yöndən yanaşmağı tövsiyə edir. Nuh peyğəmbər, Naxçıvan və Gəmiqaya. Bundan başqa İsa Həbibbəylinin Gəmiqayadakı qayaüstü təsvirlər, xüsusən gəmi təsvirləri və Nəbi yurdu barəsindəki mülahizələri də ciddi maraq doğurur. Bu tezislər öz əksini müəllifin "Gəmiqayaya tarixi səfər" (35), "Dünya Tufanı və Nuhun gəmisi haqqında yeni elmi versiya" (36), "Gəmiqaya dünyası: Nuh peyğəmbər, Naxçıvan və Gəmiqaya" (36, s. 602-611) yazılarında tapmışdır. Orijinal yanaşmalarla yadda qalan bu yazıların Azərbaycan Nuhşünaslığında özünəməxsus yeri vardır.

Nuh peyğəmbər və Dünya tufanı ilə bağlı Yusif Səfərovun maraqlı araşdırmaları vardır (78). Əsər və məqalələrində (79, 80, 81) Tufanın tarixiliyi, onun qədim şumernamələrlə əlaqələri, eyni zamanda Naxçıvandakı rəvayətlərin tarixi həqiqətlərə uyğunluğu, Tufanın daha çox bu regionla bağlılığı məsələləri araşdırılmışdır.

Bizim 1998-ci ildə Ankarada nəşr edilmiş "Naxçıvanda mukaddesler, eren ve evliyalarla ilgili kutsal yerlər" adlı məqaləmizdə Nuh peyğəmbər və Dünya Tufanının Naxçıvanla bağlı olmasından geniş bəhs edilmişdir (46). Sonrakı dövrlərdə bununla əlaqəli bir neçə yazı nəşr etdirmişik (55; 56; 57).

Nuh peyğəmbər, Tufanla bağlı rəvayətlərin mənşəyi, onun Mesopotamiyaya Azərbaycandan yayılması ilə əlaqəli fikirlər Telman Ağazadənin "Nuhla bağlı düşüncələr" məqaləsində də verilmişdir. O Tufanı birbaşa Naxçıvanla əlaqələndirir (10). Gəmiqaya təsvirləri, onun Tufanla bağlılığı məsələləri Qəzənfər Qədimov və Nazim Babayevin "Следы истории" məqaləsində öz əksini tapmışdır (101).

Gəmiqaya, Nuh peyğəmbər və Naxçıvanla əlaqəli Arif Qədimovun maraqlı fikirləri vardır (54).

Bu problemə diqqəti yönəldən məsələlərdən biri də rus araşdırıcısı Andrey Polyokov və ətrafındakıların 2004-cü

ildə gizli yolla Naxçıvana gəlmələri və buradakı qədim yaşayış məskənləri, ziyarətgahlar və Gəmiqaya ilə bağlı qərəzli, ermənipərəst yazılar nəşr etdirmələri oldu ki, onlara bir sıra müəlliflərlə bərabər biz də yerli və respublika mətbuatında öz münasibətimizi bildirdik.

Bundan sonra müxtəlif mətbuat səhifələrində bu yöndə yazılar nəşr edilməyə başlanmışdır. Naxçıvanın Nuh peyğəmbərlə bağlılığı, Tufandan sonrakı ikinci sivilizasiyanın buradan başlanması ilə əlaqəli bir müddət Naxçvanda fəaliyyət göstərmiş ABŞ-ın Norvest Universitetinin professoru, ADRA-nın regional icraçı direktoru Martı Martincito Fillipis və onun xanımı Qabrielonun maraqlı fikirləri vardır. Onlar vətənlərinə qayıtdıqdan sonra Naxçıvanla bağlı məqalələr nəşr etdirmişlər. Həmin yazılar içərisində Zülfüqar Zülfüqarov tərəfindən ingilis dilindən azərbaycan dilinə tərcümə edilərək "Şərq Qapısı" qəzetində "Allah yurdu Naxçıvan" adı ilə dərc olunan məqalə diqqəti çəkir. Məqalədə bir sıra məsələlərlə yanaşı Nuh peyğəmbər, Dünya Tufanı və Naxçıvanla əlaqəli məqamlar xüsusi yer tutur. Müəlliflər tərəddüd etmədən Nuh peyğəmbərin gəmisinin Naxçıvanda dayandığını, tufandan sonrakı həyatın buradan başlandığını və buranın Allahın yurdu sayıldığı müqəddəs yer olduğunu yazırlar (53). "Naxçıvanın Nuh peyğəmbərlə əlaqəli olmasını versiya kimi qəbul edən məntiqsiz, elmi əsası olmayan iddia sahibləri ola bilərlər. Belə ki, bu torpağın hər qarışı Nuh əlamətlərini bu gün də qoruyub saxlayır. Heç bir sağlam düşüncəli insan Nuh-Naxçıvan əlaqəsinə subyektiv prizmadan baxmamalı, əksinə bu obyektiv gerçəkliyi elmi araşdırmalarla genişləndirməlidir". Müəlliflər fikirlərinə davam edərək yazırlar ki, bu gün Naxçıvan tarixini, mədəniyyətini, arxeologiyasını öyrənməklə Nuh irsinin zənginliklərini aşkarlamaq olar. Baxmayaraq ki, dünyanın bir sıra yerlərində Nuh izinə düşənlər və ya təşəbbüsdə olanlar var, lakin ən inandırıcı, elmi baxımdan obyektiv tədqiqat nəticələri

Naxçıvanla bağlıdır. Yazıda problemlə əlaqəli maraqlı məqamlar mövcuddur ki, biz ondan ayrı-ayrı başlıqlarda bəhs edəcəyik.

Problemlə bağlı Əjdər Fərzəlinin çox sayda kitab və məqalələri nəşr edilmişdir (32). Bu baxımdan müəllifin "Dədə Qorqud yurdu. Naxçıvan-Gəmiqaya-Nuhun gəmisi" məqaləsi diqqəti cəlb edir (31). Bir məsələni qeyd edək ki, bizim Əjdər Fərzəlinin müəyyən fikirləri ilə razılaşmadığımız məqamlar mövcuddur ki, bunlar ayrıca müzakirə mövzusudur.

Son dövrlərdə gənc filoloq Məhsəti İsmayılın bu sahədə maraqlı araşdırmaları vardır. Bu, onun "Naxçıvan əfsanələri" kitabında (43, s. 120-130) və ayrı-ayrı məqalələrində (44) öz əksini tapmışdır.

Gəmiqaya və Nuhun gəmisi ilə bağlı Nizami Alıyevin "Müqəddəs peyğəmbər gəmisi" məqaləsi diqqəti cəlb edir. Müəllif axtarışlar, dəlillər əsasında Gəmiqaya ərazisinə bir neçə qayıq və gəmi təsviri aşkar etdiyini yazır (9). Son dövrlərdə tədqiqatçılar daha çox Gəmiqayadakı təsvirlərin, bununla bağlı məsələlərin öyrənilməsinə diqqət yetirmişlər. Bütün bunlar haqqında akademik İsmayıl Hacıyevin "Gəmiqaya Azərbaycan tarixşünaslığında" məqaləsində hərtərəfli məlumat verildiyindən biz ondan geniş söhbət açmayacağıq (33). Ümumiyyətlə, problemin araşdırılmasında bu sahədə nəşr olunmuş bir sıra əsərlərdən istifadə olunmuşdur ki, onlardan ayra-ayrı bölmələrdə bəhs edəcəyik.

# TUFAN NİYƏ BAŞ VERDİ?

Tufanın baş vermə səbəblərinin araşdırılmasında önəmli məsələlərdən biri həmin dövrdəki sosial münasibətlər, insanların yaşam tərzidir.

Bu məsələyə də iki yöndən yanaşmaq gərəkdir: 1.İnsanların iqtisadi vəziyyəti; 2.İnam, yaradana münasibət.

Ədəbiyyat materiallarına və dini mənbələrə əsaslanaraq demək olar ki, baş vermiş hər hansı bəladan, kütləvi xəstəlikdən və s. bu kimi hallardan əvvəl insanların varlanması, təbəqələşməsi baş verir. Bolluq içərisində olanların əksəriyyəti sərvəti verənə deyil, sərvətə tapınmağa, özlərindən yerdəki illahlar düzəltməyə çalışırlar. Nəticədə özünü tanrı hesab edənlər yaranır. Özgə sözlə desək, insan oğlu Allahlıq iddiasına düşür. Bütün haramlar halal kimi göstərilməyə çalışılır. Allahın qoyduğu qadağan sistemi pozulur.

Bilqamıs dastanı ilə tanışlıq sübut edir ki, tufandan əvvəl insanların yaşayışı yaxşılaşmaqla, bol məhsul əldə etmişlər.

Səmavi dinlərdə Tufanın səbəbi insanların haqdan çıxmaları, bütlərə tapınmaları, fitnə-fəsad törətməklə Nuh peyğəmbərə zülm etmələri ilə izah olunursa Bilqamıs dastanında bunlar yoxdur. Çünki tanrıların tufan istəməsinin səbəbləri bəlli deyil. Dastanda Utnapişti tufanla bağlı olaraq B'.qamısa deyir:

*Şuruppak şəhərini sən yaxşı tanıyırsan.*
*Həmin qədim şəhərə tanrılar yaxındılar,*
*Tufan istədi könlü, ürəkləri onların*
*İstədilər ki, qopsun tufanı tanrıların.* (21, s. 86).

Deməli, elə bir ciddi səbəb olmadan tufan üçün qərar verilmişdir.

Əgər səmavi dinlərdə, xüsusən Qurani-Kərimdə Nuh peyğəmbər Allahdan yolunu azmış qövmün cəzalandırılmasını istəyirsə, "Bilqamıs" dastanında tufan

olacağı barədə Eyadan məlumat alan Utnapişti ona deyir:

*O söz ki, sən söylədin, hökmdar, mənə dedin,*
*Bəs mən ağsaqqallara, xalqa nə cavab verim?* (21, s. 87).

Göründüyü kimi, Utnapiştinin xalqa sevgisi var, onlara bəd xəbər verməkdən çəkinir, idarəçi kimi ağır bir yükün altına girmək istəmir. Tanrıların sirrini, aldıqları qərarı isə açıqlamaq olmaz. Eya ona belə məsləhət verir ki, xalqa Ellilin ona nifrət bəslədiyini, buna görə də bu şəhəri tərk edib Eyanın yanına gedəcəyini bildirsin.

Eyanın məsləhəti zamanı açıqlanan bir məsələ də diqqəti cəlb edir-Tufanqabağı əlamətlər:

*Sizin üstünüzə leysan yağış yağacaq*
*Siz xəbər tutacaqsız balıqların yurdundan.*
*O vaxt quş sehirindən başınız da çıxacaq.*
*Dünyanın hər yerində bol məhsul yetişəcək*
*Səhərdən axşamacan gürşad leysan yağacaq,*
*Gecə buğda yağışı yağacaq yerə göydən* (21, s. 87).

Beləliklə, xalqa bir başa tufan olacağını söyləmək məsləhət görülmür. Əksinə böyük bolluq olacağı, insanların quş dilini biləcəyi və göydən taxıl yağacağı bildirilir. Burada incə bir cəhət var: "Siz xəbər tutacaqsınız balıqların yurdundan"- ifadəsi ilə subasma xəbər verilir.

Diqqəti çəkən bir məsələ də var. Tufandan öncə məhsulun və bərəkətin artması, göydən yerə taxıl yağması. Beləliklə, insanlar tam təmin olunurlar. Hətta quş sehrindən baş çıxarmışlar. Quş sehrindən baş çıxarmaq məsələsi çox güman ki, quş dili bilməklə əlaqəli olaraq söylənmişdir. Beləliklə, insanlar məhv edilməmişdən öncə maddi cəhətdən tam təmin edilmişlər. Utnapişti də şəhər sakinlərinə böyük məclis vermişdir.

*Şəhər sakinlərinə yaxşı bir öküz kəsdim*,
*Hər gün adətim idi mütləq qoyun kəsərdim,*
*Çay suyu qədər xalqa doyunca şərab verdim,*
*Meyvə şirəsi, şərbət-sikera, ağ, al şərab*

*içirdilər o ki, var.*

*Yeni il şənliyi tək kef çəkirdi adamlar.*

Məclisdəkilər elə düşünürdülər ki, Ellil Utnapiştiyə nifrət bəslədiyindən o şəhəri tərk edir, ona görə də belə bir məclis veir.

Dastanın sonrakı misralarından deyilənlərin baş verdiyi, gəmidən kənarda olan hər şeyin məhv olduğu göstərilir. Tufan tanrıların gözlədiyindən dəhşətlidir. Onlar tutduqlarından peşmandırlar. İştar qışqırırdı:

*Kaş ki, həmin o günə daş yağaydı göylərdən*
*Tanrı məşvərətində bu cür qərarım nəydi?*
*Mən ilk dəfə yamanlıq etmək fikrinə düşdüm*
*İnsanlarıma ölüm davasını mən seçdim.*
*Onunçünmü törəyib, çoxaldıram ki, onlar*
*Balıq kimi sulara, dənizlərə dolsunlar?!*

Yuxarıdakı misralardan bəlli olur ki, yaradılmış belə məhv olmağı haqq etməmişdir. Onlar tanrıların yanlış qərarına qurban getmişlər. Bununla tanrıların özləri günaha girmişlər, günahlarının üstünə bir günah da gəlmişdir. Törədilmiş dəhşətli hadisənin günahından qurtarmaq, tufandan xilas olmuş insanları, xüsusən Utnapiştini mükafatlandırmaq üçün tanrılar toplaşırlar. Utnapiştinin qurbankəsmə mərasiminə toplaşan tanrılar Ellili tənbeh edirlər. O isə gəmidə xilas olanlara xeyir-dua verir:

*Utnapişti adam idi*
*indən belə tanrılara tay olacaq!*
*O, əbədi sağ qalacaq,*
*ulu-ulu çaylar üstündə yurd salacaq!*

Beləliklə, Bilqamıs dastanında tufan insanların günahı ucbatından deyil, tanrıların, xüsusən Ellilin istəyinə görə baş vermiş.

"Bibliya"da tufanın baş verməsi haqqında. Bibliyada tufanın baş verməsi səbəblərindən "Varlıq kitabı"nın 6-cı fəslində bəhs olunur. Yazılır ki, Allah insanları yaratmağından peşman olmuşdu. Bu hadisə onda baş

vermişdi ki, yer üzündə insanlar artıb çoxalmış, onların qızları doğulmuşdur. Allahın oğulları onların gözəlliyini görüb seçdiklərini özlərinə arvad etmişlər.

Allah dedi:

- Mənim ruhum bu arvadlarda əbədi qalmayacaq, çünki onlar cisimdirlər. Qoy onların ömrü yüz iyirmi il olsun. Allahın oğullarının insan qızları ilə izdivacından qüvvətli, cüssəli, uşaqlar doğuldu, nəhəng insanlar meydana gəldi.

Bu dövrdən yer üzündə insan şəri artdı. Bütün insan həyatının yalnız şərdən ibarət olduğunu görən Allah insanı yaratdığına peşman oldu və dedi ki, yaratdığım adamları yer üzündən siləcəyəm. Adamdan tutmuş heyvana qədər hamısını siləcəyəm, onları yaratmağıma peşman olmuşam. Nuh isə Allahın mərhəmətini qazanmışdı ona görə onun və ailəsinin xilas edilməsi nəzərdə tutulur. Beləliklə, Bibliyada Tufanın səbəbi kimi Allahın oğlanlarının- insanların qızlar ilə evlənməsi, onlardan nəhənglərin yaranması, nəhayət, insanların şərə uyması göstərilir.

Hər şeydən öncə burada "Allahın oğlanları" ifadəsi qəbul edilməzdir. Yəni Allahın oğlanları deyərkən kimlər nəzərdə tutulur? Digər tərəfdən qadağan sistemi pozulubsa bunu orada yazıldığı kimi Allahın oğlanları etmişlər. Əgər Allahın oğlanları varsa, təbii ki, təktanrıçılıq sistemində bu mümkün deyil. Belə deyim sonralar İsa peyğəmbərlə bağlı da işlədilmişdir. Bizcə, bütün bunlar qədimdə çoxtanrıçılıq sistemindən gəlmə cəhətlər olmaqla Bibliyaya sonralar daxil olmuşdur.

Qədim İkiçayarası, Yunan, Misir əsatirlərinə diqqət yetirsək, tanrı-insan və ya insan-tanrı obrazı xüsusi yer tutur. Bilqamıs dastanında Bilqamıs insan-tanrı kimi təqdim olunur:

O, insandır, yarıdan çoxu tanrıdır ancaq (21, s. 9).

Dastanda tufandan sonra Utnapiştinin tanrılara tay tutulduğu yazılır. Tanrı övladlarının insanla izdivacına, onlardan seçkinlərin törəməsinə, qədim yunan mifologiyasında Axilles, Herakl, Eney və digər qəhrəmanlarla bağlı rast

gəlirik. Rəvayətlər Bilqamıs dastanında da izlənməkdədir. Tanrıların atası sayılan Anunun qızı İştar Bilqamısa evlənmək təklif edir. Bilqamıs isə onun bütün eyiblərini, bir neçə insan oğlu ilə izdivaca daxil olub əxlaqsızlıq etdiyini üzünə deyir. Bundan acıqlanan İştar atası Anunun yanına gəlib Bilqamısı məhv etmək üçün nəhəng buğa yaratmasını istəyir. Deməli, Bibliyadakı Tanrı övladı ilə insanın izdivacı məsələsi buradan qaynaqlanır.

Növbəti düşündürücü məsələ Tanrının oğlanları qadağan sistemini pozmaqla izdivaca girdiyi insan qızlarından törəyən nəhənglər və şərin hakim kəsilməsi məsələsidir. Deməli, yoldan çıxanlar tanrının nəvələridir, məhv olanlar da onlardır.

Guya insanların tutduqları əməllərə görə Allah onları yaratdığına peşman olmuşdur, dolayısı ilə səhv etdiyini bilmişdir. Belə hallar Allaha xas olan sifət deyil. Bu, Allahı aşağılamaqla böyük günahdır. Nuhun məsələsinə gəlincə onun peyğəmbər kimi fəaliyyətindən bəhs olunmadan, xalq arasındakı 600 illik yaşamından söhbət açılmadan Allahın ona rəhm etdiyi göstərilir. İstər-istəməz düşünürsən insanlar yoldan çıxmışdı Nuh peyğəmbər olaraq onları haqqa dəvət etdimi? Hətta Nuhun peyğəmbərliyindən söhbət açılmır.

Burada da Utnapişti ilə Nuh arasında paralelə rast gəlirik. Bilqamıs dastanında ayrıca olaraq Ubar Tufunun oğluna-Utnapiştiyə Tufan olacağı bildirilir. Onun ailə üzvləri gəmiyə minir. Bibliyada isə Nuh və ailəsi. Deməli, bu məsələ də qədim mənbələrdən Bibliyaya daxil edilmişdir. Başlıca fərq ondan ibarətdir ki, Bilqamısda Utnapiştinin ailəsi ilə bərabər nəsli də gəmiyə mindirilir. Bibliyada isə Nuh və ailəsindən başqa heç kimin adı çəkilmir.

Beləliklə, Bibliyada Tufanın baş vermə səbəbləri ziddiyyətli olmaqla insanı yaratmaqda Tanrının peşmançılığına, yoldan çıxdıqlarına görə onları məhv etmək istəyinə bağlanır. Bunun mayasında isə Tanrının oğlanlarının

insanların qızları ilə evlənməsindən törəyənlər dayanır.

Qurani-Kərimdə tufanın baş verməsi səbəbi. Qurani-Kərimdə xəbərdar edilməyən, olunmayan doğru yola dəvət üçün peyğəmbər göndərilməmiş, heç bir qövmə bəla verilmədiyi açıq şəkildə göstərilmişdir.

Qurani-Kərimin ayələrinə əsasən tufanın baş verməsini dörd mərhələyə bölmək olar. 1. İnsanların haqdan çıxıb küfrə iman gətirməsi. 2. Nuh peyğəmbərin düz yola dəvət etmək məqsədi ilə öz qövmünə göndərilməsi. 3. Qövmünün Nuh peyğəmbəri yalanlaması, onu inkar etmələri, iman gətirməmələri. 4. Nuh peyğəmbərin bədduası və Tufan.

İslamla bağlı dini mənbələrə söykənərək İdris əleyhissalamın peyğəmbər olaraq insanların arasına göndərildiyini, onun bir müddətdən sonra göyə qaldırıldığını söyləmək olar. Beləliklə, İdris peyğəmbərdən sonra onun dinini müxtəlif alimlər tətbiq etməyə başladılar. Zaman keçdikcə həmin şəxslər İllahlaşdırıldı. Onların heykəllərini, bütlərini yaratdılar. Tədricən onlara hörmət, təzim o dərəcəyə çatdı ki, bütün aləmlərin yaradıcısına şərik qoşuldu, hətta bütlər yaradıcı yerinə keçirildi. Onlara ibadət edilməyə, insanlar arasında pozğunluq, haqqa üsyan gün-gündən artmağa başladı. Belə bir zamanda Hz. Nuh Allah tərəfindən peyğəmbər olaraq göndərildi. Rəvayətlərə görə bu zaman Hz.Nuhun 50 yaşı vardı. Buradaca bir məsələni qeyd etməkdə yarar var. Nuh (ə.s.)ın peyğəmbərlik müddəti. Nuh peyğəmbərin yaşından danışarkən ondan geniş bəhs edəcəyik. İkincisi və əsası Nuh (ə.s.)ın hansı qəbiləyə və hara peyğəmbər göndərilməsidir. Mənbələrə əsaslanaraq Nuh peyğəmbərin qövmünün Bəni Rasib (69,s.6), yaşadıqları ərazinin İkiçayarası, bəzilərinə görə Kufə olduğunu söyləyə bilərik. Bu məsələləri verməklə tufanın harada baş verdiyinə və hansı qəbiləni suda boğduğuna işarə etmək istəyirik ki, bunun da bir sıra məsələlərə açıqlama gətirməkdə böyük əhəmiyyəti vardır.

Beləliklə, yolunu azan Rasib qəbiləsidir. Allah onları haqqa dəvət etmək üçün Hz.Nuhu peyğəmbər olaraq görəvləndirdi. Çünki peyğəmbər göndərib haqqa dəvət edilmədikcə heç bir qövmə bəla gələ bilməz. (Qəsəs surəsi, ayə 59 )

Deməli, yolunu azmış Rasib tayfasına da peyğəmbər olaraq Hz.Nuh göndərildi: "Biz Nuhu öz tayfasına (peyğəmbər) göndərdik. O dedi: "Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Mən (müsibəti) böyük günün (qiyamət gününün) sizə üz verəcək əzabından qorxuram!" (Əraf surəsi, ayə 59).

"Həqiqətən, Biz Nuhu öz tayfasına peyğəmbər göndərdik. Nuh dedi: "Mən sizi (Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm!" (Hud surəsi, ayə 25).

Xalqı haqqa dəvət etmək Nuh peyğəmbərin əsas vəzifəsi idi. Buna görə də xalqa müraciət edib onları bütlərdən üz döndərib haqqa, Allaha ibadətə çağırır: "Mən sizə Rəbbimin əmrlərini təbliğ edir və öyüd-nəsihət verirəm. Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi bildirirəm" (Əraf surəsi, ayə 62).

"Yoxsa sizi (Allah əzabı ilə) qorxutmaq, sizin də qorxmanız və (bunun nəticəsində) rəhm oluna bilməniz üçün içərinizdən olan bir adam (peyğəmbər) vasitəsilə Rəbbinizdən sizə xəbərdarlıq gəlməsinə təəccüb edirsiniz?" (Əraf surəsi, ayə 63). Sonuncu ayədən bəlli olur ki, yolunu azan insanlar özlərindən birinin onları haqqa çağırmasına xor baxırlar. Elə düşünürlər ki, Hz.Nuh bunun müqabilində müəyyən qazanc əldə etmək istəyir.

"(Nuh) qövmünün kafir başçıları (tabeçiliyində olanlara) dedilər: "Bu sizin kimi yalnız bir insandır (peyğəmbərlik iddiası ilə) sizə böyüklük etmək istəyir. Əgər Allah (ondan başqasına ibadət etməməyimizi) istəsəydi, (bizə peyğəmbər olaraq insan deyil) mələk göndərərdi. Biz bunu (Nuhun təbliğ etdiyi tövhidi) ulu babalarımızdan (keçmiş ümmətlərdən) eşitməmişik" (Muminun surəsi, ayə 24).

Nuh peyğəmbər təbliğ etdikcə qövmündən olanlar onunla münasibətləri daha da kəskinləşdirirdi. Özgə sözlə desək küfür əhli daha da azğınlaşırdı. "Tayfanın başçıları ona: "Biz səni (haqq yoldan) açıq-aydın azmış görürük!" deyə cavab verdilər" (Əraf surəsi, ayə 60). Göründüyü kimi artıq münkəri maarufun yerinə keçirməkdə israr etdilər. Nuh peyğəmbəri yolundan azmış adlandırdılar. Hz. Nuhu ələ salıb gülür, ona dəli deyirdilər: "Bu adamda sadəcə olaraq, bir dəlilik var (ona cin toxunmuşdur). Hələ bir müddət gözləyin!" (ya sağalıb xəstəlikdən xilas olar, bir də belə şeylər danışmaz, ya da ölüb gedər, canımız qurtarar) (Muminun surəsi, ayə 25).

Zaman keçdikcə insanlar daha da azğınlaşırlar, çox az sayda tərəfdarından kənarda olanlar onu ölümlə hədələyirlər: "Onlar dedilər: "Ey Nuh! Əgər (dediyin sözlərdən və bütlərimizi təhqir etməkdən) əl çəkməzsən, mütləq daş-qalaq ediləcəksən!" (Şüara surəsi, ayə 116). Bununla günahları həddini keçən insanlar böyük əzaba daha da yaxınlaşırlar. Peyğəmbərlər Tarixi Ensiklopediyasi 2-ci clddə yazılır ki, Hz.Nuhun təbliğə başlamasından dörd yüz il keçmişdi. Heç nə fayda vermirdi. Hər dəfə onun yanına gəlib döyüb, üzünə torpaq atırdılar. O isə böyük səbirlə başladığı, Allahın əmr etdiyi işi davam etdirirdi (69, s. 14). İş o yerə çatdı ki, onlar açıq şəkildə bəla baş verməsini tələb etməyə başladılar. "Onlar dedilər: "Ey Nuh! Bizimlə çənə-boğaz olub çox mübahisə etdin. Əgər doğru danışanlardansansa, bizi təhdid etdiyin əzabı gətir görək!" (Hud surəsi, ayə 32).

İnsanlar yollarını nə dərəcədə azsalar da Hz.Nuh dözür və Allahdan bəla istəmir. Lakin Rəsuluna edilən zülmə qarşılıq Allah həmin insanlara qıtlıq, quraqlıq göndərir ki, bəlkə ibrət alsınlar. Nuh surəsinin 11-12-ci ayələrindən aydın olur ki, yağmur azalmış, inkar edənlərin mal dövləti, oğul-uşaqı olmamışdır, bağ-bağatları susuz qalmışdır: "O sizə göydən bol yağış göndərər; o sizə mal-dövlət, oğul-uşaq əta edər. O sizin üçün bağlar-bağçalar yaradar və çaylar

axıdar!"

Bir sıra təfsirçilərə görə 40 il ərzində kafirlərin mal-dövləti dağıldı, qısırlıq artdı, uşaqlar doğulmadı. Bu da bir sınaq idi. Uşaqların doğulmamasını tufanda onların məhv edilməsinin yolverilməzliyi ilə əlaqələndirirlər. Çünki kiçik uşaqlar inama görə cəzalandırılmazlar. Digər bir cəhət küfrə inam gətirmiş insanların yeni doğulan uşaqları da özləri kimi tərbiyyə etmələri idi. Nəhayət, Allahdan Nuha vəhy olundu: "Əvvəlcə iman gətirənlərdən başqa tayfandan daha heç kəs iman gətirməyəcək. Onların etdikləri əməllərə görə kədərlənmə! (Biz tezliklə onları məhv edər, səni kafirlərin zülmündən qurtarırıq)" (Hud surəsi, ayə 36). Bundan sonra Hz.Nuhun öz tayfası içərisində peyğəmbərlik vəzifəsi bitir və onun yolunu azmış qövmünə bədduası başlayır ki, bu da tufanın çağırılması deməkdir. "(Nuh) dedi: "Ey Rəbbim! Həqiqətən, qövmüm məni təkzib etdi" (Şuəra surəsi, ayə 117); "Artıq mənimlə onlar arasında sən hökm ver, məni və mənimlə birlikdə olan möminləri bu əzabdan qurtar" (Şuəra surəsi, ayə 118). Bu və digər ayələrdə Nuh peyğəmbər yumuşaq şəkildə Allaha şikayətlənir. Artıq onun fəaliyyətinin bitdiyini, işin ancaq Rəbbinə qaldığını bildirir. Ondan yardım istəyir. Lakin iş sadəcə olaraq yardım istəməklə bitmir, bu yolun azmışlardan intiqam alınması üçün bədduanın başlanmasıdır: "(Nuh) Rəbbinə dua edib: "Mən (öz qövmünün içində) məğlub oldum, buna görə də (Onlardan) intiqam al!- dedi" (Qəmər surəsi, ayə 10).

"Nuh dedi; "Ey Rəbbim! yer üzündə bir nəfər belə kafər qoyma!" (Qəmər surəsi, ayə 26).

"Çünki sən onları (sağ) buraxsan onlar sənin bəndələrini yoldan çıxaracaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub törədəcəklər" (Nuh surəsi, ayə 27).

"Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə (yaxud məscidimə) mömin kimi daxil olan kimsəni və (qiyamət gününə qədər olacaq) bütün mömin kişiləri və qadınları bağışla. Zalımların isə ancaq və ancaq həlakını (ölümünü)

artır!" (Nuh surəsi, ayə 28).

Artıq kafirlərin halakı və onlardan intiqam alınması vaxtı çatdı.

Beləliklə, "Qurani-Kərim"də Tufanın səbəbləri tamamilə aydınlaşır. Bilqamıs dastanından və "Bibliya"dakı məlumatlardan fərqli olaraq, "Qurani-Kərim"də insanı düşdüyü yanlışlıqdan, azdığı yoldan qurtarmaq üçün Nuh peyğəmbər yüz illrlə mübarizə aparır. Sonda kafərlər haqq etdikləri cəzaya çatırlar.

Naxçıvan ərazisindən toplanmış materiallar sübut edir ki, burada da tufanın baş verməsi ilə bağlı rəvayətlərdə başlıca səbəb insanların yolunu azması, küfrə iman gətirməsi olmuşdur.

# GƏMİNİN DÜZƏLDİLMƏSİ VƏ ONUN QURULUŞU HAQQINDA BİR NEÇƏ SÖZ

Dünya tufanının araşdırılmasında ciddi məsələlərdən biri Nuh peyğəmbərin gəmi düzəltməsi ilə bağlıdır. Ayrı-ayrı tarixi mənbələrdə, dastan və rəvayətlərdə Tufan zamanı iman etmiş insanların, müəyyən miqdar heyvanların, xüsusi qaydada hazırlanmış gəmidə xilas olduqlarından söhbət gedir. Tufanın dünyəvi və ya regionallığından asılı olmayaraq bütün rəvayətlərdə, dini mənbələrdə gəminin mövcudluğu mübahisəsiz qəbul edilir. Fikir müxtəlifliyinə baxmayaraq, gəmi xüsusi qaydada düzəldilməklə müəyyən qrup insanların və canlıların bir hissəsini boğulmaqdan qurtarıb, həyatın yenidən davam etməsinə xidmət göstərməli idi. Biz tarixiliyə əməl edərək gəminin düzəldilməsi ilə bağlı müxtəlif fikirlərə nəzər yetirməyə çalışacağıq.

Şumer-Assur mənbələrində Tufanın baş verməsi, Utnapiştinin-Ziusudranın gəmi düzəltməsi, insanların və canlıların bir qisminin tufandan xilas edilmələrindən bəhs olunur. Müqayisəli tutuşdurmalar sübut edir ki, adı çəkilən şəxsiyyətlər seçkinlərdir. Utnapişti haqqında Bilqamıs dastanında yazılır ki, tanrılara tay olub. Dastanda Bilqamısın da müqəddəsliyi, tanrıbədənli olduğu bildirilir (21, s. 8).

Tarixi mənbələrdə Ziusudranın da tanrıyabənzər, tanrısifətli olduğu göstərilir. Hindistanda-dravidlər arasındakı rəvayətə görə Manu da seçkindir. Ona gəmi düzəltməyi balıq bildirir. Manu deyilən kimi edir. Tufan başlayanda balıq gəminin yanına gəlir və Manuya deyir ki, gəminin ipini onun buynuzuna ilişdirsin. Sonra gəmini şimaldakı dağın qayalıqlarına çəkir və Manuya deyir ki, gəminin ipini bağla bir ağaca. Beləliklə, tufan bütün canlıları məhv edir, ancaq Manu və gəmidəkilər qalır.

Məlumatlardan aydın olur ki, adlar müxtəlif olsalar da onlar səmavi dinlərdə Nuh peyğəmbərlə əlaqəli məlumatlara uyğun gəlir. Yəni ayrılıqda həmin seçkinlərlə Nuh

peyğəmbər arasında (xüsusən Utnapişti və Ziusudra) paralellər aparmaq mümkündür.

Tufan məsələsində düşündürücü və təkzibedilməz olan cəhət Tufanın baş verməsi, qurtuluş yolunun isə gəmi vasitəsi ilə olmasıdır.

Öncə "Bilqamıs" dastanına müraciət edək. Dastandan bəlli olur ki, Tufanı tanrılar istəmişlər və məclislərində and içmişlər ki, bununla bağlı insanlara heç bir xəbər verilməyəcəkdir. Lakin, səma gözlü Eya andı pozmayaraq birbaşa insanlara deyil daxmaya bu haqda danışır:

*"Ey daxma, daxma, daxma! Eh divar, divar, divar!*
*Eşit, a daxma! Divar yadda saxla nə ki, var.*
*Şuruppak şəhərində Ubar-Tutunun oğlu!*
*Sökərək mülklərini, onlardan gəmi düzəlt*
*Bu var dövləti tərk et, həyat barədə düşün!*
*Zənginliyə nifrət et, ruhunu xilas elə.*
*Sən bütün canlıları yığıb gəmiyə yüklə.*
*Qoy dördkünc olsun sənin düzəldəcəyin gəmi.*
*Eni də uzununa qoy tən olsun, düz gəlsin,*
*Taxtapuş vurdur ona, örtük çəkdir üstündən!"* (21, s. 87).

Mətndən bəlli olur ki, Utnapişti gəmini Eyanın sözlərindən sonra düzəltməyə başlamışdır. Onun müraciətində, yəni xəbərdarlığında gəminin ölçüləri dəqiq göstərilməsə də dördkünc olmaqla eni, uzunu bərabər düzəldilməli idi. Utnapişti Bilqamısa gəmini 5 günə düzəltdiyini, sahəsini və ölçülərini bildirir.

*"Beşcə günün içində mən banı düzəldərdim*
*Sahəsi bir hektarın üçdə biri olardı.*
*Yanlarının hündürlüyü düz iyirmi dirsək,*
*Üst yanlarının hərəsi, ayrılıqdaca tək-tək.*
*Olardı nə az- nə çox, düz yüz iyirmi dirsək,*
*Naxışlar da düzəltdim, cızdım quruluşunu,*
*Göyərtəyə əməlli dor ağacı bərkitdim,*
*Beləliklə mən onu yeddi hissəyə böldüm.*

*Onun dibini isə doqquz yerə ayırdım.*
*Dibinə lazımınca su mıxçaları çaldım.*
*Sükan seçdim, hər şeyi sonra yerbəyer etdim,*
*Sonra da mən düz üç qab yaxşıca qır əritdim.*
*Düz üç qab qatranı da qarışdırdım onunla.*
*Hamballar gətirdilər üç qab da zeytun yağı*
*Yağlamaqçün gəmidə bir qab yağdan savayı,*
*Sükançı da iki qab zeytun yağı gizlətdi",*
*Utnapişti sözünə davam edərək deyir:*
*Gəmiyə mindim, sonra qatranladım qapını,*
*Gəmiyə qatran çəkən o Puzur-Amurriyə,*
*Bir qəsr bağışladım içinin sərvətiylə"* (21, s. 89).

Dastandan götürülən bu parça gəmi, onun tikinti baxımından quruluşu haqqında tam təsəvvür yaradır. Aydın olur ki, gəmi dördbucaqlı olmaqla beş günə düzəldilmiş, iki bölməyə ayrılmışdır. Yanlarının hündürlüyü hər tərəfdən iyirmi dirsək ucalığında imiş. Sonrakı misralarda üst hissəsinin yüz iyirmi dirsək olduğu göstərilir. Bizcə bu gəminin yanlarının uzunluğudur. Çünki gəmi dördküncdür.

Mətndən bəlli olur ki, gəminin üst hissəsi yeddi, suda qalan hissəsi isə doqquz yerə ayrılıb. Doqquz və ya yeddi deyərkən qat, yaxud bölmə nəzərdə tutulduğu məlum olmur. Burada diqqət veriləcək bir məsələ də vardır- sükançı. Əgər sükan və sükançı varsa gəmi idarə olunmalıdır. Lakin dağıdıcı dalğalarda, dəhşətli fırtınada gəmini idarə etmək mümkün deyil. Digər tərəfdən, gəmi tamamilə örtülüdür. Ona hər iki tərəfdən qır və qatran ərintisi, eşik tərəfdən əlavə örtük çəkilib. Sükançı məsələsi ilə bərabər ehtiyat üçün zeytun yağı götürmək də diqqəti çəkir. Hamballar gəmidəki bir qab zeytun yağından əlavə üç qab da gətirmişlər. Öz növbəsində sükançı da iki qab zeytun yağı gizlədib. Beləliklə, 5 qab zeytun yağı götürüldüyü bəlli olur. Qabların həcmi barədə məlumat verilməsə də onların böyük olduğu diqqəti çəkir. Çünki 3 qab qatran və 3 qab qır qarışığı içəridən və eşikdən gəmiyə çəkilmişdi. Utnapişti Tufanla

bağlı xəbər verilən əlamətləri görəndən sonra gəmiyə minir, qapını da qatranlayırlar. Gəmiyə qatran çəkən Puzur-Amurriyə bir qəsr bağışlayır. Yəni Puzur-Amurri gəmiyə minməyənlərdən olmaqla o qapı ilə bərabər bütün gəmini qatranlamışdır. Beləliklə zeytun yağı gəmini yağlamaq üçün deyil, başqa məqsədlə götürülmüşdür. O sükançıya gərəkdir. Ondan yanacaq kimi istifadə ediləcəyini düşünmək olar. Yəni gəminin yanacaqla işlədiyi fikri yaranır. Bu məsələdən sonra bəhs edəcəyik. Beləliklə Bilqamıs dastanında Utnipiştinin düzəltdirdiyi gəmi tam qapalı olmaqla bir növ sualtı gəmi tipində imiş.. Çünki quruluşuna görə onun heç bir yerindən su dola bilməz. Diqqəti çəkən bir məsələ də gəminin kvadrat formasında olmasıdır. Yəni normal vəziyyətdə gəmi üzmək üçün uzunsov formada olmalıdır. Deməli, bu gəmi adi qaydada üzmək üçün deyil. Çünki Tufan baş verəndə dalğalar hər tərəfdən vurur. Burada istiqamətdən söhbət gedə bilməz. Yəni, qədimdə düzəldilmiş sallar formasında olmaqla hər tərəfdən gələn dalğaları eyni formada qəbul edə bilsin.

Gəminin düzəldilməsi və quruluşu ilə bağlı məlumatlara Bibliyada da rast gəlirik. Varlıq bölməsində yazılır ki, Allah-Təala Nuha bildirdi ki, özünə qofer ağacından gəmi düzəlt. Onun uzunu üç yüz dirsək, eni əlli dirsək, hündürlüyü otuz dirsək olsun. Beləliklə Nuhun gəmisi uzunsov, yəni indiki gəmilər formasında olmuşdur. Burada verilən rəqəmləri, eyni zamanda Utnapiştinin gəmisinin ölçülərini müqayisə edərək bir sıra müəlliflər bu qərara gəlmişlər ki, Utnapiştinin düzəltdiyi gəmi Nuhun gəmisindən təqribən 4 dəfəyə qədər böyük olmuşdur. Ayzek Əzimov hesablamalara əsaslanaraq yazır ki, bir dirsəyi təqribən 46 sm hesablasaq Nuhun gəmisinin Utnapiştinin gəmisindən kiçik olduğunu görərik. Belə ki, Utnapiştinin gəmisi təqribən 165 min kubmetr, Nuhun gəmisi isə 43 min kubmetr olmuşdur (90, s. 268).

Qurani-Kərimdə gəminin ölçüləri ilə bağlı məlumatlar

olmasa da digər dini mənbələrdə onun uzunluğu üç yüz zirə, eni əlli zirə, sudan yuxarı hissəsi otuz zirə kimi qeyd olunur. Bəzi mənbələrdə üç anbarlı olduğu yazılan gəminin uzunluğu 1200, eni 600 zirə göstərilir. Bizcə, bu həqiqəti əks etdirmir. Daha çox əvvəlki mənbələrdən qaynaqlanır. Həqiqəti Allah bilir.

Bibliyada gəminin 3 hissədən-aşağı, ikinci və üçüncü qatlardan ibarət olduğu xəbər verilir. Utnapiştinin gəmisində olduğu kimi, burada da bir pəncərə (gözlük) var. Lakin Utnapiştinini gəmisində bölmələrin sayı daha çoxdur. Yuxarısı yeddi hissəyə, dibi isə 9 yerə ayrılıb.

Gəmi ilə bağlı müxtəlif rəvayətlər mövcuddur. Lakin bunların əksəriyyətində məntiqə sığmayan cəhətlər vardır. Araşdırmalar sübut edir ki, gəminin quruluşu ilə bağlı Qurani-Kərimdəki fikirlər həqiqəti əks etdirir. Çünki Bilqamıs dastanında, Bibliyada və digər mənbələrdəki məlumatlar da gəminin düzəldilməsi birbaşa Utnapiştinin, Nuh peyğəmbərin, Manunun öhdəsinə verilir. Qurani-Kərimdə isə hər şey şanı uca Allahın nəzarəti altında aparılır. "Hud" surəsinin 37-ci ayəsində deyilir: "Nəzarətimiz altında və vəhyimiz üzrə (sənə öyrətdəcəyimiz kimi) gəmini düzəlt, zülm edənlər barədə Mənə müraciət etmə (onların bağışlanmalarını Məndən xahiş etmə). Çünki onlar suda boğulacaqlar!"

"Təfsiri Tibyan"da bu ayənin təfsirində yazılır ki, Cəbrayil (ə.s.) Nuha (ə.s.) gələrək dedi: "Allahu-Təala sənə bir səfinə (gəmi-H.Q.Q.) düzəltməyi əmr edir". O da "mən necə düzəldə bilərəm ki"?- dedi. Cəbrail (ə.s.) "Allahu-Təala sənə, onu düzəltməyi asanlaşdırır və necə düzəltməyin barədə yol göstərir"- dedi (69, s. 26).

Dini mənbələrdən məlum olur ki, Nuh (ə.s.) gəmini övladları və iman edənlərlə birlikdə düzəltmişdir. Yaşadıqları ərazidə istənilən qədər ağac olmadığı üçün ağac bol olan yer seçmişlər.

"Biz (Nuha) belə vəhy etdik: " Gözlərimiz önündə

(nəzarətimiz altında) və vəhyimiz üzrə (sənə öyrədəcəyimiz kimi) gəmini düzəlt". Nəhayət, (onları məhv etmək barəsində) əmrimiz gəldiyi və təndir qaynadığı (təndirdən və ya yer üzündən, yaxud gəminin qazanından su qaynayıb daşdığı) zaman hər heyvandan biri erkək, biri dişi olmaqla bir cüt, həmçinin əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş kimsələr istisna olmaqla, (qalan) ailə üzvlərini (və iman edənləri) gəmiyə mindir. Zülm (küfr) edənlər barəsində Mənə müraciət etmə (onların bağışlanmasını məndən iltimas etmə) çünki onlar suya qərq olacaqlar" (Muminin surəsi, ayə 27).

Hər iki ayədən görünür ki, Nuh peyğəmbər gəmini düzəldərkən icraçı rolunu oynamaqla hər şeyi Allahın göstərişinə əsasən etmişdir. Özgə sözlə desək, nəyi necə etmək onun düşüncəsindən kənarda olmaqla yerinə yetirilirdi. İş belə olunca hər şeyə gücü yetən Allah istədiyi formada gəmini düzəltdirə bilərdi. Bu sözləri verməkdə bir məqsədimiz var. Gəminin Allah tərəfindən idarə olunması, onun mexaniki üsulla işləməsini göstərmək. Ümumiyyətlə, bu məsələ ətrafında ciddi mübahisələr mövcuddur. Mübahisənin mənbəyi Hud surəsində gəminin quruluşu ilə bərabər onun necə işləməsindədir, yəni idarə olunmasındadır. Bəzi müəlliflər gəminin sualtı olduğunu önə çəkirlər. Qeyd edək ki, bu fikir Andrey Polyakov tərəfindən də irəli sürülmüşdür. Hər şeydən öncə, sualtı məsələsinə açıqlama gətirmək istərdik. Mənbələrin məlumatına görə, xüsusən, Bilqamıs dastanından onun tam qapalı olmaqla hətta içəridən və eşikdən qatranlandığı aydın şəkildə yazılmışdır. Oxşar quruluş Bibliyada da vardır. Təbii ki, Tufan zamanı gəmi suların altında qalmalıdır. Yəni, gəmi müəyyən dərinliyə enməlidir ki, dalğalar onu dağıtmasın. Bununla yanaşı, onun suya batan və sudan yuxarıda qalan hissəsi ilə bağlı məlumat vardır. Yəni, Tufan dayandıqdan sonra gəmi su ilə hərəkət etməlidir. Məhz bu dövrdə gəminin necə idarə edilməsi diqqəti çəkir. Əgər o texniki üsulla, ən

azından avar çəkməklə, yelkənlə hərəkət etməsə suların üzərində qalar və sahilə yanaşa bilməz. Quruluşları isə avar çəkməyə və ya yelkən qurmağa imkan vermir. Tufanla bağlı heç bir rəvayətlərdə də belə məlumat yoxdur. Beləliklə Manunun gəmisindən fərqli olaraq Utnapiştinin və Nuh peyğəmbərin gəmiləri idarə ediləndir.

Bilqamıs dastanında gəminin sükanının, sükançının olması, gəmiyə əlavə olaraq zeytun yağının götürülməsi, eyni zamanda sükançının da 2 qab zeytun yağı gizlətməsi. Beləliklə tərcümədə yağlama məqsədi ilə 5 qab yağ götürüldüyü bəlli olur. Sükançının yağı gizlətməsi ondan gəminin idarə edilməsində istifadə olunduğunu söyləməyə inkan verir. Bəllidir ki, çox qədim zamanlardan bitki yağları, xüsusən zeytun yağı ən yaxşı yanacaq hesab olunmuşdur. Deməli, gəminin yanacaqla işləməsi fikri ortaya çıxır.

Qurani-Kərimdə "Hud" surəsinin 40-cı ayəsində bu məsələ daha aydın şəkildə verilmişdir: "Sonunda əmrimiz gəldi və təndir qaynadı". Ayrı-ayrı tərcümə və məallarda "təndir qaynadı" ifadəsinə müxtəlif mənalarda yanaşılır. Təndir deyərkən yerdən suların fışqırması, Kufə məscidinin yerindən su çıxması və buna oxşar bir sıra fikirlər söylənməkdədir. Bir rəvayətə görə Nuh (ə.s.)da Həvva nənədən qalma daş təndir olmuşdur, su həmin təndirdən qaynamışdır. Bunu belə şərh edirlər ki, Nuh peyğəmbər soruşur ki, Ya Rəbbim mən Tufanın başlayacağını nədən bilim? O cavab verir ki, həmin təndirdən su çıxması ilə tufanın başlanmasını sənə xəbər verəcəyik. Onda gəmiyə minin.

Ayədəki "təndir qaynaması" ifadəsini gəminin qazanı mənasında izah edənlər, hətta israrla gəminin mexaniki üsulla işlədiyini söyləyənlər də mövcuddur ki, biz bunun üzərində geniş dayanmaq istərdik. Təndirin qaynaması Tufanın başlanmasından əvvəl baş verir. Lazım olanlar gəmiyə minirlər. Təndir sözü ayədə "Təndir" kimi verilmişdir. Bir sıra islamşünaslar bunu "bağlı ocaq", indiki anlamda

təndir, qazan və s. su qaynatmaq, qızdırmaq mənalarında işlədirlər. Bu, Peyğəmbərlər tarixi ensiklopediyasında açıq olaraq gəminin qazanının qaynaması kimi yorumlanır (69, s. 27-28). Burada müxtəlif mənalarla yanaşı, bəzi alimlər təndirin gəmidəki qazan olduğunu xəbər verməklə "Nuhun (ə.s.) gəmisinin, od yandıraraq, qazanı qaynayaraq hərəkət etdiyini, Qurani-Kərim ayrıca bildirir"- demişlər (69, s. 28).

Ayəni təfsir edən Elmalı M.Hamdi Yazır: "İndi biz gəmidən bəhs edərkən tam ocaq qaynadığı sırada yük əmri verildiyini eşitdiyimiz zaman o gəminin hərəkətə hazır durmuş bir vapur (buxar gəmisi) olduğunu anlamaqda heç tərəddüd etmərik. Lakin vapur görməmiş olanlar, yəni belə bir gəmidən xəbəri olmayanlar onu necə düzəldə bilərdilər? Buna görə də müxtəlif fikirləri ortaya qoyan müəllif hər şeydən öncə Allahın iradəsini nəzərə almağı, gəminin məhz onun hökmünə görə düzəldildiyini nəzərdən qaçırmamağı" tövsiyyə etməklə gəminin mexaniki vasitə ilə hərəkət etdiyini deyir (25, s. 415-416).

Araşdırıcıları çaşdıran təcrübə yəni, həyatında yanacaqla işləyən gəmi olmadan onun necə düzəldilə bilməsidir. Buna ayədə açıq cavab var. Allahın buyuruğu, nəzarəti istəniləni düzəltməyə imkan verir.

Bəzi müəlliflər isə: Əgər Nuh (ə.s.)ın gəmisi motorla işləyirdisə nəyə görə buxar gəmiləri çox sonralar düzəldilmişdir?-deyə soruşurlar.Bu sualın cavabının bir tərəfi yuxarıda verilmişdir (23, s. 234). Allah ancaq Nuha (ə.s.) bunu icra etdirdi. Digər tərəfi "Hud" surəsi ayə 41-də açıqlanır: "Nuh dedi: "Gəmiyə minin! Onun (üzüb) getməsi də, dayanması da Allahın adı ilədir. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir!". Ayədən bəlli olur ki, gəmi Allahın hökmü ilə hərəkət edir. Yəni, o Allah tərəfindən idarə olunur. "Qəmər" surəsinin 14-cü ayəsində bu məsələ tam açıqlığı ilə verilir. Deməli, təkcə hərəkət etməsi deyil, dağıdıcı dalğalardan mühafizə olunması da Allah tərəfindən idi.

Maraqlı məsələlərdən biri də gəminin Tufanda necə

hərəkət etməsidir. Bilqamısda sükançıdan bəhs olunsa da gəminin idarəsi ilə əlaqəli heç bir məlumat verilmir. Bibliyada isə sular qalxdıqdan sonra gəminin üzdüyü göstərilir (Varlıq. 8: 18). Bunun necə baş verdiyi yazılmır.

Qurani-Kərimdə isə hər şeyin Allahın iradəsi ilə baş verdiyi göstərilir: "(Qövmü tərəfindən) inkar edilmiş kimsəyə (Nuha) mükafat olaraq verilən (gəmi) gözümüzün qabağında (nəzarətimiz altında) üzüb gedirdi" (Hud surəsi, ayə 41).

"Həqiqətən hər tərəfi su basdığı zaman (Nuhun tufanı qopduqda) sizi gəmiyə Biz daşıdıq" (Haqqə surəsi, ayə 11).

Yuxarıdakı ayələrdən bəlli olur ki, gəminin hərəkəti, harada dayanması Allahın iradəsi və nəzarəti altında baş vermişdir. Bir məsələni də bildirməkdə fayda vardır. Bu da Nuh (ə.s.)-ın öncədən etdiyi dua ilə bağlıdır. Hələ Tufan başlamamışdan əvvəl onu Nuh (ə.s.)-a xəbər verən Allah bir sıra məsələlərlə yanaşı, gəmiyə minərkən necə hərəkət etməyi də bildirir: "Sən, yanındakılarla birlikdə gəmiyə minən kimi: "Bizi zalım tayfanın əlindən qurtaran Allaha həmd olsun de" (Muminün surəsi, ayə 28).

"Və de ki, "Rəbbim! Məni bərəkətli bir yerə endir. Sən yerləşdirənlərin ən yaxşısısan" (Muminin surəsi, ayə 29).

Allahın hökmündən və Nuh peyğəmbərin duasından, Allahdan istəyindən gəminin hərəkəti, onun gedəcəyi mənzil və dayanacağı yer öncədən müəyyənləşdirilmişdir. Allah onu bərəkətli, mübarək qıldığı bir məqama aparacaqdır.

Hud surəsinin 48-ci ayəsindən Nuh peyğəmbərin duasının qəbul edildiyi və gəminin bərəkətli bir ərazidə dayandığı bəlli olur: "(Allah tərəfindən) deyildi: Ey Nuh, sənə və səninlə birgə olan dəstələr Bizim tərəfimizdən olan salamatlıq, salam və bərəkətlərlə aşağı en..."

Deməli, gəmi salamatlıqla bərəkətli sayılan torpaqda dayanmış və insanların yenidən artımı, mədəniyyətlərin inkişafı buradan başlamışdır.

Maraqlı məsələlərdən biri gəminin düzəldilməsi, onun quruluşu ilə bağlı Naxçıvanda olan rəvayətlərdir. Bunların bir

qismi əvvəlki illərdə toplanıb nəşr etdirilmişdir. "Nuh Tufanı" adı ilə nəşr edilmiş rəvayətdə gəminin düzəldilməsindən bəhs olunur: "Deyilənə görə Nuh Nəbi bilirmiş ki, Tufan baş verəcək, dünyanın üzünü su alacaq. Odur ki, böyük bir gəmi düzəltmək qərarına gəldi. Günbatanda bir meşə var idi. Gün arxasına keçəndə kölgəsi günçıxanı tuturdu. Ağacların gövdəsinə qırx arşın ip-kəndir çatmazdı.

Meşədə Ac adlı bir pəhləvan yaşayırdı. Biləyində öküz zoru var idi. İşi-peşəsi el-obanın ilxısına,naxırına zərər vurmağıydı. Hər öynədə bir öküz yeyir, üstündən üç tuluq su içib doymurdu.

Nuh Nəbi pəhləvanı yanına çağırdı.

-Sənə doyunca yemək verərəm,-dedi. Günbatandakı meşədən bir xeyli ağac kəs.

Ac təəccüblə Nuhdan soruşdu:

- Kişi, sən məni necə doyduracaqsan? Bilirsən ki, mən nə qədər yesəm də, elə acam.

Nuh Nəbi dedi:

- Səbr edib mən deyənə əməl etsən, mən deyən də olar.

Ac razılaşdı.

Nuh onun gücünə görə də balta düzəltdirdi.

Pəhləvan baltanı götürüb ac qurd kimi meşəyə girişdi. On gün bəs deyincə kəsib tökdü.

Nuh pəhləvana bir öküz kəsdi. Ətini qızardıb qabağına qoydular. Pəhləvan öküzün bir budunu yedi, üstündən də bir tuluq su içib geri çəkildi. Doymağına heyrət etdi.

Nuh Nəbi dedi:

- Pəhləvan, bu halal zəhmətin qazancıdır. Onun üçün də doydun. Haram yemək səni doyurmaz.

Pəhləvan o gündən əvvəlki peşəsindən daşındı. Nuh Nəbi sənətkarlıqda mahir olan yeddi nəfər usta çağırdı. Əvvəldən gəminin xərcini verib, razı saldı. Ustalar işə başladı. Bir aydan sonra gəmi hazır oldu" (11,s. 66-67).

Bu rəvayətin digər qolunu (variant) Türkan Qədirzadə Ordubad rayonunun Xurs kəndindən toplamışdır. Rəvayətdə deyilir ki, Nuh peyğəmbər gəminin düzəldilməsi üçün çox nəhəng insan olan Acqulu adlı bir adamdan meşədən odun gətirməsini xahiş edir. Acqulu deyir ki, sən mənim qarnımı doyur, odun gətirim. Nuh peyğəmbər ona deyir ki, sən yeməyə başlayanda "Bismillah" de, doyacaqsan. Acqulu belə edir və doyur. Bundan sonra meşədən odun daşıyır. Nuh peyğəmbər gəmini düzəldir. Lakin yağış yağmır, yəni Tufan baş vermir. Ətrafdakılar Nuha gülürlər, əllərinə keçən zibili gəmiyə doldururlar. Bu Allahın xoşuna gəlmir və həmin əraziyə ağır xəstəlik göndərir. İnsanlar hamısı xəstələnir. Bir gün bir nəfər yenə gəmiyə zibil tökərkən ora yıxılır, zibilə bulaşır. Bundan sonra tamam sağalır. İnsanlar bu xəbəri eşidən kimi gəmiyə doldurulmuş hər cürə natəmizliyi götürüb bədənlərinə sürtürlər. Xəstəlikdən xilas olurlar və gəmini tam təmizləyib onu müqəddəs hesab edirlər. Bəli, Allahın hökmü belədir. Bir zamanlar murdarlamaq üçün gəmiyə atılanlar dərmana çevrilir. Qısa müddətdən sonra insanlar yenidən Nuh peyğəmbərə lağ edirlər. Deyilən Tufanın olmasını istəyirlər. 40 gün 40 gecə yağışlar yağır, yer üzünü su basır (58).

Oxşar rəvayət Dr.Ahmet Bican Ercilasun tərəfindən Qars bölgəsindən toplanmışdır (27, s. 250-251). Bu rəvayət həm gəminin düzəldilməsi, həm də Ac (Acqulu) baxımından oxşarlıq təşkil edir. Burada deyilir ki, Nuh peyğəmbərin qövmü yolunu azdı. Belə olanda Allah ona hökm etdi ki, bir gəmi düzəltsin. Bu vaxt onun dörd yüz iyirmi yaşı var idi. Nuh gəmini düzəltmək üçün ağac gətirməli idi. Burada Burc adlı bir nəfər vardı. O qədər hündür idi ki, Tufan zamanı sular 40 arşın yuxarı qalxdıqda onun aşıqlığına çatmışdı. Bu, Hz.Nuhun yanına gəlib dedi ki, mən sənə lazım olan ağacları gətirərəm, amma sən mənim qarnımı doyurmalısan. Nuh buna razılaşdı. Bir çölməyə bir neçə mərcimək dənəsi atıb qaynatmağa başladı. Burc ağacı yığıb gətirmək istəyərkən

şeytan gəlib dedi ki, Nuh səni aldadır. O bir neçə mərciməyi atıb çölməyə qaynadır. Sən onunla doymazsan. Bunu eşidən Burc ipi tullayıb getmək istəyir. Lakin Allahın hökmü ilə gözəgörünməzlər ağaclara bağlanmış ipi Burca dolayırlar. O da əsəbi halda olduğundan arxasına baxmadan ağacları da sürüyüb gətirir və Nuha deyir ki, mən sənə işləmərəm, çünki məni doyura bilməzsən. Nuh ona buyurur ki, "Bismillah" de, ye. Burc bunu demir, amma Allahın hökmü ilə o yeməyi bitirə bilmir, yəni doyur. Bundan sonra gəmini düzəltməyə başlayırlar. Onun düzəldilməsi 180 il çəkir. Allah Təknus adında bir quş göndərib Nuh peyğəmbərə bildirir ki, gəmini onun quruluşunda düzəlt. Çünki Nuh gəmini necə düzəldəcəyini bilmirdi.

Gəmi üç qat düzəldilmişdi. Alt qata heyvanlar, üst qatda quşlar, orta qatda ailəsi. Bundan sonra Tufanın başlamasından danışılır. Aşuranın 12-ci günü gəmi xilas olur. Nuh peyğəmbər bir qədər buğda, mərcimək, noxud götürüb şorba bişirir. Beləliklə, Aşura yeməyi o vaxtdan, Hz.Nuhdan qalıb. Qeyd edək ki, Anadoluda Aşura yeməyi indi də qalmaqdadır.

Naxçıvanda xalq arasında mövcud olan rəvayətlərdə gəminin böyük gücə malik olduğu göstərilir. Geniş yayılmış rəvayətlərin birində deyilir ki, gəmi hərəkət edərək suyun altında qalmış bir dağa toxunur. Nuh peyğəmbər deyir ki, nə ağır dağdır. Dağın adı qalır Ağırdağ (Ağrıdağ), hərəkət edərək bir dağa da ilişir, gəmi onu yarıb keçir, və Nuh peyğəmbər deyir: "İnan ki dağdır (indiki Haça dağ, İlandağ- H.Q.Q)". Sonradan sular çəkiləndə dağın Haça olduğunu görən insanlar ona Haça dağ deyirlər. Gəmi bir az da hərəkət edib Arazın cənubunda bir dağa ilişir Nuh peyğəmbər deyir: "Kəmkiqaya" yəni, bu qaya, dağ o birisindən kəm deyil. Bundan sonra gəmi şimala doğru hərəkət edir, axırda Gəmiqaya adlanan yerdə qayaya ilişib qalır. Çünki sular azalmışdı, artıq gəmi hərəkət edə bilmirdi. Bu rəvayət gəmi ilə bərabər Tufan, onun Naxçıvanla

bağılığından xəbər verir.

Məhsəti İsmayılın Naxçıvan ərazisindən topladığı və Türkiyənin Ağrı bölgəsində mövcud olan oxşar materiallarla müqayisə apardığı Nuh peyğəmbər və Əhli Beyt məsələsi diqqəti çəkir (44,s. 34-35). Rəvayətlərdən bəlli olur ki, Nuhun gəmisinin dörd tərəfində Əhli Beytdən olanların adları yazılmışdır. Digər bir rəvayətdə qırmızı və göy rəngli yazıların imam Hüseyn və imam Həsənin həyatları ilə bağlı olduğu deyilir. Hər iki rəvayətin yaranma səbəbi islam tarixinə uyğunlaşdırma ilə əlaqələndirilir. Bizcə gəminin ətrafına Əhli Beytdən olanların adlarının yazılması ilə bağlı rəvayət Hz. Peyğəmbərimiz Məhəmməd (s.ə.v.)in Əhli Beyti Nuhun gəmisinə bənzətməsi ilə bağlıdır. Hədisi şəriflərindən birində deyilir: "Mənim Əhli Beytim Nuhun gəmisi kimidir (timsalıdır). Ona minənlər (ora daxil olanlar) xilas olarlar". Bunun böyük anlamı vardır. Yəni islamda "Əba Əhli", "Əbanın altında olanlar"- Hz. Peyğəmbərimiz, Hz. Əli, Hz. Fatimə, Hz. Həsən və Hz. Hüseyn. Bunlardır Əhli Beyt. Buradaca bir Hədisi şərifi də xatırlamaqda fayda vardır. Hz. Peyğəmbərimiz həyatının sonlarında ümmətinə etdiyi vəsiyyət: "Mən sizə iki ağır əmanət buraxıram- biri Allahın Quranı, biri mənim Əhli Beytim. Onlardan sıx-sıx yapışın. Onlardan birini buraxanı mənim Kövsər hovuzumun başına gəlməsinlər".

Əhli Beyt, onun yüksək məqamı, şərafəti, şəfaəti ilə bağlı minlərcə əsərlər yazılmışdır. Allahın bu fağır qulunun da üzərində son tamamlama işləri apardığı "Həzrət Əli dünyası" adlı kitabda bu məsələdən söz açıldığından ondan geniş bəhs etməyəcəyik. Ancaq rəvayətin elə-belə yaranmadığını onun məhz yuxarıdakı Hədisi Şərifə söykəndiyini bildirməkdə fayda var. Müqayisə üçün deyək ki, Nuhun gəmisində onun ailə üzvləri və az bir qism inananlar xilas oldular. Bu hədisin arxasında Nuh peyğəmbəri qəbul edənlərin gəmidə xilas olduqları nümunə göstərilərək Əhli Beyti qəbul edənlərin xilas olacaqları, qeyrilərinin isə Nuhun gəmisindən kənarda qalanlar kimi məhv olacaqları bildirilir.

Beləliklə, xalqın yaratdığı rəvayət gəmini və Əhli Beyti birləşdirib gəminin hərəkətini, xilasolmanı Əhli Beytə bağlayıb. Naxçıvanda bu ənənə belə də qalmaqdadır. Bir müşkil işi aradan qaldırmaq, çətinlikdən qurtarmaq üçün dua edərkən: "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn" deyilir. Bəzən adların qarşısında müraciət formasında "Ya" əlavə edilir. Evləri, əşyaları qorumaq məqsədilə Allahın və Əhli Beytin adlarını yazıb onların üzərindən asmaq adəti də vardır.

Naxçıvanda Nuh peyğəmbərlə bağlı diqqəti çəkən rəvayətlərdən biri müxtəlif mənbələrdə verilmiş "Nuhdaban" adlanır. Ayrı-ayrı müəlliflər tərəifndən rəvayətə müxtəlif yöndən yanaşmalar mövcuddur.

Rəvayətə görə, Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir gun gördülər ki, uca dağlar od tutub yanır. Gəmi oturan dağ da tüstüsüz alova bürünüb. Özləri də od-alovun içindədirlər. Qorxudan bilmədilər neyləsinlər. Haray-həşir salıb bağırdılar.

- Aman Tanrı! Günahımız nədi ki, indiyədək tufanda qaldıq, indi də od-alova düşmüşük.

Amma bu qorxu çox çəkmədi, gördülər ki, od-alov onları yandırmır. Yaşıl çəmənə, gülə, çiçəyə də toxunmur.

- Bu nə sirdir?- dedilər.- Dağ da yanar?

Onlar atalarının yanına gedib bu sirri soruşdular.

Nuh Nəbi dedi:

- Gördüyünüz elə belə od deyil. Sirli, möcüzəli oddur. Bu torpağın mayası oddan yoğrulub. Burda hər şey öz qidasını oddan-alovdan alır. Yanan dağların biri Gəmiqaya, biri İlandağ, biri Ağrı dağıdır. Bu arada yurd salın. Dediyim üç dağ sizə qüvvət, bərəkət verəcək. Bərkdə şərdən, yağıdan qoruyacaq.

Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı, ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi. Oğulları həmin yerdə yurd saldılar, adına da "Nuhdaban" dedilər (11,s. 70).

Bu rəvayətdəki bəzi məqamlara açıqlama gətirməkdə fayda vardır. Hər şeydən öncə bu torpağın bərəkətli olması. Deməli, Nuh peyğəmbərin duası yerinə yetmişdir.

## GƏMİYƏ KİMLƏR MİNMİŞDİR?

Gəmidə xilas olanlarla bağlı müxtəlif fikirlər mövcuddur. Başlıca mübahisə Nuh peyğəmbərin bütün ailə üzvülərinin və digər mömünlərin gəmidə olması ilə bağlıdır. Təbii ki, Nuh peyğəmbərin ailə üzvləri gəmiyə minmişdir. Lakin ayrı-ayrı mənbələrdə ailə üzvlərinin hamısının gəmiyə minməsi ilə bağlı fərqli fikirlər mövcuddur. Həmin məsələyə də tarixi ardıcıllıqla diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

Bilqamıs dastanında verilən məlumatdan aydın olur ki, Utnapişti bütün sərvəti ilə bərabər, ailə üzvlərini və nəsli qohumlarını gəmiyə toplamışdır (21, s. 89).

Beləliklə, gəmidə Utnapiştinin ailəsi və qohumları, yəni seçkin nəsil xilas olmuşdur. Təbii ki, gəmiyə digərləri də götürülə bilərdi. Çünki Tufan insanların yollarını azdıqlarına görə deyil, tanrıların könlü istədikləri üçün baş vermişdir. Belə olduqda hamı gəmiyə minməli idi. Onda tufana ehtiyac qalmazdı. Tufanla bağlı məlumatda bir incə məsələyə də diqqət verilməlidir. Tanrılar qərar qəbul etsələr də bundan narazı olanlar da vardı. Ona görə də Utnapiştiyə məlumat verirlər. Ellilin isə Tufandan sonra gəmini və qurtaranları görərkən bərk qəzəblənir:

*Ellil oraya gəlib gəmini görən kimi,*
*İqıq tanrılarına artdı qəzəbi, kini;*
*"Bu necə ruhdur, görən, salamat qalıb helə,*
*Gərək sağ çıxmayaydı tufandan bir kəs belə"* (21, s. 92).

Dastanda bəlli saydakı insanlarla yanaşı hansı heyvanların xilas olduqları haqqında dəqiq məlumat yoxdur. İstər Eya Utnapiştiyə məsləhət verərkən: "Sən bütün canlıları yığıb gəminə yüklə" deməsindən, istərsə də Utnapişti Bilqamısa olub keçənləri bildirərkən belə məlumat verilmir.

*"Nə heyvanım vardısa*
*o gəmiyə yüklədim.*

*Külfətimi, nəslimi yığışdırdım gəmiyə.*
*Çöl heyvanlarını da yerləşdirdim gəmiyə"- deyir.*

Eyanın məsləhətində bütün canlılar deyilsə də Utnapiştinin məlumatında özünün şəxsi heyvanları ayrıca qeyd edilməklə çöl heyvanlarını da gəmiyə yüklədiyi bildirilir. Bizcə "çöl heyvanları" deyərkən insan həyatı üçün lazımi olanlar nəzərdə tutulmuşdur. Əgər bütün canlılar gəmiyə yüklənsəydi Utnapiştinin öz xalqına Ellilin ona nifrət bəslədiyi üçün şəhəri tərk etdiyini söyləməsi inandırıcı görünməzdi.

Heyvanları az götürməyin başlıca səbəblərindən biri də onların yem məsələsidir. Düşünmək gərəkdir ki, götürülən heyvanların biri digərinin yemidir. Əgər ot yeyənləri ehtiyat yemlə ötüşdürmək mümkünsə, ət yeyən heyvanların qidalanması zor məsələdir. Belə olan təqdirdə çöl heyvanlarından da ot yeyənlər seçilməlidir. Təbii ki, bu bizim qənaətimizə görə belədir.

Bilqamıs dastanından fərqli olaraq Bibliyada gəmiyə mindirilənlərlə bağlı daha geniş məlumat vardır. Məlumatlar nə dərəcədə geniş olsa da bir o qədər də ziddiyyətlidir. "Varlıq" bölümünün birinci babında deyilir ki, Allah Nuha bütün ailəsini gəmiyə yığmağı əmr edir. Həmin bölmənin ikinci babında bütün təmiz heyvanlardan yeddi cüt erkək-dişi, natəmiz heyvanlardan iki cüt olmaqla erkək-dişi, üçüncü babda təmiz quşlardan erkək-dişi olmaqla yeddi cüt, natəmiz quşlardan erkək-dişi olmaqla iki cüt götürmək tələb olunur.

7-ci, 8-ci, 13-15-ci bablarda Nuhun oğlanlarının, həyat yoldaşının, gəlinlərinin, həmçinin təmiz, natəmiz heyvanlardan deyilən qədər, bütün canlılardan bir cüt erkək-dişi götürüldüyü bildirilir. Bir sıra araşdırıcıların da bildirdiyi kimi burada böyük ziddiyyətlər mövcuddur. Hər şeydən öncə təmiz (bizcə ev heyvanları, yəni əti yeyilən, qurban kəsilənlər nəzərdə tutulur) heyvan və quşların hərəsindən erkək və dişi olmaqla 7 cüt götürülməsi böyük rəqəmdir. Buraya bütün canlıların hərəsindən bir cüt də əlavə etsək onların gəmidə yerləşdirilməsi qeyri mümükündür. Problemlə məşğul olan

təbiətşünasların əksəriyyətinin fikri belədir ki, ancaq həşəratlardan deyilən qədər gəmiyə götürülsəydi onları yerləşdirmək olmazdı. Məsələni çətinləşdirən ən ciddi problemlərdən biri də gəmiyə yığılmış saysız-hesabsız canlıları bir il ərzində qidalandırmaqdır. Tutaq ki, ot yeyənlərin problemi həll edildi, hansı ki bu da mümkün deyil, ət yeyənlər hansı ehtiyatla təmin edilmişlər?! Belə müəmmalı sualları problemlə məşğul olan bütün mütəxəssislər verirlər. Cavabında isə Bibliyada göstərilənlərin həqiqətə uyğun olmadığını, məsələnin Allah hökmünün əslini əks etmədiyi, zaman-zaman həqiqətin təhrif edilərək yazıya alındığı ortaya qoyulur.

Biz də Bibliya ilə bağlı yanaşmada eyni mövqedən çıxış edir, lakin çoxunun nəzərindən qaçan bir məsələni də diqqətə çatdırmaq tstəyirik- içməli su. Bəli, bir il müddətində bütün canlılar üçün lazım olan su harada və necə saxlanmışdır? Maraqlıdır ki, Bibliyada yemdən, ərzaqdan bəhs edilsə də sudan söhbət açılmır. Müəmmalı şəkildə olsa da söylənə bilər ki, Tufan nəticəsində yerdən qaynayan və göydən tökülən (yağan) su şirin olmuşdur. Bu mümkündür. Amma Bibliyadan bəlli olur ki, gəmi yeddinci ayın onyeddinci günü Ararat (Ağrı) dağında dayanır. Bu isə Tufanın başlanmasından təqribən 150 gün sonradır. Bu müddət ərzində gəminin qapı və ya pəncərəsi açılmır. Nuh gəminin pəncərəsini ancaq Tufan başlayandan 258 gün sonra açır. (Varlıq 8-ci başlıq, 5-6 cı bab) məncə bu müddətdə gəmidəkilərin istifadə edəcəyi suyun saxlanması mümkünsüzdür.

Yəni, Bibliyanın əslində mənzərənin fərqli olduğu qənaətinə gəlinir. Bütün bunlar bir sıra araşdırıcılarla bərabər, Ayzek Əzimov tərəfindən də ümumiləşdirilərək verilmişdir (90, s. 270-282). O, əsərində digər məsələlərlə yanaşı 6-cı başlığın 21-ci babındakı lazım olan qidanın götürülməsi ilə bağlı hökmü şərh edərək bildirir ki, deməli, Nuh gəmiyə bütün heyvanatın yeyə bildiyi hər cürə qidanı,

bitkini, meyvəni bütövlükdə quruya aid ən azı dörd milyondan artıq növü götürməli idi (90, s. 271-272).

Unutmayaq ki, hökmdə təkcə canlıların xilas edilməsi deyil, bütün bitkilərin də toxumlarının götürülməsi nəzərdə tutulur. Buradaca bir məsələni qeyd etməkdə fayda vardır. Son illərdə Skandinaviyada ola biləsi subasmaya qarşı mövcud bitkilərin toxumlarını 200 ilə qədər qorumaq məqsədi ilə Nuhun gəmisi formasında düzəldilmiş böyük bir sahəyə malik bunkerdə yerləşdirmişlər. Söhbət ancaq toxumlardan gedir. Beləliklə, bu işin nə qədər zor olduğu ortaya çıxmışdır.

Digər problem dünyadakı heyvanlardan götürülməsidir. Burada da bir çox suallar doğur ki, onlar hələ də cavabını tapmayıb ayrı-ayrı bölgələrdəki heyvanlar, məsələn: şimal qütbündəki ağ ayılar, müxtəlif qurşaqlarda yaşayan heyvanlar gəmiyə necə gəldilər? Bu faktiki olaraq mümkün deyil. Deməli, Tufan Bibliyada yazıldığı kimi bütün dünyanı əhatə etməmiş, gəmiyə də bütün heyvanlar alınmamışdır. Çünki onların zaman və məsafə baxımından da gəmiyə gəlib çatması mümkün deyildi.

Bibliyada gəmiyə götürülənlərlə bağlı maraqlı məsələlərdən biri də Nuhun ailəsindən başqa kimsədən bəhs olunmamasıdır. "Bilqamıs"da Utnapiştinin bütün ailə üzvlərini və nəslin gəmiyə yerləşdiyi söylənilir. Corc Frezer bir sıra mənbələrə əsaslanaraq gəmidə Nuhun ailəsindən başqa yalan və bədxah (bədniyyət) adlı 2 nəfərin də olduğu, qalanların, yəni günahlıların gəmiyə buraxılmadığını qeyd edir. Qədim yəhudi mənbələrinə əsaslanan müəllif gəminin ətrafında yeddi yüz min günahlının olduğunu, onların bir hissəsinin gəmidəki vəhşilər tərəfindən parçalandığını, qalanlarının isə suda boğulduqlarını yazır (111, s. 83).

Qurani-Kərimdə əvvəlkilərdən fərqli olaraq bütün məsələlər anlaşıqlı və aydın şəkildə verilmişdir. Allahı və onun peyğəmbərini inkar edən toplum suda boğulacaqdı: "Nuha belə vəhy olundu: "Əvvəlcə iman gətirənlərdən başqa

tayfandan daha heç kəs iman gətirməyəcək. Onların etdikləri əməllərə görə kədərlənmə! (Biz tezliklə onları məhv edər, səni kafirlərin zülmündən qurtararıq!)" (Hud surəsi, ayə 36).

"Nəhayət, (onları məhv etmək barəsində) əmriniz gəldi və təndir qaynadığı (təndirdən və ya yer üzündən, yaxud gəminin qazanından su qaynayıb dağıldığı) zaman (Nuha) dedik: "Hər heyvandan bir erkək, bir dişi olmaqla bir cüt, həmçinin əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla, qalan ailə üzvlərini və iman gətirənləri gəmiyə mindir!" Əslində onunla birlikdə (tayfasından) çox az adam iman gətirmişdi (Hud surəsi, ayə 40). Mümininin surəsinin 27-ci ayəsində də hər heyvandan bir cüt, ailə üzvlərindən iman gətirənlərin və az miqdarda da olsa digər iman edənlərin gəmiyə götürüldüyü bəlli olur.

"Buna görə də biz onu (Nuhu) və onunla birlikdə yüklü gəmidə olanları xilas etdik" (Şuəra surəsi, ayə 119). Ayələrdən göründüyü kimi, Nuh peyğəmbər, onun ailəsi ilə bərabər müəyyən sayda iman gətirmişlər, eyni zamanda, hər canlıdan erkək-dişi olmaqla bir cütü gəmiyə götürülmüşdür. Bir sıra mənbələrdə iman edənlərin 80 nəfər olduğu yazılır.

Naxçıvan ərazisindən toplanmış materiallar sübut edir ki, gəmidə xilas olanlar arasında Nuh peyğəmbərin arvadı və bacısı vardır. Rəvayətə görə Nuhun arvadı Nuhəmzər Mərənd şəhərində, bacısı isə Naxçıvan şəhərinin qərbindəki təpədə dəfn edilmişdir. Bu haqda tarixi mənbələrdə geniş məlumat vardır. Nuhəmzər adı çox güman ki, Nuhun arvadı anlamındadır. K.A.Nikitin həmin mənanı verən Noemqara (Nuhun qarısı- H.Q.Q.) adını da təqdim edir (105, s. 8). Bəzi müəlliflər rus dilindən tərcümə edərkən yanlış olaraq Nuh sözünü Noe, Nux, Noy kimi saxlamaqla axırına qadın mənasında işlədilən sözü əlavə edirlər. Xalq arasında mövcud olan həmin məlumat bizdə müəyyən çaşqınlıq yaratmışdı. Çünki, "Qurani-Kərim"də Nuh peyğəmbərin arvadı ilə bağlı ayədə o lənətlənmişlərdən, kafirlərdən sayılır:

"Allahı inkar edənlərə, Nuhun arvadı ilə Lutun arvadını misal göstərdi. Bu ikisi qullarımızdan iki salih kişinin nigahları altında ikən onlara xainlik etdilər. Ərləri onları Allahdan gələn əzabdan heç bir vəclə qurtara bilmədilər. Onlara deyildi: "Haydı atəşə girənlərlə bərabər siz də girin" (Təhrim surəsi, ayə 10).

Deməli, o gəmiyə götürülməyib. Belə olduqda Naxçıvandakı rəvayətin necə yaranması maraqlı idi. Biz Mərənddə olarkən məzarla bağlı məlumat toplamışdıq. Yəni Naxçıvandakı rəvayət burada da yayılmışdır.

Məsələni araşdırarkən bəlli oldu ki, Nuh peyğəmbərin 2 arvadı olmuşdur. Gəmiyə götürülən Sam, Xam və Yafəsin analarıdır ki, mənbələrdə Nuhəmzər, Nuhqara kimi getmişdir. Qəbiri Mərəndə şəhərində olan məhz həmin saleһə qadındır.

Dini mənbələrdə həmin qadının adı Amurə kimi göstərilir: "Hz.Nuh ilk öncə, iman etmiş olan Amurə adında bir xanımla evlənmişdir. Bundan olan oğlanları və bunların xanımları yəni, Hz Nuhun gəlinləri də mömin idi. Bunların hamısı gəmiyə minmişdi. İkinci arvadı, əvvəlcə iman etmiş olan Vailə isə daha sonra, imandan ayrılmış, mürtəd olmuşdu. Hz.Nuhun bu qadından doğulan oğlu Yam, yəni Kənan da atasına iman etməmişdi" (69, s. 28).

Sonrakı dövrdə Vailə Nuha həqarət və xainlik etmiş, ona dəli deməklə gizli sirlərini düşmənlərinə bildirmişdir. Beləliklə, lənətlənərək gəmiyə minməmişdir. Eyni zamanda, Kənan da gəmiyə minməyənlərdəndir. Diqqət versək, gəmiyə götürüləcək olanlarla bağlı ayələrdə "...həmçinin əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla, qalan ailə üzvlərini və iman gətirənləri gəmiyə mindir" deyilmişdir. Əleyhinə (ölümünə) əvvəlcədən hökm verilənlər deyərkən Vailə və Kənan nəzərdə tutulur. Deməli, onlar gəmiyə minə bilməzdilər. Lakin Hud surəsinin 42-ci ayəsindən bəlli olur ki, Nuh peyğəmbərin ata sevgisi üstün gəlir: "Gəmi onları dağlar kimi (yüksək) dalğaların içi

ilə apardığı zaman Nuh (gəmidən) aralı olan oğlunu (Kənanı) haraylayıb dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!". Lakin Kənan ona qulaq asmır.

"Nuh Rəbbinə (dua ilə) müraciət edib dedi: "Ey Rəbbim! Oğlum (Kənan) mənim ailə üzvlərimdəndir. Sənin vədin, sözsüz ki, haqdır. Sən hakimlər hakimisən" (Hud surəsi, ayə 45). Hz.Nuh bu istəkdə olarkən Allahın ona ailə üzvlərini qurtaracağını vəd etdiyini nəzərə almışdı. Lakin Hud surəsinin 40-cı ayəsində açıq şəkildə bildirilir. "...əleyhinə (ölümünə) əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla qalan ailə üzvlərini. "(Allah) buyurdu: "Ey Nuh! O sənin ailənədən deyildir. Çünki o (küfür etməklə) pis bir iş görmüşdür. (Və ya sənin Məndən onu xilas etmək xahişin yaxşı iş deyildir). Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı tövsiyyə edirəm (məsləhət görürəm)" (Hud surəsi, ayə 46). Beləliklə, Nuh peyğəmbərin arvadı və həmin arvaddan olan oğlu Kənan (Yam) boğulanlardan olurlar.

Biz Nuhun (ə.s.) ailəsi ilə bağlı "Qurani-Kərim"də və bir sıra dini ədəbiyyatlarda mövcud olan fikirləri açıqladıq. Bibliyadan qaynaqlanan bəzi mənbələrdə müxtəlif rəvayətlər mövcuddur. Təbii ki, bizim başlıca məqsədimiz onlardan geniş bəhs etmək olmadığından bu qədəri ilə kifayətlənirik.

# TUFAN NƏ MÜDDƏTDƏ DAVAM ETMİŞDİR?

Dünya tufanının araşdırılmasında ciddi diqqət verilən məsələlərdən biri onun nə müddətə davam etməsidir. Təbii ki, bu məsələdə də başlıca mənbə qədim şumernamələr, Bibliya, Qurani-Kərim, müxtəlif dini ədəbiyyatlar və rəvayətlərdir. Ənənəyə uyğun olaraq məsələnin aydınlaşdırılmasına Bilqamıs dastanından başlamaq istərdik. Dastanda deyilir:

Birinci gün cənubdan dəli küləklər əsdi.

Deməli, ilk əvvəl dağıdıcı küləklər əsmiş, özü ilə böyük buludlar, toz-duman gətirmiş, hər yeri qaranlıqlar bürümüşdür. Elə bir dəhşət baş vermişdir ki, könülləri tufan istəyən tanrılar vahiməyə düşmüş öz məqamlarını tərk edib Anunun səmasına köçmüşlər:

*Altı gün yeddi gecə dəli küləklər əsir,*
*Tufanlar yer üzünü daşqınlara bürüyür.*
*Bu cürə qovğa ilə gəlib yeddi gün oldu,*
*Daşqın tamam dayandı, qasırğalar sovuşdu,*
*Mən nəfəsliyi açdım, üzümə işıq düşdü.*
*Baxdım sakit dənizə, gördüm qəzəbi sönüb*
*Bütün bəşəriyyətsə tamam torpağa dönüb*
*Yerlə yeksan olmuşdu, dünya dümdüz dam kimi* (21, s. 91)

Yuxarıdakı mətndən bəlli olur ki, tufan 7 gün davam etmiş, nəticədə ətrafda nə varsa məhv olmuş, böyük dəniz əmələ gəlmişdir. Beləliklə, 7 gün sonra tufan sakitləşmiş, gəmi Nisir dağında dayanmış, burada da 7 gün durduqdan sonra Utnapişti quşları buraxmışdır, quzğun gedib qurunu tapmışdır. Dastanda quşların buraxılması ilə bağlı vaxt göstərilmir. Amma buraxılan quşların uzağa uçmaq qabiliyyətinə görə onlar arasında çox müddət keçmədiyi bəlli olur. Çünki ilk olaraq göyərçin buraxılır. Bəllidir ki, göyərçin tez-tez qanad çalmaqla uzaq məsafəyə uça bilmir. Bundan sonra daha sürətli uçmağa malik olan qaranquş buraxılır, sonra isə quzğun gedib qurunu tapır.

Beləliklə, tufanın başlanması, başa çatması 14 gün

çəkmişdir. Dastanda göstərilməsə də quşların buraxılmasının bir neçə gün, şərti olaraq 7 gün çəkdiyini nəzərə alsaq, gəmi və içərisindəkilər 21 günə quruya çıxmışlar. Quşların buraxılmasını ona görə şərti olaraq 7 gün hesablayırıq ki, dastanda bir sıra məsələlər 7 gün müddətində baş verir (Bilqamıs Enkuduya 6 gecə, 7 gün ağlayır, onu ölümündən danışarkən 7 gecə, 6 gün keçdiyini deyir. Bilqamıs Utnapiştinin yanında 7 gün yatır və s.). Dastanda göstərilən vaxt müqayisədə uzunmüddətli olmamaqla yaşamaq üçün əlverişlidir. Məhz belə qısa müddətdə gəmiyə götürülmüş insanları və digər canlıları yeyəcək və içəcəklə təmin etmək mümkündür.

Eyni fikirləri Bibliyadakı məlumatlarla bağlı söyləyə bilmərik. Çünki Bibliyada tufanın bir il davam etdiyi göstərilir. Burada tufanın vaxtı ilə bağlı məlumata bir neçə yerdə rast gəlirik: "7 gündən sonra mən yer üzünə 40 gün-40 gecə yağış yağdıracağam, mənim yaratdığım bütün canlılar yer üzündən silinəcəkdir" (7-1-ci bab). Deməli, 40 gün- 40 gecə yağış yağacaqdır. Bu rəqəmin özü maraqlıdır. Dünyanın müxtəlif ölkələrində və xalqlarında 40 rəqəminin müqəddəsliyi, bir hadisənin 40 gün davam etməsi və ya başa çatması türk xalqları, o cümlədən Azərbaycan türkləri arasında da geniş yayılmışdır.

Allahın xəbərdarlığından aydın olur ki, tufan 40 gün davam edəcəkdir. Tufan başlanan vaxt Nuhun 600 yaşı olduğu bildirilir. 11-ci babda yazılır ki, Nuhun 600 yaşı olarkən, ikinci ayın 17-ci günü yerlərdən bulaqlar fışqırdı, göylərin pəncərələri açıldı. Yəni əvvəldə deyildiyi kimi yer üzünün su basmağa başladı. Beləliklə, yer üzünü 40 gün-40 gecə sel basdı (10-17-ci bab), sular artdıqca gəmi suyun üzünə qalxdı. Sular o dərəcədə yüksəldi ki, yer üzündəki bütün dağlar onun altında qaldı, sular ən yüksək dağdan 15 dirsək (yəni təqribən 7 m. H.Q.) yuxarı qılxdı. Bütün bu məsələlər ayrı-ayrı araşdırıcılar tərəfindən mübahisəli qəbul edilməkdədir. Yəni bunun baş verməsi mümkünsüz sayılır.

Bibliyada qeyd edilir ki, bundan sonra yer üzərində nə varsa hamısı məhv olur. Deməli, bütün bu proseslər 40 gün müddətində davam edir. Allahın hökmüdə belə idi- 40 gün 40 gecə. Lakin 24-cü babda "su yer üzündə 150 gün gücləndi" deyilməsi böyük çaşqınlıq yaradır. Hər şeydən öncə Allahın 40 gün buyurduğu Tufan necə ola bilər ki, 150 gün güclənsin? Əgər yağışlar kəsilmiş, yerdən fışqıran bulaqlar dayanmışsa suyun artması necə baş verə bilər? Belə çıxır ki, suların yüksəlməsi 5 ay müddətində davam etmişdir.

8-ci bölümün 1-ci babında deyilir ki, Allah Nuh və gəmidəkiləri xatırladı, yer üzünə külək göndərdi, su dayandı. Burdan belə çıxır ki, hadisə Allahın nəzərindən yayınmış, 150 gündən sonra xatırlamışdır. Bizcə bütün bunlar həqiqəti əks etdirməməklə Allahın kitabında olduğu kimi deyil, sonradan qələmə alanların yozumudur. Hər şeydən öncə 5 ay müddətində sular nəyə görə artmışdır? İkincisi küləyin göndərilməsinin suların çəkilməsi, dayanması ilə nə əlaqəsi var? Bu sualların cavabını sonrakı babda görmək mümkündür. "Dibsiz bulaqlar və göyün pəncərələri bağlandı, yağışlar kəsildi". Açıq görünür ki, yerdən su fışqırması və yağışlar 150 gün davam etmişdir. Bu isə əvvəldən bəhs etdiyimiz 7-ci bölümün 10-12-ci bablarına tərs düşür. Orada 40 gün dəqiq olaraq göstərilmişdir. Yenə sual doğur. Allahın vədi dəyişərmi? Təbii ki, yox. Bu məntiqsizliklər sonradan edilən əlavələrdən doğmuşdur.

8-ci bölümün 3-4-cü babında 150-ci gündən başlayaraq suların azaldığı, yerin onu çəkdiyi yazılır. 7-ci ayın 17-ci günü gəminin Ararat (oxu Ağrı) dağında dayandığı göstərilir. Əvvəlcədən tufanın 2-ci ayın 17-ci günü başlandığı xəbər verilir. Düz 5 ay sonra gəmi Ağrı dağında dayanır.

5-ci babda suyun çəkilməsinin 10-cu aya qədər davam etdiyi, həmin ayın 1-ci günü dağın başının göründüyü yazılır. Bundan 40 gün keçəndən sonra Nuh gəminin pəncərəsini açır və quşları növbə ilə buraxır. Nəhayət Nuh

həyatının 601-ci ilində, 1-ci ayın 1-ci günü gəminin qapısını açıb baxır ki, torpağın üst qatı quruyub. Bir müddət keçir, 2-ci ayın 27-ci günü yer tam quruyur Nuh və ətrafındakılar gəmidən yenirlər. Beləliklə, tufanın başlanması və qurtarması, yəni gəmidən quruya yenmə 365 gün çəkir.

Bir sıra müəlliflərin, o cümlədən Ayzek Əzimovun da yazdığı kimi (90, s. 270-271) bu müddət ərzində gəmidəki insanların və heyvanların yaşaması, qidalanması mümkün deyil. Belə olduğu halda, tufanın bir il sürməsi məntiqə uyğun gəlmir. Bunu bir neçə cəhətdən izah etmək olar. Birincisi və əsası Bibliyada tufanın baş vermə səbəbi qadağan sisteminin pozulması, insanların Allaha asi olmaları, onların yollarını azmalarıdır. Deməli, cəza insanlara gəlmişdir. İnananlar, iman edənlər və dünyanın üzünün su alacağında heyvanlardan bəlli miqdarda gəmiyə alınır. Beləliklə, onlar seçilmişlər olmaqla xilaslarına, digərlərinin isə məhvinə söz verilmişdir. Qalanları məhv etməyə bir neçə gün yetərdi və dünya pisliklərdən təmizlənmiş olardı. Tufanın uzun sürməsi gəmidəkilərə də əziyyət və çətinlikdir ki, Rəhman və Rəhim olan Allah qurtulacaqlarını xəbər verdiklərinə bunu etməzdi.

İkinci önəmli məsələ bu müddətə gəmidəkilərin qidalanmasının qeyri-mümkünlüyüdür.

Üçüncüsü, biz yuxarıda da dediyimiz kimi, tufan başlamamışdan Allahın onun 40 gün davam edəcəyini xəbər verməsi, sonradan 150 gün sürməsi inandırıcı deyil.

Dördüncüsü, 150 gündən sonra gəminin dağda dayanması, ondan sonrakı müddətdə qurunun görünməsi (68 gün sonra), nəhayət yerin tam qurumasının 5 ay sürməsi məntiqə uyğun gelmir.

Beləliklə, Bibliyada tufanın uzun müddətli davam etməsi barədəki məlumatlar qədim mənbələrə, xüsusən, Bilqamısdakı məlumatlara uyğun gəlməməklə olduğu kimi görünmür.

"Qurani-Kərim"də tufanın müddəti. Özündən əvvəlki

mənbələrdən fərqli olaraq, Qurani-Kərimdə Tufanın baş verməsi ilə bağlı dəqiq zaman olmadığı kimi, onun nə müddətə davam etməsi haqqında da məlumat yoxdur. Təbii ki, zaman baxımında Nuh (ə.s.) dövrü götürülür. Məqsədin yolunu azmış qövmün cəzalandırılması olduğundan, bununsa su vasitəsi ilə ediləcəyindən belə məlum olur ki, şanı uca Allah zülmün, küfrün kökünü kəsdikdən sonra Tufanı dayandırmış, sular çəkilərək gəmidəkilər yeni həyata başlamışlar.

"Onlar yenə də Nuhu yalançı hesab etdilər. Biz Nuha və onunla birlikdə gəmidə olanlara nicat verdik, onları (yer üzünə) varislər (xəlifələr) etdik. Ayələrimizi yalan hesab edənləri isə suda batırıb boğduq. Bir gör (əzabla) qorxudulanların (lakin yola gəlməyənlərin) axırı necə oldu!" (Yunis surəsi, ayə 73). Ayədən də bəlli olur ki, Tufan istənilənin başa çatması, yəni kafərlərin boğulması müddətində davam etmişdir. Hud surəsinin 44-cü ayəsində işin uzun sürmədiyi bəlli olur: "(Allahdan bir əmr olaraq:) "Ey yer! Suyunu ud! Ey göy! (yağışını) saxla (açıl)!" -deyildi. Su çəkildi. İş bitdi (Nuha iman gətirməyənlərin məhv edilməsi barədə Allahın əmri yerinə yetdi). Gəmi Cudi üzərində oturdu və "Zalımlar məhv (Allahın nəzərindən uzaq) olsun!"-deyildi". Ayədə məqsədə nail olmanın uzun sürmədiyi, kafərlər boğulduqdan sonra suların çəkildiyi göstərilir. Suların yüksəlməsi, yəni bütün hündürlükləri örtməsinə də toxunmaq istərdik. Bu Kənanla bağlı ayədə açıqca göstərilmişdir: "Gəmi onları dağlar kimi (yüksək) dalğaların içi ilə apardığı zaman Nuh (gəmidən) aralı olan oğlunu (Kənanı) haraylayıb dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafərlərdən olma!" (Hud surəsi, ayə 42).

"(Oğlu ona) belə cavab verdi; "Mən bir dağa sığınaram, o da məni sudan qoruyar". Nuh dedi: "Allahın rəhm etdiklərindən başqa bu gün heç kəs (insanları) Onun əzabından qoruya bilməz!". Nəhayət, dalğa ata ilə oğulun arasına girib onları bir-birindən ayırdı və o da suda

boğulanlardan oldu" (Hud surəsi, ayə 43).

Tufanın uzun müddət davam etməməsini, məqsəd başa çatdıqdan sonra dayanmasını Hud, Səmud, Lut tayfalarına, Firovun və tərəfdarlarına verilən cəzaların sürətli olması da sübut edir.

Beləliklə, Qurani-Kərimin məlumatına əsaslanaraq demək olar ki, Tufan uzun müddət davam etməmişdir. Lakin bəzi dini mənbələrdə, təfsirlərdə Tufanın 3, hətta 6 aya qədər davam etdiyi yazılır. Təbəri bir Hədisi şərifə əsaslanaraq Nuh peyğəmbərin Rəcəbin ilk günü gəmiyə mindiyini və Tufanın Aşura günü başa çatdığını bildirir ki, bu da 6 ay 10 gün edir. Bəzi təfsirçilər Tufanın 40 gün sürdüyünü yazırlar. Təbii ki, bütün bunlar Qurani-Kərimdə olmayan məlumatlardır. Qurani-Kərimdə Tufanın uzun sürmədiyi bəllidir. Əksəriyyət isə 40 gün davam etdiyini qəbul edir ki, bu da ilkin məlumata, Bilqamıs dastanına uyğun gəlir və ağıla sığandır.

Naxçıvandan tufanın müddəti ilə bağlı toplanmış rəvayətlərdə 40 gün 40 gecəyə üstünlük verilir: "Yağış yağmağa başladıqdan sonra Allah Təalanın hökmü ilə hər heyvandan bir cüt (erkək, dişi) gəmiyə yığışır, yağış 40 gün 40 gecə davam edir. Xalq arasında olan inama görə gəmi ilk olaraq Türkiyə ərazisindəki Ağrı dağa, İran ərazisindəki Kəmki dağa, Naxçıvan ərazisində olan Haça dağa, son olaraq isə Gəmiqayaya (Qapıcıq) dağına toxunur. Bu ərazidə 6 dəfə fırlanıb həmin yerdə dayanır və sonralar daşlaşır. Xalq da həmin dağı (daşı) Gəmiqaya adlandırır" (58, s. 98).

Oxşar rəvayətlər digər müəlliflər tərəfindən də toplanmışdır. Bir rəvayətdə deyilir ki, qırx gün, qırx gecə yağış yağdı. Bir yağış ki, ucundan tut çıx göyə. Su qalxdı, dünyanın üzünü almağa başladı. Axırı-sonu görünməyən bir dərya yarandı. Nə qədər canlı vardısa tələf oldu.

Gəmi məğribdən məşriğə üz qoydu. Günlər, həftələr dolandı. Gəmi Ağrı dağa, İlanlıya, Kəmkiyə dəyib Gəmiqayada dayanır, Tufan başa çatır və yeni həyat başlayır

(11, s. 67-68).

Beləliklə, Naxçıvanda Tufanın müddəti haqqında rəvayətlər daha da arxaik forma daşımaqla Bilqamıs dastanındakı məlumatlara uyğun gəlir. Yəni Naxçıvanda Tufanla əlaqəli məlumatlar Bibliyadakından daha qədim olmaqla real xarakter daşıyır.

# GƏMİNİN DAYANDIĞI YER-GƏMİQAYA

Dünya tufanında xüsusi diqqət yetirilən məsələlərdən biri gəminin harada dayanmasıdır. Bu məsələdədə müxtəlif fikirlər mövcuddur. Ravayətin yayıldığı bütün ölkələrdə müəyyən dağlar göstərilir. Lakin başlıca olaraq üç mənbə əsas götürülür: 1. "Qurani-Kərim, 2. Bibliya və 3. Bilqamıs dastanı. Qurani-Kərimdə, Hud surəsinin 44-cü ayəsində deyilir: "(Allahdan bir əmr olaraq:) "Ey yer! Suyunu ud! Ey göy! (Yağışını) saxla (açıl)!"-deyildi. Su çəkildi. İş bitdi (Nuha iman gətirməyənlərin məhv edilməsi barədə Allahın əmri yerinə yetdi). Gəmi Cudi dağı üzərində oturdu və: "Zalımlar məhv (Allahın mərhəmətindən uzaq) olsun!"- deyildi. Bibliyada Ağrı dağında, Bilqamısda isə Nisir dağında dayandığı bildirilir. Ayənin tərcüməsində Cudi dağı yazılsada onun ərəb dilindəki mətnində dağ ifadəsi yoxdur. Əlimizdə olan bir neçə məalları tutuşdurmada, həmçinin Elmalılı M.Hamdi Yazırın təfsirində, "Hak dini kuran dilin"də yazılır ki, Cudi uca bir dağdır ki, Mosulda, Əl Cəzirədə, Amiddə, Şamda olduğu söylənmişdir. Bir də Cudinin hər bir dağa verilən ad olduğu söylənmişdir (23, s. 417).

Abdulbaki Gölpınarlının hazırladığı "Kurani Kerim və Mealı"nda bu ayə belə verilmişdir. "Və deildi ki, ey yerüzü əm suyu və ey göy üzü kəs yağışını və su əmildi və iş yapıldı-bitdi və oturdu Cudiyə gəmi...". Müəllif Cüdini təpə, zirvə kimi verir (4, s. 26).

Quranın İ.Y. Kraçkovski tərəfindən rus dilinə tərcüməsində "утвердился он на ал-Джуди" yazılmışdır (5, s. 189). Yəni, burada dağ ifadəsi yoxdur.

Qurani-Kərimin rus dilinə digər tərcüməsində (Коран перевод смыслов и комментории Валерий Пороховой) Cudi ilə bağlı şərhdə deyilir ki, bu ad yüksəkliyi ifadə edir. Maraqlıdır ki, şərhci bu sözü təqribən 2000 il e.ə. şimali Mesopotamiyada yaşayan Kutilərlə əlaqələndirir. Cudinin yüksəklik bildirdiyini yazır və Cudini Ararat hesab edir.

(6, s. 723)

Beləliklə, Cudinin bu gün Cudi adlanan dağ olmadığı tam bəllidir. Əgər yüksəklik mənasındadırsa Qapıcıq Kiçik Qafqazın və bölgənin Ağrıdağdan sonra ikinci zirvəsidir. Özgə sözlə desək, o da Cudi-yüksəklik adlana bilər! Problemə bu yöndən yanaşaraq açıqlama gətirməyə çalışacağıq.

Araşdırıcılar bu məsələyə bir neçə mənbədən və yöndən yanaşmaqdadırlar. Yuxarıda deyildiyi kimi əsas qaynaq qədim mənbələr, eyni zamanda Bibliya və Qurani-Kərimdəki məlumatlar sayılır. Yəni araşdırıcılar məsələyə daha çox üç yöndən yanaşırlar. Lakin biz və Azərbaycanda bizəqədərki bir çox müəlliflər mövcud olan müxtəlif rəvayətlərə, tufanla bağlı məlumatlara əsaslanaraq daha çox Naxçıvan variantına üstünlük veririk. Bir məsələni də qeyd edək ki, bu problemlərlə məşğul olan bir sıra araşdırıcılar da ənənəvi Nisir, Ağrıdağ (Ararat), Cudi adlanan yerlərdən kənarda bir məkan, dağ axtarırlar. Bunun isə ciddi səbəbləri mövcuddur. Hər şeydən öncə Bilqamıs dastanındakı Nisir dağı ilə bağlı kəskin fikir söyləmək mümkün deyil. Ayrı-ayrı araşdırıcılar onu müxtəlif coğrafi bölgələrdə lokallaşdırırlar. Bəzi araşdırıcılarla yanaşı Firudin Rzayev də onu Gəmiqaya yaxınlığındakı Nəsirvazla əlaqələndirir (71, s,11).

Ümumiyyətlə, Qərb dünyasında gəminin axtarılması məsələsi Bibliyadan qaynaqlandığından daha çox ona istinad edilir və orada göstərilən coğrafi bölgəyə diqqət yetirilirdi. Lakin Tufanla bağlı rəvayətin dünyanın müxtəlif ölkələrində yayılması diqqəti həmin ölkələrə də yönəldirdi. Amma əsas diqqət mərkəzində Doğu Anadolu, daha dəqiq desək Ağrıdağı idi. Çünki Bibliyada gəminin məhz burada dayandığı göstərilir.

Avropalılar Bibliyaya əsaslanaraq Ağrıdağına ekspedisiyalar təşkil edir, gəmini tapmağa çalışırdılar. Hələ 1670-ci ilə Holland səyyahı Jan Strus dağın ətəklərinə qalxmış, guya burada ibadətə çəkilmiş bir xristian keşişlə

rastlaşmışdır. O isə gəmini gördüyünü, onun içinə girdiyini səyyaha danışmış, hətta gəmidən qopardığını iddia etdiyi kiçik xaçı ona vermişdir. Beləliklə, Dünya Tufanı, Nuhun gəmisi və xristianlıq məsələsi Qərbdə daha da güclənmişdir. Göründüyü kimi hər şeydən öncə misionerlik fəaliyyəti artmışdır. Lakin Hollandiyalı səyyahın özü gəmini və ya onun qalıqlarını görməmişdir. Sonralar gəmi axtarışı bir az səngimişdir. 1829-cu ildə Alman alimi Parrot Osmanlı sultanı II Mahmuda müraciət edərək Nuhun gəmisinin Ağrı dağında olması ilə bağlı fikirlərini söyləyir və onu axtarmaq üçün ruslarla birgə ekspedisiya təşkil etmələrinə icazə verməsini xahiş edirlər. Padşahın özü üçün də maraqlı olduğundan icazə verir. 1-i rus, 6-sı alman olmaqla yaradılan dəstə zirvəyə çıxırlar və axtarışdan sonra geri qayıdıb söyləyirlər ki, gəmini tapa bilmədilər, amma onun izlərinə rast gəliblər. Beləliklə, Ağrıya ardıcıl olaraq yeni dəstələr, alpinistlər axışmağa başladı. Bura Avropa, Rusiya araşdırıcıları ilə bərabər çox sayda Amerika tədqiqatçıları, həvəskar alpinistlər gəlirdi. Nə dərəcədə çox gəlsələr də sonda nəticə yox idi. Amma bir nəticə vardı: Avropa, Amerika və Rusiyada müxtəlif məqalələr yazılır, konfranslar keçirilir, fotoalbomlar və s. buraxılırdı. Bəli, sözün özgə mənasında əməlli-başlı biznes yaranmışdır. Amerkan astronaftı (kosmonavtı) Cems İrvin konfrans keçirərək gəmini tapmaqda səylərini davam etdirəcəklərini bildirmişdir. Ardınca Marvin Sfeffius guya Ağrı dağı ərazisindən gəmiyə aid qalıqları aşkar etdiyi və gizli yolla Türkiyədən çıxartdığı barədə xəbərlər yaydı.

Beləliklə, ard-arda aparılan axtarışlar heç bir nəticə vermirdi. Nəinki Ağrı dağı, hətta onun ətrafındakı yaşayış məntəqələri ələk-fələk edildi. Türk araşdırıcıları, həvəskarlar da gəmini tapmaq arzusu ilə ərazidə hər yeri axtarırdılar. Nəticə nəticəsizlik.

Gəmi təkcə qurudan deyil, müxtəlif təyyarələr, hətta kosmik aparatlar vasitəsi ilə səmadan da axtarılırdı. 1997-ci ildə ABŞ-ın MKİ-nin yaydığı məlumatda gəminin Ağrı

dağında olmadığı rəsmən bildirildi. Amma müxtəlif dərnək və qruplar gəminin Ağrı dağı və onun ətrafında olmasında israrlı idilər. ABŞ-dakı "Nuhun gəmisi dərnəyi" belə bir elan verdi ki, kim 2000-ci ilə qədər gəmini tapsa bir milyon dollar mükafat alacaq. Bu mükafatı kimsə ala bilmədi.

Zaman-zaman əlləri Ağrıdan üzülənlər XXI yüzilliyin başlanğıcında üzlərini Naxçıvana tutdular. Türkiyədə olduğu kimi Naxçıvanda da bu işə gizli yolla girişmək istəyən Andrey Polyakov və onun ətrafındakılar qanunsuz şəkildə Naxçıvana gəlib elmi əsası olmayan məlumatlar yaymağa başladılar. Yayılan məlumatlardan işin arxasında erməni-xristian ideologiyasının dayandığı açıq-aşkar görünməkdə idi.

Digər araşdırıcılar isə müxtəlif tarixi məlumatlara özlərinin düşüncə tərzini də qataraq Urmiya gölü hövzəsinə, daha dəqiq desək Zaqreb dağlarına üstünlük verirlər. Cudi fikrinin tərfdarlarına gəlincə onlar Qurani-Kərimin gəminin Cudidə dayanması ilə bağlı məlumatına əsaslanırlar. Təbii ki, bizim üçün də "Qurani-Kərim"də deyilən, orada göstərilən yer əsasdır. Bu özgə cürə ola da bilməz və biz buna yığcam olaraq münasibət bildirdik. Lakin bəzi fikirlər üzərində də dayanmaq istərdik. Əbülfəz Quliyev və doktor Bahəddin Dartmanın "Elm" qəzetinin 28 fevral 2005-ci il tarixli sayında dərc olunmuş "Nuhun gəmisi haradadır" məqalələrində (59) gəminin dayanması ilə bağlı Bibliyadan qaynaqlanan Ağrı, Ararat, Urartu toponimlərinə özlərindən əvvəl gətirilmiş açıqlamaları sadalamış, eyni zamanda, artıq bütün dünyanın "Nuhun gəmisi Ağrı dağında deyil" ortaq fikirlərini yeniləmişlər. Bununla bərabər, araşdırıcıların bir çoxunun üzərində dayandığı Cudi məsələsinə yenidən qayıtmışlar. Qayıtmışlar deyərkən həmin nəzəriyyəni təkrar etmişlər. Digər müəlliflər kimi onlar da Qurani-Kərimin Hud surəsinin 44-cü ayəsinə (məqalədə ayə göstərilmir. H.Q.Q.) əsaslanaraq gəminin Cudi dağında dayanması fikrini müdafiə edirlər. Hər şeydən öncə yuxarıda dedik ki, Qurani-

Kərimin göstərilən ayəsində Cudi dağı ifadəsi yoxdur. Beləliklə, istənilən yüksəkliyə Cudi demək olar. Məqalədə Cudini isbatlamaq üçün Yaqut Həməvidən gətirilən iqtibas Qurani-Kərimə deyil, Bibliyadakı məlumata əsaslanır: "Gəmi Tufanın 7-ci ayının 17-ci günü Cudiyə oturdu". Burada Bibliyadakı Ararat sözü Cudi ilə əvəz olunub (Geniş məlumat üçün bax Bibliya. Varlıq, 8-ci bölüm, 3-4-cü bab).

Yazıda Cudi deyilən ərazidə Tufanla bağlı müəyyən məsələlər də verilibdir. Təbii ki, Tufanla bağlı Cudi dağı məsələsi mövcuddur. Lakin o elmi cəhətdən əsaslandırılmamış mülahizələrdəndir.

Araşdırmalar göstərir ki, belə bağlılıq Naxçıvan ərazisində daha böyük faktlarla, rəvayət və yer adları ilə təsdiq olunur. Cudi variantını ortaya qoyarkən daha çox ağırlıq qazanan Gəmiqayanı unutmamaq gərəkdir.

Bir sıra müəlliflər də Qurandakı Cudi ifadəsinə əsaslanaraq onu indi İraq-Türkiyə sərhəddində olan Cudi dağı kimi təqdim edirlər. Beləliklə, bütün fikirlər Naxçıvan da daxil olmaqla Kiçik Qafqazda, şərqi Anadolu, İraqın quzeyi və Güney Azərbaycanda, daha dəqiq desək Urmiya gölü hövzəsində cəmlənir. Həmin fikirlərə münasibət bildirmədən öncə bir məsələni xüsusilə vurğulamaq gərəkdir ki, müəlliflərin müəyyən hissəsi, başlıca olaraq Bibliya variantına əsaslananlar gəminin dayanması, onun olduğu yeri axtarmağın arxasında erməni və Ermənistan ideologiyasını önə sürürlər. Belə ideyalar özünü Cənubu Azərbaycan, Urmiya gölü hövzəsi məsələsində də göstərir. Əvvəlkilərdən bir az da irəli gedən Devid Rol gəminin Urmiya ətrafındakı dağlarda dayandığını, Urmiyanın isə Ermənistanın mərkəzi, ürəyi olduğunu açıq şəkildə yazmaqdan çəkinmir (96, s. 84). Bir zamanlar. Ədn bağlarının da burada yerləşdiyi, həyatın bu bölgədən başlandığı yazılır.

Beləliklə, Bilqamıs dastanından başlayaraq gəminin hansı dağda dayandığı, həmin dağın harada yerləşməsi

məsələsinə açıqlama gətirməyə çalışacağıq.

Dastanda tufan dayandıqdan sonra Utnapiştinin uzaqda bir dağ gördüyü və gəminin həmin dağda dayandığı yazılır:

*Baxırdım sahillərə görünürdü bir ada*
*Həmin Nisir dağında dayandı bizim gəmi.*
*Dağ gəmini saxlayıb tutmuşdu dayaq kimi,*
*Düz iki gün qoymadı gəmini tərpənməyə*
*Üç, dörd gün də qoymadı, dağ gəmini saxladı,*
*Beş, altı gün də keçdi gəmini buraxmadı.*

Yuxarıdakılardan aydın olur ki,gəmi dağa ilişmiş və on iki mənzillikdə quru görünməkdədir. Burada bir neçə cəhətə xüsusi diqqət verilməlidir. Hər şeydən öncə gəminin ilişdiyi dağ Nisir adlanır, ada isə ondan çox aralıda görünür. Özgə sözlə desək, Nisir dağı hələlik suyun altındadır. Bunu subut edən əsas amil buraxılan iki quşun quru yer tapmayıb geri qayıtmasıdır. Əgər gəmi dayanan ərazi və ya onun yaxınlığındakı yüksəkliklər açıq olsa idi, onda quşlar ora enərdilər. Beləliklə, dağlıq olan bir bölgədə, ancaq uzaqda bir dağ, ada, zirvə görünür. Gəmi isə həmin istiqamətə hərəkət edə bilmir, çünki o suyun altındakı Nisir dağına ilişmişdir. Nisir dağının indi hansı dağ olduğu məsələsi elmdə hələ də mübahisəli olaraq qalmaqdadır. Bəzi müəlliflər onu müxtəlif bölgələrdə axtarırlar. Arif Qədimova görə bu dağ indiki Ordubad bölgəsindəki Gəmiqaya ərazisindədir (54).

Bir sıra müəlliflər, o cümlədən Devid Rol Nisir dağını özünün uydurması olan Nuh dağında (o Zaqrosı belə adlandırır) axtarır. Müəllif yazır ki, Nisir dağı indiki Nimuş dağıdır. Gəmi onun hazırda hündürlüyü 3000 m olan Pir Ömər Qudrun zirvəsində dayanmışdır. O öz fikirlərini möhkəmləndirmək üçün bir sıra mənbələrlə bərabər Bibliyaya əsaslanır və Araratı Urartu və ya Aratta kimi izah etməyə çalışır. Hər ifadəsində erməniliyi müdafiə etməyə səy göstərən Devid Rol Ararat-Urartu-Aratta sözlərinin eyni kökdən olduğunu, Bibliyadakı Ararat ifadəsinin Urartu və

Arattanı qəsd etdiyini önə sürür. Beləliklə, Bibiliyadakı Araratdan (oxu Ağrıdağ) əli üzülən xristian-erməni nəzəriyyəçiləri yeni iştaha ilə öz ideyalarını Azərbaycanın qədim dövlət birliyinə Arattaya-Urmiya daşımaqla Ermənistan ideyasını və ərazisini daha qədim dövrlərə aparmaqla cəfəngiyat uydururlar. Açıq şəkildə qeyd edilir ki, Ararat ifadəsi sonradan Bibliyadan qaynaqlanmışdır. Müəllif yazır ki, gəminin dayandığı yer Sevan və Urmiya gölləri arasında deyil, Zaqros dağında, qədim Aratta dövlətinin ərazisində axtarılmalıdır (96, s. 163).

Onun əsərində tufanın baş verməsi, gəminin harada dayanmasından çox siyasi məqsəd güdülmüşdür.

Deyək ki, Devid Rolun yazdığı kimi Nisir dağı və gəminin dayandığı ərazi dəniz səviyyəsindən 3000 m yüksəklikdə olan Pir Ömər zirvəsidir. Belə olduqda uzaqda bir ada, yəni suyun səviyyəsindən yuxarıda qalan dağ-zirvə deyil, bir neçəsi görünməlidir. Hər şeydən öncə şimalda və şimalı-şərqdə Ağrıdağ (5137 m) və Qapıcıq (3906 m) görünməlidir. Çünki onlar uyğun olaraq Pir Ömər zirvəsindən 2137 m və 906 m hündürdülər. Təbii ki, bura daha hündür zirvələri aid etmirik, çünki onlar uzaqda yerləşdikləri üçün bəlkə də görünə bilməzdilər. Belə olunca istər-istəməz göz önünə bu bölgənin Ağrıdağından sonra yüksək zirvəsi olan Qapıcıq, Gəmiqaya gəlir. Yəni burada gəmi qayaya ilişib qaldıqda, ətraf su ilə örtülü olduqda uzaqda Ağrıdağ bir ada kimi görünə bilər. Qalan zirvələr isə su altında olmalıdır. Bunu sübut edən bir sıra rəvayətlər də mövcuddur. Xüsusi vurğu ilə qeyd edilməlidir ki, Naxçıvan və ətraf bölgələr müstəsna olmaqla ayrı-ayrı müəlliflərin bəhs etdikləri ərazilərin heç birində gəmi və tufanla bağlı rəvayətlər, toponimlər buradakı qədər mövcud deyil. Unutmaq olmaz ki, Naxçıvanda xalq nəinki gəmi, onun Naxçıvanda olması ilə bağlı rəvayətləri, həmçinin dağlara, qayalara ad verən, özünün və bacısının məzarı şərifləri Naxçıvan şəhərində olan Nuh peyğəmbərlə əlaqəli inamları qoruyub saxlamış,

yurdunu Nuhun adı ilə bağlamışdır.

Bibliyada gəminin dayandığı yer məsələsi dəqiq olaraq Ağrıdağ (Ararat) göstərilmişdir.

Burada yazılır ki, gəmi yeddinci ayın on yeddinci günü Ararat dağında dayandı (Varlıq 8, 4). Burada açıq şəkildə Ararat qeyd olunur. Yuxarıda dedik ki, Devid Roi və bir sıra müəlliflər göstərilən dağın dəqiq olaraq Ararat (Ağrıdağ) olmadağını, onun Urartu ilə bağlılığını irəli sürmüşlər. Eyni fikir Ayzek Əzimovda da mövcuddur. Yəni o da özünəqədərki müəlliflərin fikirlərini müdafiə etmişdir.

Bibiliyanın sonrakı 5-ci babında yazılır ki, su onuncu aya qədər tədricən azaldı, onuncu ayın birinci günü dağın başı göründü. 4-5-ci babların müqayisəsi göstərir ki, gəminin dayanması, suyun azalması və dağın başının görünməsi 2 aydan artıq, daha dəqiq desək 2 ay 13 gün çəkmişdir. Bizcə hesablama işıq, yəni Ay ilə aparılmışdır (bu mənbələrdə də belə göstərilir). Buna görə hesablamada 2-3 gün fərq ola bilər. A.Əzimov həmin müddəti 68 gün göstərir (90, s. 291).

Buradan gəminin 68 gün dağa ilişib qaldığı bəlli olur. Lakin sonrakı bölüm buna şübhə ilə yanaşmağa imkan verir. Əgər doğrudan da gəmi dağda dayanmışdısa, onda nəyə görə əlavə olaraq 2 aydan artıq bir müddətdə orada gözləyirlər. Sonrakı 6-cı babdan aydın olur ki, nəinki gözləmişlər, hətta dağın başı görünəndən 40 gün sonra Nuh gəminin gözlüyünü (pəncərəsini) açmışdır. Beləliklə, gəminin Araratda (Ağrıdağ) dayanması, bundan 2 aydan artıq vaxt keçməsi, Nuh peyğəmbərin dağın başı görünəndən 40 gün sonra pəncərəni açması məsələsi bir sıra ziddiyyətli məqamları ortaya qoyur: 1. Hər şeydən öncə gəminin dayandığı dağın Ararat olduğu nədən bilinir? 2. Əgər gəmi orada dayanmışsa, onda hansı dağın başı görünür? 3. Nuh pəncərəni açmamışdan dağın başı necə görünə bilmişdi? 4. Əgər dağın başını görmüşsə, nəyə görə pəncərəni 40 gün sonra açmışdır? Göründüyü kimi məsələ ziddiyyətli və müəmmalı olmaqla çoxlu sual və şübhə

doğurur. Deməli, gəmi Ağrı (Ararat) dağında dayanmayıb. Bu fikirlər Bilqamıs dastanındakı Nisir dağı ilə yaxınlıq təşkil etməklə təhrif olunmuş formada Bibliyaya daxil edilmişdir. Təbii ki, bura tufanın müddəti də əlavə olunmalıdır.

Növbəti 7-ci babda Nuh Peyğəmbərin suyun çəkildiyini bilmək üçün qarğanı buraxdığı, lakin onun qonmağa yer tapmayaraq geri qayıtdığı yazılır. Sonra göyərçini buraxır, o da quru tapa bilməyib geri qayıdır. 10-11 bablarda 7 gün keçdikdən sonra göyərçinin yenidən buraxıldığından, onun qaranlıq düşəndə dimdiyində təzə zeytun yarpağı qayıtdığından bəhs edilir. Burada da məsələlər ziddiyyətlidir. Gəmi dağda dayanır, dağın başı görünür, lakin quşlar təqribən 3 aydan sonra buraxılır. Ən maraqlısı isə 7 gün əvvəl buraxılan quşun qonmağa yer tapmaması, sonrakı uçuşunda dimdiyində təzə zeytun yarpağı qayıtması məntiqə uyğun gəlmir. Yenə suallar doğur. Nədən suyun quruması uzun çəkmiş? Necə olar bilər ki, 7 günə zeytun cücərib yarpaqlasın?

Bütün bu sualları düşünərkən belə qərara gəlirik ki, Bilqamısdakı ada məsələsi, buraxılan quşun 3 olması, ikisinin qurunu tapa bilməməsi müəyyən dəyişikliklərlə Bibliyaya daxil edilmişdir. Burada da gəminin Naxçıvanda, Gəmiqayada dayanması ilə bağlı ip ucu vardır. Təbii ki, uzaqda görünən dağ Ağrı olmalıdır. Çünki su Gəmiqaya səviyyəsinə yenincə Ağrıdağ ada kimi görünə bilər və onun ətrafında quru olmaya bilər. Buraxılan quş isə uzaq olduğu üçün həmin yerə uçub gedə bilməz. Beləliklə, müəyyən zaman keçdikdən sonra ətraf da quruma başlamışdır. Bilqamısda üçüncü dəfə buraxılan quş gedib qurunu tapır və geri qayıtmır. Yəni artıq yaxınlıqda quru sahəsi vardır. Gəminin Tufandan sonrakı vəziyyəti ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəlli olduğu kimi çoxları gəminin qalıqlarını axtarmaqda davam edirlər. Onlar daha çox Bibliyaya əsaslanırlar. Lakin Qurani-Kərimdə gəminin gələcək nəsillərə ibrət olsun deyə qorunub saxlanması ilə bağlı iki

ayə vardır: "Beləliklə, Biz ona və gəmi əhlinə nicat verdik və onu (o hadisəni, yaxud o gəmini) aləmlər üçün (öz qüdrət və qəzəbimizə dair) bir nişanə (ibrət) etdik (Ənkabud surəsi, ayə 15).

"Həqiqətən Biz onu (həmin hadisə və gəmini öz qüdrət və qəzəbimizdən) bir nişanə qoyduq. Amma heç bir ibrət götürən varmı?" (Qəmər surəsi, ayə 15).

Ayələrdən bəlli olur ki, hadisənin və gəminin gələcək nəsillərə saxlanmasının əsas mahiyyəti ibrət üçündür. Ayrı-ayrı müəlliflər, təfsirçilər bunu müxtəlif cəhətdən yozurlar. Bəzilərinə görə burada gəminin saxlanmasından söhbət gedir. Hətta onun Cudi dağında qaldığı, bəziləri tərəfindən görüldüyü iddia edilməkdədir. Elmalılı M. Hamdi Yazır qeyd edir ki, məqsəd eynən o gəminin qalmış olması deyil, onunla bağlı rəvayətlərin, xatırlamanın olması daha çox faydalıdır.

Çünki burada bir ibrət və öyüd vardır.

Təfsirçilər "Qəmər" surəsi, 15-ci ayənin mənasını belə izah edirlər ki, Hz. Nuhun gəmisinin qalıqları Cudidə qaldı, hətta burada ümmətin ilkləri onu gördü-deyə bəhs edən rəvayətlər vardır. Ancaq məqsəd eynən o gəminin qalması deyil, mütləq gəmi tipinin, onun xatırlanması daha ziyadə məlumdur. Çünki bunda ibrət və ayıb səhnələri daha geniş olmalıdır.

Deyildiyi kimi, burada başlıca məqsəd gələcək nəsillərin ibrət almasıdır. Lakin nə dərəcədə geniş axtarılsa da hələlik dünyanın heç bir yerində gəminin qalıqlarına rast gəlinməyib. Qeyd edək ki, gəminin dayandığı bir sıra yerlərdə onun qalıqlarına kimlərinsə rastlaşdığı yazılır. Eyni rəvayətləri biz Naxçıvan ərazisindən də toplamışıq. Ordubad rayonu Bist kənd sakini Rzayeva Mərziyə Əlihümbət qızının verdiyi məlumata görə XX əsrin 40-cı illərində Bakı şəhərindən Bakıxanov familiyalı bir nəfər gəlmiş və onun atası ilə Gəmiqayaya getmişlər. Orada Nuhun gəmisinin taxtaları olduğu hesab edilən taxta parçaları tapmışlar. Deyilənə görə Bakıxanov həmin taxtaları Bakıya aparmışdır

(58, s. 99). Oxşar məlumat Pəzməri kənd sakini Vaqif Abdullayev tərəfindən də verilmişdır. O da iddia edirdi ki, gəminin taxtalarını görüb. Təbii ki, bunlar rəvayət olaraq qalır. Hələlik gəminin qalıqları tapılmasa da Gəmiqayada kifayət qədər maddi sübutlar və gəmi təsvirləri vardır.

Biz Qurani-Kərimin Qəmər surəsinin 15-ci ayəsinə əsaslanaraq düşünürük ki, nə vaxtsa gəminin qalıqları tapılacaq. Bunu söyləməyə Quranda göstərilən bir sıra hadisələrin sonralar ortaya çıxması imkan verir. Ən parlaq misalı Firovunun cəsədinin gələcək nəsillərə ibrət olsun deyə qorunub saxlanmasıdır:

"İndi, öylə mi? Hansıki sən əvvəlləri üsyan etmişdin və pozğunçuluq çıxaranlardan idin. Bu gün isə səndən sonrakılara bir ibrət olsun deyə səni yalnız bədəninlə qurtaracağız (hərkəsə cəsədini göstərəcəyik). Həqiqətən insanlardan çoxu, bizim ayələrimizdən xəbərsizdirlər" (Yunis surəsi, ayə 91, 92).

Qurani-Kərimin 1400 il bundan əvvəl xəbər verdiyi reallaşdı. Firovunun cəsədi 3000 ildən sonra Qırmızı dənizin sahilində, səcdə vəziyyətində tapıldı. Cəsəd boğulduğu kimi qalmışdı. Bəziləri onun təzə boğulduğunu zənn edirdilər. Lakin araşdırmalar hər şeyin 3000 il əvvəl baş verdiyini sübut etdi. Bu haqda müxtəlif informasiya vasitələrinə sahələrində geniş məlumat vardır. Bizcə Nuh (ə.s.)ın gəmisi ilə bağlı belə bir təsdiqləmə olacaqdır.

Yuxarıdakıları yekunlaşdıraraq demək olar ki, gəmi Gəmiqayada dayanmışdır. Bunu Naxçıvanda geniş yayılmış "Nuh Tufanı", "Nuhdaban" və çox sayda digər rəvayətlər, toponimlər, adı çəkilən digər ərazilərdən fərqli olaraq burada müxtəlif formalı qayaüstü təsvirlər, xüsusən gəmi rəsmləri də sübut edir.

# TUFANIN DÜNYƏVİLİYİ ÜZƏRİNƏ BİR AÇIQLAMA

Tufanın dünyəviliyi ilə bağlı müxtəlif fikirlər söylənməkdədir. Bu məsələdə də iki yanaşma mövcuddur: Yerşünaslıq, geoloji və elmi-dini. Biz kitabın ayrı-ayrı bölmələrində məsələyə elmi münasibətimizi bildirmişik. Yəni Tufan problemi ilə məşğul olan araşdırıcıların baxışlarını şərh etmişik. Onların demək olar ki, əksəriyyəti Tufanın bütün dünyanı əhatə etmədiyini birmənalı şəkildə yazırlar. Lakin Bibliyadan qaynaqlanan mənbələrin çoxu Tufanı dünyəvi hesab etməklə bütün yer kürəsini su basdığını yazırlar. Çünki Bibliyada suyun göylərin altındakı bütün dağları örtdüyü, ən uca dağdan 15 dirsək (təqribən 7 m.) yuxarı qalxdığı yazılır (Bibliya Varlıq, 7-ci başlıq 19, 20-ci bablar). Bu, o deməkdir ki, yer üzündə suyun səviyyəsi 9 km-ə qədər yüksəlmişdir. Bu isə qeyri-mümkündür. Bilqamıs dastanında isə vəziyyət özgədir. Utnapiştinin söylədiklərindən bəlli olur ki, Tufan məhəlli xarakter daşımışdır:

*Faratın sahillərində əbədi məskən salan,*
*Şurruppak şəhərini sən yaxşı tanıyırsan.*

Sonrakı misralardan Tufanın burada baş verdiyi və böyük bir ərazini əhatə etdiyi bəlli olur. Dastanda suyun dünyanı basdığı yazılır. Bizim üçün maraqlıdır ki, o dövrdə insanların dünya adlandırdığı ərazi haraları əhatə edirdi?! Lakin nə dərəcədə müəmmalı olsa da Tufan baş verən ərazidə hər şey məhv edilməli idi. Ellil gəmidə xilas olan Utnapişti və adamları görəndə deyir:

*"Bu necə ruhdur, görən, salamat qalıb hələ.*
*Gərək sağ çıxmayaydı Tufandan bir kəs belə"* (21, s. 92).

Qurani-Kərimin Tufanla əlaqəli ayələrindən aydın olur ki, bəla yolunu azmış qövmə gəlmişdir. O qövmə ki, 950 il dəvət etməsinə baxmayaraq Nuh peyğəmbəri yalançı, dəli adlandırmışlar. Özlərinin küfr əməllərinə davam etmişlər. Qurani-Kərimin bir neçə ayəsində (Nəhl, ayə 36, Qəsas, ayə

59) peyğəmbər göndərilməyən məmləkətlərin məhv edilmədiyi, onlara zülm olunmadığı göstərilir. Qurani-Kərimdə Nuh (ə.s.)ın öz tayfasına peyğəmbər göndərildiyi xəbər verilir. Ümumiyyətlə bu məsələdən bəhs edərkən bir neçə cəhətə xüsusi diqqət verilməlidir. Birincisi və əsası Tufanın yolunu azmış qövmə gəlməsi. İkincisi, həmin dövrdə məkanlaşmanın nə vəziyyətdə olması.

Qurani-Kərimin: "(Ya Rəsulum!) Sənin Rəbbin mərkəzlərinə (ən böyük şəhərlərinə) ayələrimizi oxuyan bir Peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!" (Qəsəs surəsi, ayə 59) ayəsindən bəlli olur ki, Tufan ancaq Nuh qövmünə gəlmişdir. Deməli, həmin insanların yaşadığı ərazidə baş verməli idi. Bunu Qurani-Kərimin Nuhdan sonrakı peyğəmbərlər dövründə baş vermiş fəlakətlərlə bağlı məlumatları da sübut edir. Belə bəlalardan biri yolunu azmış Ad qövmünə gəlir. Onlar Allahın göndərdiyi Hud peyğəmbəri yalançı adlandırdılar. Allah Hud peyğəmbər və iman gətirənləri xilas edib yolunu azanları dağıdıcı bir qasırğa ilə cəzalandırdı: "Biz (əzabı) uzun sürən nəhs bir gündə onların üstünə uğultulu (çox soyuq) bir külək göndərdik" (Qəmər surəsi, ayə 19).

"O, adamları kökündən qopmuş xurma kötükləri kimi (yerindən) qoparıb atırdı" (Qəmər surəsi, ayə 20).

Eyni vəziyyətdə yolunu azmış Səmud qövmünün dəhşətli gurultu ilə, Lut qövmünün üzərinə daş yağdırmaqla məhv edildiyi xəbər verilir. Belə misalların sayını artırmaq olar. Burada başlıca məqsəd bütün dünyanın deyil, ancaq yolunu azmışların məhv edildiyini isbatlamaqdır. Dini-tarixi mənbələrə görə Nuh peyğəmbər Adəm (ə.s.)-ın onuncu nəsli olmaqla insanlar müasir anlamda dünyaya yayılmamışdılar. Özgə sözlə desək dünya deyərkən ancaq həmin qövmün yayıldığı yer nəzərdə tutulmuşdur. Burada müzakirəyə çevrilə biləcək çox məsələlər mövcuddur: Dünyanın müxtəlif bölgələrindəki daha qədim mədəniyyətlər,

onların taleyi, təbiət hadisələrinin məskunlaşma və yerdəyişmələrə təsiri, mədəniyyətlərin bir mərkəzdən yayılması, elmdə ağıllı adam, dində Adəm (ə.s.) ideyası və s. Unutmayaq ki, dini mənbələrdə, xüsusilə Qurani-Kərimdə Adəm peyğəmbərə, ilk insana qədər çox aləmlərin yaradıldığı xatırlanır Adəmin isə onlardan biliyinə və ağlına görə üstünlüyü göstərilir (Bəqərə surəsi, ayə 30-33, Ətraf surəsi, ayə 11, Hicr surəsi, ayə 26-30 və s. ). Beləliklə, tarixdə ağıllı insanla Adəm (ə.s.) arasında qarşılaşdırmalar, bundan sonra Nuh peyğəmbərə qədərki inkişaf və yayılma arealı bu məsələlərin öyrəniləmsində başlıca şərtlərdən olar. Necə olursa-olsun Qurani-Kərimə görə Tufan dünyəvi deyil. O, Nuh qövmünə aiddir. Nuh qövmü isə o dövrdə müəyyən coğrafi bölgədə məskunlaşmışdır. Bir sıra araşdırıcılar Nuh (ə.s.)-ın Allaha müraciətini bədduasını nəzərə alaraq Tufanın bütün dünyanı əhatə etdiyini yazırlar: "Nuh dedi: "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafər qoyma!

Çünki Sən onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxaracaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub-törədəcəklər" (Nuh surəsi, ayə 26, 27).

Bu ayələrə istinad edənlər hər şeydən öncə Nuh (ə.s.)ın uzun müddət öz qövmünü dəvət etdiyini, onun hər hansı digər bir insanlarla əlaqəsinin olmadığını nəzərə almalıdırlar. Əgər belə əlaqə yoxdursa özgə sözlə desək Nuh öz qövmündən başqasına (əgər olubsa, bizcə olmayıb) bəla istəyə bilməz. Allah isə belə bədduanı qəbul etməz. Beləliklə Nuh peyğəmbərin "...Yer üzündə" müraciəti öz qövmünə, yer üzü isə onun adamlarının yayıldığı yerə aiddir. Yəni o dövrdə insanlar ancaq Nuh peyğəmbərin görəvləndirildiyi geniş coğrafi bölgədə yayılmışlar. Nuh (ə.s.)-ın Allaha müraciətini "Yer üzündə bir nəfər kafər qoyma!" ifadəsini sonrakı dövrlərə də aid etmək olar. Yəni ya Rəbbim gələcəkdə də bunların kökünü kəsin. Bunu mütəmadi olaraq yolunu azmış qövmlərin məhvi də sübut edir. Tufandan sonrakı həyat isə küfrün hakim olduğu

torpaqlarda deyil, yeni mübarək ərazidə başlanmışdır ki, bunun Naxçıvan olması ilə bağlı tarixi faktları, rəvayətləri dönə-dönə sadalamışıq.

## NUH (Ə.S.)-IN YAŞI HAQQINDA BİR NEÇƏ SÖZ

Bir sıra mənbələrdə Hz.Nuhun 950 il yaşaması ilə bağlı məlumatlar vardır. Bibliyada bu haqda yazılır ki, Tufan başlayanda Nuh (ə.s.)-ın 600 yaşı var idi. O Tufandan sonra 350 il yaşamışdır. Buradan belə məlum olur ki, Nuh (ə.s.) yeni yurdunda 350 il peyğəmbərlik etmişdir.

Qurani-Kərimdə isə Nuh (ə.s.)-ın yaşı ilə bağlı bir yerdə, Ənkəbut surəsi, ayə 14-də bəhs edilir: "Biz Nuhu öz tayfasına (peyğəmbər) göndərdik. Nuh onların arasında min ildən əlli əskik (doqquz yüz əlli il) qaldı. Onlar zülm edərkən Tufan onları yaxaladı".

Ayədə verilmiş "min ildən əlli əskik" ifadəsi diqqəti cəlb edir. Çünki buna birbaşa 950 il də deyilə bilərdi. Maraqlıdır nədən min ildən 50 il az deyilmişdir. Bir sıra təfsirçilər bunun rəqəmi daha da dəqiqləşdirmək üçün deyildiyini yazırlar. Yəni min rəqəmi yuvarlaq olduğu kimi əgər 950 il olsaydı, onu da təqribən nəzərdə tuta bilərdilər. Beləliklə, rəqəm tam dəqiq olsun deyə bu qaydada göstərilir. İslamşünaslardan bəziləri isə rəqəmini belə verilməsini Hz.Peyğəmbərimizə təsəlli kimi qiymətləndirirlər. Yəni Allah öz peyğəmbərinə bildirir ki, səndən öncəki peyğəmbərlərə də öz tayfaları tərəfindən zülm edilmişdir. Bu Nuh (ə.s.) üçün daha uzun və dözülməz olmuşdur. Təbii ki, yazılanların hər birində müəyyən məntiq vardır. Özgə sözlə desək, həqiqətə müxtəlif yöndən yanaşmadır. Diqqəti çəkən bir məsələ vardır. Nuh (ə.s.) öz tayfası içərisində Peyğəmbər olaraq 950 il qalmışdır. Burada iki önəmli məqam da mövcuddur. Hz.Nuhun peyğəmbərliyə qədərki və Tufandan sonrakı həyatı.

"Peyğəmbərlər tarixi ensiklopediyası"nda yazılır ki, bu qədər azğın, həddini aşmış, hər cürə əxlaqsızlıq və pislik yayıldığı bu tayfaya Allah Hz.Nuhu əlli yaşında peyğəmbər göndərdi (69, s. 6). Bu, ümumi qəbul olunmuşdur. Lakin bəzi

mənbələr Hz.Nuha qırx yaşında peyğəmbərlik verildiyini yazırlar. "Rəvayət edildiyinə görə, Hz.Nuh qırx yaşında göndərilmiş, doqquz yüz əlli il tayfasını dəvət etmiş, Tufandan sonra da altmış il yaşamışdır" (24, s. 564). Bu məlumata əsaslansaq, onda belə bir nəticəyə gələ bilərik ki, Hz.Nuha 50 yaşında peyğəmbərlik verilibsə, Tufan başlayanda onun min yaşı olmuşdur. Ənkəbut surəsindəki: "... Nuh onların arasında min ildən əlli əksik (doqquz yüz əlli il) qaldı" ifadəsi onun dəvətetmə müddətini əhatə edir. Peyğəmbərliyin 40 yaşından verilməsi ilə də bağlı maraqlı cəhət vardır. Belə olduqda Tufan başlanan zaman Hz.Nuhun 990 yaşı olmuşdur. Rəvayətlərə əsaslanaraq Tufandan sonra 50 və ya 60 il yaşadığı göstərilir. Beləliklə, 50 yaşında peyğəmbərlik verilməsi ilə 950 il dəvət = 1000 il, ondan sonra 50 il yaşaması 1050 il edər. 40 yaşda peyğəmbərlik verilmişsə 950 il dəvətlə birlikdə 990 il edər. Tufandan sonra 60 il yaşaması da 1050 il edər. Nəticədə Hz.Nuhun 1050 yaşında vəfat etdiyi ortaya çıxır. Təbii ki, bütün bunlar rəvayətlərə əsaslanır. Çünki Qurani-Kərimdə bu haqda məlumat yoxdur. Nuh (ə.s.)-ın yaşı ilə bağlı bir sıra rəvayətdə deyilir ki, Onün vəfatı zamanı cənabi Əzrail soruşur: "Ya Nuh bu qədər ömr sürdün fani dünyanı necə gördün?". Hz. Nuh (ə.s.) cavab verir ki, iki qapısı olan bir ev kimi birindən girdim, digərindən çıxıb gedirəm (69, s.29). Bizlər üçün böyük bir ibrət var bu kəlamda.

Bilqamıs dastanında Utnapiştinin yaşı haqqında məlumat verilmir. Lakin onun Tufandan sonra əbədi həyat qazandığı bəlli olur (21, s.93). Buradan belə bir nəticə çıxır ki, Bilqamısdakı Utnapişti (Nuh) tanrılara tay olmuş, yəni İslamda göyə çəkilməsi irəli sürülən babası Hz.İdrisin taleyini yaşamışdır. Bibliyada həyatı 2 hissəyə ayrılan Nuh Tufandan sonra 350 il yaşamış və vəfat etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gəmiqayada keçirilən beynəlxalq konfransda çıxış edərkən.



Ekspedisiyadan xatirə



Yeni tapıntılarla bağlı elmi müzakirə.



Gəmiqayada sxematik gəmi və qaranquş təsviri



Nuhun türbəsi.
Bərpadan sonra, 2008



Göy-göl



Qazan göl



Bəhruz Kəngərli : “Nuhun türbəsi” tablosu, 1916



Duzdağ. Təbbi duz axını-“duz çayı”



Ağrı dağ



Haça dağ



Gəmiqaya



1989-cu ildə Gəmiqayada olarkən

# QURUNU TAPAN İLK QUŞ- QARANQUŞ VƏ "QARANQUŞ YAYLAĞI"

Gəmiqaya ərazisində qayaüstü təsvirlərin yayıldığı əsas yerlərdən biri "Qaranquş yaylağı"dır. Burada çoxsaylı təsvirlərlə bərabər qədim yurd yerləri, qəbir abidələri və s. diqqəti cəlb edir. Hər şeydən öncə ərazinin təbii-coğrafi şəraiti, digər ərazilərlə müqayisədə burada yurd yerlərinin genişliyi, çox sayda bulaqların olması müvəqqəti məskunlaşmağa, yurd yeri salmağa imkan verir. Bütün bunlarla bərabər yaylağın "Qaranquş" adlanması bizlərdə böyük maraq doğurmuşdu. Yəni bu toponim müəyyən tarixi hadisə və ya təbii- coğrafi şəraitlə, qaranquşun həmin ərazidə geniş yayılması ilə bağlı olmalı idi. Hər şeydən öncə burada demək olar ki, qaranquş yox dərəcəsindədir. Belə olduqda digər məsələlər üzərində dayanılmalıdır.

"Qaranquş yaylağı" təsvirlərin ilk müəyyən olunduğu ərazidir. Burada 40 ilə yaxın müddətdə, xüsusən son illərdə aparılmış geniş tədqiqatlar nəticəsində təsvirlərlə bərabər çox sayda tikili qalıqları müəyyənləşdirilmişdir. Yaylaqda xalq arasında "Babəkilər qəbiristanlığı" adlandırılan qəbiristanlıqdakı arxeoloji qazıntılar bir çox tarixi məsələlərin hərtərəfli araşdırılmasına imkan vermişdir. Yuxarıda deyildiyi kimi, bizim başlıca məqsədlərimizdən biri qaranquşla bağlı məsələni öyrənmək idi. 2001-ci ildəki araşdırmalar zamanı V.Baxşəliyevlə birlikdə üzərində qaranquş təsvir edilmiş daşa rast gəldik. Təbii ki, bir təsvirə görə əraziyə "Qaranquş yaylağı" deyilə bilməzdi. Təbii ki, müxtəlif mədəniyyətlərin qarşılıqlı təmasda olduğu ərazilərdə ayrı-ayrı etnoslar arasında oxşar inamlar və düşüncə tərzi formalaşa bilər.

Belə vəziyyətdə araşdırılan problemdə daşıyıcılıq xüsusiyyətlərini, yəni nüvəni müəyyənləşdirmək gərəkdir.

Bunları nəzərə alaraq belə qənaətə gəldik ki, ərazinin "Qaranquş yaylağı" adlanması daha ciddi faktlarla bağlıdır. Çünki Naxçıvanda yurd yerləri müəyyən təbii-coğrafi

şəraitlə, tarixi hadisələrlə, tayfa, şəxs adları və s. ilə bağlı olaraq formalaşmışdır: "Nəbi yurdu", "Camışölən", "Qızgəlin çuxuru", "Yelli yurd", "Güney yurd", "Dəvə yatağı", "Xəzər yurdu" və s. Bu mövqedən yanaşsaq, "Qaranquş yaylağı" da müəyyən rəvayətlə bağlı olmalıdır. Araşdırmalar adın Nuh peyğəmbər və Dünya Tufanı ilə əlaqəli olduğunu söyləməyə imkan verir. Xalq arasından toplanmış məlumatlara, tarixi hadisələrə və ədəbiyyat materiallarına söykənərək problemin araşdırılmasına çalışacağıq.

Toplanmış rəvayətlərə görə Dünya Tufanı başa çatıb sular sakitləşdikdən, küləklər dayandıqdan sonra Nuh peyğəmbər qarğanı buraxır ki, görsün quru yer varmı? Qarğa gedib qayıdır. Peyğəmbər bilir ki, hələlik quru yer yoxdur, sonra qaranquşu buraxır. O, çox gec qayıdır. Peyğəmbər baxır ki, onun ayaqlarında və dimdiyində palçıq var. Düşünür ki, artıq sular çəkilməyə başlayıb. Lakin hələlik yaşayış üçün şərait yoxdur. Müəyyən vaxtdan sonra qaranquşu yenidən buraxır, qaranquş bir müddət dolandıqdan sonra gəmiyə gəlir. Lakin gəmidə qalmayıb yenidən geri dönür və qayıtmır. Beləliklə, onun qurunu tapdığı bəlli olur. Gəmi də həmin istiqamətdə hərəkət edib quruya çatır. Gəmidəkilər qaranquşu həmin yerdə görürlər. Bundan sonra ərazi onun şərəfinə "Qaranquş yurdu" adlanır. Bir məsələni xüsusi vurğulamaq yerinə düşərdi ki, qaranquşun qurunu tapan quş olması haqda məlumat "Nuh tufanı" əfsanəsi adı ilə bilinən mətndə də verilir. Oxşar olaraq Naxçıvan ərazisindən toplanmış folklor materiallarında, mifoloji mətnlərdə də həmin rəvayətin variantlarına rast gəlirik.

Rəvayətin tarixiliyini araşdırarkən daha maraqlı faktlarla qarşılaşırıq. Belə ki, Naxçıvan ərazisindəki rəvayət genetik cəhətdən qədim şumer dastanı "Bilqamıs"dakı məlumatla səsləşir. Müəyyən fərq ondadır ki, orada qaranquş gedib qurunu tapa bilmir. Bunu quzğun edir.

*Mən göyərçini çıxarıb onu buraxdım göyə,*
*Göyərçin uçdu, uçdu, gedib döndü geriyə,*

*Qonmağa yer tapmadı bir də geri qayıtdı.*
*Qaranquşu çıxarıb onu buraxdım göyə,*
*Qaranquş uçdu, uçdu, gedib döndü geriyə,*
*Qonmağa yer tapmadı bir də geri qayıtdı.*
*Mən quzğunu çıxarıb, onu buraxdım göyə*
*Quzğun yol gedib tapdı su çəkilmiş yeri.*

Yuxarıda dedik ki, Naxçıvandakı rəvayətdə qaranquş qurunu tapır. Dastanla müəyyən fərqli cəhət olsa da, qaranquş hər ikisində vardır. Müqayisə üçün deyək ki, bütün dünyada Bibliyadan qaynaqlanaraq yaranmış variantların heç birində qaranquş yoxdur. Məlum olduğu kimi, Bibliyada öncə qarğanın, sonra iki dəfə göyərçinin buraxıldığından bəhs edilir. Deməli, qaranquş burada yoxdur. Naxçıvandakı rəvayətlər qədim Mesopotamiya, daha çox şumer variantı ilə paralellik təşkil edir. Bir məsələni xüsusi vurğulamaq lazımdır ki, xalq arasındakı rəvayətlər Mesopotamiyada Dünya Tufanı ilə bağlı məlumatlar aşkar edilməmişdən çox əvvəllər mövcud olmuşdur. Yəni bu rəvayətlər hər hansı yazılı mənbədən deyil, xalqın qan yaddaşından qaynaqlanaraq yaranmışdır. Deməli, Naxçıvandakı rəvayət daha qədim olmaqla genetik cəhətdən şumerlərə bağlanır. Beləliklə, qaranquş insanlığı yeni yurda aparan bələdçiyə çevrilir. Müqayisəli araşdırmalar sübut edir ki, ümumtürk mifologiyasında da qaranquş insanı bəladan, məhvolmadan, başlıca olaraq ilanın şərindən xilas edir. Bununla bağlı bir sıra paralellərə diqqət yetirək:

Soqayların, xakasların inamına görə: şəri himayə edən Yerlik xan yer kürəsindən odu oğurlayır. Eyni zamanda belə bir səs yayılır ki, Kuday yaxın zamanlarda Günəşi yox edəcək. Qartalın rəhbərliyi ilə bütün quşlar bir yerə toplanıb məsləhətləşirlər ki, kimi göndərsinlər odu axtarmağa, yoxsa yaxın zamanda yer üzərində həyat sönəcək. Belə razılaşıldı ki, qaranquş bu işin öhdəsindən gələ bilər. Çünki o, yayda uzaq məsafələrə uça bilir, istənilən yerə daxil olmaq qabiliyyətinə malikdir.

Qaranquş uzun müddət uçub bir qaranlıq (qara) yurda rast gəlir. Yurdun ortasında qırmızı köz vardı. Onun ətrafında böyük bir ilan qıvrılıb yatmışdı. Qaranquş bacadan daxil olub yanar közü götürüb qayıdarkən ilan onu tutmaq istəyir, lakin tuta bilmir, ancaq quyruğundan bir neçə lələk qoparır. O vaxtdan qaranquş qalır haçaquyruq.

Qaranquş gətirdiyi közü qayaların üstünə atır, oradan çoxlu qığılcım əmələ gəlir. Sonralar insanlar həmin qayalardan od əldə edirlər. O vaxtdan ağzını od yandıran qaranquşun dimdiyinin qıraqları sarı qalmışdır.

Qarşılıqlı müqayisələr göstərir ki, Sibir türkləri arasında qaranquşla bağlı inamlar cüzi fərqlə Azərbaycan türkləri arasında da geniş şəkildə yayılmışdır. Bizim 1983- cü ildə Dərələyəz bölgəsindən topladığımız bir rəvayətdə deyilir ki, ilan insanlardan odu oğurlayır (Sibir türklərində Yerlik xan- H.Q.Q). Quşlar yığışıb məsləhətləşirlər ki, qaranquş gedib odun yerini öyrənsin. Qaranquş uzun müddət uçandan sonra gecənin qaranlığında qayaların arasından işıq gəldiyini görür. Baxır ki, nəhəng bir ilan qıvrılıb odun ətrafında yatıb. Qaranquş sürətlə şığıyıb közü dimdiyi ilə götürür. İlan oyanıb qaranquşu tutmaq istəyir, lakin onun quyruğundan bir lələk qopardır. Beləliklə, qaranquş haçaquyruq qalır. Götürdüyü od ağzını yandırdığından indi də qaranquşun ağzı qırmızıdır. Bəli, əzəli oğuz- türk yurdu olan Dərələyəzdə Sibir-Altay paralelləri açıq görünməkdədir.

Kaçin türklərinin inamlarına görə qaranquş insanların xilaskarıdır. Bir mifdə deyilir ki, at başlı ağcaqanad mövcud imiş, böyük ilan olan Aina onu göndərir ki, gedib bütün yer üzünü dolaşsın və ən şirin qanı tapıb gətirsin ki, o, gələcəkdə həmin qanla qidalansın. Ağcaqanad yoxlayıb görür ki, ən şirin qan insanın qanıdır. Bunu duyan qaranquş ondan səfərinin səbəbini soruşur. O da izah edir ki, bu məqsədlə getmişdim və öyrəndim ki, ən şirin qan insanındır. İndi onu dilimin üstündə aparıram Ainaya. Qaranquş xahiş edir ki, dilini göstərsin o da həmin qanı görsün. Ağcaqanad dilini

çıxaran kimi qaranquş onu dimdiyi ilə qoparır. Ağcaqanad qaranquşu tutmaq istəyərkən quyruğundan bir neçə lələk qopara bilir. Həmin vaxtdan qaranquş qalır haçaquyruq. Ağcaqanad gəlib Ainaya bunu izah edə bilmədiyindən Aina əsəbləşib onu vurur. O, kiçik mığmığlara çevrilir.

Qaranquş, ilan, arı və ya ağcaqanad variantı da Azərbaycan folklorunda geniş yer tutur. Ədəbiyyatda bunun izlərinə "Yurdumuzun əfsanələri" kitabındakı "İlan və qaranquş" əfsanəsində rast gəlirik:

Əfsanəyə görə ilan və arı qonşu imiş. İlan öz həyatından gileylənir ki, ay qonşu nə gəldi tapıb yeyirəm, bir günündən mənə görə keç, gör hansı canlının qanı şirindir. Qaranquş yuvasını hörürdü, bu söhbəti eşitmişdi. Arı razı olub müxtəlif canlıların qanını yoxlayır. Axırda bir qoca kişinin alnına qonur. Geri qayıdanda qaranquş bildi ki, arı xəbərə qaçır. İlana deyəcək ki, ən şirin qan insanındır. Bundan sonra ilanlar yer üzündə salamat insan qoymayacaq. Ona görə də qaranquş arını aldadır ki, mən qarğa ilə mübahisədə demişəm ki, arının dili çox şirindir, ondan bal damır, dilini çıxar görüm yalan deməmişəm ki. Arı dilini çıxaran kimi qaranquş dimdiyi ilə onun dilini kökündən qoparıb qaçdı.

Arı lal oldu, vızıldaya- vızıldaya qaldı. İlana heç nə başa sala bilmədi. İlan işin niyə belə olduğunu duydu. Sıçrayıb qaranquşun quyruğundan bir neçə lələk qopardı. Qaranquşun quyruğu o vaxtdan haça qaldı. İnsanlar bu işdən xəbər tutdular, qaranquşun yuvasını öz evlərinə köçürdülər.

Dünya Tufanı ilə bağlı rəvayətdə də qaranquşun insanı ilanın şərindən xilas etdiyi bəlli olur. Azərbaycan mifoloji mətinlərində, Azərbaycan Folklor Antologiyası I cild Naxçıvan Forkloru kitabında bununla bağlı rəvayətlər nəşr edilmişdir. Biz ilan inamı ilə bağlı bölmədə bu məsələdən geniş bəhs etmişik.

Qaranquşla bağlı inamlar bununla bitmir. O, yazın təmsilçisi, xəbərçisi hesab edilir. Qaranquşu öldürmək, onun

yuvasını uçurmaq ən ağır günahlardan sayılır. Onunla bağlı bir deyim diqqəti xüsusilə cəlb edir:

*Qaranquşam, qaranquş*
*Qanadlarım ayrıc- ayrıc.*
*Məni vuran bəy oğlu,*
*Qan qussun ovuc- ovuc.*

Yuxarıdakı inamların müxtəlif variantlarına Orta Asiyanın, Volqaboyunun, Ön Asiyanın türk xalqlarında da rast gəlinir. Beləliklə, qaranquşla bağlı inamlar ümumtürk xarakteri daşımaqla Dünya Tufanından başlayaraq Naxçıvanda, həmçinin digər türk xalqları arasında geniş şəkildə yayılmışdır.

"Qaranquş yaylağı" bu quşun insanlara böyük yardımı, quruya çıxan ilk quş olması səbəbi ilə onun şərəfinə belə adlandırılmışdır.

# NAXÇIVAN TƏKCƏ NUH YURDU DEYİL, HƏM DƏ NƏBİ YURDUDUR

Məsələyə keçməmişdən öncə bu yerlərin tarix və mədəniyyətinə aid bir neçə söz söyləməkdə fayda vardır. 100 min illərlə ölçülür bu yerlərin yaşı. Tarix də, tarixçilər də çox vaxt tərəddüd içərisində qalır: Haradan başlanır Naxçıvanın yaşı? Düşünmədən cavab vermək olar. Elmin çata bildiyi, açdığı zamandan. Görəsən, bu zaman haralara gedir? Gedir ifadəsi altında axtarışları göz önünə gətirməliyik. Bəlkə Qazma mağarası, ən azı Orta Paleolit?! Xeyir, bu, bizim hələlik çata bildiyimizdir. Bəli, hələlik. Bu ərazinin sututarlarının, bulaq və çeşmələrinin hər addımı yaşayış yeridir. Bizə görə, öyrəndiyimiz, ən azından ilkin formada tədqiq etdiyimiz yaşayış məskənləri ilə bağlı məlumatları tez-tez alırıq. Suyun, selin yuması, müəyyən təsərrüfat işləri və ya təsadüfi rastlamalar nəticəsində yeni-yeni yaşayış yerləri aşkar olunur. Buna görə də bugünkü məlumat sabah üçün şərtidir. Bir tarixçi məsuliyyəti ilə deyirəm Naxçıvanın insan yaşaması üçün cüzi şəraiti olan bütün əraziləri yurd, oba, oymaq yeridir. Biri böyük, digəri kiçik, biri daimi, digəri müvəqqəti yurd yerləri.

Dünyada, xüsusən bizim əhatə olunduğumuz coğrafi bölgədə insanlığın yaratdıqları bir qayda olaraq iki yerə ayrılır: Tarixəqədərki və sonrakı dövr. Bəzən bu yazıyaqədərki və sonrakı dövr də adlanır. Yəni tarix olaraq bir hadisəyə (bizə gəlib çatan tarixi məsələyə) söykənən dövr. Şərqlə bağlı mədəniyyətlər tarixində bu, Tufanaqədərki və Tufandan sonrakı mədəniyyət adı ilə iki yerə bölünür. Tufanaqədərki mədəniyyət tarixi proseslərin inkişafı, daha çox ümumbəşəri xarakter daşıyan ilkin mədəniyyətin yüksəlməsi, ümumiyə çevrilməsidir. Sonrakı inkişaf nəticəsində təbii-coğrafi amillərlə bağlı olaraq özünəməxsusluğun, fərqli düşüncə tərzinin formalaşması, bu mərhələdən keçərək etnik mədəniyyətə gedən yolun

meydana gəlməsi və sonrakı milli kimlik.

Tarixi-dini mənbələrdə mədəniyyət, yəni insan, onun yaradılışı və sonrakı inkişafı iki böyük dövrə ayrılır:

1. Adəm peyğəmbərdən Nuh peyğəmbərəqədərki, mədəni həyat.

2. Nuh peyğəmbər və Dünya Tufanından sonrakı mədəniyyət.

Təbii ki, I mərhələdə insanın Allah tərəfindən yaradılaraq Cənnətdə yerləşdirilməsi, günah işlədikdən sonra oradan çıxarılması və tədricən müəyyən ərazilərə yayılması. Son illərin bir sıra araşdırıcıları, xüsusən Devid Rol bunun Azərbaycan ərazisində, Urmiya gölü hövzəsində baş verdiyini, hətta lokallaşdırmada Araz çayının da həmin hövzəyə daxil olduğunu yazır. Beləliklə, ilk sivilizasiyanın da məhz bu bölgələrdən başlanması ilə əlaqəli fikirlər mövcuddur. Zaman keçdikcə insanlar yeni yurdlara yayıldılar. Adəm peyğəmbərdən Nuh peyğəmbərə qədər on nəsil dəyişdi. Müxtəlif mənbələrdə, o cümlədən "Peyğamberler Tarihi Ansiklopedisi"ndə, "Bibliyada", Əbül Qazi Bahadır xanın, Rəşidəddinin, A.Bakıxanovun və çox sayda müəlliflərin əsərlərində cüzi fərqlərlə həmin nəsil oxşar şəkildə təqdim olunur. Şəcərəni "Peyğəmbərlər tarixi ensiklopediyası"nda olduğu kimi veririk: Nuh Laməkin oğlu, Lamək Metuşalih (bu ad Muteveşlih kimi də verilir) oğlu, Metuşalihin Ehnuh (yəni İdris)in oğlu, Ehnuh Yerdin oğlu, Yerd Mehlailin oğlu, Mehlail Kaynanın oğlu, Kaynan Enuşun oğlu, Enuş Şiş (Şit) (ə.s.)-in oğlu, Şiş Adəm (ə.s.)in oğlu. Məlumatlara görə, Şiş (ə.s.)-a peyğəmbərlik verilmişdir.

Tarixi və dini mənbələrə görə şəhərsalma, yeni yurdlara yayılma İdris peyğəmbərin vaxtında baş vermişdir. Mövzumuza aid olduğu üçün Hz.Nuh peyğəmbərin adı ilə əlaqəli bəzi məqamları bildirməkdə fayda görürük. Onun adının Yeşkür, Şakir və Abdülqaffar olduğu da yazılmaqdadır. Nuh (ə.s.)ın harada doğulması ilə bağlı qəti fikir yoxdur. Lakin onun yetişdiyi yerlər içərisində Şam,

Hindistanla yanaşı tarixən Azərbaycanla bağlı olan Şimalı Mesopotamiyanın, Doğu Anadolunun adları da çəkilir. Beləliklə, Nuh peyğəmbərin region olaraq bizlərə yaxın bölgələrdən birində doğulması və yaşaması ilə bağlı fikirlər vardır (69, s. 4-6).

Qurani-Kərimdə və Bibliyada onun adı Nuh (ə.s.), Noy, Nox kimi yazılır. Mənbələrdə bu adın ona Allah tərəfindən peyğəmbər olaraq göndərilərkən verildiyi göstərilir. Yəni Allah ona "Ey Nuh" deyə müraciət etmişdir. Həmin sözün isə çox ağlayıb, göz yaşı tökən mənasına gəldiyi bildirilməkdədir.

Allah Təala tərəfindən öz qövmünə peyğəmbər olaraq göndərilən Nuhu (ə.s.) tayfası qəbul etmədi. Yazılanlara görə Nuh (ə.s.)-a 50 yaşında peyğəmbərlik verilib. O isə bəzi mənbələrə görə 450, bəzilərində 550 il, Qurani-Kərimə görə öz qövmünü Allaha itaətə çağırıb. Ailə üzvləri və qövmünün az bir qismi istisna olmaqla, kimsə onu qəbul etməyib, yəni onun peyğəmbərliyi, risaləti həyata keçməyib.

Qurani-Kərimin ayələrindən bəlli olur ki, Hz.Nuh (ə.s.) Allah tərəfindən öz qövmünə peyğəmbər olaraq göndərilmişdir. "O belə dedi: "Ey qövmüm! Allaha ibadət edin, sizin Ondan başqa (ibadət edəcək) heç bir tanrınız yoxdur. Məgər (Allahın əzabından) qorxmursunuz?" (Muminin surəsi, ayə 23). Digər ayələrdə də Nuhun peyğəmbər olaraq göndərildiyi və onun qəbul olunmadığı, təhqir edildiyi, ölümlə hədələndiyi bildirilir. Yəni Nuhu fərd olaraq qəbul etsələr də Onu peyğəmbər kimi tanımadılar. Ona görə də bəlaya düçar oldular. İndi də Naxçıvanda tərs, söz eşitməyən adamlar haqqında bir ifadə işlədilməkdədir: "Nuh deyir Nəbi (peyğəmbər) demir". Açıq şəkildə görünür ki, digər dəlillər kimi bu da birbaşa Nuh dövründən qalma olmaqla genetik cəhətdən Tufanla əlaqələnir, yəni Nuh (ə.s.) qövmünün yola gəlmədiyindən xəbər verir. Təkcə peyğəmbərliyini deyil, Nuhun özünü də qəbul etməyən

tayfası onu daş-qalaq etməklə, yurddan çıxarmağa çalışırdılar. Vəzifəsini yerinə yetirə bilmədiyi bir məkan ona yurd ola bilmədi. O, Peyğəmbərliyini, Nəbiliyini yaymağa yurd tapmadı. Beləliklə, Nuh (ə.s.) demişdi: "Ey Rəbbim, yer üzündə kafirlərdən yurd sahibi kimsəni buraxma" (Nuh surəsi, ayə 26). Buradakı "yurd sahibi" ifadəsi diqqətimizi daha çox çəkir. Yəni Tufandan sonra yeni yurd seçilməli və hər şey oradan başlanmalı idi. Deməli, Nuh (ə.s.)a yaşamaq və peyğəmbərliyini yaymaq üçün yeni yurd yeri seçiləcəkdi. Amma bura hər yer ola bilməzdi. Allah Təala Nuh (ə.s.) belə buyurur: "Bizi zalim tayfaların əlindən qurtaran Allaha həmd olsun"- de". Və de: "Rəbbim! Məni mübarək bir əraziyə endir. Sən sığınacaq verənlərin ən yaxşısısan!" (Muminin surəsi, ayə 28-29).

Beləliklə, Allah Nuh (ə.s.)-a ən xeyirli, bərəkətli, torpağa enməsi, yurd yeri seçməsi üçün ondan istəməyi vəhy edir. Burada coğrafi baxımdan əlverişli olmaqla yanaşı, artıb çoxalmaq, yurd salmaq mənasında da yer seçilməsi nəzərdə tutulur. Həmin yer Nuh peyğəmbərin maddi və mənəvi vətəni olmalı idi. Xeyir-bərəkətli sayılan torpaqdan başlayacaqdı ikinci mədəniyyət. Gəmi çox ərazilər dolaşdı, hündür zirvələrə toxundu. Nəhayət, şanı uca Allahın hökmü gəldi: "Ey Nuh! Sənə və səninlə birlikdə (gəmidə) olan camaatdan törənəcək ümmətlərə bizdən göndərilən əminlik və bərəkətlərlə gəmidən en. Onlardan törəyəcək ümmətlər içində elələri də var ki, onları da bir müddət faydalandıracaq, dolanışıq verəcək, sonra şiddətli bir əzaba düçar edəcəyik" (Hud surəsi, ayə 48).

Qurani-Kərimin ayələrindən aydın olur ki, Nuh (ə.s.) gələcək yurdu Allah özü seçmişdir. O, yurdu seçmişdir ki, ora Tufanaqədər və Tufandan sonra da müqəddəs olmuşdur. Çünki xeyir-bərəkət Allaha bağlılıqdadır.

Həmin yerin Naxçıvan olması ilə əlaqəli bu başlıqda geniş bəhs etməyəcəyik, belə ki, hərtərəfli şəkildə sübut olunmuşa əlavə etməyə ehtiyac duymuruq. Çünki bundan

ayrı-ayrı bölmələrdə geniş bəhs etmişik.

Nuhdaban rəvayətindən də Nuh (ə.s.) və ətrafındakıların Naxçıvanı yurd yeri seçdikləri bəlli olur. Beləliklə, Naxçıvanın coğrafi mənada Nuh yurdu olması təsdiqlənir.

Məkan baxımından xeyirli-bərəkətli Naxçıvana yerləşən Nuh (ə.s.) əsas vəzifəsini yerinə yetirməli idi. Bu da risaləti, Nəbiliyi, gəmidə xilas olanlara və onlardan törəyənlərə Tovhid (Tək Allahlıq) ideyasını yaymaq. Dünya Tufanı da bunun üçün baş vermişdir. Uzunmüddətli axtarışlarımız sübut edir ki, bu ərazi də Naxçıvanda, Gəmiqaya ərazisindəki Nəbi yurdundadır. Biz 2003-cü ildə nəşr edilmiş kitabımızda Nəbi yurdunun məhz Hz. Nuhla bağlı olduğunu yazmışdıq. Çoxlu qayaüstü təsvirlərin mövcud olduğu bu yer Nuh (ə.s.)-ın məqsədinə çatdığı Nəbilik, peyğəmbərlik vəzifəsini sərbəst şəkildə yaydığı ərazidir.

Bəli, Peyğəmbər yurdudur bura. Bütün sonrakı səmavi dinlərin əsası burada qoyulub. Bir sıra mənbələrə görə Nuh (ə.s.) Tufandan sonra 350 il yaşamış (bu rəqəm fərqli verilir) və öz qövmü içərisində peyğəmbərlik etmişdir. Zaman keçdikcə insanlar Nəbi-peyğəmbər yurdundan Araz çayına doğru yayılmağa başlamışlar. Tufandan sonrakı sənətkarlıq sahələri, şəhərsalma mədəniyyəti burada formalaşmışdır. K.A.Nikitinin yazdığı, bir sıra mənbələrdə və rəvayətlərdə göstərildiyi kimi Nuh (ə.s.) ilk dəfə olaraq insanlara Duzdağ ərazisindən duz çıxarmağı öyrətmişdir (105). Ətrafında gur sular, çaylar, bulaqlar axan, təsərrüfatın bütün sahələrinin inkişafı üçün hərtərəfli şəraiti olan bölgəyə Allah Duzdağ kimi tükənməz mənbə, çoxlu şəfa suları, faydalı qazıntılar vermişdir. Çünki Qurani-Kərimdə gəmidəkilərin xeyirli və bərəkətli torpağa endirildikləri söylənir. Peyğəmbər yurdu olan Naxçıvan onların ruhları ilə müqəddəsləşdirilmişdir. Bütün bunları düşündükcə Qurani-Kərimin "Kəhf" surəsinin 9-26-cı ayələrində adı müqəddəs

mağara kimi çəkilən, oraya sığınanların haqqa qovuşduğu Əshabi-Kəhfin Naxçıvanda təsadüfən olmadığı göz önünə gəlir. Buranı Allah müqəddəsləşdirib. Naxçıvanın demək olar ki, hər yerində yaşı bilinməyən mağara pirlər, övliya və övsiyalara aid ziyarətgahlar mövcuddur. Bəli, bura peyğəmbərlər yurdudur. Bu söylənənlərə bir faktı da əlavə etməkdə fayda vardır. Xalq arasında olan bir rəvayətə görə: "Tufan başlayanda Nuh peyğəmbər Adəm peyğəmbərin nəşini də çıxarıb gəmiyə götürmüş, quruya çıxdıqdan sonra yenidən dəfn etmişdir". Bu, yazılı mənbələrdə də öz əksini tapmışdır. "İslam Ansiklopedisi" I cilt s. 363-də, həmçinin peyğəmbərlər tarixində və digər mənbələrdə verilən məlumata görə Hz.Nuh (ə.s.) Tufan başlayanda Adəm peyğəmbərin cənazəsini də gəmiyə götürüb ki, sular altında qalmasın. Tufandan sonra onu yenidən dəfn ediblər. Yazılanlara gəminin Naxçıvanda dayandığını əlavə etməklə Adəm peyğəmbərin də burada dəfn edildiyini söyləmək olar. Biz uzun müddətdir ki, bu deyilənin izi ilə material toplamağa çalışırıq, lakin istənilən nəticəni əldə edə bilməmişik. Amma zəif olsa da Naxçıvanda belə bir rəvayət mövcuddur. Mən düşünürəm ki, bizlər olmasaq da gələcək araşdırıcılar bununla əlaqəli yeni faktlar aşkar edəcəklər. Necə olursa olsun Naxçıvan Nəbi və Nəbilər yurdudur. Yafəsə peyğəmbərlik verilməsindən bəhs edən mənbələri nəzərə alsaq, yurdda nəbiliyin davam etdiyini və tədricən ətrafa yayıldığını söyləyə bilərik. Biz əvvəlki illərdə nəşr etdirdiyimiz "Hz.İbrahim peyğəmbər türkdürmü?!" hipoteza yazımızda müəyyən dini və elmi mənbələrə söykənərək Hz.İbrahim (ə.s.)-ın Yafəsin oğlu Türkün soyundan gələn Tarixin oğlu olduğunu yazmışdıq. Orada bir sıra müəlliflərin Hz.İbrahim (ə.s.)-ın Azəri türkü, hətta Böyük Oğuz Xaqan olması ilə bağlı fikirləri də verilmişdir (72, s. 25- 30). Yəni bu hipotezanın içərisində fakta söykənmələr vardır. Beləliklə, bu soyun Peyğəmbərlərinin, nəbilərinin Naxçıvandakı Nəbi yurdundan çıxdıqları və tədricən ətrafa yayıldıqları söylənilə

bilər.

Müqəddəslik və Nəbi yurdu ilə bağlı bir fikir də verməklə bu bölümü hələlik nöqtələmək istəyirəm. Bəli, hələlik, çünki yeni məlumatlar bizləri bu məsələlərə dönə-dönə qayıtmağa məcbur edir.

Bəlli olduğu kimi, Nəbi (peyğəmbər) yurdunun yaxınlığında bu bölgədə ən müqəddəs ocaq, ziyarətgah sayılan "Bibiqətəl" piri yerləşir. Biz uzun illərdir ki, bu müqəddəs yerlə bağlı geniş material toplamağa çalışırıq, lakin elə ciddi bir şey əldə edə bilməmişik. Digər araşdırıcılar da bizim kimi "Bibinin qətl edildiyi yer" və buna oxşar mülahizələr üzərində dayanırlar. Amma bunlar tutarlı deyil. Son dövrlərdə bizdə belə bir fikir yaranıb ki, ziyarətgah Nuh peyğəmbərin ailəsi, daha dəqiq desək bacısı ilə əlaqəli olmalıdır. Hər şeydən əvvəl Hz.Nuh peyğəmbərin bacısının məzarının Naxçıvanda olması ilə bağlı tarixi məlumatlar və rəvayətlər mövcuddur. "Bibiqətəl"ə gəlincə bura el arasında "ağır ziyarətgah" sayılır. Məlum olduğu kimi, Naxçıvanda atanın bacısı bibi adlanır. Azərbaycanın bir sıra bölgələrində bibiyə "mama" deyirlər. Bibi müraciəti Doğu Anadoluda da vardır, lakin bütövlükdə Türkiyədə bibi ifadəsi az işlənir. Beləliklə, atanın bacısına "bibi" deyilməsini, ziyarətgahın Nəbi yurduna yaxınlığını nəzərə alaraq onun Nuh peyğəmbərin bacısı ilə əlaqəli olduğunu söyləyə bilərik. Yuxarıda dedik ki, bu fikrimiz mülahizə xarakteri daşıyır. Lakin mülahizə olsa da üzərində düşünməyə dəyər!

Nəticədə Naxçıvanın Allah tərəfindən Nuh peyğəmbərə yaşayış məskəni və peyğəmbərliyini, nəbiliyini yaymaq üçün seçdiyi yer olduğunu söyləyə bilərik. Buna görə də Naxçıvanı Allah qoruyur. Ta qədim zamanlardan Naxçıvanda kütləvi dağıdıcı hadisələr olması qeydə alınmamışdır. O, Tufandan indiyə qədər mövcuddur və qiyamətə qədər də mövcud olacaqdır. Çünki burada Hz.Nuhun, onun bacısının, adları bizə dəqiq məlum olmayan çox seçkinlərin məzarları, məqamları vardır.

# NUHDAN SONRAKI VARİSLİK HAQQINDA BİR NEÇƏ SÖZ

Biz bir məsələyə aydınlıq gətirmək istərdik-Nuhdan sonrakı varislik. Rəvayətlərə görə Nuh peyğəmbər Samı və Xamı müxtəlif istiqamətlərə göndərir. Naxçıvan da daxil olmaqla bütöv Türküstanı Yafəsə verir. Rəvayətlərə və tarixi məlumatlara əsasənYafəs atasına "Sən mənə quraqlıq ölkəni verdin. Mən burada nə edəcəyəm"-deyə soruşur. Atası da ona üzərində Allahın mübarək adları (İsmi Əzəm) yazılmış daşı verir və deyir ki, lazım olanda bu daşın üzərindəki adları oxuyub Allahdan yağmur istə. Bu haqda bir sıra mənbələrdə məlumatlar vardır (47,s. 27-28 ). Lakin həmin daşın Nuh peyğəmbərə kim tərəfindən verildiyi və ya daşın hansısa hadisə ilə bağlılığı haqqında elmdə çox az məlumat vardır. Lakin bu yaxınlarda Moskvada nəşr edilən "Вестник древней истории" jurnalında qədim yunan və latın dillərindən tərcümə edilərək şərh ilə verilmiş "Жизнь Адама и Евы" məqaləsində müəyyən məlumatlar vardır (99, s. 229-251). Məqalədə bu günə qədər elmə bəlli olmayan bir sıra məqamlara açıqlama gətirilmişdir. Burada bir məsələ diqqətimizi cəlb etdi. Adəm peyğəmbərin vəfatından 6 gün sonra Həvva nənə ölüm yatağında olarkən Sif (islam mənbələrində Şit) başda olmaqla bütün övladlarını çağırıb deyir ki, Mikayıl (mələk) mənə dedi ki, sizin nəsil əvvəlcə su ilə, sonra odla mühakimə olunacaqdır. Övladlarım, bizim başımıza gələnləri siz iki lövhəyə yazın-daş və gil. Bu, ona görədir ki, su ilə mühakimə olunsaq, daşdakı yazılar qalsın, çünki su daşı dağıda bilməz. Odla mühakimə olunsaq, gil lövhə (yazı) qalsın, çünki daş oda dözməz partlayar, gil isə bişdikcə bərkiyər.

Yenə həmin mənbədə göstərilir ki, Dünya Tufanından sonra həmin daş lövhəni görənlər olubdur. Ona böyük inam mövcud imiş. Bizcə, daş kultunun qaynaqlandığı mənbələrdən biri də bu hadisə ilə bağlıdır.

Xalq arasından toplanmış materiallardan və rəvayətlərdən bəlli olur ki, XX yüzilliyin 30-cu illərinə qədər belə bir daş Əlincə qalasında saxlanmış, lazım olanda onu gətirirmişlər və yağış yağırmış (40, s. 33 ).

Yafəsdən bəhs edərkən bir məsələni də xatırlatmaqda fayda vardır. Gəmiqaya ərazisindəki Xəzər yurdunu. Bəlli olduğu kimi, qayaüstü təsvirlərin yayıldığı ərazilərdən biri də Xəzər yurdudur. Müqayisəli araşdırmalar sübut edir ki, Qaranquş yaylağı və onun ətrafına nisbətən bu yerdə təsvirlər o qədər də zəngin deyil. Deməli, burada məskunlaşma sonralar baş vermiş Gəmiqaya-Qaranquş ata ocağı olmuşdur. Bəzi müəlliflər Xəzər yurdunu türk tayfaları olan Xəzərlərlə əlaqəndirirlər. Təbii ki, yurd Xəzər adı ilə bağlıdır. Lakin tayfa olaraq sonrakı inkişaf mərhələsində formalaşmış xəzərlər deyil, onların ulu babaları, Yafəsin oğlu Xəzərlə bağlıdır.

Bəlli olduğu kimi, Nuh peyğəmbər oğlanları Şam və Xamı ayrı-ayrı istiqamətlərə göndərir, Yafəsi isə yanında saxlayır. Türküstanı ona vermək deyərkən ondan olan övladların Türküstana yayılması nəzərdə tutulmalıdır. Yəni Yafəsin övladları Naxçıvanda doğulub burada ilk yurd salıb, sonradan ətrafa yayılıblar. Heç təsadüfi deyil ki, Yafəsin oğlanları ilə bağlı Naxçıvanda yer adları və rəvayətlər mövcuddur.

Nuh peyğəmbər və Oğuznamələrlə bağlı məlumatlarda, tarixi mənbələrdə Yafəsin Türk, Xəzər, Saklar, Rus, Minq, Çin, Kimər, Tarih adlı oğlanları olduğu bildirilir (18, s. 8-10). Bəzi mənbələrdə isə oğlanlarının doqquz olduğu yazılır (15, s. 30-32). Diqqət versək sonrakı inkişaf mərhələsində oğlanlarının hər birinin adı ilə böyük uluslar, yurdlar və xalqlar yaranmışdır. Ayrı-ayrı bölgələrdə yurd tutsalar da tarixin müəyyən dövrlərində ata yurdlarına da qayıtmışlar. Yafəs və ondan sonrakı dövrlərdə bu yerlərdən köç edən övladların nəvələri təqribən üç min, üç min beş yüz il əvvəl yenidən Ata yurdlarına dönürlər. Öncə

kimərlər, onların ardınca sak-skiflər, hunlar, Xəzər övladları və digərləri. Beləliklə, bütün Avroasiyada eyni soya, qana və dilə malik olan Nuh-Yafəs övladlarının böyük imperiyaları, dövlətləri quruldu. Hamısı da babaları Nuha sadiq olan tək Allahlılıq inamında. Övladların sayı ilə bağlı mübahisələr olsa da bizi düşündürən, diqqətimizi cəlb edən həmin adlarla əlaqəli müəyyən məlumatlardır. Buradaca bir şeyi də qeyd etməkdə fayda vardır. Naxçıvanda yayılmış bir rəvayətə görə, Nuhun 7 oğlu olmuşdur. Onlardan biri atasına itaət etməmiş, qalanları gəmidə xilas olmuşdur. Həmin rəvayətin "Azərbaycan mifoloji mətnlər" kitabına daxil edilmiş hissəsində Nuhun (ə.s.) oğlu Türkün atasından ayrılaraq 450 il bir adada yaşamasından, burada heyvanlarının o qədər çoxalaraq adanı tutmasından, yem çatışmazlığından, heyvanlarının və özünün ölümlə üz-üzə qalmasından, nəhayət, adaya dayaz yolla keçib gəlmiş qurdun ardınca buradan xilas olmasından bəhs edilir (14). Təbii ki, söhbət Türkdən gedirsə çoxsaylı mənbələr onu Nuh peyğəmbərin deyil, Yafəsin oğlu olduğunu yazırlar. Deməli, rəvayət xalq tərəfindən dəyişik formada verilmişdir. Beləliklə, atasının yanında qalan Yafəsin övladları ilk öncə bu ətrafa, sonralar isə ona verilən bölgələrə yayılmışlar. Bizcə, Xəzəryurd, Sakın oturduğu indiki Sakkarsu çayı ətrafı, Xurs, sonrakı törəmələrdən Kəngərli tayfası və yurdları belə yaranmışdır. Müqayisəli araşdırmalar sübut edir ki, Xəzər, Saklar, Kimər-Qəmər, Qəmərli, Kəmərli və s. yer adları Qərbi Azərbaycan, Anadolu, Güney Azərbaycan və digər bölgələrdə də mövcuddur. Gəmiqaya və ətrafındakı yer adları və türk soyları ilə əlaqəli topinimlərlə bağlı Abbas Seyidovun ayrıca araşdırması vardır (73). Yafəsin altıncı nəvəsi Bayandır xanın Qaradağ və Göyçə gölü ətrafında məskunlaşması ilə bağlı tarixi məlumatlar (s. 30), Türkün oğlanları-Tutək, Çigil (Çekel), Barsçak (Barseçar)-Basarkeçər, Tutəyin oğlu-Amılca (Əlincə), Köy xan (Göynük) və çox sayda bu kimi yer-tayfa adları Yafəs soyunun burada məskunlaşdığını,

müəyyən zamandan sonra babalarına verilmiş yurdlara yayıldıqlarını, davamlı olaraq qərbə-ata yurdlarına doğru axınlar, yürüşlər etdiyini göstərir. Onlar Mesopatomiya, Güney Qafqaz, Anadolu, bütövlükdə Xəzərin qərbinə, Hind okeanına qədərki cənub bölgələrə getdikləri yollarla da qayıtmışlar. Bir zamanlar yayılaraq Sibir-Altay, Mərkəzi Asiya Çin (Yafəsin oğlanlarından biri), Rusiya (Yafəsin digər oğlu) və digər bölgələrdə məskunlaşmış qardaş, qohum türk soyları zaman-zaman öz aralarında qovğalar edib, biri digərini sıxışdırdı. Sıxışdırılanlar daha çox boş ərazilərə və ata yurdlarına-Azərbaycana, bütövlükdə Cənubi Qafqaza hərəkət edirdilər. Beləcə, kimərlər (Yafəsin oğlu Kimərdən törəyənlər) skiflər, sarmatlar, hunlar, xəzərlər, səlcuqlar, onlarla oğuz- türk boyları biri-birlərini əvəz edə-edə Avroasiya adlı böyük bir coğrafiyaya yayıldılar. Gedəndə özləri ilə yerli toponimləri, inamları, adət-ənənələri apardıqları kimi getdikləri yerlərdə yaşatdıqları toponimləri digər bölgələrə də yayırdılar. Zaman-zaman müxtəlif ərazilərdə yaşayan, ayrı-ayrı inamları, dinləri qəbul edən türklərin- Yafəsin soyunun müəyyən hissəsi kökündən qoparıldı. Bu məsələdə dinlər (xristianlıq, az da olsa yəhudilik) və hind- avropaçılıq ciddi rol oynamışdır.

# GƏMİQAYADA NUH (Ə.S.)-IN QURUYA ÇIXMASI İLƏ BAĞLI MƏRASİM- "SU SƏPƏN" BAYRAMI

Qədim kökləri Nuh peyğəmbərə, Dünya tufanına, Şumer mədəniyyətinə bağlanan Gəmiqaya abidəsi tarixilik baxımından geniş şəkildə tədqiqata cəlb edilməklə, bir sıra elmi problemlərin həll edilməsinə səbəb olmuşdur.

Gəmiqayada tarixilik, təsvirlərlə bağlı düşüncə tərzi hansı dərəcədə qədim olsa da, bu, daha çox keçmişlə bağlıdır. Maraqlı məsələlərdən biri xalqın min illər boyu tapındığı abidə ilə bağlı inancların, adət və ənənələrin, mərasimlərin, yəni ənənəvilik prinsipinin qorunub saxlanması, nəsildən-nəsilə ötürülməsidir. Etnoqrafiya elmində tarixi varislik məsələləri bu yolla araşdırılır.

Biz bu bölümdə Gəmiqayada "Su səpən" adlı bayramın keçirilməsi və onun tarixiliyindən bəhs edəcəyik. Bayramın "Su səpən" adlanması, burada icra edilən adət və inanclar mərasimin genetik cəhətdən Azərbaycan türklərinə bağlandığını ciddi şəkildə sübut edən amillərdəndir.

Bayrama çox qədimdən əməl edilmişdir. Hansı vəziyyətdə və necə keçirilməsindən asılı olmayaraq bayram sırf milli xarakter daşımışdır.

Mərasimlə bağlı məlumatlar həmin bölgənin sakinləri Fərman Xəlilov, Həsən Həsənov, Qəmər Zeynalabdınova, Xanım Səfərova və başqalarından toplanmışdır.

Həmin materiallar nəticəsində məlum olmuşdur ki, "Su səpən" adlanan mərasim yerli əhalinin min illər boyu təntənəli şəkildə keçirdiyi ən kütləvi mərasimdir.

Yazın bitib, yayın gəldiyi gün- iyun ayının 21-də Gilançay vadisinin bütün kəndlərinin, xüsusən, yuxarı zonanın əhalisi səhər erkən oyanıb Gəmiqaya yaxınlığındakı Bibi Qətəl pirini, Qara piri və digər ocaqları ziyarətə gedirlər. Ziyarət üçün öncədən hər cür hazırlıq görülür. Hətta hava yağmurlu olsa da, mərasim dayandırılmırdı. Əksinə yağmur

daha xoş hesab edilirdi. Yol boyu yaşından asılı olmayaraq, hər kəs çay başında, çeşmə kənarında çiləşir (yəni bir-birinin üstünə su səpir) və deyir:- su aydınlıqdır.

Pirlər ziyarət edildikdən sonra insanlar çal-çağırla, musiqi ilə Gəmiqayaya doğru hərəkət edirlər. Bu vaxt nisbətən uzaq kəndlərdən gələnlər və yerli əhali bir yerə cəmləşir. Xüsusi bayram yeməkləri hazırlanır. Əsl şənlik başlayır. Xalq arasından toplanmış materiallara əsasən burada aşıq məclisi, at yarışı, yallı və s. oyunlar keçirilirdi. Mərasimlər Qaranquş, Nəbiyurdu, Qız-Gəlin çuxurunda olurdu. Bu, bir növ barış, sevgi bayramı idi. Küsülülər eyni məclisə gətirilir, barışdırılır. Cavan oğlanlar gül- çiçək vermə vasitəsi ilə istədikləri qızlara könüllərini açırdılar.

Novruzda nov başında olduğu kimi, çeşmənin ətrafında çiləşir- su səpmə olurdu. Gəmiqayanın ətrafında qurban kəsilirdi.

Toplanmış materiallara əsaslanaraq demək olar ki, XX yüzilliyin 80-ci illərinə qədər məclis bütün gecəni də davam etmişdir. Ayın 22-si, yəni yayın ilk günü səhər hamı Gəmiqayanın ətrafına toplaşırdı. Günəş doğmamışdan qayalarda olan şehi üzlərinə sürtürdülər. Hesab eləyirlər ki, həmin şehlər müqəddəsdir. Sonra Gəmiqayanın zirvəsinin aşağı tərəfindən çıxan və Gözəllər adlanan çeşmədən bir bardaq su götürürlər. Bu su müqəddəs hesab edilməklə, gələn ilin həmin vaxtına qədər saxlanılır, bərəkət və sağlamlıq vasitəsi kimi istifadə edilirdi. Artıq qalan su atılmır, növbəti ildə gətirilib tökülür götürüldüyü yerə.

Mərasimin maraqlı anlarından biri yayın ilk günü doğan Günəşin qarşılanması, halay oyunları, yallılar keçirilməsidir.

Bundan sonra şənlik mərasimi gün boyu davam edir. Qızlar müxtəlif çiçəklər toplayırlar, çələng hörürlər.

Mərasimin ikinci günü iştirakçıların sayı daha çox olardı. Çünki ətraf kəndlərdən minik (at, araba, indi maşın) ilə gələnlər birbaşa Gəmiqayanın ətrafındakı mərasimə

qatılardılar. Ətrafdakı yurdların (obaların) camaatı da onlara qoşulardı. Ritual günün ikinci yarısı başa çatar, camaat yenə də çiləşə- çiləşə geriyə dönərdilər.

Beləliklə, xalq min illər boyu formalaşmış, nəsildən-nəsilə ötürülərək yaşadılan əski adətləri və inancları qoruyub saxlayır. Maraqlıdır ki, mərasim ancaq Gəmiqayada məhz yay girən gündə keçirilir. Müqayisəli araşdırmalar göstərir ki, Naxçıvanın digər bölgələrində yayın girməsi ilə bağlı , məhz həmin günə düşən heç bir təntənəli mərasim yoxdur. Bu, bir tərəfdən astronomik təqvimlə səsləşirsə, digər tərəfdən Dünya tufanı, Nuh peyğəmbərin gəmisi məsələsi, onun sahilə çıxması və özü ilə götürdüyü insanların, canlıların bəladan xilas olması ilə bağlıdır.

Səmavi kitablardan, dini və elmi ədəbiyyatlardan məlum olur ki, tufan ilin isti fəslində baş vermişdir. Fırtına gəmini məlum olmayan istiqamətə aparmış, nəhayət, təlatüm sakitləşdikdən sonra gəmi bir dağa, (qayaya) saplanaraq qalmışdır.

Dini rəvayətə görə, Nuh (s.ə.) peyğəmbər əvvəl göyərçini, sonra qaranquşu ötürmüş, quşlar bir az uçduqdan sonra quru yer tapa bilmədikləri üçün gəmiyə dönmüşlər. Sonra quzğunu buraxmış, quş gedib, qayıtmamışdır. Beləliklə, suyun azaldığı, quru göründüyü aşkar edilmişdir.

Rəvayətdə quşlar fərqlənirlər. Lakin bütün variantlarda qaranquş vardır. Unutmaq olmaz ki, Gəmiqayada təsvirlərin cızıldığı əsas yerlərdən biri Qaranquş yaylağıdır. Yuxarıdakılara söykənərək demək olar ki, mərasimin Gəmiqayada keçirilməsi birbaşa Nuh peyğəmbər və Dünya tufanı ilə bağlıdır. Tufan dayanıb, sular çəkiləndən sonra Allahdan hökm gəldi:

"Deyildi ki, ey Nuh! Sənə və səninlə bərabər olan ümmətlərə bizdən salam və bərəkətlə (gəmidən) en. Onları (dünyada) faydalandıracağımız, sonra da bizdən onlara ələm verici bir əzab toxunacağı ümmətlər də olacaqdır" (Hud surəsi. Ayə 48).

Dini ədəbiyyatlardan, digər mənbələrdən məlum olur ki, Nuh peyğəmbər quruya çıxan kimi dörd ətrafa qurban kəsmiş, şadlıq etmişdir (74, s. 26; 110, s. 74-76).

Tufandan sonra qurban kəsib şadlıq edilməsi haqqında "Bilqamıs" dastanında da məlumat verilir. Utnapişti deyir:

*Mən çıxıb dörd tərəfin*
*dördünə qurban verdim.*
*Qalxıb dağın başına göylərə tərif dedim.*

"Su səpən" mərasimində də Gəmiqayanın dörd ətrafında qurban kəsilir. Eyni zamanda, xeyir-bərəkətlə bağlı dualar edilir. Bunlar isə genetik cəhətdən Nuh peyğəmbərin keçirdiyi mərasimlə bağlıdır. Təbii ki, min illər boyu mərasimdə müəyyən cəhətlər unudulmuş, dövrlə bağlı olaraq yeni əlamətlər formalaşmışdır. Lakin əsas məzmun və məqsəd dəyişməmişdir.

Bizcə, Gəmiqayadakı qayaüstü təsvirlərin böyük bir hissəsi çox qədim çağlarda burada keçirilən xüsusi mərasimlər zamanı çəkilmişdir. Şəkilləri hər kəs çəkə bilməzdi. Bunun üçün peşəkarlıq, yüksək təfəkkürə malik olmaq lazım idi. Hələlik daşlar üzərində hansı alətlərlə işləndiyi tam məlum deyil. Lakin buradakı incəlik, süjet və kompozisiya yüksək sənətkarlıqdan xəbər verir. Xüsusilə, ovsunçuluq, müəyyən rituallarla bağlı təsvirlərin belə mərasimlər zamanı çəkildiyini söyləmək olar. Təsvirlər arasında orta əsrlər dövrünə aid olanlar, hətta son dövrlərdə çəkilmiş tək-tək təsvirlər də mövcuddur ki, onların kobudluğu, bircinsliyi ilk baxışdan görünür.

Gələcəkdə tədqiqatlar zamanı təsvirlərin rituallarla bağlılığı məsələsinə xüsusi diqqət yetiriləcəkdir.

Mərasimin bir başa su kultu ilə bağlılığı bir tərəfdən bolluq, bərəkətlə əlaqədardırsa, digər tərəfdən tufanda suyun çəkilib getməsi, yeni həyatın başlanması ilə bağlıdır.

İnformatorların məlumatından aydın olur ki, ən müqəddəs su Gəmiqayanın, yəni gəminin ilişib qaldığı

söylənilən zirvənin aşağı tərəfindən çıxan və el arasında Gözəllər adlanan çeşmənin suyu sayılır. Deyirlər ki, bu gəminin altından sızan sudur. Xalqın inamına görə, zirvədəki böyük çala gəminin ilişib qaldığı yerdir. Məhz bu sudan doldurub evlərə gətirməyə çalışırlar.

Məlumdur ki, ümumiyyətlə, türk xalqlarında su kultu geniş yayılıb. Lakin çərşənbə suyu müstəsna olmaqla, heç bir su müqəddəs hesab edilərək evlərə gətirilmir. Müqayisə üçün deyək ki, dünya müsəlmanları arasında Məkkədəki Zəm-Zəm, həmçinin şiə əhalisi arasında Hz.Əlinin Kufədəki quyusunun suyunu müqəddəs hesab edərək evlərə gətirmək geniş yayılmışdır (62).

Gəmiqayada hər gün deyil, məhz həmin gün götürülən suya inam var. Yəni digər günlərdə su sakral gücünü itirir. Sonralar çiləşmə də olmur.

Anadolu türkləri arasında Novruzda və Novruz sabahı (Naxçıvanda axır çərşənbə sabahı) çiləşmə, su ilə təmizlənmə geniş yayılmışdır.

Türklərdə su ilə bağlı inancların genizisindən əvvəlki yazılarımızda geniş bəhs etdiyimizdən həmin məsələ üzərində dayanmayacağıq.

Mərasimdə gül toplama ilə bağlı inanclar diqqəti cəlb edir. Yəni bu, Azərbaycan etnoqrafiyasında ən az tədqiq olunan sahələrdəndir.

Qarşılıqlı araşdırmalar göstərir ki, Naxçıvan ərazisinin aran və dağətəyi zonalarında XX əsrin əvvəllərinə qədər Gülənay (el arasında Giləmay), yəni güllü, çiçəkli ay adlı bölgü olmuşdur ki, bu da yazın II ayına, qara yazdan sonrakı dövrə düşür. Həmin ayda cavan qızların çiçək toplamaq, şadlıq etmək üçün toplanması adəti olmuşdur. Sadəcə qızlar toplanardı. Müxtəlif oyunlar, şənliklər təşkil edilirdi. Toplanmış çiçəklərdən çələng düzəldilərdi.

Gəmiqayadakı mərasim, çiçək toplama və s. genetik cəhətdən digər türk xalqlarının inamları ilə bağlıdır. Lakin digər türklərdə bu, ilin müəyyən dövrlərində keçirilir. Orta

Asiya, Balkan, Anadolu türklərində mayın 6- da keçirilən mərasimdə (Xıdır- Elləz, Xıdır- İlyas) bir sıra məsələlərlə bərabər, qızların çiçək toplaması da geniş yayılmışdır.

Göründüyü kimi, mərasim bütün cəhətləri ilə yerli əhaliyə, qədim türklərə və onların sonrakı nəsillərinə aiddir.

Gəmiqayadakı təsvirlərin müəyyən hissəsinin məhz su səpən bayramı, burada icra edilən adət və inanclarla bağlılığını söyləmək olar. Çünki icra edilən inancların ovsunlar, magiya, hətta cadugərliklə bağlılığı aşkar edilir.

Şamançılıqla bağlı belə mərasimlərdə cadugərlik işarələri, ovsunçuluq ayinlərindən istifadə edildiyi Sibir və Altay türkləri arasında da geniş yayılmışdır (41, s. 208-210).

# BİR QARĞIŞIN, BƏD DUANIN İZİ İLƏ:- "ELƏ NUH TÖKƏRƏM YERLƏ GÖY QOVUŞAR"

Hər bir deyimin, alqış və qarğışın müəyyən tarixiliyi, hansısa hadisə ilə bağlılığı mövcuddur. Onların əksəriyyəti tarixin alt qatlarında yaranmaqla zaman-zaman müəyyən dəyişikliklərə uğramış, bir çox halda təhrif olunmuş, anlaşması çətin olan vəziyyətdə günümüzə qədər gəlib çatmışdır. Bunlardan elələri vardır ki, özündə ciddi tarixi hadisələri, dünyəvi məsələləri qoruyub saxlayır. Toplanmış materiallara əsaslanaraq demək olar ki, Naxçıvan ərazisi belə ifadələrlə zəngin olan bölgələrdəndir. Təbii ki, həmin ifadələr daha çox yerli xarakter daşımaqla geniş anlamda tarixi Naxçıvan bölgəsi ilə bağlıdır. Bunlar içərisində tarixi hadisələr, yaşayış məskənləri, məişət münasibətləri, qədim inamlar sistemi ilə bağlı olanlar diqqəti daha çox cəlb edir. Özgə sözlə desək hər bir ifadənin arxasında tarixi gerçəklik dayanır. Bunların toplanıb sistemləşdirilməsi, elmi cəhətdən təhlili aid elmlərin qarşısında duran mühüm vəzifələrdəndir.

Toplanmış etnoqrafik materiallara, folklor nümunələrinə, tarixi mənbələrə, maddi-mədəniyyət abidələrinə, yer adları ilə bağlı məlumatlara əsaslanaraq demək olar ki, Naxçıvanda Nuh peyğəmbər və Dünya Tufanı ilə əlaqəli dünyanın heç bir yerində rastlanmayan məlumatlar mövcuddur. Buradaca Naxçıvanda qədimliyi, köhnəliyi bildirən "Nuhdan qalma", "Nuh əyyamından qalma" ifadələrini də diqqətdən qaçırmaq olmaz. Deməli, burada nə qədimdirsə, yaşı çoxdursa o, Nuh peyğəmbərlə əlaqələndirilir.

Toplanmış materiallara əsaslanaraq demək olar ki, "Elə nuh tökərəm yerlə göy qovuşar" qarğışı həmişə, hər hadisə zamanı edilmir. Bu daha çox xəbərdarlıq, əyrilikdən, yalandan qaytarma, doğrunu isbatlama üçün edilir. Anlamına görə ilahi, ali bir qarğışdır. İftiraya uğramışın

yerdəkilərin onun dadına çata bilməyəcəyi zaman etdiyi mənəvi üsyanıdır. Sanki bununla hər şey ortaya qoyulacaq, yerlə göy birləşəcək, doğru öz yerini tapacaqdır. Dəfələrlə eşitdiyimiz bu ifadə gələn kimi ətrafdakılar deyirlər: "Sən Allah, Nuh tökmə, başımızı bəlaya salma". Hətta həmin adam haqsız olsa belə ona "niyyətin öz başını yesin, bəlanı bizdən kənar et"- deyirlər. Biz bu dərəcədə qorxulu olan qarğışın necə edildiyini, onun insanları nədən vahiməyə saldığını öyrənərkən bəlli oldu ki, hər adam belə bəddua etməz. Çünki: "qarğışın iki başı var yalansa özünü tutar"- deyirlər

İftiraya, böhtana uğramış adam ayaqyalın, başıaçıq olmaqla dörd qibləyə doğru, dizin-dizin yeddi qədəm gedib torpaq sovurur və deyir: "Allahım sən şahidsən ki, bu işdə mənim günahım yoxdur, mənə böhtan atdılar, haqqımda yalan dedilər. Əgər mən deyilənləri eşitmişəmsə, görmüşəmsə, göydən başıma daşlar ələnsin, yoxsa göylər yerə tökülsün, yer alt-üst olsun, bunların kökü kəsilsin". Ətrafdakılar qorxmuş halda: "Ya hu çəkib, Nuh tökür"- deyirlər. Buradakı "Ya hu"-Allaha işarədir. Göründüyü kimi qarğış həm tökən, həm də ətrafdakılar üçün çox qorxulu bəlanı çağırmaqdır. Nə dərəcədə ağır olsa da, haqq ilə batili ayırmaq yoludur. Xalq arasından toplanmış materiallar sübut edir ki, ətrafdakılar belə bədduanın edilməsinə imkan vermirlər: "Nalə çəkib başımıza bəla açma"- deyib həmin adamın günahsızlığını qəbul edirlər.

Xalq arasından material toplayarkən bəlli oldu ki, qarğışın, bədduanın "Nuh tökmə" adlanmasının anlamı onlara məlum deyil. Bilinən odur ki, bu ən ağır qarğışdır. Nuh peyğəmbərlə bağlı apardığımız araşdırmalar sübut edir ki, həmin bəddua, qarğış ondan qalmadır. Qurani-Kərimin bir neçə ayəsində Nuh peyğəmbərin öz qövmünü haqqa dəvət etdikdə onlar onu yalançı, dəli adlandırdılar: "Tayfasının başçıları ona: "Biz səni (haqq yoldan) açıq-aydın azmış görürük!" deyə cavab verdilər" (Əraf surəsi, ayə 60).

"Buna görə onlar (Nuhu) yalançı hesab etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi təkzib edənləri isə (tufan vaxtı) qərq etdik (suda boğduq). Onlar həqiqətən, kor bir camaat idilər" (Əraf surəsi, ayə 64). "Adamda sadəcə olaraq, bir dəlilik var (ona cin toxunmuşdur). Hələ bir müddət gözləyin!" (ya sağalıb xəstəlikdən xilas olar, bir də belə şeylər danışmaz, ya da ölüb gedər, canımız qurtarar) (Muminin surəsi, ayə 25).

Qurani- Kərimin bir neçə ayəsində Nuh peyğəmbərin hədələnməsi, onun daşqalaq ediləcəyi, aşağılanması ilə bağlı xəbər verilir.

Ayələrdən bəlli olur ki, nə dərəcədə ağır vəziyyətdə olsa da, Nuh peyğəmbər öz çağırışına davam edir. Allahdan öz qövmünə hidayət, bağışlanmaq istəyir. Ümumiyyətlə, bu, peyğəmbərliyin əsas şərtlərindən biridir. Bu vəziyyət o vaxta qədər davam edir ki, inanmayanlar onu ələ salıb deyirlər ki, dediyin bəla nə vaxt gələcək, yəni insanlar özləri bəla istəyirlər: "Onlar dedilər: "Ey Nuh! Bizimlə çənə-boğaz olub çox mübahisə etdin. Əgər doğru danışanlardansansa, bizi təhdid etdiyin əzabı gətir görək!" (Hud surəsi, ayə 32). Beləliklə, heç bir dəvət onları dəyişmədi. Rəhman və Rəhim olan Allahdan əzab, bəla istəməyə başladılar, gəmi düzəldən Nuh peyğəmbəri məsxərəyə qoyurdular. Hələ də Nuhun ümidi üzülməmişdi. Lakin vəziyyət o yerə çatır ki, açıq şəkildə ona qarşı gəlirlər. Özgə sözlə desək, peyğəmbərlik çağırışı sona çatır: "Nuh Rəbbinə dua edib dedi: "Ey Rəbbim! Həqiqətən, qövmüm məni təkzib etdi" (Şüara surəsi, ayə 117). "Artıq mənimlə onlar arasında sən hökm ver, məni və mənimlə birlikdə olan möminləri (bu əzabdan) qurtar" (Şüara surəsi, ayə 118). Hər iki ayədə Nuh peyğəmbər Allahdan qurtuluş, əzabdan, aşağılanmaqdan xilas olmağı istəyir. Şanı uca Allahın bəyanına görə artıq kafirlərdən kimsə iman gətirməyəcəkdi, onlar üçün hər şey bitmişdi, azğınlıqları daha da artırdı. Məhz belə məqamda Nuh peyğəmbərin bədduası başlayır: "(Nuh) Rəbbinə dua

edib: "Mən (öz qövmümün içində) məğlub oldum, buna görə də (onlardan) intiqam al!"- dedi" (Qəmər surəsi, ayə 10). Nuh peyğəmbər Allahın intiqam almasını istəyir. Həmin surənin sonrakı ayələrindən bəlli olur ki, Nuh peyğəmbər onları Allaha həvalə etmişdir. Təfsirçilərdən bəziləri "məğlub oldum" ifadəsini "bitmək", "tükənmək" anlamında da verirlər. Yəni mənim peyğəmbərlik vəzifəm bitdi, onlar bir qulu deyil, sənin peyğəmbərini yalançı saydılar, sənin çağırışlarını qəbul etmədilər. Bütün bunlar nisbətən yüngül bəddua sayılmaqla Nuh peyğəmbərin zülmkar qövmündən Allaha şikayətidir. Sonrakı ayələrdə bəddua daha da sərtləşir: "Onlar çoxlarını yoldan çıxartdılar. Sən də (ey Rəbbim!) ancaq onların zəlalətini artır!" (Nuh surəsi, ayə 24). "Nuh dedi: "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma!" (Nuh surəsi, ayə 26); "Çünki sən onları (sağ) buraxsan, onlar sənin bəndələrini yoldan çıxaracaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub-törədəcəklər" (Nuh surəsi, ayə 27).

Təbii ki, buradan belə bir sual çıxa bilər ki, Naxçıvanda "Nuh tökmə, yerlə-göyün qovuşmasının" bununla nə əlaqəsi var. Məsələnin birinci tərəfini- günahı olmayan kiməsəyə yalançı demək, böhtan atmaqla bağlılığını əvvəldə izah etdik. Qalır bu bədduanın ikinci tərəfi- "yerlə-göyün qovuşması". Bu da öz mənbəyini Nuh peyğəmbərin bədduasının Allah tərəfindən qəbul edilməsi və yolunu azmış, haqqı danmış qövmün cəzalandırılması ilə əlaqəlidir. Nuh peyğəmbərin bədduasından sonra bəla başlayır: "Biz (onun duasını qəbul edərək) göyün qapılarını sel kimi axan bir yağışla açdıq" (Qəmər surəsi, ayə 11); "Yeri yarıb (oradan) bulaqlar qaynatdıq. Nəhayət, (göydən axan və yerdən qaynayan) sular (lövhi-məhfuzda) əzəldən müəyyən edilmiş bir iş üçün (tufan məqsədilə) bir-birinə qovuşdu" (Qəmər surəsi, ayə 12). Bu iki ayədən Naxçıvandakı bədduanın- "Nuh tökmə"nin mahiyyəti aşkar olur. Çünki ayədə yerlə göy birləşdiyi kimi qarğışda da yerlə göyün qovuşması, yalınçı və böhtançıların Nuh qövmünün

düçar olduğu bəlaya uğraması istənilir.

İndi də Naxçıvanda güclü külək əsib, ildırım çaxıb, yağış yağanda deyirlər ki, yer-göy qovuşur. Yəni tufan əlaməti var. Bilqamıs dastanında Utnapiştinin Tufanla bağlı məlumatı da Naxçıvandakına uyğun gəlir. Burada da dəli küləklər əsdiyi, güclü ildırım çaxdığı, yer üzünün çat-çat olub sınıq küpəyə döndüyü, sonunda:

*Mən nəfəsliyi açdım, üzümə işıq düşdü.*
*Baxdım sakit dənizə, gördüm qəzəbi sönüb,*
*Bütün bəşəriyyətsə tamam torpağa dönüb.*

Beləliklə, Naxçıvanda hələ də mövcud olan qarğış, bəddua genetik cəhətdən çox qədim tarixə, Nuh peyğəmbər və Dünya Tufanına bağlanmaqla onun izlərinin burada indi də qorunub saxlandığını söyləməyə imkan verir.

Toplanmış materiallardan bəlli olur ki, qarğıştökmə mərasiminə ciddi hazırlıq görülür. Bəzən qarğış tökəcək adam əvvəlcədən yuyunub, qüsullanır. Burada su ilə təmizlənmə məsələsi də diqqəti çəkir. Unutmaq olmaz ki, Dünya Tufanı zamanı da bütün həyat su ilə təmizlənmişdir.

Qarğış, bəddua zamanı dörd qibləyə yönəlmənin də Nuh peyğəmbər, Dünya Tufanı ilə əlaqəsi mövcuddur. Bu hərəkətdən bir qurtuluş, xilasolma umulur. Bilqamıs dastanından bəlli olur ki, Utnapişti (Nuh) quruya çıxdıqdan sonra dörd istiqamətə qurban kəsir. Qurbankəsmə mərasimi ilə bağlı məlumat Bibliyadada vardır.

Nuh peyğəmbər zamanında icra edilən adət gələcək insanların bu ərazidən dörd ətrafa, istiqamətə yayılacaqlarına bir işarədir. Bəli, bəşərin ikinci atasından törəyəcəkdi sonrakı səmavi dinlər. Beləliklə, Nuhdan törəyib bu ərazidə qalan türk hələ də onun yoluna sadiqdir. "Dörd qibləyə and olsun" ifadəsi ilə babasının hərəkətini təkrar edir. Son illərə qədər Gəmiqaya ərazisinə yaxın kəndlərdə Nuhun gəmisinin dayandığı, insanların quruya çıxdıqları gün hesab edilən yayın ilk günündə "Su səpən" adlı bayram keçirilmişdir. Həmin gün dörd ətraf ziyarət olunur, qurban

kəsilirdi. İndi də Naxçıvanda yağış çağırmaq üçün "Müsəlla"ya çıxıb dörd qibləyə qurbankəsmə adəti qalmaqdadır. Sanki Nuh peyğəmbər Tufandan qurtardığı zamandır. Bütün bu bağlılıqları şərh etdikcə insan düşünür ki, görəsən, dünyada elə bir millət varmı ki, Nuh peyğəmbərin qoyduğu qaydaları bu şəkildə qoruyub saxlasın?! Var! Bu Nuh peyğəmbərdən üzübəri onun yurdunda, Naxçıvanda doğulub yaşayan Yafəsin oğlu Türkdən törəyən bizlərik.

Naxçıvanda yerlə göyün qovuşması ilə əlaqəli "Allah yurdu Naxçıvan" məqaləsində maraqlı fikir vardır: Nuh fəlsəfəsinə, Nuh baxışına görə dünyada yer və göyün qovuşduğu yalnız bir yer var və bu yer məhz Naxçıvandadır. Əgər belə olmasaydı, Nuh peyğəmbər dünya mədəniyyətinə və dünyanın tarix yaddaşına Nuh möhürünü Naxçıvanda yox, digər bir bölgədə vurmuş olardı (53).

Beləliklə, Nuh peyğəmbərin Naxçıvanla bağlılığına aid çoxsaylı rəvayətlər, maddi-mədəniyyət nümunələrinə bir tutarlı dəlil də əlavə edilmiş olur.

# GƏMİQAYADA HƏYAT AĞACI VƏ AĞACLA BAĞLI İNAMLARIN GENEZİSİNƏ DAİR

Hər hansı bir etnosun dünyabaxışının, düşüncə tərzinin tədqiqində arxaik inamlar xüsusi yer tutur. Həmin inamların əksəriyyəti tarixin alt qatlarında formalaşmaqla min illər boyu nəsillərdən-nəsillərə ötürülərək yaşadılmışdır. Təbii ki, Naxçıvan ərazisində bu məsələni araşdırarkən Gəmiqayadakı təsvirlər diqqəti cəlb edir. Təsvirləri öyrənən araşdırıcılardan N.Müseyibli burada 20-ə yaxın həyat ağacı təsviri olduğunu yazır (66, s. 92-93). Eyni məsələdən bəhs edən V.Baxşəliyev bir həyat ağacının təsvirini verir. Həyat ağacının yanında iki keçi və bir oğlaq təsvir edilmişdir (16, s. 203), (şəkil 65, s. 237). Bizim üçün həmin təsvir bir neçə cəhətdən maraqlıdır. Hər şeydən öncə təsvirdə təkcə ağac deyil, onun üstündə yumru formalı meyvələrin olması. Bizcə, həmin ağac almadır. Gəmiqayada alma- həyat ağacının təsviri onun ta qədimdən Azərbaycan türklərinin inamlar sistemində xüsusi yer tutması ilə bağlıdır. Nəcəf Müseyibli həyat ağacı ilə keçi kultunun bağlılığını, eyni zamanda 33 № ilə verilmiş təsvirdə həyat ağacının üzərində 3 meyvə olduğunu yazır (66, s. 100). Beləliklə, həyat ağacı ilə həyat meyvəsi birləşdirilir. Həmin meyvələrin alma olduğunu hesab etməklə nağıllarda göydən 3 alma düşməsi ilə burada əlaqənin mövcudluğunu söyləyə bilərik. Deməli, bu təsvirlər təsadüfən yaranmamışdır.Təsvirlərin mifoloji tutumunun, tarixiliyinin öyrənilməsində xalq arasında mövcud olan ağız ədəbiyyatı, nağıl və dastanlar ciddi rol oynayır. Müqayisəli araşdırmalar sübut edir ki, alma ilə bağlı inamlar tarixilik və genetik baxımdan Adəm peyğəmbər, Həvva nənə və cənnətdəki meyvə ilə uyğun gəlir. Bunlarla yanaşı Gəmiqayadakı təsvirlər həyat ağacı ilə bağlı E.A.Antonovanın E.D.Vana əsaslanaraq apardığı bölgü ilə eynilik təşkil edir. 1. yarpaqsız; 2. budaq və yarpaqlı; 3. meyvəli və yarpaqlı ağaclar (88, s. 116). Yəni hər 3 təsvir

forması burada da mövcuddur.

Meyvəli və yarpaqlı ağac həyatı, məhsuldarlığı, varolmanı təmsil edir. Beləliklə, biz həm həyat meyvəsi, həm də həyat ağacı kimi təsvir edilən alma ilə bağlı inamlardan, ümumiyyətlə, həyat ağacından, ağac inamından bəhs edəcəyik. Bunlar öz əksini qədim təsvirlərdə də tapmışdır. Bir məsələni unutmamaq gərəkdir ki, Gəmiqayada bu təsvirlər təsadüfən çəkilməyib. Bura tufandan sonrakı ikinci başlanğıc olduğu kimi yeni həyatvermə mərkəzidir. Bu meyvələr də yenidən yaşamanı, çətinlikdən qurtarmanı simvolizə edir.

Nağıl və dastanlarda alma həyatverici, sonsuzluqdan, xəstəlikdən xilasedici, qocaları cavanlaşdırıcı əlamətlərə malikdir. Nağılların çoxunda alma ilə bağlı olaraq nağıl qəhrəmanlarının divlərlə döyüşməsi, gedər-gəlməz yola çıxması, kiminsə həyatının xilas edilməsi və s. kimi süjetlər əsas yer tutur.

Gəmiqaya yaxınlığındakı Göygöl ilə bağlı topladığımız bir məlumatda deyilir ki, kimsə niyyət edib gölə alma atır. Əgər həmin alma gölün ortasında Nuhun gəmisinin qalığı hesab edilən və hazırda ada kimi görünən yerin başına dolanıb həmin adamın yanına gəlirsə, deməli, niyyəti qəbul olunub. Beləliklə, təsvirlərdə, ümumiyyətlə, həyatımızda önəmli yer tutan alma inancının genezisini araşdırmaq qərarına gəldik.

Görkəmli türkoloq V.M.Jirmunski yazır ki, türklərin nağıl və dastanlarında dərvişin verdiyi qırmızı almanı ər və arvadın bölüb yeməsi nəticəsində sonsuzluqdan qurtulmaları ilə bağlı magik cəhətlər xüsusi yer tutur. Çox vaxt həmin almanın qabıqları ata verilir. Bundan gələcək qəhrəmanın atı doğulur (98, s. 229-230).

Anadolu türklərində qırmızı alma inamı ilə bağlı Yılmaz Elmas (26), Yaşar Kalafat (48) və digər müəlliflərin çox sayda yazıları nəşr edilmişdir. Görkəmli turk tarixçisi F.M.Kırzıoğlu türklərin xalq adətləri və inamlarında qırmızı

almanın xüsusi yer tutduğunu göstərir (49).

Müqayisəli araşdırmalar göstərir ki, Azərbaycan türklərində alma həyat meyvəsi kimi təsvir edilir. Hər alma deyil, daha çox qırmızı alma müqəddəsdir. Toylarda, el şənliklərində qırmızı almaya böyük önəm verilir.

Nağıl və dastanlardan məlum olur ki, belə almalar qeyri adi şəraitdə yetişir. Böyük çətinliklə, bəzən möcüzəli şəkildə əldə olunur. Çox vaxt almanı kimliyi bəlli olmayan dərviş verir. Məsələni çözmək üçün bəzi qaynaqlara müraciət edək. "Məlikməmməd" nağılında deyilir: " Bu padşahın bağında bir alma ağacı varmış. Bu ağac birinci gün çiçək açarmış, ikinci gün çiçəyini tökərmiş, üçüncü gündə bar verərmiş. Bu almanı hər kəs yesəymiş, on beş yaşında oğlan olarmış" (12).

Göründüyü kimi, alma adi alma deyil. Meyvələrin yetişməsi düşünə bildiyimiz zamandan çox sürətlidir: üç günə yetişir. Yetişmə fəsli bəlli deyil. Bu xüsusiyyətlərinə görə o, zamanı qabaqlayır, cavanlığı geri qaytarır. Lakin uzun müddət şah həmin meyvələri yığa bilmir. Çünki alma yetişmə məqamında kimsə onları oğurlayır. Nəhayət, qardaşlarından fərqli olaraq Məlikməmməd divi yaralayıb almaları atasına gətirir. Sonra qardaşları ilə birgə divin ardınca gedir və quyuya enir. Məlikməmmədin gətirdiyi almanı şahın yeyib-yemədiyi məlum olmur. Məlikməmməd divin ardınca quyuya girdikdən sonra üç div öldürüb üç cavan qızı xilas edir. İpin kəsiləcəyini bilən qız Məlikməmmədə deyir ki, iki qoç döyüşə-döyüşə gələcək: biri ağ, biri qara. Ağ qoç qara qoçu qovacaq, onda atıl min ağ qoçun belinə. O, səni işıqlı dünyaya çıxarsın. Qara qoça minsən, qaranlıq dünyaya düşəcəksən (12, s. 304).

Nağılda hər şey qız deyən kimi olur. Lakin ağ qoç Məlikməmmədi işıqlı dünyaya çıxarmır, atır qara qoçun üstünə. O da aparır qaranlıq dünyaya. Məlikməmməd burada qaranlıq (yeraltı) dünyanın təmsilçisi əjdahanı öldürüb işıqlı dünyanın təmsilçisi, xeyirxahlıq rəmzi Zümrüd

quşunun balalarını xilas edir.Nağıldan məlum olur ki, əjdaha hər il Zümrüd quşunun balalarını yeyirmiş. Deməli, Məlikməmməd Zümrüdün soyunun kəsilməsinin qarşısını almışdı. Əvəzində Zümrüd quşu onu işıqlı dünyaya gətirir. Beləliklə, almaların kimi cavanlaşdırdığı məlum olmasa da, məhz onların ucbatından qızlar, Zümrüd quşunun körpə balaları divdən, məhvolmadan qurtulurlar. Dolayısı ilə alma inancı onların həyatını xilas edir.

Bir çox nağıl və ya dastanlarda dərvişin və ya kimsənin alma verməsi ilə ailə sonsuzluqdan qurtarır. "İbrahim" nağılında Məmməd və Əhməd adlı qardaşların övladları olmur. Hər ikisi dərdini dağıtmaq üçün gəzintiyə çıxaraq bir bulağa rast gəlirlər. Qardaşlar su içmək istərkən bulağın gözündən bir alma çıxır. Onlar almanı iki yerə bölürlər. Bölünmüş yarımı hər ikisi öz arvadı ilə bölərək yeyirlər. Doqquz aydan sonra birinin oğlu, digərinin qızı olur (12, s. 289).

"Şəmsi-Qəmər" nağılında dərvişin alma verməsi ilə padşahın oğlu olur (13, s. 87-88). Belə misalları daha çox sadalamaq olar.

Alma ilə bağlı inamlar nağıl və dastanlarla bitmir. Azərbaycan türklərinin məişətində, toy və şənliklərlə bağlı rituallarda alma xüsusi yer tutur. Yaxın keçmişə qədər Şərur bölgəsinin bir sıra kəndlərində camaatı toya dəvət etmək üçün qırmızı alma göndərilməsi adəti var idi. Deməli, alma dəvətetmə, şadlıq rəmzidir. Alma bayramlarda, toylarda xonçaların bəzəyi, Novruzda ən qiymətli hədiyyə hesab olunur: "Dostum məni axtarsın, bir çürük alma ilə" deyilir.

Toyla bağlı adətlər içərisində "bəyin damdan alma atması" xüsusi rituallardandır.

"Alma atma" adəti və inamı bütöv Azərbaycan üçün xarakterik idi. Ustad Şəhriyar demişkən:

*Heydərbaba, kəndin toyun tutanda,*
*Qız-gəlinlər həna, piltə satanda,*
*Bəy gəlinə damdan alma atanda.*

*Mənim də o qızlarında gözüm var,*
*Aşıqların sazlarında sözüm var* (60, s. 22).

Almanın sakral xüsusiyyətlərini özündə əks etdirən, daha çox üçlü sistemlə, həyatverici meyvə ilə bağlı olan bir folklor nümunəsində deyilir:

*Üşüdüm, ay üşüdüm,*
*Dağdan alma daşıdım.*
*Almalarımı aldılar,*
*Məni zülmə saldılar.*
*Mən zülüm bezaram*
*Dərin quyu qazaram,*
*Dərin quyu beş keçi*
*Hanı bunun erkəci?*
*Erkəc qaya başında,*
*Eyhaladım gəlmədi,*
*Çiyid verdim yemədi,*
*Çiyid qazanda qaynar,*
*Qənbər bucaqda oynar,*
*Qənbər getdi oduna,*
*Qarğı batdı buduna.*
*Qarğı deyil qamışdı,*
*Beş barmağım gümüşdü*
*Gümüşü verdim tata,*
*Tat mənə darı verdi.*
*Darını səpdim quşa,*
*Quş mənə qanad verdi.*
*Qanadlandım uçmağa,*
*Haqq qapısın açmağa.*
*Haqq qapısı kilidli,*
*Kilidi babam belində*
*Babam Gilan yolunda,*
*Gilan yolu dərbədər...*

Bu nümunənin ana xəttini dağdan gətirilən almanın əldən çıxması, zülmə düçar olma və bundan qurtarma yolları təşkil edir. Mətndə dağ, alma və Gilan məsələsi diqqəti

xüsusilə çəkir. Zərərə düşən qalır dağla Gilanın arasında.

Deməli, almanın alınması zülmə düçar olmaqdır. Bu, elə-belə alma deyil. Dağdan, soyuqdan gətirilən almadır. Almanın sirli xüsusiyyətləri həyat ağacı, həyat meyvəsi ilə bağlıdır. Deməli, həyat meyvəsi əlindən alınan, nağıl və dastanlardakı cavanlıq, sağlamlıq rəmzi hesab edilən almadan, dolayısı ilə onun verə biləcəyindən məhrum olan adam tədbir görməyə çalışır. Nicatını dərin quyu qazmaqda, dağın, yaşıllığın, yazın, gəncliyin təmsilçisi, məhsuldarlıq rəmzi keçini, daha dəqiq desək, onun aparıcısı erkəyini çağırmaqda görür. Erkək isə onun hayına gəlmir.

Bu mətnin Cabbar Cəlil Bəydilli tərəfindən maraqlı təhlili verilmiş, onun ayrı-ayrı cəhətləri şamanizmlə əlaqələndirilməklə qamşamanın bir dünyadan digərinə keçməsindən bəhs edildiyi bildirilmişdir. Müəllif yazır ki, bunu folklor nümunəsini şaman mərasiminin süjetinin mifosimvolik dildə təsviri kimi qəbul etməliyik (20, s. 147-151).

Biz bu məsələdə bir neçə məqama diqqət yetirməyi məqsədəuyğun sayırıq. Hər şeydən öncə alma və dağ, zülmə düşənin quyuya enməsi, keçinin yardıma gəlməməsi, haqq qapısına-Qapıcığa yüksəlmə, burada da yolların bağlılığı-kilidliliyi, kilidin babada, babanın isə Gilan yolunda olması faktı (Qeyd edək ki, C.C.Bəydilli son iki məqamı verməyib). Beləliklə, nümunənin məhz Gilançay hövzəsində, Gilan yaşayış məntəqəsində baş verməsi-Gilan adi ad deyil, onun yolları dərbədərdi. Nümunədə vermədiyimiz hissədə bu dağılmış, dərbədər ərazidə meymunlar gəzir. Bu məsələ ilə bağlı Xaraba-Gilanın tananmış araşdırıcısı arxeoloq Bəhlul İbrahimli qazıntılar zamanı buradan meymun amuletləri aşkar etdiyini bildirdi. Bu məsələni ayrıca öyrənməyə ehtiyac var.

Mətndə müşkülünü aşırmaq, çətinlikdən qurtarmaq üçün dağa düşmüş, həyat meyvəsi olan almanı gətirməyə getmiş adamın alması əlindən çıxıb- alınıb. O, əzaba düşüb dərdinə çarə axtarır. Bu süjet həyat meyvəsi, çiçəyi

axtaranların taleyinə oxşardır. Eyni çətinliyi "Bilqamıs" dastanında Bilqamıs yaşayır. Amma gənclik çiçəyi əlindən çıxır.

Oxşar hadisələr dirilik suyu axtaran İsgəndərin, Koroğlunun atasının da başına gəlir. Burada sadəcə olaraq həyat meyvəsi su ilə əvəz olunur.

Dağdan ümidi kəsilmişin quyu qazması, diqqət versək dərin quyu xüsusi məna kəsb edir. Bu, şərq mifologiyasında dibsizlik, sonsuzluq mənasında yerin altına enməkdir. Burada dağ-yüksəklik, dərə-aşağı, quyu-yerin dibidir. E.V.Antonova yazır ki, dağ və quyu yuxarı və aşağı yer oxunun iki kənar xətti sayılır (88, s. 114). Yəni iki tərəfdən də nicat istənir. Bu məsələyə Bilqamıs və Dədə Qorqud dastanları yönündən baxaq. Bilqamısla Enkudu ağır səfərə, Humbabanı öldürməyə, Sidir meşəsini qırmağa gedərkən:

*İyirmi mənzildən bir yola nişan qoydular.*
*Hər otuz mənzildən bir düşərgə də saldılar*
*Hər gün onlar birlikdə əlli mənzil yol getdi*
*Altı həftə, üç gündən sonra ora çatdılar...*
*Günəşin qarşısında onlar quyu qazdılar.*
*Bilqamıs dağa çıxıb, ətrafa göz gəzdirdi*
*"Dağ, sən mənə xeyirli yuxu gətir"*- söylədi.

Kitabi-Dədə Qorqudda Salur Qazan başına gələni Ala dağda yuxuda görür. Bilqamıs da dağdan xeyirli yuxu istəyir.

Quyu və alma məsələsi Məlikməmməd nağılında da folklor nümunəsi ilə oxşardır. Məlikməmməd almanı oğurlayan divin ardınca quyuya düşür. Burada isə alması əlindən alınan adam quyu qazıb ora yenir.

Folklor nümunəsindən aydın olur ki, quyu qazan kəs keçi axtarır. Erkəyi aldatmaq, yanına gətirmək üçün ona yem- çiyid verir. Lakin erkək gəlmir. Burada qurbanvermə adətindən söhbət gedir. Qədim Mesopatomiyada və Şərqdə müəyyən şərdən, çətinlikdən qurtarmaq üçün quyuya, yeraltı dünyaya qurban vermək adəti olmuşdur. E.Q.Rabinoviç bunu şamanların müəyyən ruhlara verdiyi qurban kimi

qiymətləndirir (Рабинович Е.Г. Колодец шамана. ВДИ. 1973. № 2). Oxşar qurbanvermə mərasimi Sibir-Altay türklərində də mövcuddur. M.A.Devletin (95, s. 35-36), N.A.Alekseyevin (89, s. 73) əsərlərinə, yerli məlumatlara, qayaüstü təsvirlərə əsaslanaraq demək olar ki, qədim türklərdə dağ ruhuna qurbanvermə mərasimi olmuşdur. Bu qurbanlar dağın başında verilsə də, orada, qazılmış quyuda, çalada icra edilirdi. M.A.Devlet yazır ki, heyvanı diri-diri həmin quyuya, çalaya salırdılar. Xüsusən öküz nə qədər çox böyürsəydi uğurlu sayılırdı (95, s. 37).

Yuxarıdakı məlumatlardan aydın olur ki, alması alınmış, məqsədinə çatmayan adam keçini, xüsusən onun erkəyini qurban vermək istəyir. Keçi isə bunu bildiyindən gəlmir. Beləliklə, onun qurban verərək məqsədinə çatmaq arzusu yerinə yetmir.

Gəmiqayada araşdırma aparan tədqiqatçılar buradakı təsvirlər içərisində keçi rəsmlərinin üstünlük təşkil etdiyini yazırlar (29). Təbii ki, bunlar keçi kultu ilə əlaqələndirilir. Biz həmin təsvirlərin genezisindən geniş bəhs etməyəcəyik. Çünki belə təsvirlər demək olar ki, dünyanın müxtəlif ərazilərindəki qayaüstü rəsmlərdə, həmçinin arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri üzərindəki rəsmlərdə geniş yer tutur. V.Baxşəliyevin məlumatından aydın olur ki, qayaüstü təsvirdə həyat ağacı keçi kultu ilə birləşdirilmişdir (16, s. 203). Bizcə, alması əlindən çıxanın keçini çağırması, bu süjetlə yaxınlıq təşkil edir. Özgə sözlə desək, almanı əldə etmək, itirilmişi qaytarmaq üçün keçidən istifadə olunmalıdır. Təsvirlərdə olduğu kimi keçi, onun qurban verilməsi türk xalqları arasında geniş yayılmışdır. Bu dəfn adətlərində də öz əksini tapmışdır. Naxçıvan ərazisində tədqiq edilmiş bir sıra qəbir abidələrindən keçi sümükləri aşkar edilmişdir. 2007-ci ildə B.İbrahimovun rəhbərliyi ilə Xaraba-Gilan ərazisində, Plovdağda aparılan araşdırmalar zamanı şərti olaraq 18 № ilə qeyd edilmiş qəbirdən bir sıra maraqlı əşyalarla bərabər

bütöv halda dağ keçisi skeleti aşkar edilmişdir. Dəfn qaydasına uyğun olaraq onun qurban verildiyini söyləyə bilərik. Qədim türklərin dünyagörüşündə keçinin önəmli yer tutması, onun məhsuldarlıq rəmzi, buynuzlarının nəzəri, şəri sovuşdurmaq xüsusiyyətləri daşıması ilə bağlı inamlar geniş yayılmışdır. Bir çox halda keçi yenilməzlik rəmzi daşımaqla hakimiyyət simvolu olmuşdur. Keçi inamı ilə bağlı bir önəmli faktı qeyd etməkdə fayda görürük. Atın keçi başı və ya buynuzu ilə mifləşdirilməsi. İssık kurqanından aşkar edilmiş "Qızıl geyimli şahzadə"-nin tacındakı at keçi buynuzludur (77). Başdar kurqanındakı at keçi skafandırında dəfn edilmiş, "Kitabi-Dədə Qorqud"da Bayandır xanın tövləsində saxlanan 2 şahbaz atın biri Toğlu başlı Duru ayğır, digəri isə keçi başlı Keçər ayğırdır. Bamsı Beyrəklə bağlı boydan bəlli olur ki, keçi başlı Keçər ayğır üstün keyfiyyətlərə malikdir. Dədə onun üzərində olarkən Dəli Qacara: "Çalarsan əlin qurusun" deməklə o, qılıncı vura bilmir. Deməli, mifik atın üstündə Dədə daha da mifləşir. Duası qəbul olunur. Ümumiyyətlə, keçi ilə bağlı geniş bəhs edildiyindən biz ancaq bir məsələnin üzərində dayanacağıq- Nuh Tufanı və keçi-məhz keçini müqəddəsləşdirən amillərdən biri də budur. Bir Altay rəvayətinə görə "Tufan olacağını ilk olaraq göy tüklü (yunlu) bir təkə xəbər vermişdir. Göy təkə yeddi gün yer üzünü dolaşdı və car çəkdi. Sonra 7 gün zəlzələ oldu, 7 gün dağlar atəş püskürdü, 7 gün yağış, dolu, qar yağdı, 7 gün fırtına oldu. Bundan sonra yerin üzünü su almasından, 7 qardaşın gəmi düzəltməsindən bəhs edilir (85, s.15). Beləliklə, keçinin əvvəlcədən xəbər verməsi nəticəsində insanlar Tufandan xilas olurlar.

Bizcə, folklor nümunəsindəki adamın qurbanı qəbul edilmir, yəni keçi qurban olmağı istəmədiyindən onun çağırışına gəlmir.

Sonrakı materiallarda onun gümüş verib tatdan darı alması və darını quşa verməklə qanadlanıb haqqın tələb etməsi üçün divana getməsindən, lakin haqqın qapısının

bağlılığından bəhs edilir. Buradakı tat, tatər oturaq, əkinçi mənasındadır. Buğdanı ancaq ondan almaq olardı. Quşun qanadı məsələsini Azərbaycan nağıllarında və rəvayətlərindəki çətinliyə düşmüş adamın hər hansı bir quş vasitəsilə qurtarması, quşun verdiyi lələyin yandırılması və s. süjeti ilə müqayisə etmək olar (Məlikməmməd). Bu, məcazi mənada qanadlanmaqdır. Bu, nümunədə zərərə uğrayan haqqa, daha dəqiq desək, məqama çata bilmir. Çünki məqamın qapısı kilidlidir. Bundan sonra hadisələrin cərəyan etdiyi yer tam bəlli olur:

*Kilidi babam belində,*
*Babam Gilan yolunda,*
*Gilan yolu dərbədər...*

Deməli, istiqamət Gilanadır. Biz belə düşünürük ki, zərərçəkən təkcə Gilançay vadisində deyil, bütövlükdə şərqdə şöhrət qazanmış, sonralar xarabalığa çevrilmiş, dərbədər olmuş, indi Xaraba-Gilan adlanan mərkəzə gəlmək, dərdini bildirmək istəyir, bu da baş tutmur. Əli göylərdən və yerlərdəki haqdan üzülən adam almacığını, yəni şəfasını, cavanlığını itirir.

Yekun olaraq bu folklor nümunəsinin məhz Naxçıvanda Gilançay hövzəsində yaranmaqla əbədi həyat meyvəsi, ağacı ilə bağlı olduğunu söyləyə bilərik. Unutmayaq ki, bu, Gəmiqayadakı, dağdakı əbədi həyat ağacı, meyvəsi ilə əlaqəlidir, yəni inamın kökü oradandır. Bir sıra xalqlarda həyat ağacı müxtəlif olsa da, həyat meyvəsinə çox az rast gəlinir.

Biz almanın sehrli xüsusiyyətlərini onun uzun müddət saxlanması, həzmə kömək etməsi, xalq təbabətində geniş istifadəsi ilə əlaqələndiririk. Lakin araşdırmalar göstərir ki, alma ilə bağlı adət və inamların əsasında xalq arasında məlum olmayan bir sıra elmi cəhətlər dayanır. Bunları nəzərə alaraq "Zafer" -İlim Araşdırma Dərgisinin noyabr 1994-cü il sayında Dr.Haluk Nurbakının "Elmadakı sır" məqaləsindən bir sıra örnəklər vermək istərdik.

"...Almanın tərkibindəki dəmir qanın və sümük iliyinin əsas maddəsini təşkil etməklə, yüksək karbonat ionlarına malikdir. Tərkibindəki meyvə şəkəri qaraciyər hüceyrələrini qoruyur, asitlər, dəmir və C vitamini ilə zəngin olmaqla, qaraciyərin fəaliyyətində əsas rol oynayır. Alma qanın tərkibindəki maddənin (hemoqlobin) əsas daşıyıcısıdır. Almada suda həll olan bütün vitaminlərin tamı mövcuddur. Bir almanın tərkibindəki C vitamini bir insanın gündəlik C vitamininə olan tələbatına tam uyğundur" (68). Məlumatdan aydın olur ki, bir alma insanı yaşada bilər, ona həyat bəxş edər. Beləliklə, almanın inamlar sistemində yüksək mövqeyinə səbəb onun həyat meyvəsi olmasıdır. Deməli, xalqımız heç bir deyimi, inancı əsassız yaratmamışdır. Onun mayasında bir sistemlik, elmilik dayanır. Araşdırmalar dərinləşdikcə ulu türkün düşüm tərzi, qədim inamların çoxyönlü elmi cəhətləri müəyyənləşdiriləcəkdir.

Aparılmış müqayisəli araşdırmalar sübut edir ki, Gəmiqayaya yaxın ərazilərdə, xüsusən ətraf kəndlərdə ağacla bağlı inamlar daha da geniş yayılmışdır. Xüsusən Tivi-Nəsirvaz-Əlahi bölgəsində çox sayda ağac pirlər mövcuddur. Bütün bunlar haqqında H.F.Səfərli geniş bəhs etmişdir (82; 83).

Aparılan müqayisəli tədqiqatlardan aydın olur ki, Naxçıvanda həyat ağacı, həyat meyvəsi ilə bağlı adət və inamlar bir sıra türk xalqları ilə ortaq cəhətlərə malik olmaqla ümumtürk xarakteri daşıyır. Biz bu məsələ ilə bağlı ayrı-ayrı kitab və məqalələrimizdə hərtərəfli bəhs etdiyimizdən onun üzərində geniş dayanmayacağıq.

Yuxarıdakılardan belə nəticəyə gəlmək olar ki, Gəmiqayadakı həyat ağacı təsvirləri genetik cəhətdən ümumtürk xarakteri daşımaqla çox qədim zamanlarda formalaşmışdır. Qədim türk soyu ağaca həyatverici, yaşadıcı qüvvə kimi baxmaqla onunla bağlı inancları günümüzə qədər qoruyub saxlamışdır.

# GƏMİDƏ VƏ GƏMİQAYADA İLANLA BAĞLI RƏVAYƏTLƏR, TƏSVİRLƏR, İNAMLAR VƏ ƏBƏDİ HƏYAT MƏSƏLƏSİNƏ BİR BAXIŞ

Toplanmış etnoqrafik materiallardan və Naxçıvanda xalq arasında yayılmış rəvayətlərdən bəlli olur ki, Dünya Tufanı zamanı gəminin xilas olmasında ilan ciddi rol oynamışdır. Rəvayətə görə gəmi sular üzərində hərəkət edərkən bir siçan gəmirərək onu deşir. Gəmiyə su dolmağa başlayır. Nuh peyğəmbər görür ki, gəmi batacaq üz tutub gəmidəkilərdən soruşur ki, kimin imkanı varsa deşiyi tutsun. İlan deyir ki, mən onu tıxaram, əvəzində nə verərsən? Nuh peyğəmbər deyir: "Nə istəsən". İlan cavab verir ki, dünyada nə şirinsə onu. Nuh Nəbi razılaşır. İlan quyruğunu deşiyə tıxıb suyu kəsir. Gəmi Gəmiqayada dayandıqdan sonra ilan Nuha məsələni xatırladır. Nuh Nəbi mozalana deyir ki, uçub yoxla gör dünyada ən şirin şey nədir. Mozalan nə qədər fırlanır istədiyini tapa bilmir. Birdən insan yadına düşür. Onun ətini dadır, görür ki, şirindi. Qayıdıb ilana xəbər vermək istəyərkən qaranquşla rastlaşır. Çünki qaranquş onu axtarırdı. Mozalan ona insan ətinin şirin olduğunu bildirir. Qaranquş fikirləşir ki, ilan bunu bilsə, yer üzündə insan qoymaz, hamısını məhv edər. Onu aldadıb dilini qoparır. Mozalan gəlib heç nə başa sala bilmir. Nuh peyğəmbər qaranquşdan soruşur ki, sən mozalanı görəndə o, nə dedi. Qaranquş cavab verir ki, torpağın şirin olduğunu deyirdi. Nuh peyğəmbər ilana deyir: "Torpağı verdim sənə". (11, s. 68-69) Biz qaranquşla bağlı bölümdə bu məsələdən geniş bəhs edəcəyik. Dünya Tufanı və ilanla bağlı dini ədəbiyyatda mövcud olan bir rəvayəti də verməkdə fayda vardır: "Rəvayətə görə ilan və əqrəb gəmiyə minmək istədilər. Nuh (ə.s.) onlara, "Siz zərər və bəlaya səbəb olan heyvanlarsınız. Sizi gəmiyə buraxmaram. Onlar da "söz veririk Səni zikr edənə, xatırlayana, adını söyləyən kimsəyə zərər verməri̇k"- dedilər.

İlan və əqrəbin zərər verməsindən qorxan adam "Səlamün əla Nuhun fil aləmin..." ayəti Kərimini oxuyarsa, onların zərərindən qorunmuş olur. İlan və əqrəb o adama zərər verməz (69, s. 28). Bizcə, Gəmiqaya təsvirləri içərisində əqrəb rəsmlərinin geniş yer tutması bu rəvayətlə bağlıdır. Göründüyü kimi bu rəvayətdə də ilana ikili münasibət var. Ona xüsusi qaydada, ehtiyatla yanaşmasan zərər verəcəkdir.

Gəmi ilə bağlı olmasını, Gəmiqaya təsvirində xüsusi yer tutmasını nəzərə alaraq bütövlükdə ilanla bağlı inamlardan geniş bəhs edəcəyik. Ədəbiyyat materiallarına söykənərək demək olar ki, ilan yaradılışdan insanın həyatı üçün təhlükəli olmuş, onu bir sıra çətinliklərə salmışdır.

Bunun təsiridir ki, Gəmiqaya təsvirləri arasında ilanla bağlı süjetlər xüsusi yer tutur. N.Müseyibli yazır ki, Gəmiqayadakı ilan təsvirləri müxtəlif formalarda verilmişdir. 523 №-li daşda ağzını açmış ilanın qarşısındakı canlıya hücum səhnəsi təsvir edilmişdir (66, s. 27).

Gəmiqaya təsvirləri arasında təkcə adi ilanlar deyil, Azərbaycan nağıl və dastanları üçün xarakterik olan ilan-əjdaha rəsmi də diqqəti cəlb edir. Həmin təsvirdə ilan üç başlıdır. Ümumiyyətlə, müəllif ilan təsvirlərini məişətdə mövcud olmuş ilanbaşlı bəzək əşyaları, müxtəlif təsvirlərlə müqayisə edib ortaq cəhətləri göstərir (65, s. 82).

Qayaüstü təsvirlərdə ilan obrazının semantik xüsusiyyətləri ilə bağlı gənc folklorşünas-alim M.İsmayılın maraqlı fikirləri vardır (43, s. 147). Müəllif ilanın Azərbaycan, bütövlükdə türklərin inamlar sistemində yeri, ona ikili münasibətin xeyir-şər, ilan və ilk insan- Adəm peyğəmbərlə bağlı məsələləri, Dünya Tufanında ilanın mövqeyini elmi şəkildə təhlil edərək ümumiləşmələr aparmışdır.

Sırf Gəmiqaya təsvirlərində ilan obrazının xüsusiyyətləri ilə bağlı Vəli Baxşəliyevin 2007-ci ildə Ankarada, “Folklor Ədəbiyyat Kültür” dərgisində nəşr edilmiş "Gəmiqaya təsvirlərindəki ilan obrazının mifoloji

xüsusiyyətləri (17, s. 109-114) məqaləsində təsvirlərin xarakterik xüsusiyyətləri, onların Naxçıvanın ayrı-ayrı ərazilərindən aşkar edilmiş maddi-mədəniyyət nümunələri üzərindəki ilan rəsmləri ilə müqayisəli təhlili verilmişdir. Müəllif ilanın müxtəlif heyvanlarla qarşılaşmasının onun məhsuldarlıq, su stixiyası ilə əlaqəsinin elmi yönlərini təhlil etmişdir.

Belə təsvirlər içərisində ilanın insanla, müxtəlif heyvanlarla döyüş səhnələri diqqəti cəlb edir. Burada hər şeydən öncə həyat və ölüm məsələsi göz önünə gəlir. İlan insanı və ya digər canlını həyatdan məhrum etmək uğrunda mübarizə aparır. Həmin təsvirlərlə bağlı müxtəlif fikirlər mövcuddur. Araşdırıcılar onların ikili, bəzən üçlü xüsusiyyətlərini, mifoloji cəhətləri, ovsunçuluq məsələlərini ön plana çəkmişlər. Murad Acı isə bu təsvirləri Altay türklərinin insanın ilandan törəməsi əfsanəsi ilə, yəni ilan başlanğıcla əlaqələndirir (87, s. 19). Təbii ki, bu, onun fikridir.

Təsvirlərin çoxluğu ilə bərabər onların forma müxtəlifliyi də diqqəti cəlb edir. Biz əvvəlki yazılarımızda qeyd etdiyimiz bir fikri də yuxarıda adıçəkilən müəlliflərin fikirlərinə əlavə edirik ki, həmin təsvirlərin bir qismi insanları ərazidə zəhərli ilanların olmasından xəbərdar etmək məqsədi daşımışdır. Bunu axtarışlar zamanı üstündə təsvirlər olan üç qayanın altında zəhərli gürzələr görməyimiz də təsdiqləyir. Qeyd edək ki, həmin ilanları yerli çobanlara təsvir etdikdə bildirdilər ki, onların sancması sürətli ölümə səbəb olur. Bu fikri həmin ərazidə tədqiqat aparan bioloqlar da təsdiqləyirlər. Bununla bağlı biz əvvəlki yazılarımızda bəhs etmişik.

Beləliklə, ilanlarla bağlı təsvirlərə müxtəlif yöndən yanaşmağın vacib olduğu ortaya çıxır. Bunları nəzərə alaraq ilan inamı və əbədi həyat, ölümsüzlük, cavanlaşma məsələlərinə bir açıqlama vermək istərdik. Ümumiyyətlə, ilanla bağlı inamların tarixiliyinə və yayılma arealına diqqət

verdikdə məlum olur ki, bu insanın ətraf aləmlə təmasının, yaşam uğrunda mübarizəsinin başlanğıc mərhələsinə aiddir. İnsanlar üçün çox qorxulu olub, sancması ilə ölüm gətirən həmin varlıqla bağlı müxtəlif rəvayətlər, inamlar yaranmışdır. Yaşam tərzi, müəyyən əlamətlərə görə zərərverənləri izləməsi, istənilən yerə daxil ola bilməsi və s. xüsusiyyətləri onları daha çox mifləşdirmişdir. Təbii ki, ilaniarın yayıldığı ölkələrdə, xüsusən nəhəng ilanların (bizlərdə əjdaha adlandırılanların) olduğu bölgələrdə onlarla bağlı daha çox nağıl, rəvayət, müxtəlif ovsunlar, inamlar formalaşmışdır.

Qayaüstü təsvirlərdə, maddi-mədəniyyət nümunələri üzərindəki rəsmlərdə, müxtəlif nağıl, dastan və rəvayətlərdə ilan obrazından bəhs edərkən bir sıra müəlliflər Azərbaycan türklərinin, ayrı-ayrı bölgələrdə yaşayan insanların düşüncə tərzini, məişətini, inamlar sistemini nəzərə almadan hər hansı xalqa aid cəhətləri quru model kimi qəbul etməklə məsələləri elmlikdən və etnik düşüncə tərzindən çıxarırlar. Başqa sözlə desək, bütün xalqların az qala eyni cür düşündüklərini yazırlar. Bu baxımdan şərq xalqları arasında araşdırma aparan və yerli xalqları yaxından tanımayan araşdırıcılar daha çox yanlışlıqlara yol verirlər. Unutmaq olmaz ki, qohum və qonşu xalqlarda müəyyən inamlarda, hər hansı bir varlıqla bağlı düşüncə tərzində eyni kökə söykənmə, oxşarlıq üstünlük təşkil etməlidir. Elmi araşdırmalarda bunlara xüsusi diqqət yetirilməlidir. Müqayisə xatirinə müqayisə aparmaq, uydu-uymadı hətta Afrikada, Avstraliyada yayılmış inamı, yanaşmanı Azərbaycan ərazisinə uyğunlaşdırmaq elmi müvəfəqiyyətsizlikdir.

Qarşılıqlı müqayisələr sübut edir ki, Gəmiqaya təsvirlərinin bir çoxu Azərbaycan, o cümlədən Naxçıvan ərazisindən aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin üzərindəki rəsmlərlə oxşarlıq dövrlərə görə bir-birini tamamlama mövcuddur.

Azərbaycanda ilanla bağlı inamlarda onlara mənfi

münasibət üstünlük təşkil edir. Təbii ki, ilanın cildini dəyişməsi, müəyyən məsələlərdə insanlara yardım etməsi faktları da vardır. Bunlar daha çox ilanın öz məqsədinə çatması, onun düşdüyü çətinlikdən insan tərəfindən qurtarması ilə baş verir. Bir sıra nağıllarda, rəvayətlərdə ilanların insanlarla birgə, eyni ortamda yaşadıqları, onların məskunlaşdığı evlərdəki, həyətlərdəki insanlara zərər vermədikləri söylənməkdədir. Belə hallar təkcə nağıl və rəvayətlərdə deyil real həyatda da olmuşdur. Beləliklə, xalq arasında müəyyən fikirlər formalaşmışdır: "İlana dəyməsən, o, sənə zərər verməz", "Ev ilanı evdəkiləri vurmaz" və s.

Toplanmış etnoqrafik-çöl materiallarına əsaslanaraq demək olar ki, xalq arasında "ev ilanı", "ocaq ilanları" ilə bağlı çox sayda rəvayətlər mövcuddur. Rəvayətlərdən birində deyilir ki, bir ilan həyətdəki qalaqda yuva düzəldir, orada yaşayır, kimsəyə toxunmur. Bir gün qalaq uçur, ilanın balaları ətrafa dağılır. Ev sahibi onları bir qutuya toplayıb qoyur qalaq olan yerə. İlan qayıdanda qalağı dağılmış görüb evə daxil olur və qabdakı südə zəhər tökür. Geri qayıtdıqda balalarını yeni yuvada tapır. Yuvanın ev sahibi tərəfindən düzəldildiyini bildikdən sonra ilan gedib palçığa girir, gəlib dayanır süd olan qabın yanında. Ev sahibi evə girəndə ilan südün içinə girir. Yəni ev sahibini südü atmağa məcbur edir. Bəzən deyirlər ki, qabı aşırıb südü və ya zəhərlənmiş suyu tökür. Belə hadisələrə nağıllarda, rəvayətlərdə tez-tez rast gəlinir. Bu, nə dərəcədə həqiqət olub olmasa da, toplanmış materialların əksəriyyətində həyətdə yaşayan ilanların kimsəyə zərər vermədiyi bildirilir.

Bir məsələni də qeyd etmək gərəkdir ki, həyətdəki ilanlar daha çox su ilanları, koramallar olur. Həyət ilanları yad ilanların həyətə girməsinə imkan vermirlər. Yəni qoruyucu rolu oynayırlar. E.V.Antonova bir sıra mənbələrə əsaslanaraq ilanın evin qoruyucusu olduğunu yazaraq qeyd edir ki, müəyyən əşyaların, geyimlərin üzərində ilan təsviri hami, qoruyucudur (88, s. 153).

El arasında evin içindən, yaxınlardan kiminsə düşmənlik etməsi "evimizdə, qoynumuzda ilan bəsləmişik"- adlanır. Yəni bu, bizə yaxın olub, ev ilanına çevrilib, məqam gələndə bizi vurub. Bəzən əzazil gəlinlər, arvadlar "əfi ilan" adlandırılır. Deyirlər ki, filankəs bir əfi ilan olub düşüb canımıza. Onu görüm boğazına ilan dolaşsın. Lakin insan gözünə az görünən, istənilən vaxt ayaqlana bilən bu canlı hər an təhlükəlidir.

Guya qara ilanlar "Ocaq ilanı"dır. Onlar öldürüldükdə ailəyə böyük zərər dəyər. Belə vəziyyətdə həmin ilanın qabağına duz- çörək qoyub deyirlər ki, səni and verirəm bu duz- çörəyə zərər vermədən çıx get. Eyni inama həyətlərdə bayquş gördükdə, həyət iti qudurduqda da əməl edirlər. Deməli, bütün variantlarda həmin heyvanların bəla gətirəcəyi, zərər verəcəyi qaçılmazdır. Ona görə də xalqımız "İlanın ağına da lənət, qarasına da" deyib. Digər bir ifadədə münasibət daha kəskin qoyulub: "İlanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət". "Öldürüb basdırmaq" ilan sümüyünün qorxululuğu ilə əlaqələndirilir. Yəni ilanların sancması deyil, onların sümükləri, ilan vurmuş heyvanla təmasda olmaq da qorxuludur. Bu vəziyyətdə də insana ölüm gələ bilər. Xalq arasında əjdaha adı ilə bilinən böyük ilanlar daha qorxulu hesab olunur.

Ümumiyyətlə, Azərbaycan şifahi xalq ədəbiyyatında əjdaha insanların düşmənlərindən biri sayılır. Nağıl və rəvayətlərdə əjdahalar üç başlı, yeddi başlı təsvir edilir. Yuxarıda verdiyimiz nümunədə ilan üç başlıdır (65, s. 82). Qarşısında əllərini yuxarı qaldırmış adam isə sanki nağıllarımızda olduğu kimi başlarla vuruşur (66, s. 86). Kəsilmiş başların yerindən əlavə baş, hətta bir neçə baş çıxır. Bir qayda olaraq əjdahalar şəri himayə edirlər, yaşayış məntəqələrindəki bulaqların, kəhrizin, hətta çayların qabağını kəsirdilər. Bunların bəlasından qurtarmaq mümkün olmadığından onlara insan, xüsusən cavan qızlardan qurbanlar verər, bunun müqabilində müəyyən miqdar su

götürərdilər. Nəhayət, bir nəfər qəhrəman onu öldürüb insanları bəladan xilas edərdi. Öldürməyə gəlincə bu, gücdən çox ağıla əsaslanır və hər hansı bir övliya, ərən və ya dünyagörmüş insanın məsləhəti ilə həyata keçirilir. İlan-əjdaha ilə mübarizə insan oğlunun şərlə mübarizəsidir. İşıqlı dünya uğrunda mübarizəsidir. Məlikməmməd ilanı (əjdahanı) öldürməklə işıqlı dünyanın təmsilçisi Simurq quşunun balalarını xilas edir. Beləliklə, yerüstü dünyanın təmsilçisi olan insan yeraltı dünyanın təmsilçisinə qalib gəlir. Qəhrəmanlığının haqqı olaraq Məlikməmməd qaranlıq dünya ilə işıqlı dünya arasında əlaqələndiricidir və yeraltı aləmdə daha çox işıqlı dünyanı təmsil edən Simurq quşu vasitəsi ilə öz dünyasına qayıdır. İnsanın bir dəfə göstərdiyi xidmətə qarşılıq olaraq Simurq quşu onun daimi köməkçisinə çevrilir. Maraqlı cəhət bunlar arasındakı əlaqə vasitəsidir ki, bunun həmin quşun tükünün yandırılması ilə baş verdiyini görürük. Azərbaycan folklorunda bu məsələ ilə bağlı geniş materiallar vardır ki, onlar ayrıca tədqiqata cəlb edilməlidir.

İlanlarla bağlı bir məsələ onların bitkilərlə əlaqəsi diqqətimizi xüsusilə cəlb edir. Bir sıra nağıllarda ilanın ətinin bişirilib yeyilməsi və ya göstərdiyi xidmətin haqqı olaraq ilanın öyrətməsi, insanın ağzına tüpürməsi ilə onun bütün gül- çiçəyin, otların dilini bilməsi xəbər verilir. İlanın ətini bişirmək üçün onun baş tərəfindən və quyruğundan bir qarış kəsilib atılır. Nağıl və dastanlardan bunların xüsusi ilanlar olduğu məlumdur. Belə nağılların və rəvayətlərin sayı olduqca çoxdur.

İlanın bişirilib yeyilməsində bir fikir hakimdir: hər bir ot yerli yerindən deyir ki, mən filan dərdin dərmanıyam. Folklor materiallarından bəlli olur ki, hər ilanın ətini yeməklə otların, ətrafdakı canlıların dilini bilmək olmaz. Belə ilanlar daha çox xüsusi yerlərdə, ziyarətgahda, hansısa məzarda (qəbirdə) yaşayırlar. Onları tutmaq və ya müəyyən üsullarla öldürmək çox vaxt bu istəkdə olanların ölümləri ilə nəticələnir. İlanların bu xüsusiyyəti, yəni bitkilərin sirlərini bilməsi inamı genetik

cəhətdən "Bilqamıs" dastanındakı süjetlə səsləşir. Burada ilan çiçəyin ətrini duyur. İrəlidə həmin məsələdən geniş bəhs edəcəyik. Deməli, bu inamın kökləri qədim şumerlərlə bağlıdır.

Naxçıvan ərazisində geniş yayılmış inama görə insanı ilanla ovsunlama mərasimi olmuşdur. Bunun üçün ovsunçular xüsusi ilanları torbalara yığıb elbəel gəzir, onları çıxarıb insanların boynuna, qollarına, ümumiyyətlə, bədənlərinə dolayıb müəyyən ovsun duaları oxuyurdular və inandırmağa çalışırdılar ki, ovsunlanmış adama hər hansı bir ilan zərər verə bilməz, onların əllərində tərləmə olmaz. Xüsusi ilan ovsunçuları olmuşdur ki, onlar özləri ilə gəzdirdikləri ilanlar vasitəsi ilə evlərdə və həyətlərdəki ilanları çağıra bilirmişlər. Yəni öyrədilmiş ilan gedib həmin ilanı zərərsizləşdirirdi. Biz bununla bağlı Naxçıvan ərazisindən geniş etnoqrafik materiallar toplamışıq.

Nağıllarda, şifahi xalq ədəbiyyatının digər nümunələrində ilanın insanla dostluğu, onun gözəl qızlara vurulması və s. ilə bağlı çox sayda rəvayətlər mövcuddur. Bütün bunlarla bərabər bizi bir məsələ xüsusi ilə düşündürür- ilanla insan arasındakı mübarizənin yaranması səbəbləri, inamların genezisi və əbədi həyat məsələsi.

Tarixi mənbələrə, qayaüstü təsvirlərə əsaslanaraq deyə bilərik ki, ilanlarla bağlı inamlar genetik cəhətdən yaradılışın ilk dövrlərinə aid olmaqla Adəm (ə.s) peyğəmbər və Dünya Tufanı ilə səsləşir. Deməli, bu inam daha qədım olmaqla ilkin sivilizasiya mərhələsinə aiddir. İnamın mərkəzində həyat və ölüm məsələsi, əbədi varolma istəyi dayanır.

Problemi araşdırarkən məsələyə iki yöndən yanaşmışıq: 1. Dini görüşlər və rəvayətlər. 2. Folklorla bağlı materiallar əsasında. Bir çox halda hər ikisinin qarşılıqlı müqayisəsinə üstünlük verilmişdir. Qayaüstü təsvirlərdə də bu yönlər üstünlük təşkil edir. Gəmiqaya təsvirləri arasında hələlik müəyyən edilməsə də bəzi qəbirüstü daşlarda,

müxtəlif təsvir vasitələrində ilanın ağaca dolaşması, ağzında meyvə tutması süjetlərinə rast gəlinir-əbədi həyatı təmsil edən ağaca və ölümsüzlük meyvəsinə sahib olmaq.

Xristian dünyasının bir sıra araşdırıcıları ilan- insan münasibətlərini, bununla bağlı dini- mifoloji görüşləri daha çox Bibliya ilə əlaqələndirməyə çalışırlar. İlk insanlar və ilanın onları aldadaraq cənnətdən qovulmalarına səbəb olması ön plana çəkilir. Təbii ki, onlar Bibliyada ilanın Hz. Adəmi və Həvva nənəni aldatmasını əsas götürürlər. Lakin toplanmış ədəbiyyat materialları ilanla insan arasında mənfi münasibətlərin Bibliyadan daha qədim olduğunu göstərir. Bu məsələdə iki cəhətə xüsusi diqqət verilməlidir. Birincisi və əsası Bibliya variantında ilanın insanı aldatmaqda məqsədini müəyyənləşdirmək. Təbii sual doğur. O, Allahın iradəsinə qarşı necə gələ bilərdi? Axı Allah ona bu vəzifələri verməmişdir. Deməli, Bibliyada məsələ qaranlıq qalır. İlanın bunu nə üçün etdiyi məlum olmur. İlan insana niyə düşmən kəsilməli idi? Bunlara aydınlıq gətirmək üçün bibliyayaqədərki mənbələrə, Qurani-Kərimə və digər ədəbiyyatlara müraciət etmək yerinə düşərdi.

İlanla bağlı qədim inamların əsasını əbədi həyat, cavanlaşma təşkil edir. İnsan yaradılışdan əbədi həyat uğrunda mübarizə aparmışdır. Dini rəvayətlərə, səmavi kitabların məlumatlarına görə, ilk insan- Adəm peyğəmbər yerdən Allahın dərgahına qaldırılmış torpaqdan yaradılaraq cənnətdə yerləşdirilmişdir. Hz. Adəm və Həvvanın cənnətdən çıxarılmasına səbəb olan hadisəyə qədər həyat beləcə davam etmişdir. Təbii ki, bu vəziyyət yaradılışından Hz. Adəmə səcdə etməyən, onu pisliklərlə qarşılayan İblisi çox narahat edirdi. "Qurani-Kərim"in bir neçə ayəsində (Bəqərə surəsi, ayə 36, Əraf surəsi, ayə 11- 22, Tənha surəsi, ayə 120- 121) İblis Hz. Adəm və Həvvanı aldadaraq Allahın onlara yeməmələrini, hətta ona yaxınlaşmamalarını əmr etdiyi meyvədən yedizdirib, cənnətdən çıxarılıb yer üzünə atılmalarına, min cür əzaba düşmələrinə səbəb oldu.

Bibliyada və ondan qaynaqlanan bir sıra rəvayətlərdə isə bu işi ilanın gördüyü xəbər verilir. Bibliyada bununla bağlı yazılır ki, Allahın bütün vəhşi heyvanlardan ağıllı yaratdığı ilan cənnətə daxil olub, Hz. Adəm və Həvvanı aldadıb, qadağan edilmiş meyvədən yemələrinə səbəb oldu. Nəticədə Adəm və Həvvanın həya geyimləri aradan qalxdı. Allah onları cəzalandıraraq cənnətdən çıxardı. İşlədiyi günaha görə ilan yerin altına göndərilib, ona torpaq yeməsi əmr edildi. Burada qeyd etməkdə fayda vardır ki, ikinci başlanğıcda Nuh peyğəmbər də ilana torpağı verir. Deməli, bu məsələdə Allahın hökmü dəyişməz qalır. İlk insanın yaradılışından ona düşmən kəsilən ilan-iblis xəyanətinin qarşısında qisməti torpaq yemək olur. Dünya Tufanı ilə bağlı rəvayətlərdən birində şeytanın gəmiyə girmək istəməsindən, lakin Nuh peyğəmbərin hər canlı erkək-dişi gəlməlidir deyib onu içəri buraxmamasından bəhs edilir. Sonra şeytan cildini dəyişərək bir ilana qoşulub içəriyə daxil olur. Deyirlər ki, o vaxtdan ilan və şeytan bir-birlərinin cildinə girə bilirlər. Şeytan kimi ilan da insan sifətinə düşür. Nağıl və dastanlardakı ilan-insan obrazı, bəzi ilanabənzər və əksinə insanabənzər, ilan təsvirləri də belə yaranmaqla ilan-şeytanı təmsil edir. İlk yaradılışda olduğu kimi Nuh Tufanının sonunda da ilanın insanı məhv etmək istəyi qaranquşun köməkliyi ilə torpaq yeməklə nəticələnir. Hər iki başlanğıcda insan ilan-iblis münasibətlərində nə dərəcədə çətinliyə düşsə də insanın üstün gəldiyini görürük. Hz.Adəmə alnının təri ilə çörək qazanmaq, Hz. Həvvaya isə doğub törəmək cəzası verildi. Beləliklə, ilan heç nə qazanmır, onun meyvədən yeməsi haqqında Bibliyada məlumat yoxdur.

Bu isə məntiqi cəhətdən uyğunsuz görünür, yəni ilanın burada heç bir xeyri olmur. Əksinə Allah tərəfindən cəzalandırılır. Bu məsələnin "Qurani-Kərim"dəki variantında isə hər şey real şəkildə ortaya qoyulur. Yəni Adəm peyğəmbərin və Həvva nənənin cənnətdən çıxarılmasına səbəb yaradılışından İblisin Adəm (ə.s.)a səcdə etmək

istəmədiyindən irəli gəlmişdir. İlan- İblis variantı İslamla bağlı bir sıra dini ədəbiyyatlarda da verilmişdir. Həmin mənbələrdə İblisin ilan cildinə düşməsi və ya onun ilanın ağzında cənnətə daxil olması fikirləri vardır. Lakin necə olursa olsun bu İblisin işidir.

Maraqlıdır Allah tərəfindən Hz. Adəm və Həvvaya dönə-dönə şeytanın onlara düşmən olduğu, onları düz yoldan çıxarmağa çalışdığı bildirilsə də, görəsən nəyə görə onlar aldandılar? Hər şeydən öncə nəfsləri və əbədi həyat arzusu onları bu vəziyyətə saldı, Şeytan onları aldatdı. "... Şeytan onun ağlını qarışdırıb "Ey Adəm! dedi. Sənə əbədilik ağacını və sonu gəlməz bir səltənəti göstərimmi?" (Tənha surəsi, ayə 120). "Şeytan bir-birlərinin gizli, ayıb yerlərini görmək üçün onlara vəsvəsə verdi və pıçıldadı ki, Rəbbiniz sizə bu ağacı sırf mələk və ya həyatda əbədi qalanlardan olarsınız deyə qadağan etdi". (Əraf surəsi, ayə 20).

Beləcə əbədi həyat arzusu İblis- İlan tərəfindən ortaya atılmaqla Adəm və Həvvanın cənnətdən çıxarılmasına səbəb oldu. "Qurani-Kərim"in ayələrindən bəlli olur ki, İblis qiyamətə qədər insanı düz yoldan azdıracağına and içmişdir. Bunun üçün müxətlif vasitələrdən istifadə etmək hüququ qazanmışdır. Sonunda isə o və ona uyanlar böyük əzaba düçar olacaqlar.

Yaradılışdan başlanan bu mübarizə həyatın bütün anlarında davam edir. Qədim şumer dastanının böyük qəhrəmanı Bilqamıs da ilan vasitəsi ilə əbədi gəncliyini itirdi, ölümsüzlüyə qovuşa bilmədi. Bibliyanın məlumatına əsaslanan bir sıra müəlliflər, xüsusən Ceyms Corc Frezer müəyyən paralellərə söykənərək bunu ilanın əbədi həyat qazanmaq istəyi ilə əlaqələndirir. Onun ziddiyyətli fikri bundan ibarətdir ki, guya Allah ilanı Adəm və Həvvanın yanına göndərir ki, onlara desin: "Filan ağacın barından yeməyin, yoxsa məhv olarsınız. O birindən yeyin ki, əbədi həyat qazanasınız". İlan isə yer üzünün ən hiyləgər heyvanı olduğundan gəlib əksini deyir. Adəm və Həvva o meyvəni

yedikdən sonra cənnətdən çıxarılırlar. Özü isə əbədi həyat meyvəsini yeyərək hər il dərisini dəyişib cavanlaşır. Müəllif yazır ki, əgər ilan ona deyilən sözü dəyişdirməsəydi, Həvva nənəni aldatmasaydı, biz ildə bir kərə dərimizi dəyişdirib ölümsüz olardıq, əbədi gəncliyə qovuşardıq!

Biz əvvəlki yazılarımızda burada bir yanlışlığın olduğunu, Bibliyadakı ilan variantının məntiqə uyğun gəlmədiyini qeyd etmişdik. O cümlədən Corc Frezerin yorumunun düz olmadığını yazmışdıq. Yəni iblis məsələsini önə çəkmişdik. Bu yaxınlarda E.B.Smaqinin qədim yunan və latın dillərindən qarşılıqlı müqayisə və şərhlə rus dilinə tərcümə etdiyi "Жизнь Адама и Евы" yazısında dəqiq olaraq bunun şeytan tərəfindən edildiyi bildirilir: "И заговорил дуавол со змеем". Bundan sonra o, ilanı tərifləyib deyir ki, mən baxıram sən bütün heyvanlardan ağıllısan nəyə görə Adəmə tabe olursan, onun verdiyi meyvədən yeyirsən, cənnət meyvəsi yemirsən? Beləliklə, iblis ilanı aldadır, onun cildinə girir (99, s. 234-235).

Hər şeydən öncə Adəm və Həvva cənnətdə yerləşdirilərkən onların orada daim qalması nəzərdə tutulmuşdu. Bu məsələdən danışarkən bir cəhəti qeyd etməkdə fayda vardır. Cənnətin harada yerləşməsi. Bibliyada Cənnətin, Adn bağlarının yer üzərində, daha dəqiq desək, Fison, Qixon, Xiddekel, Farat çayları hövzəsində olduğu yazılır. Bu çayları araşdıran bir sıra tədqiqatçılar Edem (Qurani-Kərimdə Adn) Cənnətini Səhənd və Savalan dağları arasında yerləşdiyini yazırlar. Bu fikir öz əksini arxeoloq R.A.Uolkerin "Edem Torpağı", bir neçə ingilis araşdırıcısının "Əsil Edem tapıldı" başlıqlı yazılarında tapmışdır ki, yuxarıda dediyimiz kimi Devid Rol bunları yekunlaşdıraraq çox səhv olan belə bir fikrə gəlir ki, bu ərazilər Ermənistan adlanan yerdir (96, s. 70-71).

Adəm və Həvvanın cənnətdən çıxarılmaq məsələsinə gəlincə Allah tərəfindən qoyulmuş qadağan sistemini pozduqları üçün onlar cənnətdən çıxarıldılar və bizlər doğub

törədik. Təbii ki, onlar qalsa idilər, bizlər olmazdıq. Elə isə Corc Frezer hansı gənclikdən, hansı əbədi həyatdan bəhs edir.

Əvvəla ilan variantı Bibliyadadır ki, biz buna açıqlama verdik. Qurani-Kərimdə bunu İblis edir. Corc Frezerin şərhindən fərqli olaraq Bibliyada Allah Adəm və Həvvanı Cənnətə yerləşdirərkən hansı meyvədən yeməmələrini açıq bildirmişdi. (Bibliya, Varlıq 2. Adəm və Həvva Edəm bağında, bab 17-də açıq şəkildə bildirilir ki, xeyir və şər adlanan ağacın meyvəsindən yemə, yoxsa ölərsən). Deməli, sonradan ilanı göndərmək fikri yanlışdır. Çünki ilanın Allah tərəfindən göndərilməsi haqda Bibliyada heç bir məlumat yoxdur. Digər tərəfdən ilanın o meyvədən yeməsi də məlum deyil. Belə olduqda İblisin ilan cildində və ya ilanın ağzında cənnətə daxil olması rəvayəti daha çox üstünlük qazanır. Bu isə Qurani-Kərimin hökmlərinə, yəni məsələnin İblislə əlaqəli olmasına gətirib çıxarır. Əgər Bibliya variantında ilan heç nə qazanmır, əksinə Allah tərəfindən cəzalandırılırsa, Qurani-Kərimin ayələrindən bəlli olur ki, haqqın iblis qarşısına qoyduğu məqsədə çatır. Çünki etdiyi günaha görə iblis dərgahından qovularkən Allahdan qiyamətə qədər möhlət alır və bildirir ki, insanları yoldan azdıracaqdır: "İblis dedi "Rəbbim! İnsanların təkrar diriləcəyi günə qədər mənə möhlət ver" (Hicr surəsi, ayə 36).

Allah buyurdu: "Sən bilinən günə qədər möhlət alanlardansan" (Hicr surəsi, ayə 37, 38).

İblis dedi: "Rəbbim! Məni azdırmana qarşılıq mən də günah işləri bərbəzəkli göstərərək insanları doğru yoldan azdıracam". (Hicr. 39).

Yuxarıda verilmiş məlumatlardan aydın olur ki, Allah Adəm peyğəmbəri şeytanın onları aldadacağından xəbərdar etmişdi. "...Rəbləri onlara: Mən sizə o ağacı yasaqlamadımmı və şeytan sizə apaçıq bir düşməndir, demədimmi? deyə nida etdi" (Əraf surəsi, ayə 22).

Əbədi həyat məsələsi ilə bağlı problemləri

araşdırarkən məlum olur ki, ilanın insanı daimi yaşamaq, əbədi var olmaqdan məhrum etməsi inamı Bibliyadan daha qədim dövrlərə aiddir. Ön Asiyada, xüsusilə Mesopatomiyada Bilqamısla bağlı rəvayətlərdə onun çox böyük çətinliklə əldə etdiyi gənclik çiçəyinin ilan tərəfindən oğurlandığından bəhs edilir. Hər şeydən öncə bu çiçəyin əbədi həyat verməsindən, yəni ölümsüzlük gətirməsindən deyil, insanı gəncliyə qaytarmasından bəhs olunur:

*Bu çiçək dənizin dibində,*
*Göyəmtək bitib boy atır.*
*Qızılgültək tikanlıdır,*
*Tikanları ələ batır.*
*Çiçək sənə qismət olsa,*
*Əgər gedib ona varsan,*
*Bax o gənclik çiçəyidir,*
*Gəncliyinə qayıdarsan.*

Gəncliyinə qayıtmaq arzusu ilə çiçəyi tapan Bilqamıs ondan istifadə edə bilmir. Sudan çıxarılan suyun səbəbi ilə ondan alınır. Çiçəyi tapıb geri qayıdan Bilqamıs istiləyir. Gördüyü sərin suda çimərkən yaxınlıqdakı ilan çiçəyin ətrini duyur və yuvasından çıxıb onu oğurlayır:

*Könlünə sərinlik düşdü*
*qalxıb o suya baş vurdu.*
*İlan çiçək ətri duyub, yuvasından baş çıxardı,*
*O çiçəyi oğurlayıb sakitcə çəkib apardı.*

Verilmiş parçadan çiçəyin ilan tərəfindən oğurlandığı aydın olur. Nədənsə Qədim Şərq Ədəbiyyatının araşdırıcısı Cəlil Nağıyev bunu ilan cildinə girmiş tanrı ilə əlaqələndirərək yazır: "Bilqamıs dənizin tərkinə baş vurur və gözəl "həyat otunu" ələ keçirir. Ancaq tanrıların qərarı qətidir. Artıq heç bir insan ölümsüzlük əldə etməməlidir. Tanrılar Bilqamısı izləyir və o, balaca bir çayda çimərkən tanrılardan biri ilan cildinə girərək həmin otu oğurlayır və o vaxtdan etibarən ilanlar ildə bir dəfə qabığını dəyişərək cavanlaşırlar (67, s. 101). Düzdür dastanda bir neçə yerdə insan üçün ölümsüzlüyün, əbədi

həyatın mümkün olmadığı söylənir. Lakin yuxarıda bəhs olunan məsələ ilə əlaqəli deyə bilərik ki, dastanda Tanrının ilan cildinə girməsi ilə bağlı heç bir məlumat yoxdur. Digər bir tərəfdən əgər Tanrı ilan cildinə giribsə, onda nəyə görə ilanlar qabığını dəyişirlər? Belə çıxır ki, ilanlar cildlərini dəyişmiş tanrıdır. Bizcə, bu məsələdə heç bir Tanrıdan söhbət gedə bilməz. Çiçəyi oğurlayan ancaq ilanın özüdür:

*O çiçəyi oğurlayıb sakitcə çəkib apardı.*
*Cavanlaşdı, təzələşdi yuvasına dönən kimi,*
*Köhnə qabığından çıxıb,o dəyişdi qabığını (21, s. 97).*

*Bilqamısın söylədiklərindən də tam aydın olur ki, çiçək (ot) ilana qismət olub:*

*Bu əllər kimin yolunda, dəridən, qabıqdan çıxdı?*
*Nədən ötrü əzab çəkdi, özünü odlara yaxdı?*
*Öz xeyrimə çalışmadım*
*Özüm də dadmadım onu,*
*Yer şirinə qismət oldu.*

Bizcə, burada Tanrıdan deyil, bəlkə də, iblisdən söhbət gedə bilərdi- iblis- ilan. Bibliyadakı ilan məsələsinin Bilqamısdan qaynaqlandığı ortaya çıxır. İlanın qabığından çıxması, əbədi həyatı, istiliyi, işığı oğurlaması ilə bağlı rəvayətlər Sibir-Altay türkləri arasında da geniş yayılmışdır. Maraqlıdır ki, bir neçə rəvayətdə insanı düşdüyü ağır vəziyyətdən, ilanın şərindən qaranquş xilas edir.

İlanın qabığını dəyişərək cavanlaşması, ölümsüzlüyü dünyanın müxtəlif xalqları arasında geniş yayılmışdır. Guya onlar insanlar, müxtəlif heyvanlar və quşlar tərəfindən öldürülməsələr qocalıb ölmürlər (111, s. 41-46).

Maraqlıdır ki, Bilqamıs yorulub yata bilərdi sonra da ilan çiçəyi oğurlayardı. Məsələ ölümün və ya ölümsüzlüyün, gəncliyin su ilə əlaqələnməsidir.

Diqqəti çəkən bir məsələ də var. Görəsən, nəyə görə Bilqamıs çiçəyi tapan kimi ondan istifadə etmədi? Nədən Utnapişti çiçəkdən necə istifadə edəcəyini ona öyrətmədi? Düzdür, dastandan bəlli olur ki, Bilqamıs onu yurduna

götürüb hamıya vermək istəyir. Ancaq məsələnin mahiyyətində ölümsüzlük deyil, ölümə məhkumluq dayanır.

Digər cəhət həyatın bağışlanması, əbədi həyat verilməsi insanlığa deyil yaradıcıya məxsus olduğundan Utnapişti əbədi həyat verə bilməzdi, çünki onun özünə əbədi həyat allahlar tərəfindən, çox böyük sınaqdan sonra verilmişdi. Yəni Dünya tufanı, yer üzünü su basması və sudan xilas olub yüksək məclisə qoşulmaq.

Bu süjet səmavi dinlərə keçərkən bütün yaranmışların məhv olacağı, başlıcası isə Qurani-Kərimdə: "Hər canlı ölümü dadacaqdır..." (Ali İmran surəsi, ayə 185. Ənbiya surəsi, ayə 34, 35, Möminin surəsi, ayə 15, Ənkəbut surəsi, ayə 57, Rəhman surəsi, ayə 26) hökmünə görə qərarlaşdı.

Adəm (ə.s)a səcdə etməyən İblis müxtəlif cildlərə girib insanı aldatmağa çalışacağını bildirən andan vədinə əməl etdi. İlk olaraq ilan cildində cənnətə daxil olub Adəm və Həvvanı əbədi həyatdan, cənnət ləzzətindən məhrum edib, oradan çıxarılmalarına bais oldu. Beləcə, insanlarla ilan arasında düşmənçilik formalaşdı. Qaranlıq dünyanın, şərin təmsilçisi olan ilan- əjdaha insanların başına bəla kəsildi. Bir sıra nağıl və dastanlarda, rəvayətlərdə insanın ilanın qurbanına çevrildiyini görürük. O, adi insanları deyil, gözəl qızları, nağıl və dastan qəhrəmanlarını öldürür. Oğuzun bilgini Dədə Qorquda da ölüm ilan vasitəsi ilə gəlir. Bilqamısda olduğu kimi, Dədə Qorqudda da ölüm, əbədi həyatdan, gənclikdən məhrum olma suda baş verir. Quruda ölümün onu tutacağını bilən Dədə Qorqud əbasını suyun üzərinə salıb 7 gün qopuz çalır, həyat eşqi ilə çalınan qopuzun səsinə yaxın gələ bilməyən ilan Dədəni yuxu tutan kimi sahildən üzüb gəlir və onu sancır. Beləcə, ölümsüzlük istəyinə son verilir.

Deməli, insanın yaranması ilə bağlı dini mətnlərdə, həmçinin qədim şumerlərdən başlayaraq formalaşmış rəvayətlərdəki inamlar öz əksini bir sıra təsvirlərdə də tapmışdır. İlanın həyat ağacına sarılıb onun meyvəsini

yeməsi, Sibir türklərində insandan odu oğurlaması və çox sayda rəvayətlər məhz belə formalaşmışdır.

Bir faktı da xüsusilə qeyd etmək yerinə düşərdi ki, ilanla bağlı təsvirlərə təkcə Gəmiqayada deyil Naxçıvan ərazisindən aşkar edilmiş qədim maddi-mədəniyyət nümunələri üzərində, xüsusən keramika məmulatlarında da tez- tez rast gəlinir. Həmçinin bölgədəki tunc dövrünə aid yaşayış yerlərindən, qəbir abidələrindən çox sayda ilanbaşlı qolbaqlar, bilərziklər və üzərində ilan təsviri olan bəzək nümunələri aşkar edilmişdir. Beləliklə, tarixi mənbələrə arxeoloji materiallara əsaslanaraq demək olar ki, ilanla bağlı inamlar daha çox türk- islam düşüncə tərzi ilə əlaqəli olaraq yaranmışdır. Gəmiqayadakı ilan təsvirləri də Naxçıvandakı deyimə uyğun olaraq "Nuhdan qalma" sayılmaqla Azərbaycan türklərinin düşüncə tərzinin məhsuludur.

# NUH (Ə.S.)-IN GƏMİSİ VƏ GÖYGÖL

Gilançay hövzəsinin yuxarı bölgələrindən-Ələhi, Xurs, Nəsirvaz, Bist, Biləv, Tivi kəndlərindən Göygöllə bağlı müxtəlif rəvayətlər toplanıb sistemləşdirilmişdir. Onlardan birində deyilir ki, Göygöl və Qazangöl Nuh Tufanı zamanı yaranmışlar. Sular çox yüksəklərə qalxmış dağların da başını örtmüşdür. Tufan yatdıqdan sonra dağın başında bir-birinə yaxın iki göl yaranmışdır-Göygöl, Qazangöl. Xalq arasında hər iki göl Nuh peyğəmbərin dövründən qalmaqla müqəddəs sayılır. Lakin Göygöl daha müqəddəs hesab edilir. Deyirlər ki, onun ortasındakı ada Nuh peyğəmbərin gəmisinin qalığıdır. Müqəddəs olduğu üçün göldəki su onun başına dolanır. Şahidlərin verdiyi məlumata görə gölə atılmış yüngül əşya, daha çox alma adanın başına dolanıb bir müddət keçəndən sonra atılan yerə qayıdır. Ona görə almaya üstünlük verilir ki, onu uğurlu hesab edirlər. Kiminsə arzusu, istəyi olarsa, gətirib gölə alma atır və gözləyir əgər alma dolanıb yenidən atıldığı yerə qayıdırsa, deməli, istək yerinə yetəcəkdir.

Digər bir rəvayətdə deyilir ki, Göygöl və Qazangöl bir imişlər. Nuh Tufanı zamanı iki yerə ayrılmışlar. Göygölün ortasındakı "Çoban daş" adlanan yer Tufandan sonra əmələ gəlmişdir. Daha doğrusu, Nuhun gəmisinin qalığıdır. Ona görə də müqəddəsdir. Hələ indiyə kimi kimsə həmin daşa toxuna bilməmişdir. Guya bunun daş və ya taxtadan olduğu kimsəyə bəlli deyil (58, s. 99). Beləliklə, gəminin qalıqlarının Göygöldə olduğuna inanılır.

# NAXÇIVANDA NUH (Ə.S.)-IN QIZI İLƏ BAĞLI RƏVAYƏT VƏ ONUN "KİTABİ- DƏDƏ QORQUD" DASTANINDA ƏKSİ

Naxçıvanda xalq arasında mövcud olan rəvayətlərdən birində deyilir ki, Nuh peyğəmbərin bir qızı varmış. Qız həddi buluğa çatdıqdan sonra eyni gündə buna üç yerdən elçi gəlir. Elçilər özgə məmləkətdən imişlər. Gələnləri boş qaytarmayan peyğəmbər onların üçünə də söz verir. Elçilər getdikdən sonra arvadı deyir ki, ya Rəsulullah: bu necə olacaq sən elçilərin üçünə də söz verdin? Nuh (ə.s.) çox pis vəziyyətdə qalır. Əl götürüb Allaha yalvarır ki, ya Rəbbim, sən mənə kömək ol, mən elçilərin heç birinə yox deyə bilmədim. İndi isə qalmışam çıxılmaz vəziyyətdə! Bu vaxt qeybdən səs gəlir ki, ya Nuh darıxma, sənin həyətindəki iti və tövləndəki eşşəyi də qız edəcəm. Onlar qızınla tam eyni olacaqlar. Beləliklə, Allahın hökmü ilə it və eşşək qıza çevrilir. O dərəcədə oxşar olurlar ki, Peyğəmbərin özü də onları ayırd edə bilmir. Qızlar ərə getdikdən sonra Nuhun arvadı ona deyir ki, ya Nuh! Get gör qızımız necədir. Lakin onlar çox böyük çətinliklə qarşılaşmışdılar. Əsil qızlarını tapmaq müşkül məsələ idi.

Rəvayətə görə Nuh (ə.s.) hazırlıq görüb qızının ərdə olduğu yerə gəlir. Soraqlaşıb onların harada yaşadıqlarını öyrənir. Gedir qızının evinə kürəkəni onu çox yaxşı qarşılayır, arvadını çağırıb deyir ki, atan gəlib. Qız danışa-danışa çıxır həyətə, ərinə deyir ki, gəlib gəlsin də nə edim. Peyğəmbər baxır ki, nə deyirlər qızı dil qaytarır, ətrafdakıları acılayır, hər şeyə danışır. Bilir ki, bu həyətdəki itidir. Bir az oturub gedir o birisi qızlarını yoluxmağa. Gəlib digər qızının evini tapır. Yenə kürəkəni qabağına çıxır. Xoş gəldin edib Peyğəmbəri evə aparır. Arvadını çağırıb deyir ki, atan gəlib. Arvad çox ləng tərpənərək qarşıya sıxmır. Əri hirslənir. Peyğəmbər başa düşür ki, bu da tövləsindəki eşşəyidir. Bir az oturduqdan sonra Peyğəmbər getmək istədiyini bildirir. Qadın çox

saymazlıq edərək ayağa qalxmır. Bundan sonra Peyğəmbər üçüncü qızın evinə gəlir. Baxır ki, qızı həyətdədir. Səlqə-səhman yaradır. Atasını görən kimi qaçır qabağına, evə keçirib xidmət etməyə başlayır. Bu vaxt kürəkəni gəlir. Peyğəmbər düşünür ki, bu mənim öz qızımdır. Amma yoxlayım görək kürəkənim ondan razıdırmı. Keçib otururlar. Kürəkən arvadını çağırıb deyir ki, get zirzəmidən qarpız gətir, kəsək. Qız çıxıb gedir. Əlində bir qarpız gəlir. Kürəkən deyir ki, bu qarpız pisdir, apar dəyiş. Bu vəziyyət yeddi dəfə təkrarlanır. Nuh (ə.s.) kürəkənindən soruşur ki, qızdan razıdırmı? Kürəkən cavab verir ki, ya Rəsulullah mən ondan çox razıyam. Allah da ondan razı olsun. Bizim evimizdə cəmi bir qarpız vardı. Mən onu yeddi dəfə qaytardım. O isə hər dəfə eyni qarpızı gətirdi və heç nə demədi. Hər şey peyğəmbərə tam aydın olur.

Bu rəvayət müxtəlif variantlarda Azərbaycan şifahi xalq ədəbiyyatına daxil olmuşdur. Hətta Nuh (ə.s.)la əlaqəli olmayan variantla, yəni bir kişini hər hansı bir seçkinin adı ilə bağlı nəql edirlər. Buna görə də biz rəvayətə o dərəcədə də diqqət yetirməmişdik. Bir növü rəvayətin sadəcə olaraq dəyişdirilərək Nuh (ə.s.)la bağlandığını düşünürdük. Lakin bu yaxınlarda "Kitabi-Dədə Qorqud" dastanının müqəddiməsində Dədənin qadınlardan bəhs etdiyi bölümün həmin rəvayətdən qaynaqlandığını müəyyənləşdirdik. Ayrıca olaraq dastanda Dədə Qorqud "O, Nuh peyğməbərin eşşəyi əslidir" ifadəsini açıqca işlədir. Müqayisə məqsədi ilə "Kitabi-Dədə Qorqud"dan həmin hissəni olduğu kimi veririk.

Ozan aydır: "Qarılar dörd dürlidü: birisi soldıran soydır, birisi toldıran toydır, birisi evin tayağıdır, birisi necə söylərsən, bayağıdır".

Ozan, evin tayağı oldır ki, yazıdan-yabandan evə bir qonaq gəlsə, arvad evdə ər olmasa, ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə soyıdır, xanım. Anun bəbəkləri bitsün. Ocağına buncılayın övrət gəlsün... Gəldin ol kim soldıran soydır, sapadanca yerindən uru turar,

əlin-yüzin yumadan toquz bazlamac ilən bir küvlək yoğurd gəvəzlər, toyınca tıqa-basa yeyər, əlin bögrinə urar, aydar: "Bu evi xərab olası! Ərə varalıdan bərü dəxi qarnım toymadı, yüzim gülmədi. Ayağım başmaq, yüzim yaşmaq görmədi". Deyər: "Ah, noleydi, bu öleydi, birinə dəxi vareydim. Umarımdan yaxşı-uyar oleydi",-deyər. Anun kibinin, xanım, bəbəkləri bitməsün; ocağına buncılayın övrət gəlməsün. Gəldin, ol kim toldıran toydır, dəpdincə yerindən uru turdı, əlin-yüzin yumadan obanın, ol ucından bu ucına-ol ucına çarpışdırdı. Quv quvaladı, din dinlədi. Öyləyədəncə gəzdi. Öylədən sonra evinə gəldi. Gördi kim, oğrı köpək, yekə tana evini bir-birinə qatmış-tauq komasına, sığır tamına dönmüş. Qonşılarına çağırar ki, Yetər! Zəlixə! Zübeydə! Ürüydə- can, qız-can! Paşa! Ayna Məlik! Qutlu Məlik! Ödməgə yitməgə getməmişdim, yatacaq yerim genə bu xarab olasıydı. Noleydi, bənim evimə bir ləhzə baqaydınız! "Qonşı həqqi-tənri həqqi",-deyü söylər. Bunın, kibinin, xanım, bəbəkləri bitməsün.

Ocağına bunın kibi övrət gəlməsün. Gəldin ol kim necə söylərsən, bayağıdır. Evinə yazıdan-yabandan bir udlu qonaq gəlsə, ər adam evdə olsa, ana disə ki, tur ətmək gətür, yeyəlim, bu da yesün; disə, bişmiş ətməgün bəqası olmaz, yemək gərəkdir, övrət aydar: "Neyləyəyim, bu yığılacaq evdə un yoq,ələg yoq. Dəvə dəgirməndən gəlmədi" -diyər; "Nə gəlürsə, bənim sağrıma gəlsün" deyü əlüyin... urur, yönin anaru sağrısın ərinə döndürür. Bin, söylərsən, birisini quymaz,-ərin sözini qulağına qoymaz. Ol, Nuh peyğəmbərin eşəgi əslidür. Andan dəxi sizi, xanım, Allah saqlasun. Ocağınıza buncılayın övrət gəlməsün (50, s. 33).

Qarşılıqlı tutuşdurmalardan sonra bu qərara gəldik ki, rəvayətin Naxçıvanda yaranmış variantı daha qədim olmaqla bir başa Nuh (ə.s.)la bağlı olub. Sonradan dəyişik adlarla Azərbaycan nağıllarına, eyni zamanda müxtəlif rəvayətlərə keçmişdir.

Bu, "Kitabi-Dədə Qorqud"dakı məişət münasibətlərinin bir çoxunun Nuh peyğəmbər zamanından formalaşdığını, beləliklə, genetik cəhətdən Dünya Tufanından sonrakı məskunlaşma ilə bağlı olduğunu söyləməyə imkan verir. Dastanda yeganə fərq ondadır ki, burada it cinsindən olan qadınlar 2 yerə ayrılır: 1.Solduran soy. 2.Toldıran toy. Mətndən də göründüyü kimi solduran soy yeyər, içər, it kimi hürüyər. Naxçıvanda deyildiyi kimi: "Ulayıb sahibinin başına bəla açar".

Tolduran toya gəlincə Naxçıvanda belələri haqqında "sülək", ifadəsi işlənir. Yəni məhəllələri, onun-bunun həyətini gəzən itə "sülək" deyilir. Heç təsadüfi deyil ki, el arasında evə gec gələn, gün axşama qədər küçələri dolaşan uşaqlara: "sülək itlər kimi haralarda idin?", "filankəsin iti kimi sülənir"-deyirlər. Beləliklə, "Kitabi-Dədə Qorqud"da Nuhun iti əslindən olanlar 2 yerə bölünmüşlər.

Bir məsələni də qeyd etməkdə fayda vardır ki, indi də Naxçıvanda gəlinlər haqqında üç uyğun ifadə işlənməkdədir: 1. "Halal süd ənmiş", "adam balası", "Mələk kimi", "yer-yurd bilən", "ədəb-ərkanlı" və s.

2. "İt südü ənmiş", "it cinsi", "qapağan", "itdən dönmə" və s. 3. "Eşşək cinsi", "eşşək kimi qabırğasını verən", "eşşək südü ənmiş", "eşşək kimi qulağını sallayan", "eşşəkdən əmələ gəlmiş" və s. Toplanmış materiallara əsaslanaraq həmin rəvayəti birbaşa bağlı olan belə ifadələri daha da artırmaq olar.

Beləliklə, Naxçıvanda ta qədim zamandan, Nuh əyyamından insanların, xüsusən qadınların münasibətləri, davranışları rəvayətdəki deyilənlərə uyğun olaraq müəyyənləşdirilmişdir. Zaman keçdikcə rəvayət müəyyən dəyişikliklərlə nağıl və dastanlara daxil olmuşdur.

# ƏDƏBİYYAT


1.Quran-i Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov., Y.V.Məmmədəliyev. VI nəşr. Bakı, 2004

2.Quran-i Kərim. Azərbaycan tünkcəsində açıqlama, Nəriman Qasımoğlunun qələmilə. Bakı, 1993

3.Kuran-i Kerim ve türkçe açıklamalı mealı. Medine-i Münevvere, 1992

4.Kuran-i Kerim ve mealı. Hazırlayan Abdulbaki Gölpınarlı. Kum- İran. Ensariyan yayınları. P.O. BOX37185/187

5.Коран. Перевод и комментарии И.Ю. Крачковского. Баку, 1990

6.Коран. Перевод смыслов и комментарии Валерий Пороховой. Tehran Islamic Republic of Iran. 2004-1425

7.Ahmet Eroz. Nuh (a.s.) Tufanı. Türkiye Ögretmenler Vakfı Yayınları. İzmir. 1990

8.Ahmet Lütfi Kazançı. Peyqamberler tarihi. İstanbul, 1997

9.Alıyev N. Müqəddəs peyğəmbər gəmisi. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 39-46

10.Ağazadə T. Nuhla bağlı düşüncələr "Aydınlıq" qəzeti 9-15 mart, 1991

11.Azərbaycan folkloru antologiyası I cild. Naxçıvan Folkloru. Bakı. 1994

12.Azərbaycan nağılları. 5 cilddə, I- cild. Bakı, 2004

13.Azərbaycan nağılları. 5 cilddə, III- cild. Bakı, 2004

14.Azərbaycan mifoloji mətnləri. Bakı, 1988

15.Bakıxanov A. Gülüstani İrəm. Bakı, 1951.

16.Baxşəliyev V. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı, 2004

17.Baxşəliyev V. Gəmiqaya təsvirlərindəki ilan obrazının mifoloji xüsusiyyətləri. Folklor, ədəbiyyat, kültür dergisi. Ankara, 2007, s. 109-114

18.Bahadırhan E. Türklərin Soy Kütüğü. Tercüman 1001 temel eseri, (Şecereyi- terakime), Hazırlayan: Muharrem Ergin.

19.Bayraktutan Salih. Bütün dünya bu neticeyi bekliyordu. Nuh (a.s.) Tufanı, İzmir, 1990 toplusunda, s. 25-30

20.Bəydilli C. Qam-Şamançılığın etno mədəniyyətimizdə yeri. Bakı, 2000

21."Bilqamıs" dastanı, rus dilindən çevirəni və ön sözün müəllifi İ.Vəliyev. Bakı, 1985

22.Ebu Bekr-i Tihrani. Kitab-i Diyarbekriyye. Ankara, 2001

23.Elmalılı M.Hamdi Yazır. Hak dini Kuran dili. IV cild. İstanbul, Şura-Çelik, Hud surəsi 25-48-ci ayələrin təfsiri, s. 411- 418

24.Elmalılı M.Hamdi Yazır. Hak dini Kuran dili. V cild. İstanbul, Şura-Çelik, Müminin surəsi 23-30-cu ayələrin təfsiri, s. 335-339

25.Elmalılı M.Hamdi Yazır. Hak dini Kuran dili. VIII-ci cild. İstanbul, Şura-Çelik, Nuh surəsinin təfsiri. s. 93-104

26.Elmas Y. "Kızılelma" TFD. sayı 146, Eylül, 1961, s. 2510-2511

27.Ercilasun Ahmet Bican. Kars ili ağızları. Ankara, 1983

28.Əliyev V. Gəmiqaya salnaməsi. "Şərq qapısı" qəzeti, 2000, 28 iyun

29.Əliyev V. Gəmiqaya. Bakı, 2005

30.Əsgərov S., Babayev N., Qurbanov Ə. Qayaların açılmamış sirləri. "Elm və həyat", 1985, № 12, s. 10-11

31.Fərzəli Ə. Dədə Qorqud yurdu. Naxçıvan-Gəmiqaya-Nuhun gəmisi. "Yeni Azərbaycan" qəzeti, 2002, 3 oktyabr

32.Fərzəli Ə. Gəmiqaya- Qobustan əlifbası. Bakı, 2003

33.Hacıyev İ. Gəmiqaya Azərbaycan tarixşünaslığında. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 52-60.

34.Həbibov İ. Nuhun qəbri haradadır? Ədəbiyyatşünas alim Əbülfəz Hüseyninin əziz xatirəsinə ithaf. 30 noyabr 1990. "Şərq qapısı" qəzeti, 06 fevral 1991, "Vətən səsi" qəzeti

35.Həbibbəyli İ. Gəmiqayaya tarixi səfər. NDU-nun Xəbərləri, 2002, № 7

36.Həbibbəyli İ. Gəmiqayaya dünyası: Nuh peyğəmbər, Naxçıvan və Gəmiqaya. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, 2007 kitabında, s. 602-611

37.Həbibbəyli İ. Dünya Tufanı və Nuhun gəmisi haqqında yeni elmi versiya. AMEA Naxçıvan Bölməsinin, Xəbərləri, 2005, № 1, s. 9-12

38.Hüseyni Ə. Xalqımızın mənlik heykəli. "Sovet Naxçıvanı" qəzeti, 30 yanvar 1986

39.Hüseyni Ə. Əfsanədən həqiqətə. Qobustan" jurnalı № 1, 1973

40.Hüseynzadə R. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedoqoji fikir. Bakı, 2005

41.İnan A. Eski türk dini tarihi. İstanbul, 1976

42.İslam Ansiklopedisi 1 cilt. İstanbul, 1988

43.İsmayıl M. Naxçıvan əfsanələri. Bakı, 2008

44.İsmayıl M. Nuh Tufanı əfsanəsində etnosun mifoloji düşüncə tərzi. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1,s. 31-38.

45.İshak Üçler. Nz.Nuh (a.s.).Nuh (ə.s.) Tufanı İzmir 1990 toplusunda s. 10-12

46.Kadirzade K. Nahçıvanda mükaddesler, eren ve evliyalarla ilgili kutsal yerler. I TDEEKB, Ankara, 1998, s. 237-248

47.Kalafat Y. Güney Türkistandan Türkiyeye Meseleler ve Türk kültür kimliği. İstanbul, Türk Dünyası Araştırmaları Vakfı, 1995

48.Kalafat Y. Kuzey Azerbaycan- doğu Anadolu ve Kuzey Irakda eski türk dini izleri (dini folklorik tabakalaşma). Ankara, Kültür Bakanlığı, 1998, 240 s.

49.Kırzıoğlu F. Türk Milli Geleneginde Kızıl elma ve yerleri BTTD. Mart. sayı 2, 1989, s.41-48

50."Kitabi Dədə Qorqud". Bakı, 1988

51.Konsilin A. Turan: Nuhdan bizgedkin. Kızılorda, 1997.

52.Köksoy Mümin. Yerbilimleri katkısıyla Nuh Tufanı ve şumerlerin kökeni. Ankara, 2003

53.Qabrielo və Mapti Martinsito Fillips. Allah yurdu Naxçıvan. İngilis dilindən tərcümə edən Zülfüqarov Z. "Şərq qapısı" qəzeti. 28 may 2008, sayı 101

54.Qədimov A. Naxçıvan Nuhun yurdudur. Bakı, 2003

55.Qədirzadə H.Q. Gəmiqayada "Su səpən" bayramı və onun tarixi kökləri. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 25-30.

56.Qədirzadə H.Q. Tarixlərdə və yaddaşlarda erməni- türk problemi və azərbaycanlıların soyqırımı məsələsinə bir baxış. Naxçıvan junralı (xüsusi buraxılış). Naxçıvan, 2005, s. 33-43

57.Qədirzadə H.Q. İnamlar, dinlər və etnik mədəniyyət məsələsi. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 2, s. 76-83

58.Qədirzadə T. Gəmiqaya təsvirlərinin öyrənilməsində etnoqrafik materialların əhəmiyyəti.AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 97- 101.

59.Quliyev Ə., Bahəddin D. Nuhun gəmisi haradadır? "Elm" qəzeti. 26 fevral 2005, s. 10

60.Məhəmmədhüseyn Şəhriyar. "Aman ayrılıq". Bakı, 1981

61.Məmmədov R. Yaxın şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında. Az.SSR. EA Xəbərləri. İctimai elmlər seriyası. 1962. № 4 s. 11-22

62.Mineveddin Söylemezdi. Gümürlilerin Nevruzda sulaşma gelenegi. Milli folklor "Türk dünyası dergisi". cilt 5, yıl 10, sayı 37, 1988

63.Muvaffak Ayvaz, Safvet Senih. Destanlarla ilmi araştırmalar iç-içe. Nuh (a.s.) Tufanı. İzmir, 1990, s. 44-48

64.Murad Acı. Nuhun gəmisi harayacan üzübmüş?. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1. s. 13-24.

65.Müseyibli N. Gəmiqayada "Heyvan kultu" ilə bağlı təsəvvürlər. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 80-86

66.Müseyibli N. Gəmiqaya. Bakı, 2004

67.Nağıyev C. Qədim şərq ədəbiyyatı tarixi. Bakı, 2004

68.Nurbaki Haluk. Elmadakı sır. Zafer, İlmi Araştırma dergisi Ekim. Ankara, 1994, s. 10-11

69.Peygamberler Tarihi Ansiklopedisi, 2-ci cilt, İstanbul, Türkiye qazetesi.

70.Rəhimov K., Əlizadə M. Naxçıvan "Nuhun ölkəsi"dir. İki sahil. 25 mart 2005, № 55 (3874)

71.Rzayev F. Naxçıvan, Nuh Tufanı, tarixi faktor və ermənilərin növbəti oğurluğu. NDU Xəbərləri, № 7, Naxçıvan, 2005, s. 6-13

72.Sabahattin G. Yayınlanmamış tasavvuf notları. İzmit, 1989

73.Seyidov A. Gəmiqaya toponimlərinin müqayisəli təhlili. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1. s. 102-107.

74.Sultanov R.N. Nuhun Tufanı haqqında həqiqət. Bakı, 1971.

75.Sülküf Canyüce. Tufan. Nuh (a.s.) Tufanı. İzmir, 1990 toplusunda, s. 13-17

76.Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983

77.Seyidov M. Qızıl döyüşçünün taleyi. Bakı,1984,

78.Səfərov Y. Azərbaycan folklorunda tarixilik. Bakı,

2005, 240 s.
79.Səfərov Y. Bir əfsanənin mənşəyi. "Elm və həyat" jurnalı, 1982, № 10, s. 32-33
80.Səfərov Y. "Nuhun Tufanı" haqqında. "Zaman" qəzeti, 21 avqust 1993
81.Səfərov Y. "Nuhun Tufanı" haqqında əfsanə və həqiqət. "Şərq qapısı" qəzeti, 24 fevral 1992
82.Səfərli H.F. Gəmiqaya və çevrəsində ziyarətgah-pirlər.Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2006, № 2, s. 70-73.
83.Səfərli H., Xəlilov T. Gəmiqaya və çevrəsində ziyarətgah-pirlər. (II məqalə) Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2008, № 1 s. 32-36.
84.Tahsin Parlak. Tufan yolunda Aralın sırları. Ankara, 2007
85.Vəliyev K. Elin yaddaşı dilin yaddaşı. Bakı, 1988
86.Yusifov Y. Qədim şərq tarixi. Bakı, 1993
87.Аджи М. Дыхание Армагеддона. Моксва, 2006, с. 25-52
88.Антонова Е.В. Очерки культуры древних земледельцев Предней и Средней Азии. Москва, 1984
89.Алексеев Н.А. Ранные формы религии тюркаязычных народов Сибири. Новосибирск, 1980
90.Азимов. А. В Начале. Перевод с английского Виталия Бабенко и Вл. Гакова. Москва, 1990
91.Бабаев С.Я., Бабаев Н.С., Бабаев Э.С. О Гямигая- музей под открытом небом Азербайджан и азербайджанцы. жур. № 11-12. 2001, с. 47-58
92.Библия. Росийское Библейской Общество. Москва, 1994.
93.Григорев В. Статистическое описание Нахичеванской привинции СПб. 1833
94.Гусейнли А. Ермитаж каменного века. Техника и Молодежи, №5, 1972
95.Дэвлет М.А. Культ быка в Центральной Азии. Жур, Природа, Москва, 1988, с. 35-37

96.Дэвид Рол. Генезис цивилизачий. Откуда мы произошли. Москва, 2002

97.Дьяконов И.М. Введение- Мифология древного Мира. Москва, 1977

98.Жирмунский В.М. Тюркский героический эпос. Избранные труды. Ленинград, 1974

99.Жизнь Адама и Евы. Вступительная статья. Перевод с. древнегречского и латинского и комментарии Е.Б.Смагиной. Вестник древней истории. Москва, 2008, № 1 (264) с. 228-251

100.История древного востока. Москва, 1979,

101.Кадимов Г., Бабаев Н. Следы истории. "Молодость". Жур, 1990, № 4.

102.Кондратов А. Великий потоп: Мифы и Реальность. Ленинград, 1982

103.Леви-Строс К. Как умирает мифы. Зарубежные исследования по семиотике фольклоре. Москва, 1987

104.Мелетинский Е.М. Поэтика мифа. Москва, 1976.

105.Никитин И.К. Город Нахичевань и Нахичеванский уезд. СМОМПК, Тифлис, 1882

106.Поляков А. Нахчыван-родина послепотопыого человечества? Инт. С.Мелпикова. "Эхо" г. 29 январ 2005

107.Рабинович Е.Г. Калодец Шамаша. ВДИ. 1973, № 2

108.Сысоев В.М. Нахичеванский край Нах.АССР. отчет о поездке летом 1927 года Известия Азкомстариса вып.4

109.Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР. Известия Азкомстариса вып. 4. Баку,1929.

110.Тере Т. Библейские истории (Macarcadan tərcümə edən Er. Dallasov). Москва, 1988

111.Фрэзэр Дж.Дж. Фольклор в Ветхом Завете .Перевод с английского Д.Вольпина. 2-е изд. Москва, Политиздат, 1985

112.Хрестоматия по истории Древного Востока. Москва. 1963

113.Шопен И. Исторический памятник состаяния Армянский области в э поху ее присоединения к Росийской империи СПб. 1852

114.Pitman Valter, Ryan William. Noahs Flood: The New Scientitic Discoveries About The Event That Changel History, Simon Schuster, 1998, 15 BN 0-684-81052-2. Turqut Gürənin trük dilində hazırladığı "Nuh Tufanı" ile karadenizin öyküsü-2. özeti

115.http://www.islamkent.com/modules.php?name. Nuh(a.s.)ve Tufan

116.http://img214.imageshack.us/img214/1387/nuh01jd0.jpg

117.http://img414.imageshack.us/img414/3043/nuhad 2.jpg

118.http://img414.imageshack.us/img414/6153/nuh00ke5.jpg

119.http://www.hoteldogafirtina.com/images/karadeniz.jpg

120.http://img49.imageshack.us/img49/765/nuhre2.jpg

# KİTABIN İÇİNDƏKİLƏR


Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı. Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında....3
Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı. Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında....6
Ön söz əvəzi və ya iki sərəncamdan doğan kitab .... 11
Giriş ....15
1. Tufan məsələsinə bir baxış ....19
2. Tufan niyə baş verdi? ....57
3. Gəminin düzəldilməsi və onun quruluşu haqqında bir neçə söz .... 67
4. Gəmiyə kimlər minmişdir? ....82
5. Tufan nə müddətdə davam etmişdir? ....89
6. Gəminin dayandığı yer-Gəmiqaya .... 96
7. Tufanın dünyəviliyi üzərinə bir açıqlama .... 107
8. Nuh (ə.s.)ın yaşı haqqında bir neçə söz .... 111
9.Qurunu tapan ilk quş-qaranquş və "Qaranquş yaylağı" ....121
10.Naxçıvan təkcə Nuh yurdu deyil, həm də Nəbi yurdudur ....127
11.Nuhdan sonrakı varislik haqqında bir neçə söz....134
12.Gəmiqayada Nuh (ə.s.)ın quruya çıxması ilə bağlı mərasim-"su səpən" bayramı ....138
13.Bir qarğışın, bəd duanın izi ilə:- "elə nuh tökərəm yerlə göy qovuşar" ....144
14.Gəmiqayada həyat ağacı və ağacla bağlı inamların genezisinə dair ....150
15.Gəmidə və Gəmiqayada ilanla bağlı rəvayətlər, təsvirlər, inamlar və əbədi həyat məsələsinə bir baxış ....161
16.Nuh (ə.s.)ın gəmisi və Göygöl ....178
17.Naxçıvanda Nuh (ə.s.)ın qızı ilə bağlı rəvayət və onun "Kitabi-Dədə Qorqud" dastanında əksi ....179
18.Ədəbiyyat....183

# HACI QADİR QƏDİRZADƏ

# NUH PEYĞƏMBƏR, DÜNYA TUFANI VƏ NAXÇIVAN

*Texniki redaktoru və*
*kompüter tərtibatı*
**Tağı ƏSGƏROV**

*Hazır diapozitiv. Çapa imzalanmışdır 10.10.2008.*
*Formatı 60x90 1/16. "Tayms" qarnituru. Ofset çap üsulu. Ofset kağızı. Həcmi 12 ç.v. Sifariş ilə. Tiraj: 300*

"QIZIL DAĞ"
MMC-nin mətbəəsi

Naxçıvan şəhəri,
Nizami küçəsi 41